При колитическом синдроме включают энтероседив 2 таб. х 3 раза в день.

При амебном абсцессе печени используются антибиотики (цефалоспоринового, аминогликозидов) широкого спектра действия в течение 10 дней.

ЛИТЕРАТУРА

1. Руководство по инфекционным болезням. Санкт-Петербург, 2000.
2. Бронштейн А.М., Токмалев А.К. Паразитарные болезни человека: протозоозы и гельминтозы. — М.: Издво РУДН, 2002, с. 818
3. Ющук Н. Д., Венгеров Ю. Я. Лекции по инфекционным болезням. 3-е изд., перераб. и доп. М.: ОАО «Издательство медицина», 2007, 1032 с.
4. Ющук Н.Д., Островский Н.Н., Мартынов Ю.В., Матвеева С.М., Огиенко О.Л. Инфекционные и паразитарные болезни в схемах и таблицах. М.: ФГОУ «ВУНЦ Росздрава», 2008,. 444 с.
5. Лысенко А. Я., Владимова М.Г., Кондрашин А.В., Майори Дж. Клиническая паразитология. ВОЗ Женева, 2002, 734 с.
6. Лысенко А.Я., Горбунова Ю.П., Авдюхина Т.И., Константинова Т.И. Лабораторная диагностика кишечных протозоозов. Уч. пособие. М., 2007, 43 с.
7. Беляев М.К. Клиническая картина инвагинации кишечника у детей // Педиатрия, 2006, №1, с.47–50
8. Запруднов А.М., Мазанкова Л.Н. Диареи у детей. М.: Дрофа, 2001, 156 с.
9. Захарова И.Н., Мазанкова Л.Н. Антибиотик-ассо- циированные диареи у детей: проблема и решение. М.: Рос. мед. акад. последиплом. образования, 2011, 48 с.
10. Shiruma T.M., Obata H., Karasawa E., et al. A recurrent case of amebic liver abscess seventeen years after the firs occurrence // Kansenshogaku Zasshi, 2000, v.74, p.585-588
11. Захарова И.Н., Коровина Н.А., Мазанкова Л.Н. и др. Хронические воспалительные заболевания толстой кишки у детей. М.: Рос. мед. акад. последиплом. образования, 2010, 100 с.
12. Федулова Э.Н. К вопросу о дифференциальной диагностике синдрома крови в кале у детей // Мед. Альманах, 2011, №4, с.191-194.
13. Щербаков П.Л., Петухов В.А. Сравнительная активность энтеросорбентов при диарее у детей // Вопр. совр. педиатр, 2005, Т.4, № 4, с.85-89.
14. Никулина В.И., Пелепец Л.П. и др. Сложности диагностики кишечного амебиаза // Клиническая медицина, 2001. №5, с. 5860
15. Que X., Reed S.L. Cysteine proteinases and the pathogenesis of amoebiasis // Clin Microbiol Rev., 2000, v.13, p.196-206.

16. Шувалова Е.П. Инфекционные и паразитарные болезни. 2000, Т. 1, с. 868-889
17. Туйнов В.А., Салоникиди А.И. и др. Об амебиазе у жителей Донецкой области // Сучасні інфекції, 2003, № 3
18. Espinosa-Cantellano M., Martinez-Palomo A. Pathogenesis of intestinal amebiasis: from molecules to disease // Clin Microbial Rev., 2000, v.13, p.318-331
19. Горелов А.В. Терапия острых кишечных инфекций у детей в современных условиях//Вопр. совр. педиатр., 2004, Т.3, № 4, с.72-78
20. Бронштейн А.М., Малышев Н.А., Лучшев В.И. Амебиаз: клиника, диагностика, лечение // Клиническая микробиология и антимикробная химиотерапия, 2001, Т.3, № 3, с. 215221.
21. Горелов А.В., Милютина Л.Н, Усенко Д.В. Клинические рекомендации по диагностике и лечению острых кишечных инфекций у детей. М., 2005, 106 с.
22. Тимченко В.Н., Леванович В.В. и др. Паразитарные инвазии в практике детского врача. СанктПетербург: ЭлбиСПб., 2005, с. 1416

Xülasə

Uşaqlarda ambeiazın öyrənilməsinin müasir aspektləri: epidemiologiya,klinika və müalicə

K.A. Джафарова, Ш.М. Рашидова, В.Н.Джавадзаде,
З.Н. Омарова, Г.А. Керимова, С.Х.Халилли

Amebiaz- protozoy infeksiya olub, yoğun bağırsaqda xora zədələnməsi ilə xaraktrerizə olunur, müxtəlif orqanlarda absesslərin yaranmasına meyillilik və xronik gedişata malikdir. ÜST-ün göstəricilərinə parazitar xəstəliklər nəticəsində ölüm səviyyəsində amebiaz malyariyadan sonra ikinci yeri tutur. Bunları nəzərə alaraq müəlliflər tərəfindən həmin problemi təhlil etmək, amebiazın epidemiologiyası, klinikası və müalicəsini nəzərdən keçirmək məsələsi qarşıya qoyulmuşdur.

Summary

Modern aspects of the study of amebiasis in children: Epidemiology, clinical features and treatment

K.A. Jafarova, Sh.M. Rashidova, V.N. Javadzadeh,
Z.N. Omarova, G.A. Karimova, S.H. Khalilli

Amebiasis - protozoal infectious disease characterized by ulcerative lesions of the colon, tendency to form abscesses in various organs and chronic course. World Health Organization (WHO), amebiasis in the level of mortality from parasitic diseases ranked second in the world after malaria. In view of these obstoyatelstv by the authors was analimzirovana question of this infection in children rassmotnreny epidemiology, clinic and treatment.

Daxil olub:23.12.2015

HAMİLƏLİK VƏ ORQAN TRANSPLANTASİYASI

T.E.Bayramova
Gömrük Hospitalı, Mamalıq və ginekologiya şöbəsi

Açar sözlər: orqan köçürlməsi, hamiləlik, kontrasepsiya üsulu, immunosupressiv vasitələr, hamiləlik ağırlaşmaları
Ключевые слова: трансплантация органов, контрасепция, иммуносупрессивная терапия, осложнении беременности
Key words: organ transplantation, contraception method, immunosupressive therapy, pregnancy morbidities

Reprodukiv yaşda olan bütün orqan köçürülən qadınlarda uğurlu hamiləliklər əldə etmək mümkündür. Orqan transplantasiyası olmuş xəstələrdə minimal 1 il müddət ərzində hamiləlik arzuolunmazdır. Hamiləliyin əməliyyatdan sonra erkən dövrdə baş verməsi ağır nəticələrə gətirib çıxarmaqdadır. Meydana çıxa biləcək istənilməyən nəticələr, həm alloqreft funksiyasına, həm də dölün sağlamlığına mənfi təsir göstərə bilər. Belə hallar baş verərsə, hamiləliyin erkən sonlanması, az çəkili uşaq əldə olunması və digər ağırlaşmalar haqqında öncədən xəstəyə məlumat verilməlidir [1].

Orqan köçürülmüş qadınlarda hamiləlik zamanı və sonra hər üç trimestrdə çox diqqətli olmalı, immunosupressiv vasitələrin seçimi və dozası düzgün təyin olunmalıdır. Ədəbiyyat icmalında istifadə olunan mənbələrə görə immunosupressiv vasitələrdən ən etibarlısı azatiopirin və kalsineurin inhibitorları (takrolimus, siklosporin) hesab olunur

[2,3,4]. Planlanan hamiləlikdən əvvəl mikofenolik asid qəbul edən qadınlarda dərman qəbulu dayandırılmalı və digər əvəzedici vasitələrlə dəyişdirilməlidir. Buna səbəb mikofenolat mofetilin heyvan laboratoriyalarında sınaqdan keçirilməsi nəticəsində malformasiya və fetal ölüm riski daşıdığının aşkar edilməsidir [5]. Hamiləlik müddətində immuniteti basqılayib qreft rəddinin qarşısını almaq üçün uyğun doza seçilməlidir [6].

Ədəbiyyatlarda hamiləlik dövrü, dölün ana bətnində ikən və əmizdirmə dövrü immunosupressiv maddələrdən istifadə nəticələrinə dair yetərli məlumat yoxdur, yeni tədqiqatların aparılmasına ehtiyac vardır [7]. Transplantasiya sonrası hamiləlik nəticələri Beynəlxalq transplant hamiləlik qeydiyyatına (National Transplantation Pregnancy Regystry) salınmalıdır [7, 8]. Bir çox qadında mövcud olan daxili xəstəliklər hamiləliyi risk altına sala bilər, lakin orqan nəqlinin ovulyasiya, hamiləlik və doğuma qoruyucu təsir göstərməsi əsas üstünlüklərdən hesab olunur. Doğumun normal və ya əməliyyatla aparılması qərarı mamalıq göstərişlərinə əsasən verilməlidir [9].

Orqan köçürülməsi olunan xəstələrlə əlaqəli məlumtlar əsasən 3 mərkəzdən əldə edilə bilər [8]:

1. National Transplantation Pregnancy Regystry (USA)
2. European Dialysis and Transplant Association Registry
3. United Kingdom Transplant Registry

Ədəbiyyatlara görə dünya miqyasında qadınlarda icra olunan orqan nəqli tiplərini aşağıdakı ardıcıllıqla sıralamaq olar [8,10,11,12]:

Böyrək	Böyrək/pankreas
Qaraciyər	Pankreas
Ürək	Bağırsaq
Ağciyər	Ürək/ağciyər

Orqan transplantasiyası olunmuş və sonradan hamilə qalan xəstələri aşağıdakı kimi göstərmək olar [8]:

Böyrək	Ağciyər
Qaraciyər	Qaraciyər/böyrək
Böyrək/pankreas	Ürək/ağciyər
Ürək	

Orqan köçürülmüş qadınlarda hamiləlik nəticələrinə təsir göstərən amillər mövcuddur. Beləki, transplantasiyadan sonrakı iki il ərzində xəstənin ümumi sağlamlıq vəziyyəti stabil olmalıdır. Əməliyyatsonrakı dövrdə transplant orqanda rəddetmə reaksiyası görülməməlidir. Qreftin vəziyyəti düzgün, funksiyası sabit olmalıdır. Dölə təsir göstərə biləcək hər hansı bir infeksiya, iltihabi vəziyyət aşkar olunmamalıdır. Transplant xəstələrə təyin olunan immunosupressiv maddələrin dozası düzgün seçilməlidir [13, 14]. Hamiləlik mama-ginekoloq tərəfindən ciddi nəzarətdə olmalı və xəstə həkimin tövsiyələrinə əməl etməlidir. Hamiləlik dövründə arterial qan təzyiq sabit saxlanılmalı, yüksək olarsa, dərmanlarla korreksiya edilməlidir. Hamiləlik boyunca qreft ultrasəs müayinəsi ilə nəzarətdə saxlanılmalıdır [8,15].

Transplantasiya olunmuş qadınlarda hamiləliyə mane ola biləcək, hamiləliyin gedişini pozan və ana-dölün vəziyyətini ağırlaşdıran digər yanaşı daxili xəstəliklər meydana çıxa bilər. Bunlara aşağıdakıları aid etmək olar[8]:

Orqan köçürməsinə səbəb olan xəstəliklər
Xroniki allograft disfunksiyası
Böyrək yetməzliyi
Kardiopulmonar xəstəliklər
Arterial hipertenziya

National Transplantation Pregnancy Regystry-dən əldə olunan məlumatlara görə, orqan transplantasiyası olunan hamilə qadınların 70 %-ində müsbət dinamika və uğurlu nəticə görülməkdədir [8]. Bu rəqəm nə qədər üzgüldürücü və qənaətbəxş olsa da, transplant hamiləlikləri hər zaman yüksək riskli hesab olunur. Hamiləliyin bütün dövrlərində ananın və dölün ağırlaşma və ölüm riskləri nəzərə alınmalıdır [6].

Böyrək transplantasiyası olunmuş hamilələr. Hamiləlikləri yüksək risk daşıyan, böyrək köçürülmüş qadınlar üçün hamiləliklər təqibi nefroloq, cərrah trasplantoloq, uroloq, mama-ginekoloq və pediatrın daxil olduğu mükəmməl bir briqada tərəfindən idarə olunmalıdır. Hamilə qadınlarda ana, döl və qreftin risk altında olduğu unudulmamalıdır [16].

Hamilə qadın üçün təhlükə yaradan risklərə infeksiya, uşaqlıqdankənar hamiləlik, hestasional diabet, arterial hipertenziya, preeklampsiya, böyük ehtimalla Sezar kəsiyi aid edilməkdədir. Bu risklərə böyrək köçürülmüş hamilələrin 27-38%-ində rastlanmaqdadır [17].

Döl üçün təhlükə yaradan amillərə 50% hallarda erkən doğum, 20% hallarda dölün bətndaxili inkişafdan qalması, azçəkili doğulması, immunyetməzliyi, perinatal infeksiyalar (əsasən Hepatit B və CMV) aid edilməkdədir [18].

Böyrək köçürülmüş hamilə qadınlarda hamiləliyin proqnozunu aşağıdakı amillərə təyin etmək olar [19, 20, 21]:

- Qan serumunda kreatinin miqdarı 1,5mg/dl-dən az,
- Arterial təzyiq normal səviyyədə,
- Proteinuriya 500mg/dl-dən az olmalı;
- Kəskin rəddetmə olmamalı;
- İmmunosupressiya dozası düzgün təyin edilməli;
- Alloqreft USM-də normal dəyərləndirilməlidir.

Qaraciyər transplantasiyası olunmuş hamilələr. Qaraciyər transplantasiyası olmuş hamilələrin təqibi cərrah trasplantoloq, uroloq, mama-ginekoloq və pediatrın daxil olduğu təkmilləşmiş həkim qrupu tərəfindən aparılmalıdır. Qaraciyər köçürülmüş hamiləliklərdə ana və döl risk altında olmaqdadır [22, 23].

Qaraciyər transplantasiyası olan hamilələrdə anaya aid olan ağırlaşmalara: hamiləliklə əlaqəli arterial təzyiqin yüksəlməsi, preeklampsiya, bərndaxili infeksiyalar, anemiya, xolestaz və pielonefrit aid edilməkdədir [24]. Bəzən qaraciyər göstəricilərinin az və orta səviyyədə yüksəkliyi müşahidə edilən hallar nəzarətdə saxlanılmalı, bu hal davam edərsə və ya göstəricilərin səviyyəsi yüksələrsə, qaraciyərin USM və biopsiyası göstərişdir [13, 22, 25].

Qaraciyər köçürüldükdən sonra altı ay ərzində baş verən hamiləliklərdə anadanəlmə CMV riskinin yüksək olması təsbit olunmuşdur. Doğumdan sonra yenidoğulana HBİg və peyvənd vurulmalıdır, əks halda hepatit B-nin perinatal keçmə riski 80%-dir. Hepatit C-nin isə anadan yoluxma riski 7%-dir. Qaraciyər köçürülmüş hamilələrdə doğum şəkli əksər hallarda cərrahidir (31,9%-44,5%).

Qaraciyər köçürülmüş qadınlarda döl üçün təhlükə yaradan amillər 50% erkən doğum, 20% hallarda dölün bətndaxili inkişafdan qalması, azçəkili doğum, immunyetməzliyi, perinatal infeksiyalar (əsasən Hepatit B və CMV) hesab edilməkdədir [18].

Pankreas və böyrək/pankreas transplantasiyası olunmuş hamilələr

UNOS göstəricilərinə görə, 1988-ci ildən etibarən 5578 pankreas transplantasiyası, 5296 böyrək/pankreas nəqli olunan qadın hamilə qalmışdır. Bu qadınların 78%-ində erkən doğum, 63% xəstədə azçəkili uşağın doğulması, 75% qadında arterial hipertenziya, 34% hamilədə preeklampsiya, 55% halda infeksiya müşahidə olunmuşdur [26].

Ağciyər və ürək/ağciyər transplantasiyası olunmuş hamilələr

Təqribən 16000 xəstəyə ürək, ağciyər, ürək-ağciyər köçürülmüdür. Döş qəfəsi orqanlarının transplantasiyası olan qadınlarda hamiləlik nadirdir. Beləki, 50 transplantasiya olan xəstədən (ürək-33, ağciyər-14, ürək/ağciyər-3 xəstə) 72 hamiləlik və 48 xəstədə canlı doğum əldə edilmişdir [27, 28, 29].

Ürək transplantasiyası olunmuş hamilələr. Ürək köçürülmüş xəstələrdə aparılan tədqiqatlarda hamiləliklərin 69%-nin canlı doğumla, 32%-inin erkən doğum və azçəkili uşaq doğmaqla nəticələndiyi aşkar olunmuşdur [30]. Ümumi hamiləliklərin 9%-i tibbi abort, 17% -i spontan düşüklə nəticələnmişdir. Ürək transplanasiyası olan qadınların 46%-i arterial hipertenziya, 21%-i kəskin qreft rəddedilməsi, 11%-i infeksiyalaşma, 10%-i preeklampsiya, 4%-i isə hamiləlik diabeti ilə müşayət olunmuşdur. Son çalışmalarda ikincili ürək transplantasiyası olunanlarda hamiləlikdən əvvəl genetiklərin tərəfindən mitoxondrial miopatiya kimi genetik xəstəliklərin araşdırılması tövsiyə edilməkdədir. Beləki bu patologiya birbaşa dölün müqəddaratı həll etməkdədir [29, 31].

Ağciyər transplantasiyası olunmuş hamilələr. National Transplantation Pregnancy Regystry təşkilatının göstəricilərinə görə 14 xəstəyə ağciyər köçürülmüşdür, onların 53%-i normal doğumla başa çatmışdır. Doğumdan sonrakı iki il ərzində qreft rəddedilməsi 21% halda müşahidə olunmuşdur[27, 28, 29, 31].

Bağırsaq transplantasiyası olunmuş hamilələr. Dünya miqyasında nazik bağırsaq köçürülmüş bir xəstədə canlı doğum əldə edilmişdir [8].

Hamiləlikdən əvvəl xəstələrin məlumatlandırılması. Xəstələrin məlumatlandırılması transplantasi- yadan əvvəl başlanılıb, sonrakı dövrlərdə də davam etdirilməlidir. Qadın və həyat yoldaşının birlikdə məlumatlandırılması, bütün həyati vacib risklərin müzakirəsi və ailə təfəindən qəbulu müalicə həkimi tərəfindən həyata keçirilməlidir. Mama-ginekoloq xəstə üçün hamiləliyin ideal zamanını təyin etməli və məsləhətlərini verməlidir [32]. Qadının digər daxili xəstəlikləri (şəkərli diabet, arterial hipertenziya və s.) nəzarət altına alınmalıdır [33].

Orqan köçürülməsindən sonra kontrasepsiya. Qreftin rəddedilməsi, erkən doğum riski ilə əlaqədar orqan köçürülməsindən 1 il müddətində hamiləlik planlanmamalıdır. Ovulyasiya orqan nəqlindən 1 ay sonra başladığı üçün hamiləlikdən qorunma üsulu seçilməlidir. Kontrasepsiya üsulları içərisində əməliyyat xəstələri üçün digər üsullarla müqayisədə ən zərərsiz və uyğun olanı, uzun müddət istifadə edilməsi mümkün olan metod uşaqlıqdaxili spiraldır [34, 35]. Bəzi ədəbiyyatlara görə, estrogen tərkibli hamiləlikdən qoruyucu preparatların istifadəsi qreft rəddedilməsi və vaskulopatiya kimi ağırlaşmaları yarada bilər. Bu kimi xəstələrə oral kontraseptiv məsləhət görülməməlidir [36, 37].

Amerika Transplantasiya Cəmiyyəti (American Society Transplantation) təqib protokolu. Orqan transplantasiyası keçirən və aşağıdakı kriteriləri özündə birləşdirən xəstələrə hamilə qalmaq olar [8]:

1. Bir il ərzində qreftin rəddetmə reaksiyası olmazsa;
2. Qreft funksiyası yetərli və sabit, kreatinin<1,5 mg/dl, 24 saatda proteinuriya < 500 mg olarsa;

3. Kəskin infeksiyalaşma yoxdursa;
4. Stabil immunosupressant dozası alırsa;

Transplantasiya olunmuş qadınların hamiləlik dövrünün idarə olunması. Orqan köçürülmüş hamilələrdə arterial hipertenziyanın rastgəlmə tezliyi yüksək olduğu üçün gündəlik təzyiq monitorinqi aparlmalı, yüksək təzyiq qeydə alınarsa müalicə edilməlidir [38]. ACE inhibitorları və ARB-lar əks göstərişdir. Bazis vasitə kimi Metildopa, alternativ olaraq klonidin və kalsium kanal blokatorları istifadə oluna bilər.

Hamilə qadınlarda qreftin funksiyası nəzarət altında saxlanılmalı, rəddedilmə şübhəsi olarsa, transplant orqandan biopsiya alınmalıdır. Kəskin rəddedilmə vəziyyəti yaranarsa, dərhal steroidlərə başlanılmalıdır [39]. Belə bir vəziyyətdə steroidlərin təyini etibarlı və güvənli hesab olunmasına dair tədqiqat işləri mövcuddur [40].

Orqan köçürülmüş xəstələrin əksəriyyətində yanaşı xəstəlik kimi arterial hipertenziya, şəkərli diabet daha çox rast gəlinməkdədir. Hamiləlik dövründə arterial təzyiq yüksək olarsa, korreksiya olunmalıdır. Hamiləliyə qədər şəkərli diabeti olan qadınlarda hamiləlik zamanı gestasional diabet, dölün bətndaxili inkişafdan qalması, makrozomiya, fetal ölüm kimi halların rastgəlmə tezliyi daha yüksəkdir. Dölə maksimal zərəri aradan qaldırmaq üçün hamiləliyin erkən dövründə qlisemik nəzarət gücləndirilməlidir [41].

Ultrasəs vasitəsilə hamiləliyin ilk trimestrindən hamiləlik həftəsi dəqiq təyin edilməlidir. Hamiləliyin 24-26-cı hamiləlik həftəsindən başlayaraq 4 həftə ara ilə müntəzəm olaraq ultrasəs müayinəsi aparılmalıdır. Hamiləliyin 32-ci həftəsindən sonra ultrasəslə dölün funksiya testləri yoxlanılmalı, ehtiyac olarsa doğuma qədər neonatoloqun konsultasiyası olunmalıdır [42].

Cərrahi əməliyyat üçün mamalıq göstərişləri olmadığı təqdirdə, normal fizioloji doğuma üstünlük verilməlidir. Sezar kəsiyi aparıldığı hallarda qreftə zərər verməmək üçün onun yeri mütləq təyin olunmalıdır. Müasir təbabətdə statistik göstəricilərə əsasən, böyrək köçürülmüş hamilə qadınların 56,9%-ində, qaraciyər transplantasiyası olmuş xəstələrin 44,6%-ində cərrahi yolla doğuma müraciət olunmuşdur [42, 43].

Orqan nəqli olunmuş hamilələrdə aparılan hər hansı bir cərrahi müdaxilələr zamanı antibiotikoterapiya təyin edilməlidir. İstifadəsi əks göstəriş olan spesifik lokal və ya ümumi anestetik maddə təyin olunmamalıdır. Doğum zamanı və sonra intravenoz maye yükləməsi kontrollu olmalıdır. Beləki, ürək və ya ağciyər/ürək köçürülmüş hamilələrin ağciyər ödeminə məruz qalma riski daha yüksəkdir [27].

Hər bir xəstə üçün individual olaraq immunosupressiv vasitə təyin olunmalıdır. İmmunosupressantlarla müalicədə əsas məqsəd - düzgün vasitənin seçilməsi, qan plazmasında dərman səviyyəsinin ölçülməsi və az miqdarda immunosupressivlərdən istifadə edərək qreft funksiyasını qorumaqdır [44].

Hamiləliyin hər bir trimestrinin özünəməxsus xüsusiyyətləri nəzərə alınmalıdır. Hamiləliyin I yarısınında bulantı, qusma əleyhinə istifadə olunan dərmanların orqanizm tərəfindən mənimsənilmə qabiliyyəti azala bilər. Hamiləliyn III yarısında döl orqanizmində metabolizmin sürətlənməsi ilə əlaqədar qəbul olunan dərman dozalarının təkrar düzənlənməsinə ehtiyac yarana bilər [3].

Kortikosteroidlərdən uzunmüddətli istifadə çanaq sümüklərində osteodistrofiyaya səbəb ola bilir [45], bu vəziyyət hamiləliyi cərrahi yolla sonlandırmağa göstərişdir. Doğum başlayan zaman doğum stressini azaltmaq və doğumsonrası transplant rəddedilməsinin qarşısını almaq üçün steroid dozası artırılmalıdır. Zahılıq dövründə yenidoğulmuşun qan plazmasında istifadə edilən dərman maddələrinin miqdarı ölçülməli, yüksək doza təyin edilərsə, əmizdirmə dayandırılmalıdır [43, 46].

Transplantasiya olunmuş hamilələrin qidalandırılması. Qan şəkəri səviyyəsində problemi olan qadınlarda şəkərin gundəlik ölçülməsi aparılmalıdır, immunosupressiv dərmanlar qlukoza metabolizmini dəyişə bilməkdədir [38]. Transplantasiya olmuş hamilə qadınlarda qanın biokimyəvi təhlilində aclıq qan şəkəri <90 mg/dl, toxluq qan şəkəri <120 mg/dl səviyyəsində olmalıdır. Transplant hamilələrində qida rasionunda ümumi kalori qəbulunun 20-35%-ini yağlar təşkil etməli və trans yağ qəbulu minimuma endirilməlidir. Ümumi kalori qəbulunun 45-65%-ini karbohidrat təşkil etməlidir. Lifli qida və bol maye qəbulu mütləqdir. Hamiləlik zamanı zülala ehtiyacın artdığı üçün daha çox istifadə olunmalıdır. Zülal 1 g/kg/gün olmaqla qəbul olunmalıdır [45]. Transplant xəstələrində osteopeniya, osteoporoz və sınıq riski olduğu üçün gün ərzində 1000mg/gün kalsium və 0,25 mg/gün D vitamini qəbulu təmin olunmalıdır. Eyni zamanda kalium səviyyələrinə də diqqət yetirilməlidir, çünki bəzi xəstələrdə hiperkalemiya müşahidə oluna bilər. Kortikosteroidlər iştahı artırdığı üçün artıq kilo almaq təhlükəsi vardır, alınan qida kalorisi dəyərləndirilərək mənimsənilməlidir. Hamiləliyin 16 həftəsinə qədər Folat dəstəyi (Fol turşusu 400mg, 1x1), 16 həftəlikdən sonra isə vitamin komleksi təyin olunmalıdır [38].

Transplantasiya olunmuş hamilələrdə immunosupressiv vasitələrin istifadəsi. Orqan köçürülmüş qadınlarda hamiləlik planlanarkən

həkim briqadası toplanmalı, immunosupressiv rejim, hamiləliyin döl və qreft funksiyası üçün fayda və zərərləri müzakirə olunmalı və ən etibarlı, effektiv müalicə üsulu seçilməlidir [47]. Hamiləlik zamanı immunosupressiv vasitələrdən ən etibarlısı azatiopirin, kalsineurin inhibitorları (siklosporin və takrolimus) hesab olunur [48,49]. Mikofenolat mofetilin heyvan laboratoriyalarında sınaqdan keçirilməsi nəticəsində malformasiya və fetal ölüm riskinin olduğu aşkarlanmışdır. Lakin hamiləlik zamanı dərman vasitələrinin dozası çox diqqətli şəkildə seçilməlidir, dozanın aşağı salınması qreftin rəddedilmə reaksiyasına səbəb ola bilər. Orqan köçürülmüş xəstələrdə immunosupressiv dərmanların hamiləlik kateqoriyaları aşağıdakı cədvəldə öz əksini tapmışdır [14].

Cədvəl 1

Dərman və immunosupressiv vasitələrlərin hamiləlik kateqoriyaları [14].

Dərman vasitələri	*Hamiləlik kateqoriyaları*
Kortikosteroid	*B*
Azathiopirin	*D*
Cyclosporin	*C*
Mikofenolat mofetil	*D*
Tacrolimus	*C*
Sirolimus	*C*

Transplantasiya olunmuş qadınlarda hamiləlik ağırlaşmaları. Orqan transplantasiyası arterial hipertenziya, şəkərli diabet kimi əlavə problemlər yarada bilir, bu xəstəliklər isə hamiləlikdə risklər törədir. Böyrək nəqlində 54,2% halda, qaraciyər transplantasiyası zamanı isə 27,2 % xəstələrdə arterial hipertenziya risk faktoru təşkil etməkdədir [27]. Hamiləlik ağırlaşmalarının çox hissəsi şəkərli diabet və arterial hipertenziyanın payına düşür [50]. Hamiləlik zamanı ACE inhibitorları və ARB-lər əks göstəriş olduğu üçün, orqan köçürülməsindən əvvəl arterial hipertenziya korreksiya olunmalıdır [51].

Aparılan tədqiqat nəticələrinə görə ən geniş yayılan ana ağırlaşmaları aşağıdakı ardıcıllıqda öz əksini tapmışdır [43].

1. Preeklampsiya 15%
2. Viral təkrarlamalar 15%
3. Kəskin rəddedilmə epizodu 10%
4. İnfeksiya 10%
5. Arterial hipertenziya 5%

Orqan köçürülmüş qadınlarda doğumsonrakı, südvermə dövrünün idarə olunması, neonatoloji ağırlaşmaların aradan qaldırılması. Orqan köçürülmüş qadınlarda doğumsonrakı dövrdə ilkin olaraq qan plazmasında immunosupressiv maddələrin səviyyəsi təsbit olunmalıdır. Hamiləlik zamanı mədə-bağırsaq sistemində sorulma və hərəkət funksiyası zəiflədiyi üçün dərmanların qan plazmasında miqdarı dəyişə bilər, yan təsir olaraq depressiya meydana çıxa bilər. Həm ana, həm də uşağın sağlamlığı üçün qreft funksiyası daima nəzarət altında olmalıdır. Bəzi müəlliflərə görə immunosupressant qəbul edən südverən anaların uşaqlarında spesifik bir problem izlənməmişdir [52,53]. Tədqiqat nəticələrinə görə doğumdan sonra əmizdirən analara, südə keçmə ehtimalı çox az olan Takrolimus təyin edilməli, siklosporin və azatiopirin verilməməlidir [54]. Ədəbiyyatlarda dərman dozası düzgün seçildiyi hallarda, uşaqlarda normal mental və fiziki inkişafın olduğu öz əksini tapmışdır [55 56].

Erkən doğum və az çəkili yenidoğulmuş neonatologiyanın ağırlaşmalarından hesab edilir. Beləki, hamilə qadınların 50%-ində erkən doğum halları baş verir. Nəticə etibari ilə bu situasiya neonatal ölüm, karlıq, beyin problemləri, əqli zəifliyə gətirib çıxara bilir [57]. Eyni zamnda doğulan körpədə bətndaxili inkişafdan qalma müşahidə oluna bilər. Yenidoğulanlarda immunosupressiya (immunoqlobulin səviyyəsinin və limfosit sayının aşağı olması) meydana gələ bilər ki, bu da 6 ay müddətində bərpa olunmaqdadır. Yenidoğulmuşlarda anadangəlmə infeksiya (toksoplazma, HBV, HCV, CMV) və autoimmun xəstəliklərin yaranma riski çox yüksəkdir [18].

Nəticə və tövsiyələr. Orqan köçürüldükdən sonra bir il ərzində qadınlar hamiləlikdən qorunmalıdır. Hamiləlik planlanarkən həkim briqadası toplanmalı, transplant qadınların orqan funksiyalarını araşdırılmalı, qreft funksiyasını daima monitorizə edilməli, immunosupressiv müalicəni dayandırılmamalıdır. Hamiləlikdə isə immunosupressiv dərmanlarla müalicə individual olaraq təyin olunmalı, immunosupressiv rejim, verilmə dozaları, hamiləliyin döl və köçürüləcək transplantat üçün faydaları və zərərləri müzakirə edilməlidir. Erkən hamiləlik zamanı ilkin olaraq hamiləlik həftəsi dəqiqləşdirilməli, hamiləlikdə dölün böyüməsi, sağlamlıq vəziyyəti və anomaliya riski yoxlanılmalı, anaya bağlı ağırlaşmalar müəyyən olunmalı, hamiləlik zamanı arterial hipertenziya və şəkərli diabet ciddi şəkildə nəzarət altına götürülməlidir, Arterial hipertenziya, şəkərli diabet, preeklamsiya vəziyyətlərinə ciddi nəzarət olunmalıdır. Ürək/ağciyər olan xəstələrin dəyərlən-

dirməsi zamanı anesteziоloji baxış olmalıdır. Bakteriya-virus infeksiyaları (CMV, HSV və s.) yoxlanılmalıdır.

Orqan köçürülmüş hamilələr vaxtında doğurdulmalıdır; cərrahi doğuma ancaq mamalıq göstərişləri zamanı müraciət edilməlidir. Ürək, ürək/ağciyər köçürülmüş xəstələr fizioloji doğumda davamlı monitorizasiya olunmalıdır. Neonatoloji ağırlaşmalar araşdırılmalı, aradan qaldırılmalıdır. Doğumdan sonra immunosupressiv vasitələrin dozaları və rejim dəyişikliyi üçün qan nümunələrinə baxılmalıdır. Əmizdirmənin faydası izah olunmalı, südverən analar üçün düzgün dərman vasitələri seçilməlidir. Xəstə üçün müvafiq kontraseptiv üsul təklif edilməlidir. Doğumsonrası dövrdə depressiya müşahidə olunarsa, psixiatrın konsultasiyası məsləhətdir.

ƏDƏBİYYAT

1. Krajewski C., Sucato G. Reproductive health care after transplantation // Best Pract Res Clin Obstet Gynaecol., 2014, v.28(8), p.1222-34.
2. Bar Oz B., Hackman R., Einarson T., Koren G. Pregnancy outcome after cyclosporine therapy during pregnancy: a metaanalysis // Transplantation, 2001, v.71, p.1051-5.
3. Flechner S.M., Katz A.R., Rogers A.J. Et al. The presence of cyclosporine in body tissues and fluids during pregnancy // Am J Kidney Dis., 1985, v.5, p.60-3.
4. Kim H., Jeong J.C., Yang J. et al. The optimal therapy of calcineurin inhibitors for pregnancy in kidneytransplantation // Clin Transplant., 2015, v.29(2), p.142-8.
5. Jones A., Clary M.J., McDermott E. et al. Outcomes of pregnancies fathered by solidorgan transplant recipients exposed to mycophenolic acid prodeuct // Progress in Transplantation, 2013, v.23(2), p.153-157.
6. Yılmaz S., Bayramov N., Kayaalp C. et al. Canlıdan qaraciyər transplantasiyasında əməliyyatdan əvvəl və sonrakı müayinə və müalicə qaydaları. Bakı 2012, s. 108-116.
7. American Academy of Pediatrics, Committee in Drugs, The transfer of drugs and other chemicals into human milk // Pediatrics, 2001, v. 108:, p. 776-89.
8. National Transplantation Pregnancy Registry–NTRP. (2011). Annual Report, Thomas Jefferson University. pp: 1-22. Erişim Tarihi: 13.01.2014. http://ntpr.giftoflifeinstitute. org. 257 DEUHFED 2015,8 (4),251-257.
9. Armenti V.T., Daller J.A., Constantinescu S. et al. Report from the National Transplantation Pregnancy Registry: outcomes of pregnancy after transplantation // Clin Transpl., 2006, p.57-70.
10. Abhinav Humar, Arthur J.Matas, William D.Payne. Atlas of Organ Transplantation.1st Edition., 2006, 339 p.
11. Bramhan, K., Nelson-Piercy, C., Gao, H. et al.. Pregnanacy in renal transplant recipients: A UK National cohort study // Clin J Am Soc Nephrol., 2013, v. 8(2), p.290-298.
12. Brosens I., Benagiano G. Pregnancy and reproductive health after solid organ transplantation // Best Pract Res Clin Obstet Gynaecol., 2014, v.28(8), p.1113.
13. Bayramov N.Y. Orqan transplantasiyasında müasir istiqamətlər. Azərbycan Tibb Universitetinin 80 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, Bakı 2010, s.15-18.
14. Petri M. Immunosuppresive drug use in pregnancy // Autoimmunity, 2003, v.36. p.51-6.
15. Ma K.K., Petroff M.G., Coscia L.A. et al. Complex chimerism: pregnancy after solid organ transplantation // Chimerism., 2013, v.4(3), p.71-7.
16. Aktürk S, Çelebi ZK, Erdoğmuş Ş, Kanmaz AG, Yüce T, Şengül Ş, Keven K. Pregnancy After Kidney Transplantation: Outcomes, Tacrolimus Doses, and Trough Levels. Transplant Proc. 2015 Jun;47(5):1442-4.
17. Ben Haj Hassine A., Siala H, Basly M., Harzallah K. et al. Pregnancy in kidney transplanted women: what are the optimal conditions for a better pregnancy outcome? // Tunis Med. 2014, v.92(8-9), p.523-6
18. Laifer S.A., Ehrlich G.D., Huff D.S. et al. Congenital cytomegalovirus infection in offspring of liver transplant recipients // Clin Infect Dis., 1995, v.20(1), p.52-5.
19. Atallah D, El Kassis N, Salameh C. et al. Pregnancy and renal transplantation // J Med Liban., 2015, v.63(3), p.131-7.
20. August P., Vella J. Pregnancy in women with underlying renal disease. [Uptodate Desktop Application]. Version 17.1. cited 2009 Feb 10.
21. World Health Organization-A WHO Family planning Medical Eligibility Criteria for Contraceptiev Use. 4th Edition. Estes, C.M., Westhoff, C. (2007). Dünya Sağlık Örgütü-DSÖ, 2009
22. Ambrosini A, Paddeu EM, Donzelli G, Stanghellini G. The perception of the fetus in mothers with liver transplantation. Brief communication. Ann Ist Super Sanita. 2015;51(1):79-82.
23. Bayramov NY. Qaraciyərin cərrahi xəstəlikləri. Bakı, Nurlar, 2012, s. 324.

24.Fedorkow D.M., Corenblum B., Shaffer E.A. Cholestasis induced by oestrogen after liver transplantation // BMJ, 1989, v. 299, p.1080-1.

25.Donzelli G., Paddeu E.M., D'Alessandro F. The role of narrative medicine in pregnancy after liver transplantation // J Matern Fetal Neonatal Med., 2015, v.28(2), p.158-61.

26. Bösmüller C., Pratschke J., Ollinger R. Successful management of six pregnancies resulting in live births after simultaneous pancreas kidney transplantation: a single-center experience // Transpl Int., 2014, v.27(12), p.129-31.

27.Greene CL, Barr ML, Schenkel FA. et al Outcomes after pregnancy in living lobar lung transplantation // Transplantation, 2014, v.98(7), p.692-4.

28.Vos R., Ruttens D., Verleden S.E. et al. Pregnancy after heart and lung transplantation // Best Pract Res Clin Obstet Gynaecol., 2014, v.28(8), p.1146-62.

29.Zecchini C., Chanoine S, Chapuis C. et al. Therapeutic Drug Management for Transplanted Women with a PlannedPregnancy: About Two Cases of Lung and Heart-lung Transplantation // Therapie, 2015, v.70(6), p.493-9.

30. Abdalla M., Mancini D.M. Management of pregnancy in the post-cardiac transplant patient // Semin Perinatol., 2014, v.38(5), p.318-25.

31. Kalinka J, Szubert M, Zdziennicki A. et al. A second delivery after heart transplantation - a case study // Kardiochir Torakochirurgia Pol., 2014, v.11(3), p.339-42.

32.French V.A., Davis J.S., Sayles H.S., Wu SS. Contraception and fertility awareness among women with solid organtransplants //Obstet Gynecol., 2013, v.122(4), p.809-14.

33.Lely A.T. van Londen M., Navis G. Gestational hypertension and preeclampsia in living kidney donors // N Engl J Med., 2015, v.372(15), p.1468-9.

34.Dünya Sağlık Örgütü-DSÖ (2009). World Health Organization-A WHO Family planning Medical Eligibility Criteria for Contraceptiev Use. 4th Edition.

35.Dünya Sağlık Örgütü, World Health Organization (2010). Medical Eligibility Criteria for Contraceptiev Use, 4th Edition.

36.Estes C.M., Westhoff C. Contraception for the transplant patient // Semin Perinatol., 2007, v. 31, p.372–7

37.Paulen M.E., Folger S.G., Curtis K.M., Jamieson D.J. Contraceptive use among solid organ transplant patients: a systematic review // Contraception. 2010, v.82(1), p.102-12.

38.Brosens I., Benagiano G. Pregnancy and reproductive health after solid organ transplantation // Best Pract Res Clin Obstet Gynaecol., 2014, v.28(8), p.1113.

39.Brosens I., Brosens J.J., Benagiano G. The risk of obstetrical syndromes after solid organ transplantation // Best Pract Res Clin Obstet Gynaecol., 2014, v.28(8), p.1211-2.

40. Blanford A.T., Murphy B.E. In vitro metabolism of prednisone, dexamethasone, and cortisol by the human placenta // Am. J. Obstet Gynecol., 1977, v.12, p.264-7.

41.Shaker J.L, Lukert B.P. Osteoporosis associated with excess glucocorticoids // Endocrinol Metab Clin North Am, 2005, v.34, p.341-349.

42. Jesudason S., McDonald S.P. Gestational hypertension and preeclampsia in living kidney donors // N Engl J Med., 2015, v.372(15), p.1469.

43. Hammoud G.M., Almashhrawi A.A, Ahmed K.T. et al. Liver diseases in pregnancy: Liver transplantation in pregnancy // World J Gastroenterol., 2013, v.19(43), p.7647-7651.

44.Deshpande N.A., Coscia L.A., Gomez-Lobo V. Et al. Pregnancy after solid organ transplantation: A guide for obstetric management // Rev Obstet Gynecol., 2013, v.6(314), p.116-125.

45.Maliha A., Ron S. Transplantation and pregnancy; Medscape drugs, diseases and procedures, updated may 1, 2014.

46.Mazziotti, G., Angeli, A., Bilezikian, J.P. Glucocorticoid-induced osteoporosis: an update // Trends Endocrinol Metab, 2006, v.17, p.144–9

47. Osadchy A., Koren G. Cyclosporine and lactation: when the mother is willing to breastfeed // Ther Drug Monit., 2011, v.33(2), p.147-8.

48.Songin T, Pietrzak B, Brawura-Biskupski-Samaha R. et al. Ann Transplant. 2014 Dec 18;19:660-6.

49.Bourget P, Fernandez H, Delouis C. Accumulation of cyclosporine in the conceptus during the first trimester of pregnancy after liver transplantation // Transplantation, 1991, v.51, p.1306-7.

50. Jain, A.B., Reyes, J., Marcos, A. et al. Pregnancy after liver transplantation with tacrolimus mmunosuppression: a single center's experience update at 13 years // Transplantation, 2003, v.76, p.827-832.

51.Garg A.X., McArthur E., Lentine K.L. Gestational hypertension and preeclampsia in living kidney donors. Donor Nephrectomy Outcomes Research (DONOR) Network // N Engl J Med., 2015, v.372(15), p.1469-70.

52.Jabiry-Zieniewicz Z., Dabrowski F.A., Pietrzak B., Wielgos M. Pregnancy complications after liver transplantation // Int J Gynaecol Obstet., 2015, v.128(1), p.27-9.

53.Deshpande NA, Coscia LA, Gomez-Lobo V. et al Pregnancy after solid organ transplantation: a guide for obstetric management // Rev Obstet Gynecol., 2013, v.6(3-4), p.116-25.

54.French, A.E., Soldin, S.J., Soldin, O.P., Karen G. Milk transfer and neonatal safety of tacrolimus. // Ann Pharmacother, 2003, v.37, p.815.

55. Gardiner S.J., Begg E.J. Breastfeeding during tacrolimus therapy // Obstet Gynecol, 2006, v.107, p. 453.

56. Constantinescu S., Pai A., Coscia L.A. et al. Breast-feeding after transplantation // Best Pract Res Clin Obstet Gynaecol., 2014, v.28(8), p.1163-73.

57.Gouraud A, Bernard N, Millaret A. et al. Serum level of tacrolimus in of breastfeed infant and long term follow-up // Fundamental and Clinical Pharmacology, 2011, 25 Suppl: 103.

58.Coscia L.A., Constantinescu S., Davison J.M. et al. Immunosuppressive drugs and fetal outcome // Best Pract Res Clin Obstet Gynaecol., 2014, v.28(8), p.1174-87.

Резюме

Беременность и трансплантация органов

Т.Э. Байрамова

В литературе имеется данные успешных деторождений у беременных с пересаженным органом. Беременные должны получить полную информацию о потенциальных нежелательных исходов беременности, включая невынащивания и маловесных новорожденных. Риск материнских и фетальных осложнений высоко у беременных с пересаженными органами, поэтому они должны находится под сукупулезной наблюдением акушера и трансплантолога. Внутриматочное средство является приемлемым методом контрасепции на ранних сроков после трансплантации. Необходимо избежать беременности в течении первого года после трансплантации. Современные иммуносупрессанты рекомендуются в течении беременности. Кесеровое сечение рекомендуется только по акушерским показанием. Ведение беременных с пересаженным органом, до и после родов должно осуществлятся мултидисциплинарной бригадой.

Summary

Pregnancy and organ transplantation

T.E. Bayramova

Successful pregnancy outcomes are possible among all solid organ transplant recipients. Patients should be fully counseled regarding the potential adverse fetal outcomes, including prematurity and low birth weight. Transplant recipients are at an increased risk for both maternal and neonatal complications and should be seen by a high-risk obstetrician in conjuction with their transplant teams. Initiating contraception early after transplantationis ideal method is intrauterine device. Pregnancy should be avoided for at least 1 year after transplantation to limit the potential risks of early pregnancy that may adversely affect both allograft function and fetal well-being. Gurrent immunosuppression is usually recommended and throughout pregnancy, immunosuppression must be maintained at appropriate dosing to avoid graft rejection. During labor and delivery, cesarean delivery should be perfomed for obstetric reasons only. A multidisciplinary team should manage pregnant transplant recipients before, during and following pregnancy.

Daxil olub:12.01.2016

PSİXOAKTİV MADDƏLƏRDƏN ASILILIĞIN TİBBİ-SOSİAL NƏTİCƏLƏRİ

P.P.Məmmədov, T.S.Məmmədhəsənov, B.M.Əsədov
Azərbaycan Respublikası SN Respublika Narkoloji Mərkəzi, Bakı

Açar sözlər: psioaktiv maddələr, narkotiklər, ifrat istifadə edtmə, xronik narkotikləşmə, psixopatoloji pozuntular, tibbi və sosial sonluqlar
Ключевые слова: психоактивные вещества, наркотики, злоупотребление, хроническая наркотизация, психопатологические расстройства, медицинские, социальные последствия.
Key words: psychoactive substances, drugs, abuse, chronic drug addiction, psychopathological disorders, medical and social consequences.

Psixoaktiv maddələr - mərkəzi sinir sisteminin fəaliyyətinə təsir göstərən, şəxsin bəzən düşüncəsinin pozulması dərəcəsinə qədər psixi vəziyyətini dəyişən təbii və ya süni mənşəli hər hansı bir maddələrə deyilir. Psixoaktiv maddələrə qanunla icazə olunmuş alkoqol və tütün, insanın ali psixi funksiyalarına təsir göstərən və təbabətdə həkimin təyinatına əsasən psixi xəstəliklərin müalicəsində istifadə olunan psixoaktiv psixotrop maddələr, asılılıq yaradan və qanunvericiliklə qadağan olunmuş narkotik vasitələr (opioidlər-tiryək, heroin, metadon və s.; kanabioidlər-həşiş, marixuana; stimulyatorlar- kokain, amfetaminlər, efedron və s.; hallüsigenlər-LSD, "ektazi", "bonzai" və s.), qanuni yolla istehsal olunmuş uçucu həlledicilər (aseton, benzin, "Moment" yapışqanı və s.) aid edilir.

Son onilliklərdə psixoaktiv maddələrin qəbulu nəticəsində xəstələnmənin xeyli miqdarda artması ilə əlaqədar, bu bəlanın müxtəlif aspektlərinin öyrənilməsinə həsr olunmuş çoxsaylı tədqiqatlar genişlənməyə başlamışdır [1,2,3,4]. Müxtəlif tədqiqatçıların məlumatına görə yaxın illərdə narkomaniya ilə əlaqəli proqnoz əlverişli deyil – narkotik vasitələrin spektrinin genişlənməsi və onların qəbulu nəticəsində müxtəlif somatik pozuntuları olan xəstələrin artması ehtimal olunur. Bununla yanaşı narkotik asılılıq – kəskin sosial xüsusiyyəti olan xəstəlikdir və onun artması həm cinayət, həm də iqtisadi xarakterli qanuna zidd əməllərin artmasına gətirib çıxaracaq [5,6].

Müxtəlif psixoaktiv maddələrin qəbulu nəticəsinə xəstələrdə ekzogen-üzvi pozuntularının formalaşması müəyyən olunur. Bunula yanaşı premorbid faktorları, asılılığın formalaşmasının müddəti, psixopatoloji əlamətlərinin strukturu, onların geridönməzliyiin dərəcəsi, somatik-nevroloji fəsadları, sosial nəricələrin cürbəcürlüyü narkotik asılılığın növündən asılılıdır.

Narkotiklərin xroniki intoksikasiyası nəticəsində psixi-üzvi pozuntularının formalaşmasına gəldikdə qeyd etmək lazımdır ki, tədqiqatçılar arasında müxtəlif fiirlər müəyyan olunur. Onların bir qismi narkotik asılılığına düçar olmuş xəstələrdə, hətta xəstəliyin üzaq mərhələsində, intellektin enməsi ilə müşayiət olunan baş beyinin üzvi pozuntularının mövcud olmasını inkar edir; digərləri intellektual-mnestik enməsini tasvir etsələrdə, onların formalaşmasının müddətini qeyd etmirlər; üçüncüləri isə qeyd edirlər ki, intelektual-mnestik enməsi yalnız xəstəliyin son mərhələsində müəyyən olunur. Tədqiqatçıların fikrinə görə üzvi pozuntularının formalaşma müddəti, onların klinikası və dinamikası, qeridönməzliyi narkotik asılılığın növündən və bir çox digər faktorlardan asılılıdır.

Hələ R. Krafft-Ebinq (1897), narkomanların şəxsiyyət dəyişikliklərindən danışarkən, qeyd edirdi ki, onlar iradəsiz, qətiyyətsiz, əxlaqsız əməllərə meyli olurlar. O, xəstələrdə qəm-qüssə tutmalarını və tez keçən görmə hallüsinasiyalarını müşahidə edirdi.

S.S,Korsakov (1901), narkomanların psixikasının dəyişməsini xarakterizə edərkən yazırdı ki, "onların psixi sferasında arsızlıq, yalançılığa, aldamağa, mənəvi əhlaksızlığa meyllik müşahidə olunur. Son dövrdə xəstələr heç bir fəaliyyətə qabiliyyətli deyirlər, əqli çəhətdən zəyifləyirlər, onlarda epileptik tutmalar müəyyən olunur və nəticədə ölümlə nəticələnir".

E.Krepelin (1927) qeyd edirdi ki, narkomanların xasiyyəti dəyişir, onlar səbirsiz, iradəsiz, məsüliyyətsiz olur, maraq dairəsi yalnız narkotik vasitələrin əldə olunması ilə əhatə olunur. Bu nəticəni sonrakı dövrlərdə müayinə aparmış bir çox müəlliflər də təsdiq etmişdir [1,7,8,9].

Morfinizmin tibbi və sosial nəticələrini öz rəhbərliyində ilk dəfə E.Bleyler (1920) təsvir etmişdir. O, tiryək qəbul edən xəstələrdə iş qabiliyyətinin enməsini, yaddaşın pozulmasını, iradə zəifliyini, əhvalın davamsızlığını, yalançılığı meylini təsvir etmiş və qeyd etmişdir ki, onların az bir hissəsi tamdəyərli insan kimi qalır - "Əksəriyyəti fiziki və mənəvi cəhətdən məhv olur". Daha qabarıq dəyişiklikləri E.Bleyler kokaindən istifadə edən xəstələrdə müəyyən etmişdir, o cümlədən- "yaddaşın korsakovabənzər pozulmasını", koordinasiyanın pozulmasını, "çox xırda" görmə və eşitmə hallüsinasiyalar, "təqib, qısqanclıq

sayıqlaması" ilə xarakterizə olunan "kokain sayıqlmasını" təsvir etmişdir.

Narkomanların xəsiyyətində dəyişikliklərinin əmələ gəlməsi barədə S.İ. Boqdanov və başq (2002) [7], T.N. Dudko (2008) [10], A.A. Kozlov, M.L.Roxlina (2005) [11] yazmışlar. Onlar qeyd etmişdirlər ki, tiryək asılılığına düçar olmuş xəstələrdə apatiya, özünəqapanma, emosional kütlük əmələ gəlir.

Həşiş narkomaniyasına həsr olunmuş monoqrafiyasında A.L. Kamayev (1931) [12] qeyd etmişdir ki, həşişdən üzün müddətli sui-istifadəsi nəticəsində xəstələrdə emosional kütlük, intellekrin enməsi, mənəvi hisslərin zəifləməsi baş verir.

M.L.Roxlina, A.A.Kozlov (2001) S.O. Moxnaçev (2006) həşişizmi dinamik nöqteyi nəzərindən öyrənərkən xəstəliyin II-ci mərhələsini ensefalopatik mərhələsi kimi tərif etmişlər və müəyyən etmşlər ki, həşişin sistematik qəbulu nəticəsində xəastələrdə psixi deqradasiya, hətta ağıl zəyfliyinin əlamətləri inkişaf edir. Həmin vəziyyətdə xəstələrdə qabarıq şəkildə yaddaş pozuntuları, maraqların kəskin məhdudlaşması, emosional kütlük ön planda olur və onu həşişin toksik təsiri ilə əlaqələndirirdirlər [11].

V.F. Yeqorov və başq. (1997) [13], T.B.Dmitriyeva və başq. (2003) [14] müəyən etmişlər ki, həşişin sistematik və uzun müddətli qəbulu premorbid şəxsiyyət cizqilərin kəskinləş-məsi, patoxarakteroloji pozuntular, intellektual-mnestik və mənəvi-etik enməsi şəklində şəxsiyyət pozuntulara gətirib çıxarır.

D.J. Collins, H.M. Lapsley (2002) [15], P.Griffiths, R. McKetin (2003) [4] tədqiqatları göstəmişdir ki, çətənin xroniki istifadəçiləri persepriv-hərəki məsələlərinin həlli zamanı ləngidilmiş reaksiyalar göstərir, peşə, sosial və şəxsi problemlərin həllində fəaliyyətsiz olurlar.

Ədəbiyyatda psixoaktiv madələrdən asılılığın müxtəlif mərhələlərində emosional pozuntularının formalaşması və kliniki təzahürləri müzakirə olunur. V.B. Altşuler və başq. (2008) [1] qeyd etmişdirlər ki, opiomaniyanın klinikasında əhvalın davamsızlığı, emosiyaların və iradənin zəyfləməsi şəklində emosional-iradi pozuntuların inkişafı mütlərdir. N.S. Kurek (1991) [16], T.B. Dmitriyeva və başq. (2003) [14] tiryək və efedron narkomaniyasına düçar olmuş xəstələrdə emosional xüsusiyyətlərini müqaisəli psixoloji tədqiq edərkən müəyyən etmişlər ki, efedron naromanyası olan xəstələrdə tiryək narkomanlarla müqaisədə emosional reaksiyaların dəqiqliyi az dərəcədə dəyişmişdir.

Q.A. Korçaqinanın (2000) məlumatına əsasən, tiryək narkomaniyasında emosional pozuntular aparıcı əlamətlərdən biridir və həmin pozuntular həm abstinent sindromun strukturunda, həm də remissiyanın formalaşmasında müəyyən olunur. Zaman keçdikcə emosional pozuntular davamlı olur və özünəməxsus narkomanik şəxsiyyətini formalaşdırır. Əhvalın pozulması digər psixopa-toloji əlamətlərlə əlaqəda olur. Belə ki, asteniya fonunda xəstələrdə əhvalın enməsi müşahidə olunur və əzginlik, zəiflik, iradə aktivliyin azalması, kəskin tükənməsi, emosional labillik ilə biruzə olunur. Bəzi hallarda kəskin təşviş, ajitasiya, darıxma, kədər və ya disforiya ilə müşayiət olunan depressiv vəziyyət müşahidə olunur [17].

Ç.P. Rayt və başq. (2000) [18], V.Q. Sentsov və başq. (2000) [19], L. Degenhardt et all. (2003) [20] narkotik vasitələrdən asılılığı olan xəstələrdə böyük depressiv epizodlarını və müxtəlif təşviş pozuntularını (panik reaksiyaları, aqorofobiyanı, qeneralizə olunmuş təşvişi, sosial fobiyalarını) müəyyən etmişlər. Bütün bu hallar qida davranışın pozulması (anoreksiya, bulimiya, polidipsiya) və şəxsiyyət pozuntuları (antisosial tendensiyalar, patoxarakteroloji pozuntular) ilə uzlaşa bilirlər.

S.M. Malfish et all. (2006) müxtəlif psixoaktiv maddələrdən (tiryək, kokain, marixuana, alkoqol) sui-istifadə edən şəxslərdə təşvişin və qəzəb reaksiyalara meylin səviyyəsini müqaisə edərkən müəyyən etmişlər ki, tiryək narkomanlarda təşvişin, kokain asılılığına düçar olmuş xəstələrdə isə qəzəbin səviyyəsi ən çox müəyyən olunur.

Postabstinent mərhələsində müəyyən olunan affektiv pozuntular bəzi tədqiqatçılar tərəfindən narkotika qarşı kompulsiv meylin əlaməti kimi qiymətləndirilir [2,3,7]. Remissiyanın formalaşması mərhələsində psixopatik cizgilərin kəskinləşməsi suisidal təhlükəlilıyinin artmasına səbəb olur [21,22]

Narkoloji xəstəliklərinin klinikasında psixopa-toloji pozuntularının strukturu çoxdan psixiatrik ədəbiyyətda müzakirə olunur, lakin son zamanlar bu mövzu xüsusi tədqiqatlarının obyektinə çevirilib, əvvəl alkoqolizmin, sonra isə narkomaniyanın klinikasında.

I.Y. Kaplan, A.A. Kozlov (2000) [23], Hartnoll R. L. et all. (2003) [24], D.Ostrovski (2003) [25] narkotiklərdən sui-istifadə edən və stasionar şəraitində təkrar müalicə olunan pasiyentlərdə baş vermiş psixi pozuntuların müayinəsi nəticəsində göstərmişər ki, stimulyatorlardan asılılığı olan xəstələrdə şizofreniyaya bənzər əlamətləri, xüsusən paranoyal və maniakal vəziyyətləri xeyli artmışdır. Sedativ preparatlardan sui-istifadə edən xəstələrdə isə əsasən depressiv vəziyyətlər, koqnitiv pozuntular və təşviş üstünlük təşkil edirdi.

ABŞ-nın narkomaniyanın Milli İnstitutunda (World Drug Report., 2008) aparılmış tədqiqatlar

nəticəsində göstərilmişdir ki, tirək asılılığı olan xəstələrdə 50-60%-də depressiya, в 20-50%-də-

"şəxsiyyətin antisosial dəyişikliyi", 20-50%-də- alkoqolizm, 10-20%-də- təşviş pozuntusu və 2-10%-də digər pozuntular aşkar edilmişdir.

B.S. Fogel et all. (1996) tədqiqatlarlna əsasən psixoaktiv maddələrdən sui-istifadə edən şəxslərdə, onlardan istifadə etməyən şəxslərlə müqaisədə psixi xəstəliklərin yayılması 4,5 dəfə artıqdır və 53,1 % təşkil edir [26].

E.V. Nunes et all. (1994), A. Kokkevi, C. Stefanis (1995) müəyyən etmişlər ki, tiryək asılılığı və polinarkomaniya olan xəstələrdə əsas psixopatoloji pozuntuları narahatçılıq, təşviş, əhvalın pozulmasıdır. C.M. Gliro et all. (1997) gənc narkomanların psixi statusunu tədqiq edərkən onlarda sərgədyanı şəxsiyyət pozuntularının yüksək olmasını müəyyən etmişlər.

Bless R. (2003) [27] heroin asılılığı olan xəstələrin 61%-də depressiya, təşviş, şəxsiyyətin antisosial dəyişikliyi şəklində psixopatoloji pozuntularını təsvir etmişlər. Tədqiqatçılar qeyd etmişlər ki, qadınlarda bu pozuntular kişilərlə müqaisədə daha kəskin təzahür olunur.

Narkotik maddələrinin istifadəçilərində mənəvi-etik enməsi haqqında ədəbiyyatda bir çox qeydlər müəyyən olunur. T.T. Poxilko (2000) eksperi-mental-psixoloji tədqiqatlar nəticəsində göstər - mişdir ki, ən çox psixi və şəxsiyyət dəyişikliklər həşiş və tiryək narkomaniyasında müşahidə olunur və onların ifadə dərəcəsi narkotiklərin qəbulunun başlanması müdətindən və "narkoloji stajin"ndan asılılıdır [28].

Narkotik asılılığına düçar olmuş xəstələrdə intellektual-mnestik pozuntularının baş verməsi haqqında ədəbiyyatda vahid fikir mövcud deyil. Tədqiqatçıların bir qismi bu cür xəstələrdə onları inkar edir, digərləri isə narkotik asılılığına düçar olmuş xəstələrdə intellektual-mnestik pozuntularını təsvir edir. P. Griffiths, R..McKetin (2002) [4] qeyd edirdirlər ki, morfiy preparatlarını uzun müddət qəbulu xəstələrin idrak xüsusən yaradıcılıq fəaliyyətinin enməsinə, yaddaşın pozulmasına, kəskin zəifliyə gətirib çıxarır. I.Y. Kaplan, A.A. Kozlov (2000) [23], D.F.Musto, Z. Sloboda (2003) [29] kokain narkomaniyasına düçar olmuş xəstələrini təsvir edərkən, onlarda peşə səmərə-liliyinin, yaradıcılıq aktivliyinin kəskin enməsini, əmək qabiliyyətinin itirilməsini, intellektual səviyyəsinin enməsini müəyyən etmişdirlər.

İ.N. Pyatnitskaya (1994) [30], P.M.Spittal et all. (2006) [31] barbitur toksikomaniyasından əziyyət çəkən xəstələrdə intellektual bacarığın enməsini, yaddaşın, təfəkkürün, anlamanın kəskin enməsini, söz ehtiyyatını azalması ilə müşayiət olunan nitqin ləngiməsini müəyyən etmişlər. S.M. Semyatov və başq. (2008) göstərirlər ki, narkomaniyadan əziyyət çəkən xəstələrdə intellektual-mnestik pozuntu-larının dərəcəsi və ağırlılığı narkotik vasitənin növündən və şaxsiyyətin premorbid xüsusiyyətindən asılılıdır.

Hələ XIX-cu əsrin axırılarnda- XX-ci əsrin əvvəllərində tiryək və digər narkomaniyaları nəticəsində əmələ gələn psixi-üzvi pozuntuları təs-vir olunmuşdur [32]. Sonrakı dövrdə qəbul olunan psixoaktiv maddələrinin spektri qenişlənərkən, müxtəlif növ narkomanya və toksikomaniyalarda müəyyən olunmuş psixi-üzvi dəyişikliklər barədə məlumatlar toplanmağa başlamışdır [5,30,33].

Bioptatlarda qastritə xas olan dəyişikliklərlə bərabər bağırsaq metaplaziyası və displaziyası, bədxassəli metamorfozum olub-olmaması tədqiq edilir. Biopsiyanın morfoloji dəyişiklikləri aşkar etməsi cərrahi əməliyatın xüsusiyətini təyin edən əsas faktorlardan biridir [18]. Xüsusən də bəd-xassəlilik və ya ağır dərəcəli displaziyalar cərrahi əməliyatın həcmini və növünü seçməkdə böyük rol oynayırlar. Belə dəyişikliklər aşkar olunan xəstələr üçün yeganə üsul-mədə rezeksiyası sayılır. Çünki mədənin selikli qişasında displastik və ya regenerator dəyişikliklər olduqda vaqotomiyanın yerinə yetirilməsi mədə xorasında bədxassəli

dəyişiklərin yaranmasına gətirib çıxara bilər [19,22].

Orqansaxlayıcı əməliyatların yaxın postoperasion dövründə xora xəstəliyində rast gələn qastritə oxşar morfoloji dəyişikliklər baş verir. Sonradan selikli qişanın atrofiyası (əsas və parietal hüceyrələr hesabına) inkişaf edir. Orqansaxlayıcı əməliyatlar 83% halda qastritə səbəb olur [10,19].

Əməliyat olunan mədədə distrofiya, bağırsaq və psevdopilorik metoplaziya ortaya çıxır; belə fikir mövcuddur ki, atrofiya, metoplaziya və displaziya xərçəngə yol açan üç səbəbdir [19]. Burada xüsusən displaziya daha təhlükəlidir.

Paduanskinin təsnifatına əsasən displaziyanın zəif, orta və yüksək dərəcəsi ayırd edilir. Ağır dərəcəli displaziya 52,4% halda maliqnizasiyaya gətirib çıxarır. Qeyd olunanlar operativ müdaxiləyə məruz qalmış mədənin selikli qişanın morfoloji müayinəsinin aparılmasının vacibliyini birdaha təstiq edir [8,19].

Xora xəstəliyində əsas müayinələrdən biridə Helicobacter pylori-nin təyinidir.

Ulserogenez prosesində H.pylori 30-60% halda selikli qişadan alınan bioptatlarda, 89% halda isə xora xəstəliyinin ağırlaşmaları olan xəstələrdə rast gələrək prosesin xroniki vəziyyətə keçməsinə bais olur [12,20].

Mədə üzərində aparılan əməliyyatlardan sonra H.pylorinin persistensiyası barədə olan ədəbiyyat məlumatları ziddiyyətli xarakter daşıyırlar. Belə ki, bir qrup klinisistlər cərrahi müdaxilədən sonra H·pylorinin 25% xəstələrdə mövcud olmasını qeyd edirlər; vaqotomiyadan sonra isə bu rəqəm 71-95% -ə çatır [10,20].

Digər qrup tədqiqatçılar mədə rezeksiyasından sonra 39,7- 77,4% halda HP-nin təyin edildiyini təstiq edirlər [4,12,20].

HP-nin diaqnostikasında invazif (FQDS), qeyri invaziv, bilavasitə (mikroskopiya) və bilvasitə (bakteriyanın özünü yox, onun əmələ gətirdiyi maddələrin təyini) istifadə olunur.

Morfoloji və bakterioloji müayinələrin nəticələrini birgə qiymətləndirməklə onların bir-birindən asılılığını təyin etmək mümkündür [19,21].

Ədəbiyyatda belə fikir var ki, rezeksiyadan sonra mədə güdülünün selikli qişasının baryer funksiyası azaldığından HP–nin ifraz etdiyi proteaza fermenti polimer strukturları dezinteqrasiyaya uğradır [21].

HP ilə mədə şişləri arasında əlaqə geniş polemika predmeti olaraq qalmaqdadır. Xərçəng problemi ilə məşğul olan Beynalxalq Agentlik HP-ni 1 qrup kanserogen faktorlara daxil edibdir . Digər alimlər isə hesab edirlər ki, HP mütagen xarakterində maddə sintez etmir [22,8].

Tədqiqatçılar HP-ni kanserogen kimi yox, selikli qişada metaplaziyaya (və ya displaziyaya) uğrayan sahənin normal epitel ilə əvəz olunmasına mane törədən Ko- faktor kimi nəzərdə tuturlar. Deyilənləri nəzərə alaraq bir sıra müəlliflər HP-ni onkoloji prosesin ilkin mərhələsi olan qastritin yaranmasında rolu olmasını önə çəkirlər [23].

Ona görə də xora xəstəliyində tədbiq edilmiş cərrahi üsulların xəstələrin həyat keyfiyyətlərinə necə təsir etməsinin təyinində mədədə HP –nin persistensiya amilinə diqqət verməyin əhəmiyyəti böyükdür.

HP-nin təyin edilməsi sonrakı konservativ (o cümlədən eridikasiyaedici) müalicənin təyin edilməsində əsas yerlərdən birini tutur [24].

HP-nin təyinində ən dəqiq üsul bakterioloji metoddur ki, onun spesifikliyi 100% təşkil edir; aşkar edilən ştammın antibiotikə qarşı həssaslığı da təyin edilir; amma üsul bahalı olduğundan həmişə istifadə edilə bilinmir [25].

HP-nin təyinində sitoloji metod da effektlidir (spesifikliyi 100%, həssaslığı 90%) fəqət uzun müddət tələb edir; digər tətrəfədən belə üsulu aparmaq üçün yüksək ixtisaslı mütəxəssislər və cihazların olması şərtdir [26].

Bu gün HP-nin təyininin ən əlverişli üsulu ureazanın selektiv təyini sınağıdır; üsul sidik cövhərinin fermentativ parçalanmasına əsaslanır; bu üsul asanlıqla, bir neçə dəqiqə ərzində, ucuz yolla yerinə yetirilə bilir [27].

Beləliklə ədəbiyyat mənbələrinin tədqiqi onu deməyə əsas verir ki, xora xəstəliyinə görə cərrahi müdaxiləyə məruz qalmış xəstələrin post-operasion dövrün uzaq çağlarında həyat keyfiyyətlərini öyrəndikdə ilk növbədə tədbiq edilmiş əməliyatın mədənin əsas funksiyalarına və Helicobacter pylori ilə invaziya səviyyəsinə necə təsir etməsini yoxlamaq lazımdır. Bunun üçün ilk növbədə endoskopik müayinə yerinə yetirilməli və HP-ə qarşı ureaza sınağı qoyulmalıdır.

ƏDƏBİYYAT

1. Ağayev B.A. Cərrahi xəstəliklər: Dərslik. Bakı: CBS Polygraphic Production, 2007, 808 s.

2. Alimetov S.N., İbrahimova Ş.S., Qurbanova X.İ. Mədə-bağırsaq sistemi xəstəlikləri: Dərslik. Bakı: Elm və Təhsil, 2011, 404 s.

3. Əliyev M.H. Helikobakteriozun diaqnostikasının mikrobioloji aspektləri, onun epidemioloji xüsusiyyətləri və müalicə-profilaktik tədbirlər sistemi: Tibb elm. dok. .... dis. avtoref. Bakı, 2007, 40 s.

4. Hidayətov Ə.A., Abdullayev F.M., Orucova R.İ. və b. Xora xəstəliyinin müalıcəsində Helicobacter Pylori əleyhinə terapevtik sxemlərin effektivliyi // Azərbaycan Tibb Jurnalı, 2005, №1,

s. 82-85

5. Məmmədov A.İ., Məmmədov İ.İ., Həsənov M.S. Ağırlaşmış onikibarmaq bağırsağın xroniki xorası olan xəstələrin müalicəsi haqqında // Sağlamlıq, 2008, № 7, s. 162 -165

6. Rüstəmov E.A. Piloroduodenal xoraların cərrahi müalicəsinin müasir prinsipləri // Azərbaycan Tibb Jurnalı, 2009, № 1, s. 168-172

7. Аруин Л.И., Капуллер Л.Л., Исаков В.А. Морфологическая диагностика болезней желудка и кишечника. М.: «Триада-Х», 1998, 496 с.

8. Березницкий Я.С., Ратчик В.М. Хирургические методы в лечении язвенной болезни // Медицинская газета «Здоровье Украины», 2008, № 219

9. Велиев Н.А. Хирургия осложненных пилородуоденальных язв. Казань, 2003, 122 с.

10. Loughlin M., Ala'Aldeen D., Jenks P. Monotherapy with mastic does not eradicate Helicobacter pylori infection from mice // J. Antimicrob. Chemother., 2003, v. 51, No 2, p.367-371

11. Türkay C., Erbayrak M., Bavbek N. et al. Helicobacter Pylori and histopathological findings in patients with dyspepsia // Turk J Gastroenterol., 2011, v. 22, No2, p. 122-127

12. Аруин Л Ж. Новая Международная классификация дисплазий слизистой оболочки // Рос. Журнал гастроэнтерологии, гепатологии, колопроктологии, 2002, №3, с.15-17

13. Баранская Е.К., Ивашкин В. Т. Клинический спектр предраковой патологии желудка // Рос. Журнал гастроэнтерологии, гепатологии, колопроктологии, 2002, №3, с.7-14.

14. Битти А.J. Диагностические тесты в гатроэнтерологии. М.: Медицина, 1995, с.23-53.

15. Велиев Н.А., Агаев И.Н., Малков И.С. Развитие дуодено-гастрального рефлюкса в раннем послеоперационном периоде хирургического лечения осложненных пилородуоденальных язв // Казанский медицинский журнал, 2003,Т.84, №3, с.174-177.

16. Горбашко А.М., Иванов Н.Н. Эндоскопическая оценка рефлюкс-гастрита у больных, оперированных по поводу язвенной болезни желудка и двенадцатиперстной кишки // Вестник хирургии, 1988, Т.141, №10, с.22-26.

17. Государственный доклад о состоянии здоровья населения Российской Федерации в 2000 году // Здравоохранение Российской Федерации, 2002, №2, с.9.

18. Дорофейчук В.Г. Неинвазивный способ диагностики пилорического хеликобактериоза // Клиническая лабораторная диагностика, 1997, №8, с.42-44.

19. Исаева Г.Ш., Поздеев О.К. Роль Helicobacter pylori в патогенезе // Казанский медицинский журнал, 2003, Т.84, №6, с.437-443.

20. КропачеваЕ.И., Воробьев М.В., РудинА.А., Качалов С.Н., Хоменко А.И. Сравнительная характеристика моторно-эвакуаторной функции желудка после функциональных операций при осложненных дуоденальных язвах // Хирургия, 2002, № 6, с.22-26.

21. Крылов Н.Н., Кузин М.И. К методике оценки результатов операций на желудке // Хирургия, 2000, №2, с.17-20.

22. Минушкин О.Н., Арутюнов АТ., Бурков С.Г. и др. О взаимосвязи гиперпластических процессов в слизистой оболочке желудка и геликобактерной инфекции (по данным поликлинического центра) // Тер. Архив, 2002, №1, с.37-40.

23. Мишулин Л.Е., Трифонов М.М. Диагностические приборы для внутрижелудочной pH-метрии // Биомедицинская радиоэлектроника, 2000, №11, с.37-47

24. Нуритдинов А.Т., Уринов А.Я., Касымов А.Л., Салахидиов С.З. Состояние кислотопродукции и факторов ее регуляции у больных с различными результатами хирургического лечения язвенной болезни // Хирургия, 2002, №2, с.18-20

25. Окоемов М.Н., Кузин Н.М., Крылов Н.Н., Майорова Ю.Б. Сравнительная характеристика эффективности операций при язвенном пилородуоденальном стенозе // Хирургия, 2002, №5, с.26-29.

26. Сацукевич В.Н. Эндоскопическая оценка состояния оперированного желудка больных с язвенной болезнью // Вестник хирургии, 1986, Т.136, №1, с.17-22.

27. Чернякевич С, Бабкова И. Методики исследования моторной функции желудка и двенадцатиперстной кишки // Врач, 2000, №3, с.23-25

Резюме

Роль эндоскопических исследований в определение эффективности хирургического лечения язвенной болезни

Э.Г.Гусейнзаде

В последние годы с целью определения эффективности лечения особое внимание уделяется новому методологическому подходу в клинических исследованиях оценке качества жизни (КЖ) .После операций выполненных по поводу язвенной болезни возникающей "болезнь оперированного желудка" существенно влияет на КЖ больного. Одним из перспективных диагностики "болезней оперированного желудка" является применение эндоскопических методов исследования. Эндоскопическое исследование является определяющим методом в диагностике состояния культи желудка в отдаленные сроки после резекции.Применение эндоскопического исследования в комплексе с анализом кислотопродуцирующей функции культи желудка, ее перистальтической активности, морфологическими данными и результатами тестирования на Helicobacter pylori дает возможность не только диагностировать имеющиеся патологические изменения, но и прогнозировать их развитие. Морфологическое исследование прицельно взятых при эндоскопии биоптатов слизистой оболочки культи желудка позволяет проводить верификацию диагноза, выявлять признаки перестройки эпителия (кишечной метаплазии, диспластических изменений).

Summary

An importance of the endoscopic examinations in efficiency determination of the surgical treatment of the peptic ulcer disease

E.H.Huseynzade

Quality of life (QOL) evaluation as a new methodological approach in the clinical examinations has drawn lately a specific attention in an attempt of efficiency determination of treatment. "Postoperative gastric syndrome" emerged after the operations performed in regard to the peptic ulcer disease, has a strong influence on the QOL of the patient. Application of the endoscopic diagnostic technique is one of the advanced methods of diagnostics of the "postoperative gastric syndrome". Endoscopic examination is a critical technique in diagnostics of the gastric stump state in the long-term periods following the resection. Application of the endoscopic examination in conjunction with the analysis of the gastric stump acidogenic function and its peristaltic action, with the morphologic findings and testing results for Helicobacter pylori enables not only to diagnose the avialable pathological changes, but also to forecast their dinamics. The morphologic examination of the targeted mucosa biopsy patterns of the gastric stump taken at endoscopy allows to perform the diagnosis verification and identify the alteration signs of epithelium (intestinal metaplasia, dysplastic changes).

Daxil olub:09.12.2015

XOŞXASSƏLI OBTURASİON XOLESTAZ ZAMANI ORQANİZMİN İMMUN SİSTEMİN DƏYİŞİKLIKLƏRİNİN VƏ ENDOGEN İNTOKSİKASİYA SİNDROMUNUN ETİOLOJİ STRUKTURU VƏ PATOGENEZİNƏ MÜASİR BAXIŞLAR

B.A.Ağayev, D.M. Məhərrəmov

M.A. Topçubaşov ad. Elmi Cərrahiyyə Mərkəzi, Bakı

Açar sözlər: mexaniki sarılıq, endogen intoksikasiya, immun sistem, endogen toksik substansiyalar, orta molekullar

Ключевые слова: механическая желтуха, эндогенная интоксикация, иммунная система, эндогенные токсические субстанции, средние молекулы

Key words: mechanical jaundice, endogen intoxication. immune sustem, endogen toxic substance, average molecular

Öd keçiriciliyinin pozulmasına 30-dan artıq xəstəlik və patoloji vəziyyət səbəb olur [1-6]. Öd hipertenziyasının əsasında 20-30% hallarda xoledoxolitiaz durur [2]. Öddaşı xəstəliyi olduqca geniş yayılmış cərrahi patologiyadırr, yer kürəsinin əhalisinin 10-20%-də rast gəlir [1, 3, 4]. Bu kontingentdən olan xəstələr arasında cərrahi ağırlaşmalar, xüsusilə xoledoxolitiaz kifayət qədər çox yayılmışdır. Sonuncu ağırlaşma öd yollarının

qeyri-şiş mənşəli obstruksiyasının 48,7-90%-ə qədərini təşkil edir [6].

Son oniliklərdə diaqnostika və cərrahi müalicə prosesində yeni texnologiyaların geniş istifadəsinə baxmayaraq əməliyyatdan sonrakı ağırlaşmalar 16-21,3% arasında dəyişməkdə davam edir. Həmin ağırlaşmalarla bağlı ümumi letallıq 7,2-15,2% hüdudlarındadır. Sarılığın zirvəsində aparılmış cərrahi əməliyyatlardan sonra letallıq səviyyəsi 21,1-40%-ə qədər çatır. Bu xəstələrdə ölümün əsas səbəbi kəskin qaraciyər çatmazlığı (KQÇÇ) hesab edilir [3, 8, 25].

Obturasion xolestaz zamanı hepatositlərin zədələnməsi və MS-ın klinikasının meydana çıxması barəsində müasir təsəvvürlər içərisində oksidləşdirici stress, endogen intoksikasiya və immun sistemin pozğunluqları (çatmazlığı, defisiti) mühüm yer tutur [7, 22-25, 29]).

Bir çox kəskin, xroniki ağır xəstəliklərin gedişi prosesində həyatın davamı üçün təhlükəli vəziyyətlərin yaranması orqanizmin immun sisteminin ciddi dəyişiklikləri və endogen intoksikasiya ilə əlaqədardır. Etiopatogenetik faktorlardan asılı olmayaraq endointoksikasiya simptomları ümumi xarakter kəsb edir və xəstəliyin klinikasının ümumi patogenetik mexanizmlər üzrə inkişafına yol açır. Bütün qeyd olunan amillər bu simptomları ümumi bir adla - orqanizmin «immunreaktivliyi» sindromu adlandırmağa imkan vermişdir. Əməlgəlmə mexanizmi və realizasiya baxımından immun sistem, universal ümumbioloji patogenezə malik olan mürəkkəb patoloji polietioloji proseslərin məcmusudur. Son illər etioloji faktordan asılı olmayaraq immun sistemin dəyişikliklərinin inkişafı konsepsiyası yaradılmışdır [31].

Endogen intoksikasiya sindromunun (EİS) səbəbləri müxtəlifdir. Onlar destruktiv-nekrobiotik proseslər, qaracıyərin və böyrəklərin fəaliyyətinin pozulması, toxumaların işemık zədələnmələri, spesifik və qeyri-spesifik iltihabı proseslər ola bilər [18,19,21].

Biliar obstruksiyasının səviyyəsi mexaniki sarılığın mühüm patogenetik həlqələrindən biri kimi qəbul olunur. Obstruksiya hesabına inkişaf edən öd hipertenziyası xolangiovenoz şuntların açılması ilə nəticələnir. Sonunculardan və və qaraciyər sinisoidlərindən ödün, bir çox hallarda, xüsusilə uzunmüddətli mexaniki sarılıq zamanı bakterial çirklənmiş ödün qana keçməsi, son olaraq xolemiyaya və sepsisin meydana çıxmasına səbəb olur [11,13,23]. Nəticədə qaraciyərin qan təchizi pozulur, hepatositlər, Coophfer hüceyrələri zədələnir [2,3]. Bu vəziyyət qaraciyərin sintetik və baryer funksiyalarının, ilk növbədə koaqulyasiya və metabolizm pozğunluqları ilə nəticələnir. Septik-xolemik zədələnmələr qaraciyərin, digər həyati vacib üzvlərin (böyrəklər, ağciyərlər, ürək-qan damar, baş beyin) ciddi üzvi-funksional dəyişikliklərinə (toksik hepatopatiya, kəskin böyrək çatmazlığı, kəskin tənəffüs çatmazlığı, kəskin ürək-qan dövranı çatmazlığı, toksik ensefalopatiya, koaqulopatiya və s.), ən nəhayət multiorqan çatmazlığının inkişafına səbəb olur [24, 28]. Məhz artmaqda davam edən endotoksemiya, xolemiya, immundefisit, koauqulopatik dəyişikliklər, hemodinamik və homeostatik pozğunluqlar MSS-nun klinik gedişini və proqnozunu ağırlaşdırır [2, 9, 22].

Sağlam insanda qaraciyər hüceyrələri (hepatositlər) üzvün ümumi kütləsinin təxminən 60%-ni təşkil edir. 30 mkm diametrli bu hüceyrələr poliqonal formaya malikdir, tək-, az hallarda isə çoxnüvəli quruliuşludur və mitoz yolu ilə çoxalırlar. Hepatositlər sinusoidlər və Disse sahələrinin sərhədlərini formalaşdırır, öd kanalcıqları və qonşu hepatositlərlə sərhəd əmələ gətirirlər. Normal qaraciyərin 1 mg-da təxminən $202X10^3$ hüceyrə mövcuddur. Onların $171X10^3$-ü parenximatoz, $31x10^3$-ü isə litoral və ya sinusoidal hüceyrələrdir [2].

Disse sahələri sinusoidlərlə hepatositlər arasında toxuma sahələridir. Perisinusoidial birləşdirici toxumadan endoteli ilə örtülmüş limfa damarlar keçir. Toxuma mayesi endotelidən limfatik damarlara sızır [2]. Sinusoidal hüceyrələr (endotelial hüceyrələr, Coophfer, ulduzşəkilli və büküş hüceyrələri) sinusoidlərin mənfəzinə qabaran hepatositlərin hissələri ilə birlikdə qaraciyərin morfofunksional vahidini təşkil edirlər. Endotelial hüceyrələr sinusoidləri örtür, fenestrlərdən ibarətdir. Sonuncular sinusoidlərlə Disse sahələri arasında pilləli sədd (baryer) əmələ gətirirlər. Coophferr hüceyrələri endotelidən başlayırlar. Bu hüceyrələr endoteli ilə üzvi əlaqəsi olan hərəkətli makrofaqlardır, qişalı nüvəsi, vakuol və lizosomları mövcuddur, peroksidaza ilə boyanırlar [2].

Coophfer hüceyrələri qanın monositlərindən əmələ gəlir və bölünmə imkanları məhduddur. Onlar reseptorların iştirakı ilə (absorbsion) və belə iştirak olmadan (maye fazalı) endositoz (pino- və ya faqositoz) mexanizmi ilə iri hissəcikləri faqositə edir [4]. Coophferr hüceyrələri həmçinin qocalmış hüceyrələri, yad hissəcikləri, şiş hüceyrələrini, bakteriyaları, göbələkləri, virusları və parazitləri faqositə uğradırlar. Onlar aterogen hesab edilən aşağı sıxlıqlı oksidləşmiş lipoproteinləri tutur və parçalayırlar [12].

Coophfer hüceyrələri liqandlar üçün spesifik membran reseptorlarına, o cümlədən immunoqlobulinin Fc komponenti və komplementin C3b komponentinə malikdirlər. Bu elementlər antigen təqdimində mühüm rol oynayırlar.

Yayılmış infeksiyalar və travmalar zamanı Coophfer hüceyrələri aktivləşir, spresifik olaraq endotoksinləri udur və cavab reaksiyası kimi bəzi faktorlar (məsələn şişin nekroz faktoru, interleykinlər, kollagenaza və lizosolam hidrolazalar) sintez edirlər. Bu faktorlar diskomfort və əzginlik hissi yaradırlar. Endotoksinlərin toksik təsiri yoxdur. Onların toksik təsiri Coophfer hüceyrələrinin produktiv sekresiyası ilə əlaqədardır. Bu hüceyrələr araxidon turşusunun metabolitlərini, həmçinin prostoqlandinlər də sintez edirlər [10].

Coopfer hüceyrələrinin insulin, qlükaqon və lipoproteinlərə görə spesifik membran reseptorları mövcuddur. Karbohidrat N-asetilqlikozamin, mannoza və qalaktoza reseptoru bəzi qlikoproteinlərin, xüsusilə lizosomal hidrolazaların pinositozunda vasitəçi kimi çıxış edir. Həmçinin o, İgM tərkibli immunkomplekslərin udulması prosesinə təkan verir. Coophfer hüceyrələri ilə hüceyrələrin tanınması və entositoz surəti opsoninlər, plazma fibronektini, immunoqlobulinlər və təbii immunmodulyator peptidi – taftisindən asılıdır [12].

Sinusoid hücerələri və hepatositlər arasında olduğu kimi Coophfer hüceyrələri ilə endotelial hüceyrələr arasında mürəkkəb.qarşılıqlı təsir mövcuddur. Coophfer hüceyrələrinin lipopolosaxaridlərlə aktivləşməsi hialuron turşusunun endotelial hüceyrələr tərəfindən udulmasını ləngidir. Bu effekt çox guman ki, leykotrienlərin iştirakı hesabına olur [13]. Sinusoid hüceyələri tərəfindən sintez olunan sitokinlər hepatositlərin proliferasiyasının həm stimulyasiya edə, həm də ləngidə bilər [12].

MS-ın başlanğıc dövründə qanda lesitinaminopeptidaza (LAP), qələvi fosfataza (QF) və 5 nukleotidazanın (5-NT) artması müəyyən edilmişdir (17).

İmmun sistemin reaktivliyinin dəyişməsinin kliniki şəklini üzə çıxaran substrat bioloji mənşəli endogen toksinlər və ya endogen toksiki substansiyalardır (ETS). ETS normal halda da orqanizmin bioloji mühitlərində mövcuddur. Lakin bu substansiyalar patoloji proseslər nəticəsində əmələ gəlir və 2 yerə bölünür. Adətən bir neçə ETS-dan ibarət kompleks immun sistemin inkişafını stimulyasiya edir. Hər hansı patologiyaya xas olan spesifik toksin və ya toksinlər kompleksini sərbəst şəkildə identifikasiya etmək praktiki olaraq mümkün deyildir. Patoloji prosesin növündən, onun etiologiyası və patogenezindən asılı olaraq müəyyən bir toksin və ya toksinler kompleksinin üstünlüyü meydana çıxa bilər. ETS birbaşa sitotoksik təsirə malikdir. Orqanizmdə normada olduğundan artıq miqdarda toplandığı hallarda onlar sistemlərə və orqanlara zədələyici təsir göstərirlər. ETS-nın təsirindən orqandaxili hemodinamika, xüsusilə mikrosirkulyasiya səviyyəsində pozulur, hipoksiya və işemiya inkişaf edir. Onların təsirindən həmçinin tənzimləyici proseslər də pozulur [13, 22].

İmmun sıstemin struktur mexanizmi mürəkkəbdir. Birincili alterasiya (işemiya, travma, iltihab) nəticəsində mikrosomal fermentlərin təsiri nəticəsində hissəvi parçalanmış zülallar ilkin ocaqdan ümumi qan dövranına keçir. Zədələnmə sahəsində lipidlərin peroksidləşməsi (LPO) məhsulları və bioloji aktiv maddələrin, o cümlədən requlyator sistemlərin və komponentin miqdarı artır. Eləcə də anticisimlərin immun kompleksləri və ETS-nın tərkibinə daxil olan digər maddələrin səviyəsi qanda yüksəlir. Bütün bu maddələr transkapilyar və hüceyrə mübadilələrini pozur. Nəticədə mikrosirkulyasiyanın və orqandaxili hemodinamikanın pozğunluqları, işemik zədələnmə sahəsinin daha da dərinləşməsi meydana çıxır. Ümumi qan dövranına və limfa sisteminə endogen toksinlərin daxil olması ilə əlaqədar orqan və toxumaların distan-sion zədələnmələri baş verir. Bu ikincili toksinlərin əmələ gəlməsinə səbəb olur. Toksiki maddələrin təsirinin müddəti və səviyyəsi çoxsaylı uyğunlaşma funksiyalarının, requlyasiya sistemlərinin funksional imkanlarından asılıdır. Məhz bu sistemlərin hesabına orqanizmin ümumi homeostazı təmin edilir. Bu proseslər birləşdirmə, daşınma, detoksikasiya və ifrazetmə sistemlərini əhatə edir. Qaraciyərdə ən intensiv detoksikasiya prosesləri, xüsusilə hidroksilləşmə və mikrosomal oksidləşmə prosesləri gedir. Detoksikasiya və ifrazat proseslərinin pozulması mürəkkəb və çoxkomponentli mexanizm olmaqla, immunreaktivliyin azalması ilə təzahür edir, ETS-nın bioloji aktivliyi, toksemiyanın mənbəyi, toksiki məhsulların qan vasitəsi ilə hədəfə daşınması, depolaşdırılması, neytrallaşdırılması və xaric olunması ilə xarakterizə olunur [6, 16].

İmmun sistemin aktivliyinin dərəcəsini və immun dəyişikliklərin gedişinin proqnozunun təyini üçün xəstəliyin kliniki gedişindən əlavə, orqanizmin daxili mühitlərinin toksikliyinin və toksinlərin keyfiyyət baxımından miqdarının müəyyən olunması çox zəruridir. İmmun sistemin qiymətləndirilməsi üçün immunoloji sınaqlar, plazmanın toksikliyinin dərəcəsinin təyinindən başlayaraq qanın ayrı-ayrı hüceyrələrinin təyini, leykositar intoksikasiya indeksi (Lİİ), orta molekulların təyini və b. mühüm amillərin laborator təyini kliniki praktikada daha çox istifadə olunur [7, 13].

Kliniki praktikada EİS-nun kəmiyyət və keyfiyyət baxımından səmərəli təyininin mümkün olmaması səbəbindən müəlliflər tərəfindən

xəstələrin bioloji mühitlərinin müxtəlif bioloji obyektlərə təsirinin öyrənilməsi metodu təklif olunmuşdur. Lakin nəticələrin qiymətləndirilməsinin nisbi olması, test üçün bioloji yad obyektin istifadəsi, standartlaşdırmanın çətinlikləri, ekspress-diaqnostika imkanlarının məh-dudluğu və s. çatışmayan səbəblərdən bu metodun geniş kliniki tətbiqi bu günə qədər təmin olunmamışdır. Qan plazmasında ETS-nın kəmiyyət göstəricisinin təyini üçün aktiv elmi axtarışlar aparılması prosesi hazırda da davam etməkdədir. Qaraciyər və böyrək çatmazlığı səbəbindən komaya düşmüş xəstələr üzərində aparılmış tədqiqatların nəticələrinə görə endogen komponentlər içərisində daha toksiki olanları əsasən molekuyar çəkisi sidik cövhəri, kreatin, fenol və digər kiçikmolekullu maddələrdən ağır olan maddələrdir. Müsair elmi baxışlara görə endogen intoksikasiyanın patoloji effektləri-nin meydana çıxmasında daha çox əhəmiyyət daşıyan bioloji aktiv maddələr sırasında zülal təbiətli toksinlər mühüm yer tutur. Sonunculara molekul çəkisi 500-5000 Dalton olan orta molekullu endogen komponentlər aiddir. OM-lu maddələrin kimyəvi tərkibi eyni deyildir. Onlar neyrotoksiki aktivliyə malikdir, zülalların biosintezini pozur, nukleotidlərin sintezinin tənzimi mexanizminin iflic edir, ikincili immundefisit vəziyyəti yaradır, eritropoezə mənfi təsir göstərir. Sağlam insanların qanında OM-lar müəyyən qədər olsa da onların ümumi səviyyəsi olduqca azdır. Lakin endogen intoksikasiya ilə müşayət olunan patoloji vəziyyətlərdə onların miqdarı nəzərəçarpacaq dərəcədə yüksəlir. Endogen intoksikasiya əlamətləri ilə təzahür edən bütün patofizioloji hallarda immun sistemin vəziyyətindən asılı olmayaraq qan plazmasında OM-ın konsentrasiyası ilə xəstələrin ümumi vəziyyətinin pisləşməsi (stabilləşməsi) arasında düz mütənasiblik vardır. Qan plazmasında OM-ın səviyyəsinin davamlı artması xəstəliyin gedişinin əlverişsiz proqnostik meyarlarındandır. OM-ın kəmiyyət baxı-mından təyini texniki cəhətdən çətin, mürəkkəb proses olduğundan dəqiq, spesifik və çox həssas laborator diaqnostika metodlarının kliniki praktikada geniş tətbiqi bu günə qədər mümkün olmamışdır [9, 16]. E.Q. Tağıyevin son tədiqatlarının (2015) nəticələrinə görə xoledoxolitiaz mənşəli MSS zamanı OM peptidlərinn miqdarı plazmada normadan 89,4% yüksək olur və bu göstərici peptidlərin öddəki səviyyəsindən xeyli aşağı olur. Bu müəllifə görə xoledoxun adekvat sanasiyası və drenajından, standart farmakoloji müalicədən 7 gün sonra OMP-nin miqdarı həm qan plazmasında, həm də öddə azalsa da normal səviyyəllərdən müvafiq surətdə, 54,0% və 21,0% yüksək olur və tədqiqat prosesi ərzində normal göstəricilərə yaxınlaşma baş vermir [13].

OM-ın kəmiyyət dinamikasının qiymətləndirilməsi üçün Рябов Г.А., Азизов О.М. tərəfindən 280 nm-də (D_{280}), 255 nm-də (D_{255}) və onların nisbətində $R=(D_{280}/D_{255})$ optik sıxlığın kompleks göstəricilərinin istifadəsi təklif olunmuşdur [17]. İrinli peritonitli və destruktiv pankreatitli xəstələrdə bu parametrlərin tətbiqi xəstəliyin proqnozunun təyinində onların əhəmiyyəti olduğunu üzə çıxarmışdır.

Beləliklə, bütün patoloji hallarda endogen intoksikasiya sindromu (EİS) toxumaların destruksiyası, maddələr mübadiləsinin ciddi pozğunluqları, detoksikasiya sistemlərinin funksional vəziyyətinin pozulması, hətta sarsılması ilə xarakterizə olunan universal təzahür formasıdır.

Oksigenin suya qədər dördvalentli reduksiyası ilə yanaşı onun bir- və ikielektronlu reduksiyası da gedir. Nəticədə müasir elmi ədəbiyyatda «Oksigenin aktivləşmiş formaları» (OAF) adlandırılmış birləşmələr əmələ gəlir. OAF-nın əsas formaları nəticə etibarı ilə hüceyrə metobolizminin normal komponentləridir və müəyyən bioloji funksiyaları yerinə yetitirirlər. Onların aqressivlik səviyyəsinə güclü antioksidant sistemi tərəfindən nəzarət edilir. Patoloji proseslər zamanı bu balans OAF-nın nəzarətsiz generasiyası hesabına pozulur. Bu oksidləşdirici stress (OS) vəziyyətinin meydana çıxması ilə tamamlanır. OS şəraitlərində əmələ gələn OAF bütün bioloji strukturların funksiyasını pozaraq zərərverici təsir göstərir. OAF strukturuna daxil olduğu bioloji mənbələrin funksiyasını pozaraq amin turşulara təsir edir, DNT və RNT-nin molekullarını zədələyir. Sonuncu xromosom abberasiyalarına, zülal sintezinin pozulmasına yol açır. OAF enerji mübadiləsi proseslərinin pozulmasına səbəb olur, həmçinin lipidlərin nəzarət olunmayan peroksidləşməsi (LPO) reaksiyalarına təkan verir və onu sürətləndirir [9,24].

LPO prosesləri hüceyrənin bütün membran strukturlarında gedir. Membranla-rın hidrofob hissələrinin doymamış yağ turşuları oksigenin sərbəst radikalları üçün substratlardır. İnsan orqanizminə LPO proseslərin müsbət təsiri biomembranların tərkibinin təzələnməsi və onların xassələrinin qorunub saxlanılması, enerji proseslərində iştirak, hüceyrələrin bölünməsi, bioloji fəal maddələrin – prostoqlandinlərin, leykotrienlerin, tromboksanların və s. sintezi ilə xarakterizə olunur. Funksional normal hüceyrələrdə LPO substratların zənginliyinə baxmayaraq sərbəst radikalların, oksidləşmə məhsullarının miqdarı olduqca çüzi səviyyədədir. Bu intensiv antioksidant sis-teminin fəaliyyəti ilə əsaslandırılır. Antioksidant müdafiənin mexanizmi sərbəst radi-kalların əmələ gəlməsini ləngitməsi, OAF-nın inaktivasiyası və reparasiya

proseslərin qarşısını almaqdan ibarətdir. Antioksidant təsir göstərən fermentlərə superoksid-dismutaza (SOD), qlutationperoksidaza (QPO), qlutationreduktaza (QR), seruloplazmin (SP), peroksidaza, katalaza, sitoxromoksidaza (SXO), mis tərkibli bəzi oksidazalar, hüceyrənin proteolitik fermentləri və b. aiddir. Qeyri-ferment təsirli antioksidantlar yağda həll olan (tokoferol, ubixinon, K və A vitaminləri) və suda həll olan (askorbin turşusu, qlutation, albumin və s.) birləşmələrdən ibarətdir [10, 18].

LPO prosesləri və antioksidant sistemi arasında balansın (tarazlığın) pozulması LPO-nun ikinci molekulyar məhsullarının, yəni diyen konyuqatları (DK), malon dialdehidi (MDA), şiff özüllərinin əmələ gəlməsi və toplanması ilə yenidən axınşəkilli oksidləşdirmə reaksiyasına səbəb olur. LPO-nun son 2 məhsulları zəhərli xassəyə malikdir. LPO nəticəsində bioloji membranlar funksiyasını itirir, onların «suvaşqanlığı» artır, ərimə qabiliyyəti azalır, membran fermentləri və reseptorları fəaliyyətsizləşir. Bu hüceyrənin məhv olması ilə nəticələnən hüceyrə membranların strukturu və funksional təşkilinin, onların keçiricilik qabiliyyətinin və ion tarasızlığının dəyişikliklərinin meydana çıxmasına səbəb olur [12, 20].

Hazırda OAF-nın zülallarla qarşılıqlı təsiri mexanizmlərinin öyrənilməsinə təd-qiqatçıların marağı daha da artmışdır. Təbii ki, metabolik və requlyator proseslərin sonsuz müxtəlifliyini təmin edən bütün fermentlər məhz zülallardır. OAF-nın zülallarla qarşılıqlı təsiri mexanizmlərinin öyrənilməsinə K. Devis böyük töhfə vermişdir. Bu müəllifə görə bütün amin turşuların qalıqları modifikasiyaya məruz qallırlar. Oksidləşdirici stress və OAF-nın nəzarət edilə bilməyən generasiyası şəraitlərində zülalların bioloji fəallığının (fermentativ fəallıq, reseptor və nəqliyyat funksi-yaları və s.) itməsi ilə yekunlaşan zülalların tənzimlənməyən modifikasiyası prosesləri üstünlük təşkil edir. Zülalların oksidləşdirmə modifikasiyası yeni antigenlər əmələ gətirir və immun cavaba səbəb olur. Modifikasiya məhsulları başqa biomole-kulların ikinci dərəcəli zədələnməsi ilə tamamlana bilər [17, 22].

Təəssüf ki, real kliniki şəraitlərdə bu proseslərin nəzarət olunmasına və idarə edilməsinə imkan verən üsulların toplumu olduqca məhduddur. Onlardan ən sadəsi sərbəst sulfhidril (SH) qruplarının miqdarının müəyyən edilməsi əsasında zülalların oksidləşmə modifikasiyasının yoxlanıl-ması üsuludur. Zülalların oksidləşmə mo-difikasiyasının öyrənilməsi üçün daha çox yayılmış üsul OAF-nın histidin, arginin, lizin və prolin qalıqları ilə qarşılıqlı təsirindən sonra əmələ gəlmiş karbonil qruplarının təhlilidir [28].

Sonuncu onillikdə eksperimentdə ayrı-ayrı orqanlarda, həmçinin kəskin pankreatit, ateroskle-rozlu xəstələrin qan plazmasında zülalların oksidləşmə modifikasiyalarının öyrənilməsinə həsr olunmuş elmi tədqiqat işləri aparılmışdır [29, 33].

Biliodigestiv sistemdə (BDS), mədəaltı vəzi və onikibarmaq bağırsaqda patolo-ji proseslərin inkişafı ödün bağırsağa passajının pozulmasına səbəb olur. Bu, ödçıxa-rıcı sistemdə təzyiqin artmasına, yəni öd hipertenziyasına səbəb olur. Son illərdə eksperimental və kliniki tədqiqatlarda öd hipertenziyasının inkişafı zamanı qaraciyərdə baş verən mühüm morfofunksional və immun dəyişikliklər öyrənilmişdir [21]. Bu araşdırmaların nəticələrinə görə mexaniki mənşəli xolestaz zamanı müddətdən asılı olaraq qaraciyərin funksional vəziyyətinin zəifləməsi və onun morfoloji yenidən qurulması baş verir, bu üzvün struktur və funksio-nal dəyişiklikləri meydana çıxır. MS fonunda qaraciyərin hüceyrə homeostazının pozul- ması mexanizmləri bir və ya daha çox amillərin təsirindən inkişaf edən mürəkkəb xüsusiyyətlərə malik prosesdir. Hazırda hesab olunur ki, obturasion xolestazın patogenezində aparıcı rol orqanizmin perioksidant və antioksidant sistemləri arasında tarazlığın pozulması, antiperoksid müdafiə fermentlərinin fəallığının zəifləməsi, o cümlədən orqan və yerli hemodinamikanın pozğunluqları ilə LPO-nin nəzarət altına alına bilinməyən proseslərinə məxsusdur. Tədqiqatların nəticələrinə görə xolestazın başlanğıc mərhələlərində xəstələrin ümumi vəziyyəti kafiolur, qaraciyərin funksional sınaqları kliniki əhəmiyyət kəsb etməyən səviyyədə pozulur. Lakin erkən müddətlərdə bir tərəfdən LPO proselərin stimulyasiyası baş verir, digər tərəfdən qaraciyərdaxili qan cərəyanının azalması fonunda oksidləşdirici fosforlaşma proseslərinin bir-birindən ayrılması nəzərə çarpır [30]. Bəzi kliniki və eksperimental tədqiqatlarda MS zamanı qaraci-yərdə, öd və qan zərdabında LPO məhsulları- DK, MDA toplandıqca LPO-nin xeyli fəallaşması müəyyən edilmişdir.

LPO-nin aktivasiyası prosesləri dalğavari gedişlidir və kəskin qaraciyər çatmazlığının müxtəlif kliniki formalarında statistik nöqteyi-nəzərdən əhəmiyyətli səviyyədə fərqlənir. Obtura-sion xolestaz şəraitində LPO-nin aktivləşməsi hepatositlərin, eritrositlərin hüceyrə membran-larının destabilləşməsinə səbəb olan mexanizmlərdəndir. LPO-nin aktivləşməsi fonunda bilavasitə antioksidant sistemlərin fəallığının zəifləməsi, yəni həm qaraciyərdə, həm də eritrositlərdə fəallığın aşağı düşməsi (katalazanın, SOD, QQTP-in sintezinin azalması) müəyyən olunur. Nəticədə öd hipertenziyası hesabına zədələnmiş qaraciyərdə membran strukturlarının

sərbəst-radikal pozğunluqları başlayır, sonda hepatositlərin nekrobiozu və nekrozu baş verir. Qaraciyərdaxili qan dövranının pozulması işemiyanı daha da sürətləndirir və üzvün parenximasının ağır nekrozunun əlavə səbəbi olur. LPO-nin nəzarət altına alına bilinməyən fəallığının və mexaniki sarılıq mənşəli xolestaz zamanı qaraciyərdə destruktiv proseslərin inkişaf etməsinin səbəbi toplanaraq artmaqda davam edən ödün və hər şeydən əvvəl öd turşularının (xol, dezoksixol, ksenodezoksixol və litoxol turşuları) aktiv komponentlərinin hepatositlərə zərərverici-zədələyici təsiri hesab olunur. Qaraciyərdən kənar öd axarlarının obtursiyası öd turşularının enterohepatik dövranının və onların ümumi qan cərəyanına keçməsinin pozulması ilə nəticələnir. Molekulyar spesifikliyi hesabına öd turşuları bir çox orqanlara zəhərli təsir edir. Lipid membranları və subhüceyrə strukturlarını parçalamaq qabiliy- yətinə malik yağ turşuları xüsusi mühüm əhəmiyyət kəsb edirlər. Qaraciyər hüceyrələrinə sonuncuların yüksək toksiki təsiri məlumdur. Belə ki, A. Hino-nun (2001) tədqiqatlarına əsasən mitoxondrial funksiyaların pozulması nəticəsində hidrofob təbiətli öd turşuları OAF-ın əmələ gəlməsinə, LPO-nin aktivləşməsinə səbəb olur. Qaraciyərin toksik zədələnmələrində bilirubinin toplanması da rnüəyyən rol oynayır. Bir sıra müəlliflərə görə bilirubinin yüksək səviyyəsi oksidləşdirici fosforilləşmə proseslərini tormozlayır, oksigenin sərfini aşağı salır. Qaraciyərin parenximasında işemik-nekrobiotik və nekrotik proseslərin gedişi, onun funksional və immun fəallığının azalması EİS-nun başlaması və inkişafı prosesində mühüm əhəmiyyət kəsb edir. Obturasion xolestaz davam (inkişaf) etdikcə EİS-nun səviyyəsini (Lİİ, Eİ, paramesi sınağı və s.) əks etdirən OM-ın kəmiyyət göstəricilərinin, oliqopeptidlərin və digər sınaqların tədqiqi sonuncuların kəskin artmasını üzə çıxarmışdır. Belə ki, EİS-nun və immun sisteminin səviyyəsi xolestazın ağırlıq dərəcəsindən və qaraciyər çatmamazlılığının səviyyəsindən asılıdır. Hazırda obturasion xolestaz şəraitində geniş bioloji fəallıq spektrinə malik olan, bütün orqanizmə təsir edən və mexaniki sarılığın kliniki şəkilinin formalaşmasında bütövlüklə məsuliyyət daşıyan, EİS-nun əmələ gəlməsinin mənbəyi kimi qaraciyər hesab edilir.

Е.Г. Мачулин-in məlumatlarına görə (2010) MS-ın eksperimental modeli yaradılmış heyvanların qanından və qaraciyərin nekrotik dəyişikliklərə məruz qalmış toxumasından götürülmüş nümunələrdə zədələyici və hepatositotoksik xüsusiyyətlərə malik bioloji aktiv maddələr və heyvanların ölümünə səbəb olan orta molekul çəkili peptid təbiətli maddələr aşkar edilmişdir [5]. Qaraciyər və böyrək toxumalarında struktur dəyişiklərinin xüsusiyyəti, o cümlədən ölümlə nəticələnmə hallarının təkrarlanması qanda həmin peptidlərin miqdarından birbaşa asılıdır. Hepa- tositlərin nekrozu nəticəsində qaraciyərdə əmələ gəlmiş oliqopeptidlər və OM-dan başqa qaraciyərin funksional immun fəaliyyətinin obturasion xolestaz şəraitində kəskin aşağı düşməsi hesabına qanda və orqanizmin daxili mühitlərində toplanmış toksik xassəli məhsullar EİS-nun davam etməsinə və inkişafına təkan verir, onun daha da dərinləşməsinə səbəb olur. Qaraciyərdə sidik cövhərinin biosintezinin azalması hesabına xammalın (ammonyakın) normadan yüksək hədlərdə toplanması və davamlı artımı baş verir. Bu, mərkəzi sinir sisteminin (MSS) əvvəl funksional, sonrakı mərhələlərdə isə üzvi pozğunluqlarının, xüsusi ilə qaraciyər komasının (hepatotoksik və ya hiperammoniemik ensefalopatiyanın) kliniki şəkilinin formalaşmasının olduqca mühüm səbəblərindən biridir [6].

Bir sıra elmi tədqiqatların əsas mövzusunu və məqsədini ödçıxarıcı yolların dekompressiya-sından sonra qaraciyər çatmamazlığının (QCÇ) inkişaf etməsi səbəblərinin öyrənilməsi təşkil etmiş-dir. Öd dekompressiyasından sonra EİS-nun şiddətlənməsi immun sistemin funksional aktivliyinin stabilləşməməsi, QCÇ-nın başlaması, ümumi qan cərəyanına əlavə endotoksinlərin daxil olması ilə «reperfuziya» sindromunun inkişafnın nəticəsi kimi qiymətləndirilir. Toxuma depolarından peptid-lərin çıxmasının LPO-nin fəallaşmasına, qaraciyərin zədələnmə zonalarının (ocaqlarının) genişlənməsinə və QCÇ-in başlamasına səbəb olması hesab edilir.

Ümumiyyətlə, MS zamanı qaraciyərin funksional vəziyyətinin pozğunluqları patoloji reaksiyaların bir-biri ilə üzvi əlaqəli 2 həlqəsini təşkil edir: durğun ödün zədələyici komponentləri və qaraciyərin mikrodamarlarının massiv vazospazmı ilk növbədə hepatositlərin birincili, məhdudlaşmış zədələnmələri ilə nəticələnir. Qaraciyərin nekroza uğramış toxumasının autolizi hesabına əmələ gəlmiş birləşmələr, orta molekul çəkili və peptid təbiətli maddələr, digər bioloji aktiv maddələr qaraciyərin parenximasında patoloji prosesin yayılmasına və dərinləşməsinə, həmçinin həyati əhəmiyyətli digər orqanların (böyrəklər, ürək, ağciyərlər və b.) və sistemlərin, xüsusi ilə MSS-ın ciddi zədələnmələrinə səbəb olur.

Fibronektin hüceyrəarası matriksin əsas zülallarından biridir, qeyri-kollagen strukturlu qlikoproteindir, bir çox hüceyrələr tərəfindən sintez edilərək hüceyrəarası sahəyə ötürülür. Bu zülal kollagen, proteoqlikanlar, hialuron turşusu, plazmatik membranın karbohidratları, heparin və

transqlutaminazanı birləşdirir və öz strukturuna görə hüceyrəarası maddənin təşkilində inteqrasi-yaedici rol oynayır, həmçinin hüceyrələrin adgeziyasının təminində iştirak edir.

Fibronektinin 2 forması məlumdur: toxuma və dövr edən. Toxuma fibronektini hüceyrələrin liflərinin və birləşmələrinin keçilməzliyini təmin edir. Dövr edən fibronektin isə məhv edilməli materialların makrofaqlara, endoteliyə və digə hüceyrələrə adgeziyasını törədir.

Son illərin tədqiqatlarının nəticələrinə görə fibronektin və fibronektinopatiya sepsisin etibarlı meyarlarıdır. Fibronektin polivalent liqand kimi müxtəlif kimyəvi təbiətli əksər bioloji aktiv makromolekullarla (heparin, fibrinogen və fibrin, nativ və denaturasiya olunmuş kollagen, laxtalanmanın XII faktoru, hüceyrədaxili aktin, nativ və denaturasiya olunmuş DNT, həmçinin əksər qram-müsbət və bəzi qram-mənfi bakteri-yalar) birləşmək qabiliyyətinə malikdir. O, makrofaqların kolloidləri "tanıması" üçün vacib olan hüceyrə proliferasiyası prosesində iştirak edir, və qanda bu proteinin miqdarı retikuloendotelial sistemin funksional aktivliyinin mühüm göstəricisi hesab olunur. Septik proseslər zamanı qan plazmasında fibronektinin kəskin azalması müəyyən edilir. Çox güman ki, pozulmuş mübadilə məhsulları və mikrob toksinləri bir tərəfdən fibronektinə tələbatı artırır, digər tərəfdən onun sintezini ləngidir [34]. Solberg C. (1972) təsnifatına görə fibronektin çatmazlığı zərdab opsoninlərinin defisiti ilə əlaqəli immunodefisit hallarına aid edilə bilər. Müəyyən olunmuşdur ki, plazma fibro-nektininin səviyyəsi sepsisin gedişinin ağırlıq səviyyəsinə uyğun olaraq aşağı düşür. Plazmada fibronektininin miqdarı normada 200-400 mkq/l-dir.

Dövr edən immunokomplekslər (DİK) – antigen, anticisim və onlarla birləşmiş C3, C4, C1q komlementlərinin komponentlərindən ibarət komplekslərdir.Normada qan dövranında yaranmış immun komplekslər faqositlərlərlə faqositoza məruz qalır və parçalanırlar. Ancaq böyük ölçülərdə olan komplekslər (antigen artıqlığı zamanı və onların strukturunda İgM, komplemenentin C1q-komponenti olduqda) perivaskulyar sahədə və böyrəklərin qabıq maddəsində toplanaraq komplementin aktivasiyası və iltihab proseslərini törədirlər. İmmun komplekslərə qarşı patoloji reaksiyalar onların əmələ gəlməsinin eliminasiyasına münasibətdə üstünlüyü, komple-mentin bir və ya bir çox komponentlərin defisiti və ya faqositar sistemin funksioanl defektləri zamanı meydana çıxır [11, 18, 35].

DİK-in artımı kəskin bakterial, göbələk, parazitar və virus infeksiyalarına; autoimmun xəstəliklərə, kollagenozlara, revmatizmə, qlomeru-lonefritə. Allergik alveolitlərə, vaskulitlərə, Artius fenomeninə; immunokopmpleks xəstəliklərə, zər-dab xəstəliyinə və III tip allergik reaksiyalara xarakterikdir [24]. Qan plazmasında DİK-in normal göstəricisi 30-90 BV/ml hədlərindədir [25, 35].

Beləliklə, xoşxassəli obturasion xolestaza səbəb olan cərrahi patologiyanın erkən müddət-lərdə operativ korreksiyası, orqanizmin immun sistemin dəyişiklilərinin adekvat tənzimi və endogen intoksikasiya sindromunun aradan qaldırılması müalicənin ümumi nəticələrinin yaxşılaşdırılmasın-da müstəsna əhəmiyyət kəsb edən əsas amillərdir.

ƏDƏBİYYAT

1. Agayev B.A., Məmmədov Ə.Ə., Yaqubov V.Ş. Bəzi postxolesistektomik sindromların qarşısının alınmasında və aradan qaldlrılmasında elektromaqnit sahəsinin effektivliyi //Azərbaycan Tibb Jumalı, 2003, №1, s.5-8
2. Bayramov N.Y. Öd yollarının cərrahi xəstəlikləri. Ankara, 2004, 320 s
3. Гальперин Э.И., Котовский А.Е., Момунова О.Н. Механическая желтуха, печеночная недо-статочность и декомпрессия желчных протоков / Материалы IV Конгресса Московских хирургов «Неотложная и специализированная хирургическая помощь». М., 2011, с.213-214
4. Дедерер Ю.М., Крьтова Н.П., Шойхет Я.Н. Патогенез, диагностика и лечение механической желтухи. Красноярск, 2010, 176 с.
5. Дябкин Е.В. Механическая желтуха неопухолевого генеза: состояние иммунитета и методы коррекции: Автореф. дисс. ... к.м.н. Красноякск. 2011, 28 с.
6. Мачулин Е.Г. Механическая желтуха неопухолевого генеза. Минск: Харвест, 2010, 86 с.
7. Agayev B.A., Məmmədov Ə.Ə. Maqnitoterapiyanш ödün fiziki-kimyəvi xiisusiyyətlərinə təsiri / Avrasiya cərrah və qastroent. VI Beynəlxalq Konqresinin materialları. Bakı, 2003, s.15-18
8. İsayev H.B. Kliniki və operativ septiki cərrahiyyə. Bakı, 2007, 318 s.
9. İskəndərov E.A. Qeyri-şiş mənşəli mexaniki sarılıqlar zamanı qaraciyərin pozulmuş mikrosirkulyasiyasının korreksiyasının bəzi aspektləri: T.e.n. diss.. avtoreferatı. Bakı. 2007, 24 s.
10. Məmmədov Ə.Ə. Mexaniki sarılıqlar zamanı maqnit-İQ lazer terapiyasının tətbiqi // Azərbaycan tibb jurnalı, 2004. № 4, s. 149-2
11. Nəsirov M.Y., Talıbov Ş.T., İsrafilova G.T. Aşağı intensivlikli lazer şüalarının şəkərli diabetin irinli-

nekrotik ağırlaşmaları olan xəstələrdə tətbiqi // Cərrahiyyə, 2005, № 4, s.16-1

12.Yaqublu V.Ş. Öd yollarının xoşxassəli obturasiyaları zamanı elektromaqnit sahəsinin əməliyyatdan sonrakı dövrdə ödün fiziki-kimyəvi xassələrinə təsiri /T.e.n. alimlik dərəcəsi almaq üçün dissertasiyanın avtoreferatı. Bakı. 2007, 21 s.

13.Tağıyev E.Q. Oburasion sarılıqda endogen intoksikasiyanın vəziyyəti // Azərbaycan Təbabətinin müasir nailiyyətləri, 2015, № 1, s. 96-9

14.Agayev R., Allazov T., Jafarli R. Use of ozonotherapy in the treatment of mechanical jaundice in experiment / Abstracts of IX International Euroasian Congress of Surgery and Gastroenterology. Baku, 2006, p. 164-5

15.Болевич С.Б., Ступин В.А., Гахраманов Т.В. Особенности течения свободно-радикальных процессов у больных с обтурационной желтухой и методы их коррекции //Хирургия, 2010, № 7, с.65-0

16.Гейниц А.В., Мамедов А.А., Мамедов М.М. Влияние сочетанных переменной магнитотерапии и инфракрасной лазеротерапии на перекисное окисление липидов у больных с механической желтухой // Metabolizm jurnalı, 2004, № 2, s. 23-6

17.Гейниц А.В., Мамедов А.А., Мамедов М.М. Пути коррекции холединамического нарушения при механической желтухе неопухолевого генеза // Bilgi. Kimya, biologiya, tibb, 2004, № 4, s.117

18.Гейниц А.В., Мамедов А.А., Мамедов М.М. Применение переменного магнито-инфракрасного лазерного излучения в профилактике и лечении печеночной недостаточности при механической желтухе //Анналы хирургии, 2004, № 4, с.45-48

19.Мамедли З.З., Емельянов С.И., Панфилов С.А. и др. Показатели клинической эффективности чреспеченочного дренирования у больных с механической желтухой // Cərrahiyyə, 2009, № 4 (1), s.33-8

20.Мамедов А.А. Эффективность магнито-ИК лазерной в крооекции эндотоксикоза у больных механической желтухой //Sağlamlıq, 2007, № 2, s. 70-76

21.Гальперин Э.И., Котовский А.Е., Момунова О.Н. Оптимальный уровень билирубинемии перед выполнением операции у больных механической желтухой опухолевой этиологии //Анналы хирургической гепатологии, 2011, Т. 16, № 1, с. 45-1

22.Жилина Н.М. Прогностический индекс эндогенной интоксикации //Вестник новых медицинских технологий, 2008,Т. 5, № 3-4, с. 81-4

23.Зубовская Е.Т, Колб В.Г. Синдром эндогенной интоксикации // Здравоохранение Беларуси. 2004,№ 9,с. 60-6

24.Короткий В.Н., Василинчук В.В., Вовк З.В. Оценка содержания средних молекул в крови больных с хирургической патологией // Клиническая хирургия, 2008, № 23, с. 25-7

25.Марусанов В.Е. и др. Характеристика стадий эндогенной интоксикации // Эфферентная терапия, 2006,Т.1, №11, с. 26-0

26.Хоконов М.А., Силина Е.В., Ступин В.А. и др. Свободно-радикальные процессы у больных с острым калькулезным холециститом // Хирургия, 2011, №1, с.68-4

27.Федоров В.З. Хирургическое лечение неопухолевой механической желтухи с учетом фаз эндотоксикоза / Сб. науч. тр. «Новые технологии в медицине». Саратов, 2009, с. 186-9

28.Dracota Z., Hord R., Janda J. Effect of bilirubin and its photodegradation products on the respiration of mitochondria isolated from rat liver // J Physiol. bohenosi., 2007, v.29, p.241-4

29.Engin A., Altan N. Effects of obstructive jaundice on the antioxidative capacity of human red blood cells // Haematologia (Budap), 2012, v.30(2), No 9, p. 96-9

30.Greig J.D. Surgical morbidity and mortality in one hundred and twenty-nine patients with obsructive jaundice // Brit. J. Surg., 2011, v.75, p. 216-9

31.Kimmings A.N., van Deventer O.J., Obertop H. et al. Endotoxin, cytokines, and endotoxin binding proteins in obstructive jaundice and after preoperative biliary drainage // Gut, 2010, No 46(5), p. 725-1

32.Travacio M., Llesuy S. Antioxidant enzymes and their modification under oxidative stress condition // Oencla Cultura Journal of the Brazilian Assoc. or the Advancement of Science, 2008, v.48, p. 9-

33.Yilmaz S., Kirimlioglu У., Katz D.A. et al. Palliative decompression of obstructive hilar malignancies utilizing an extrahilar biliary approach // Dig Dis Sci., 2000, v.45(8), p.1585-93.

1. Vinod S. H., David E.J.J. Complications of cholestasis // Medicine, 2015, v.43, p. 666-8

2. Larson S.P., Kovilam O., Agrawal D.K. Immunological basis in the pathogenesis of intrahepatic cholestasis of pregnancy // Expert Rev Clin Immunol., 2016, v.12, Issue 1, p. 39-8

Резюме

Современные взгляды на этиологическую структуру и патогенез изменений иммунной системы организма и синдрома эндогенной интоксикации при доброкачественном обтурационном холестазе

Б.А. Агаев, Д.М. Магеррамов

В данном обзоре обобщены современные научные данные по этиологической структуре и патогенезу изменений иммунной системы организма и синдрома эндоген-ной интоксикации при доброкачественном обтурационном холестазе.

Summary

The modern view on etiological structure, pathogenesis of changing human immune system, and the endogen intoxication syndrome during the benign obstructive cholestasis

B.A. Aghayev, D.M. Maharramov

Despite the large number of the research investigations, expeiments as well, the immune system disbalance, and the main indications of the endogen intoxicationhaven't been learned enough, and it steel leav's some disputable moments.

Daxil olub:10.12.2015

ПИЩЕВАЯ ПОВАРЕННАЯ СОЛЬ КАК НОСИТЕЛЬ ФТОРИДА И ЙОДА. ФТОРИРОВАННО-ЙОДИРОВАННАЯ СОЛЬ КАК КАРИЕСПРОФИЛАКТИЧЕСКОЕ СРЕДСТВО В ЙОДДЕФИЦИТНЫХ ЗОНАХ

Р.М. Ахмедбейли

Азербайджанский Медицинский Университет, Кафедра терапевтической стоматологии

***Açar sözlər*:** flüorlaşdırılmış duz, flüorlaşdırılmış və yodlaşdırılmış duz, kariyesin profilaktikası
***Ключевые слова*:** фторированная соль, фторированно-йодированная соль, профилактика кариеса
***Key words*:** fluoridated salt, fluoridated and iodized salt, prevention of caries

На сегодняшний день в мире имеется ряд стран, где на основании регулирующих государственных органов, пищевая поваренная соль с целью снижения заболеваемости кариесом используется как носитель фторида, а в йоддефицитных зонах – как носитель фторида и йода [1,2,10,11,17,19,26,29].

Впервые после одобрения к производству и начала продажи фторированной соли в Швейцарии в 1955 году, последовали соответствующие шаги в 1983 году в Испании, в 1986 г. во Франции, в 1991 г. в Германии, в 1992 г. в Бельгии, в 1995 г. в Австрии, в 1997 г. в Чехской Республике, в 1999 г. в Словакии [11].

Baş və boyun nahiyəsinin yerli yayılmış xərçənginin kəsilib götürülməsindən sonra əmələ gələn defektlərinin təsnifatının əsasını onların lokalizasiyası və zədələnmə dərinliyi təşkil edir. Bu məqsədlə baş və boyun nahiyəsinin zonalara bölünməsi məqsədəuyğundur, belə ki, damar ayaqcıqlı parçaların yerdəyişməsi zamanı əmələ gələn defektin donor nahiyəsindən olan məsafəsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda bu və ya digər nahiyənin dərisinin zədələnmə tezliyi də mühüm rol oynayır.

Ədəbiyyat məlumatlarının tədqiqi göstərir ki, biri qaşüstü qövslərdən, digəri ağız bucaqlarından, üçüncüsü isə trapesəbənzər əzələlərin ön kənarlarından keçən horizontal xəttlər vasitəsi ilə baş və boyun nahiyəsinin səthinin beş: boynun ön və arxa zonaları, üzün aşağı və orta zonaları və başın tüklü hissəsi - skalp zonasına bölünməsi daha məqsədəuyğun hesab edilə bilər (şəkil). Baş və boyun nahiyəsi dərisinin xərçənginin geniş kəsilib götürülməsindən sonra əmələ gələn defektlərin dərinliyinə görə təsnifatın əsasını çıxarılan toxumaların tərkibi təşkil edir. Bu təsnifata görə defektlər sadə, kombinəolunmuş və müştərək olmaqla üç qrupa bölünür. Dəri xərçənginə münasibətdə sadə (ancaq dəri), kombinəolunmuş (iki toxuma növü- dəri-piy, dəri-selikli qişa, dəri-fassiya, dəri-qığırdaq, dəri-sümük) və müştərək defektlər (üç və ya çox toxuma növü- dəri-piy-sümük, dəri-piy-selikli qişa, dəri-selikli qişa-sümük) ayırd edilir. Adətən sadə defektər dəri-piy (alın, gicgah, boyun, burun-dodaq, deltopektoral) və dəri-fassial parçaları, kombinəolunmuş defektlər isə dəri-əzələ (trapesəbənzər, dərialtı, böyük döş əzələsi, döş-körpücük-məməyəbənzər əzələ) parçaları ilə bərpa olunur. Dəri-piy parçalarından istifadəyə 1965-ci ildən Bakamjian deltopektoral parçanı ayırd etdikdən sonra başlanmışdır [6]. Metodun boyun parçalarından üstünlüyü şişlə zədələnən nahiyədən uzaqda olmasıdır ki, şüa müalicəsi almış xəstələrdə mühüm əhəmiyyət kəsb edir. Metodun çatışmayan cəhətlərinə çoxetaplılığı, funksional nəticələrinin pis olması, və tüklü nahiyəli dəri sahəsinin olmasıdır. Alın, gicgah və burun-dodaq nahiyəsindən götürülən dəri-piy və dəri-fassial parçalar üz və burun dərisinin xərçəngində daha yararlı hesab olunur [2,4,12]. Deltopektoral parça boyun dərisi defektində daha effektlidir [6]. Dəri-əzələ parçaları baş və boyun nahiyəsinin bədxassəli şişlərində hal hazırda ən geniş istifadə olunan plastik materialdır. Bu məqsədlə ən çox döş-körpücük-məməyəbənzər [10], trapesəbənzər [9], dərialtı [14], böyük döş əzələlərindən [11,15] istifadə olunur.

Döş-körpücük-məməyəbənzər əzələ üzərində dəri-əzələ parçası üzün aşağı zonasının dərisinin şiş defektində daha yararlıdır. Bu əzələ körpücük sümüyü ilə birlikdə dəri-əzələ-sümük parçası şəklində çənə sümüyünün şiş prosesinə ikincili cəlb olunduğu hallarda onun rekonstruksiyasında da istifadə oluna bilər. Bu plastika metodunun çatışmayan cəhətinə boyun metastazları olduğu təqdirdə istifadəsinin çətinliyidir.

Dərialtı əzələ üzərində dəri-əzələ parçası ilə plastika üçün ideal nahiyələr üzun orta və aşağı zonalarıdır. Bu dəri-əzələ parçasının çatışmayan cəhətlərinə əzələnin zərif olması və şüa müalicəsi almış xəstələrdə istifadəsinin məhdudluğudur. Dərialtı əzələ üzərində dəri-əzələ parçası əsasən üzün orta zonasının defektinin plastikası üçün istifadə olunur. Əvvəllər aparılmış yüksək doza (COD 50 Qr-dən çox) parçanın qan dövranının pozulmasına səbəb olur və onun istifadə imkanlarını məhdudlaşdırır. Eyni zamanda dərialtı əzələnin zəif inkişaf etməsi səbəbindən onun qadınlarda istifadəsi məqsədəuyğun deyildir.



Şək. Baş-boyun nahiyəsinin zonları; 1-boynun ön zonası, 2-boynun arxa zonası, 3-üzün aşağı zonası, 4-üzün orta zonası, 5- başın tüklü hissəsi-skalp zonası

Böyük döş əzələsi üzərində dəri-əzələ parçası baş-boyun toxumalarının rekonstruksiyasında aparıcı rol oynayır. Bu dəri-əzələ parçasının üstün cəhətlərinə onun formalaşdırılmasının asan olması, etibarlılığı, rekonstruksiyanın bir etaplı olmasıdır. Parçanın əlavə üstünlüklərinə onun boynun şüalanma zonasından kənarda olması, boyun disseksiyası aparılmış xəstələrdə yuxu arteriyalarının etibarlı bağlanmasıdır. Son onilliklərdə cərrahiyyənin sürətli inkişafı ilə əlaqədar bədxassəli şişlərə görə aparılan cərrahi əməliyyatdan sonrakı defektlərin bərpasında sərbəst toxuma parçalarından istifadə edilir. Mikrocərrahi rekonstruksiya erası keçən əsrin 70-ci illərindən başlamış və XXI əsrin əvvəlindən sürətli inkişaf dövrünü yaşayır. Hal-hazırda baş və boyun nahiyəsi dərisinin xərçənginin mikrocərrahi rekonstruktiv plastikasında daha çox said nahiyəsindən götürülmüş sərbəst dəri-fassial mil parçasından [13], budun yan səthindən götürülmüş lateral dəri -fassial parçadan [7] istifadə olunur.

Beləliklə baş-boyun dərisinin yerli yayılmış birincili və residiv xərçənginin cərrahi müalicəsi zamanı əmələ gələn toxuma defektlərinin bərpasında müxtəlif tərkibli rekonstruktiv materiallardan istifadə müalicənin kafi onkoloji və funksional nəticələrinin alınmasına imkan verir.

ƏDƏBİYYAT

1. Аксел Е.М. Состояние онкологической помощи населению России и стран СНГ в 2005 г. Вестник Российского онкологического научного центра им. Н.Н.Блохина. 2007, с.2-9.

2. Дашкова И.Р. Индивидуализация реконструктивно-пластических операции в лечении злокачественных опухолей поверхностных локализации: Автореф. дис. …докт. мед. наук. 2009, 43 с.

3. Неробеев А.И., Плотников Н.А. Восстановительная хирургия мягких тканей челюстно-лицевой области. М.:Медицина, 1997, 283 с.

4. Реконструктивные операции при опухолях головы и шеи / Под редакцией Е.Г.Матякина. Изд."Вердана", 2009, с.223

5. Backous D., Demonte F., El-Naggar A., Wolt P., Weber R. Craniofacial rezection for nonmelanoma skin cancer of the head and neck // Laryngoscope, 2005, v. 115, N6, p.931-37
6. Bakamjian V.Y. A.two-stage method for pharyngoesophageal reconstruction with a primary pectoral skin flap // Plastic and Reconstructive Surgery, 1965, v.36, p.173.
7. Deschler D., Hayden R. Lateral thigh free flap // Fac Plast Surg., 1996, v.12, p.75-79
8. Hell B. Reconstruction of large defects in the head and neck region with free flaps. 2-nd International congress on oral cancer. New Deli, 1991, p.80
9. Herler N., Novelli J. Lateral trapezius myo and osteomyocutaneous flap on head and neck reconstruction //Oral diseases,1997, v. 3, N 2, p. 63
10. Larson D., Yoephert H. Limitation of the sternocleidomastoideus flap for head and neck cancer // Plast. Reconst. Surg., 1982, v.70 (3), p.328-32.
11. Liwr, Gullane P., Brown D. et al. Pectoralis mayor myocutaneus pedicled flap in head and neck reconstruktion: retrospektiv review of inducation results in 244 consecutive cases at the Toronto General Hospital // Y.Otolaryngol., 2001, v.30, p.34-40.
12. Maserer P., Eskert A., Schuber Y. Functional rehabilitation following resection of the floor of the month: the nasolabial flap revisited // J.Craniomaxillofacial Surg., 2002, v.30 (6), p. 369-72.
13. Moscoso J., Urken M. Radial forearm flaps // Otolaryngol Clin North Am., 1994, v.27, p.119-1140
14. Tutrel J., Jnous M., Edgerton M., Cautrell R., Fitz-Hygh Y. Platizma myocutaneus flap for intrareconstraction // Am. J. Surg., 1978, v.13, p. 504-511.
15. Vartamian J., Carvalho A., Carvalho S. et al. Pectoralis major and other myofascial myocutaneus flaps in head and neck cancer reconstruction: Experience with 437 cases at a single institution // Head Neck., 2004, v.26, N 12, p.1018-1023.

Резюме

Реконструктивно-пластическая хирургия рака кожи головы и шеи

С.М. Зейналова, Н.М. Амиралиев, Я.М.Гатамов

Несмотря на визуальную локализацию до 20% больных раком кожи обращаются в клиники на III-IV стадии заболевания, а частота местнораспространённых рецидивов составляет 10-15%. Основным методом лечения местнораспространённых форм рака кожи головы и шеи является реконструктивно-пластическая хирургия. В статье на основании данных литературы прослежены этапы развития реконструктивно-пластической хирургии рака кожи головы и шеи, проведена сравнительная оценка эффективности различных методов реконструктивно-пластической хирургии.

Summary

Reconstructive-plastic surgery of skin cancer on scalp and neck

S.M. Zeynalova, N.M. Amiraliyev, Y.M.Hatamov

Despite the visual localization, 20% of the patients with skin cancer apply to the clinic at the III-IV stages of the disease, meanwhile, locally advanced recurrence frequency contains 10-15%. The main treatment method of locally advanced skin cancer on scalp and neck is reconstructive-plastic surgery. In this article, the comparative assessment of the efficiency of different reconstructive-plastic surgery methods is conducted, on the basis of literature data regarding the progress stages of reconstructive-plastic surgery of the skin cancer on scalp and neck.

Daxil olub:28.01.2016

AZƏRBAYCANIN BƏZİ REGİONLARINDA APARILAN QEYSƏRİYYƏ KƏSİYİ ƏMƏLİYYATLARINA GÖSTƏRİŞLƏRİNİN TEZLİYİ VƏ STRUKTURUNUN ÖYRƏNİLMƏSİ

A.F. Əmirova, N.A.Şahbazova

Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı

Açar sözlər: qeysəriyyə kəsiyi, regionlar, göstərişlər, tezlik, struktur
Ключевые слова: кесарево сечение, регионы, показания, частота, структура
Keywords: Cesarean section, regions, indications, frequency, structure

Müasir mamalıqda Qeysəriyyə kəsiyi (Q/K) əməliyyatı problemi bu günə kimi aktuallığını itirmir, ana və döl üçün yaranan ağırlaşmaların yeni azalma yollarının axtarılmasını tələb edir [1,2,3].

Aparılan işin **məqsədi** Qeysəriyyə kəsiyi əməliyyatından sonra ana və perinatal xəstələnmə və ölüm hallarının azaldılması və yüksək səviyyəli mamalıq klinikasında operativ doğuşların optimal tezliyinin elmi əsaslandırılması.

Tədqiqatın material və metodları. Q/K əməliyyatın göstərişlərin tezliyinin və strukturunun öyrənilməsi, eyni zamanda bu göstəricinin artmasına təsir edən amillərin aşkarlanması, Q/K əməliyyatından sonra baş verən fəsadların tezliyinin və strukturunun öyrənilməsi, əməliyyat zamanı və əməliyyatdan sonrakı dövrlərdə bu fəsadları aradan qaldırmaq üçün müalicə-profilaktik sistemin tərtib edilməsi, Q/K əməliyyatının yenidoğulmuşların vəziyyətinə, dezadaptasiya tezliyinə, postnatal xəstələnmə və ölüm göstəricilərinə təsirinin öyrənilməsi, Abdominal yolla doğuşdan sonra qadınlarda laktasion funksiyanın öyrənilməsi, Q/K əməliyyatından sonra döşlə əmizdirən və əmizdirməyən qadınlarda müasir kontraseptiv üsulların istifadə prinsiplərinin tərtib edilməsi, Q/K əməliyyatından sonra növbəti hamiləlik zamanı təbii yolla doğuşu idarə etmək üçün hamilə qadınlar qruplarının formalaşması üçün meyarların hazırlanması.

Bakı üzrə monitorinq həm dövlət doğum evlərində, həm də özəl klinikalarda aparılmışdır. Dövlət müəssisələrində aparılan araşdırmalar (2, 4, 5, 7 saylı doğum evləri, 3 saylı şəhər klinik xəstəxanası, KTM-in doğum şöbəsi, Ə.D.Məlikov adına 6№-li BŞX-sı və Respublika Perinatal mərkəzi) nəticəsində aşağıdakı məlumatlar alınmışdır: **2 saylı doğum evinin** məlumatları (9 aylıq) - doğuşların ümumi sayı – 4280, onlardan Q/K sayı- 1646 (38,4%), 37 həftədən yuxarı - 1524 (92,6%), 34-37 həftələrdə -110 (6,7%), 34 həftəyə qədər-12 (0,7%), uşaq ölümü- 5 (0,3%). Ana tərəfdən fəsadlar- subtotal histerektomiya- 4, total histerektomiy-3. **3 saylı doğum evinin** məlumatları (9 aylıq) - doğuşların ümumi sayı- 1230, onlardan Q/K sayı- 271 (22%), 37 həftədən yuxarı- 253 (93,4%), 34-37 həftələrdə -18 (6,6%). **4 saylı doğum evinin** məlumatları (10 aylıq)- doğuşların ümumi sayı- 2006, onlardan Q/K sayı- 483 (24%). 37 həftəyə qədər- 7 (1,5%), uşaq ölümü -9 (1,8%). **5 saylı doğum evinin** məlumatları (9 aylıq) - doğuşların ümumi sayı- 2832, onlardan Q/K sayı- 1415 (50%), 37 həftəyə qədər- 182(12,8%). Ana tərəfdən fəsadlar-1 qadında fibromiomaya görə uşaqlığın ekstirpasiyası və 5 nəfərdə qanaxmaya görə uşaqlığın subtotal histerektomiyası əməliyyatı icra olunmuşdur.**7 saylı doğum evinin** məlumatları (9 aylıq) - doğuşların ümumi sayı-4726, onlardan Q/K sayı- 1247 (26,4%), 37 həftəyə qədər v/qabaq-70 (1,5%). **Ə.D.Məlikov adına 6 saylı BŞX-nın məlumatları** (9 aylıq)- doğuşların ümumi sayı- 1053, onlardan Q/K sayı- 229 (21,7%). 34-37 həftədə -1 (0,4%) uşaq doğulub, uşaq ölümü- 0, ana tərəfdən ağırlaşma- 2 (qanaxma, total histerektomiya), ana ölümü-1. **3 saylı ŞKX-nın** məlumatları (6 aylıq)- doğuşların ümumi sayı- 2101, onlardan Q/K sayı- 654 (31,1%). 28-34 həftəlik- 22 uşaq (3,4%), 34-37 həftədə -57 (8,7%) uşaq doğulub, 4 uşaq ölüb (3 uşaq- 34-37 həftədə, 1 uşaq- 39-40 həftədə). **KTM-in doğum şöbəsinin** 01.01.2014-30.09.2014ilin məlumatları- doğuşların ümumi sayı (9 aylıq)-2470, onlardan Q/K sayı- 993 (40,2%). Bu müddət ərzində 4subtotal histerektomiya,1total histerektomiya aparılıb, səbəbləri- 4 halda atonik qanaxma,1 halda isə uşaqlığın coxsaylı mioması. **Respublika Perinatal Mərkəzinin** məlumatları- doğuşların ümumi sayı (5 aylıq)- 984, onlardan Q/K sayı - 510 (51,8%), 28 həftəyə qədər- 1 (0,2%), 28-34 həftəlik- 92 (18%), 34-37 həftədə - 117 (23%). Uşaq ölümü Q/K sonra- 15% (77 uşaq) təşkil etmişdir. Yuxarıda qeyd olunan dövlət tibb müəssələr üzrə cərrahi doğuşlara göstəricilərin strukturunun araşdırılması nəticəsində məlum olmuşdur ki, Q/K əməliyyatına əsas göstərişlər aşağıdakı Cədvəl 1-də göstərilir.

Cədvəl 1

Dövlət müəssisələrində (2, 4, 5, 7 saylı doğum evləri, 3 saylı şəhər klinik xəstəxanası, KTM-in doğum şöbəsi, Ə.D.Məlikov adına 6№-li BŞX-sı və Respublika Perinatal mərkəzi) üzrə cərrahi doğuşlara göstəricilərin strukturu

Müəssənin adı / Q/K göstərişlər	2SaylıDE	3Saylı DE	4Saylı DE	5Saylı DE	7Saylı DE	6Saylı DE	3Say ŞKX	KTM	RPM
Uşaqlıqda çapıq, (%)	19,8	25,5	28,6	34,3	29,8	30,1	41,1	46,4	34,1
Çanaq gəlişi, (%)	9,8	11,8	8	12,4	14,7	6,1	8	6	7
Döl tərəfdən göstəriş, (%)	8,6	11,4	6,4	7,5	1,8	4,0	4,3	6,3	6,9
Preeklampsiya, (%)	4,5	7,7	5,8	7,8	4,2	2,6	22,3	5.9	13,1
Ciftin v/ə qopması və Cift gəlişi, (%)	3,6	5,9	4,1	3,3	5,7	7,9	2,1	5,9	8,6

Dar çanaq (kliniki və anatomik), (%)	6,4	5,5	6,4	4,6	3,6	14	4	4,7	5,5
Doğuş fəaliyyətinin anomaliyası, (%)	12,9	5,5	20	1,3	0,2	6,6	2,1	1,7	8,8
Dölün düzgün olmayan vəziyyəti, (%)	15,4	8,5	4,8	3,2	26,5	5,2	2,4	5,4	3,5
Digər, (%)	2,2	1,8	6,5	3,8	3,9	10,8	2,1	2	2,1
FMA, FGA, (%)	9,5	10,3	2,8	14,2	2	6,1	3	4,3	7,8
Ekstragenital göstəriş, (%)	7,3	5,9	6,6	7,4	7,3	6,6	8,4	11	2,6

Hesabat dövründə Bakı şəhəri üzrə tematik kartlar əsasən 3 özəl tibb müəssisələrində toplanılmışdır: "Astoriya", "Nigar" və "Baku Medikal Plaza" klinikalarında. Məlum oldu ki, bu il 9 ay ərzində klinikada 2300 doğuş olmuşdur, onlardan 1421-i cərrahi yolla başa çatmışdır-61,8%. Qeysəriyyə kəsiyinə göstərişlərin strukturunun öyrənilməsi üçün doğum tarixlərinin təhlili aparılmışdır və aşağıdakı nəticələr alınmışdır. "Astoriya" tibb mərkəzində aparılmış doğuşların təhlili göstərmişdir ki, 10 ay ərzində cəmi 2082 doğuş aparılmışdır, bunlardan 628 təbii yolla, 1454(70%)- cərrahi yolla başa çatmışdır. ''Nigar'' klinikasında aparılmış doğuşların təhlili göstərmişdir ki, 9 ay ərzində cəmi 1046 doğuş aparılmışdır, bunlardan 364 təbii yolla, 682 (71,7%) cərrahi yolla başa çatmışdır. Yuxarıda qeyd olunan özəl klinikalar üzrə cərrahi doğuşlara göstəricilərin strukturunun araşdırılması nəticəsində məlum olmuşdur ki, Q/K əməliyyatına əsas göstərişlər aşağıdakı cədvəl 2-də qeyd olunmuşdur.

Cədvəl 2

Özəl tibb müəssisələrində ("Baku Medikal Plaza", "Astoriya" və "Nigar") üzrə cərrahi doğuşlara göstəricilərin strukturu

Müəssənin adı / Q/K göstərişlər	"Baku Medikal Plaza"	"Astoriya"	"Nigar"
Uşaqlıqda çapıq, (%)	41	36	40,9
Çanaq gəlişi, (%)	7	7,7	11,1
Döl tərəfdən göstəriş, (%)	3	6,7	4
Preeklampsiya, (%)	3,2	4,1	4
Ciftin v/ə qopması və cift gəlişi, (%)	4,5	3,3	4,7
Dar çanaq (kliniki və anatomik), (%)	4,1	6,2	4,7
Doğuş fəaliyyətinin anomaliyası, (%)	6,5	1,8	4,2
Dölün düzgün olmayan vəziyyəti, (%)	1	1	6,1
Digər, (%)	1,2	2,5	3,7
FMA, FGA, (%)	19	8,5	10
Ekstragenital göstəriş, (%)	9,5	12,7	6,7

Regionlar üzrə hal-hazırda qeysəriyyə kəsiyi əməliyyatları üzrə monitorinq aşağıdakı rayonlarda aparılıb: İmişli, Beyləqan, Füzuli- I səviyyəli müəssisələr, Bərdə- II səviyyəli müəssisə, Lənkəran və Şəki - III səviyyəli müəssisələr. Qeyd olunan rayonlar üzrə cərrahi doğuşlara göstəri- cilərin strukturunun araşdırılması nəticəsində məlum olmuşdur ki, q/k əməliyyatına əsas göstərişlər aşağıdakılardan ibarətdir (Cədvəl 3). Lənkəran Perinatal Mərkəzində 6 ay ərzində ümumi doğuşların sayı 1233 olmuşdur. Onlardan 481 (39%) cərrahi doğuşlar təşkil etmişdir. Planlı Q/K - 325 (67,5%), təcili – 156 (32,5%), 28-34 həftəsində -29 (6%), 34-37 həftələrdə -31 (6,5%), 37-dən yuxarı- 421 (87,5%), ümumi anesteziya -356 (74%), spinal anesteziya- 125 (26%). Şəki Perinatal Mərkəzində hesabat dövründə (6 ayda) 1187 doğuş olub, onlardan cərrahi doğuşlar 326 (27,5%) təşkil etmişdir. Aparılan monitorinq göstərdi ki, Bərdə doğum evində 9 ay ərzində 2984 doğuş olub, onlardan 744 (24,9%)- cərrahi doğuşlar təşkil etmişdir, Agcabədi MRX-nın doğum şöbəsində 616 doğuşdan 155 q/k ilə başa çatmışdır, bu da 25,1% təşkil edib, Agdam MRX-nin doğum evinin göstəriciləri nisbətən aşağı olmuşdur: cəmi 326 doğuş, onlardan 9,2% q/k əməliyyatı ilə nəticələnib. Planlı Q/K- 295 (39,6%), təcili- 449 (60,4%), 28 həftəyə qədər-0,4%, 28-34 həftələrdə-4,6%, 34-37 həftələrdə - 10%, 37-dən yuxarı- 85%, spinal anesteziya- 79,8%. İmişli MRX-nın məlumatları: doğuşların ümumi sayı- 546, onlardan Q/K sayı-141 (25,8%). Beyləqan MRX-nın məlumatları-

doğuşların ümumi sayı-443, onlardan Q/K say-70(15,8%). Füzuli MRX və Füzuli Diaqnostika Mərkəzinin məlumatları- doğuşların ümumi sayı-305, onlardan Q/K sayı- 66 (21,6%).

Nəticələrin müzakirəsi. Beləliklə, Azərbaycanda Q/K əməliyyatın tezliyi 9,2-71,7 % təşkil edir. Q/K əməliyyatın tezliyi doğuşayardım müəssisənin səviyyəsindən asılıdır: ən yüksək rəqəmlər III-cü səviyyəli müəssisələrdə müşahidə olunur (27,5-51,8%, nisbətən aşağı faizlə- II-ci (21,7-50%) və I-ci səviyyəli (9,2-25,8%) müəssisələrdə. Q/K əməliyyatın tezliyi dövlət və özəl sektorlara aid olan klinikalarda fərglənir: dövlət sektorun müəssisələrdə bu göstərici 9,2-51,8% təşkil edir, özəl müəssisələrdə isə - 61,8 -71,7%. Q/K əməliyyatın göstərişlər strukturunda bütün müəssisələrdə uşaqlıqda çapıq qrupuna aid olan hamilələrin faizi üstünlük təşkil edir.

Cədvəl 3

Rayonlarda olan dövlət tibb müəssisələrində (Lənkəran və Şəki - III səviyyəli müəssisələr, Bərdə - II səviyyəli müəssisə, İmişli, Beyləqan, Füzuli – I səviyyəli müəssisələr) üzrə cərrahi doğuşlara göstəricilərin strukturu

Müəssənin adı / Q/K göstərişlər	Lənkəran	Şəki	Bərdə	İmişli	Beylaqan	Füzuli
Uşaqlıqda çapıq, (%)	40,1	33,3	31	33,3	21,4	54,5
Çanaq gəlişi, (%)	7,3	17	5	7,1	10	4,5
Döl tərəfdən göstəriş, (%)	3,7	2	4,5	-	-	-
Preeklampsiya, (%)	7,9	-	11,3	-	-	15,2
Ciftin v/ə qopması və cift gəlişi, (%)	8,1	9,7	5,8	-	10	4,5
Dar çanaq (kliniki və anatomik), (%)	8,7	-	8,5	7,1	37	18,2
Doğuş fəaliyyətinin anomaliyası, (%)	2,5	-	4,2	9,2	9,3	-
Dölün düzgün olmayan vəziyyəti, (%)	1,5	-	11,4	17,7	10	-
Digər, (%)	6	-	2	10,6	1,4	3
FMA, FGA, (%)	14,2	28	9,1	11,4	-	-
Ekstragenital göstəriş, (%)	-	10	7,3	3,5	-	-

I səviyyəli müəssisələrdə Q/K əməliyyatın göstərişlər struktu- runda çapıqdan sonra təcili göstərişlər ön plana çıxırlar (kliniki dar çanaq, doğuş fəaliyyətinin distosiyası və ciftin ayrılması). II səviyyəli doğuşayardım klinikalarda Q/K əməliyyatın göstərişlər strukturunda çapıqdan sonra planlı göstərişlər üstünlük təşkil edirlər (çanaq gəlişləri, dölün düzgün olmayan vəziyyətləri, FMGA və ekstragenital göstərişlər). III-cü səviyyəli müəssisə- lərdə döl tərəfdən göstərişlər önə çıxırlar, təcili mamalıq göstərişlərdən preeklampsiya, ciftin vaxtından qabaq qopması, cift gəlişi, planlı göstərişlərdən isə qadının FMGA daha tez rast gəlinir. Özəl klinikalarda Q/K əməliyyatın göstə- rişlər strukturunda çapıqdan sonra planlı göstərişlər üstünlük təşkil edirlər, əsasən ekstragenital patologiyaların olması və FMGA. Qeysəriyyə kəsiyi əməliyyatın göstərişlər strukturuna əsaslanaraq doğuşayardım müəssisənin öz səviyyəsinə uyğun işləməsi barədə, eyni zamanda antenatal və intranatal xidmətlərin keyfiyyətindən demək mümkündür. Hal-hazırda monitorinq və məlumatların toplanması davam edir.

ƏDƏBİYYAT

1. Ejub Basic, Vesna Basic-Cetkovic, Hadzo Kozaric, Admir Rama. Ultrasound evaluation of uterine scar after cesarean section // Acta Inform Med., 2012, v. 20(3), p.149-153.

2. Durnwald C., Rouse D., Leveno K. et al. The Maternal-Fetal Medicine Units Cesarean Registry: safety and efficacy of a trial of labor in preterm pregnancy after a prior cesarean delivery // Am J Obstet Gynecol., 2006, v.195(4), p.1119-26

3. Guise J., Eden K., Emeis C. et al. Vaginal birth after cesarean: new insights // Evid Rep Technol Assess (Full Rep), 2010, v.191, p.1-397

Резюме

Изучение структуры и частоты показаний проведённых операций кесарево сечения в некоторых регионах Азербайджана

А.Ф. Амирова, Н.А.Шахбазова

Основной целью проведенного исследования явилось уменьшение частоты осложнений, заболеваемости и смертности после операции кесарево сечения на основе изучения частоты и структуры показаний в родовспомогательных учреждениях. Частота проведенных операций кесарево сечения меняется в пределах 9,2-71,7%. Частота кесарево сечения зависит от уровня медицинского учреждения родовспоможения: самые высокие показатели наблюдаются в учреждениях третьего уровня (27,5-51,8%, относительно низкий процент- II (21,7-50%) и первого класса (9,2-25,8%). При сравнительном анализе частоты кесарево сечения в частном и государственном секторах было выявлено, что в учреждениях государственного сектора этот показатель составляет 9,2-51,8%, в то время как в частном секторе- 61,8-71,7%.

Summary

The study of the structure and frequency of caesarean section operations indications in some regions of Azerbaijan

A.F. Amirova, N.A.Shahbazova

The main objective of the study was a reduction in mortality and morbidity after cesarean section by examining the frequency and structure of indications in maternity homes. The frequency of cesarean section varies within 9,2-71,7%. The cesarean rate depends on the level of medical institutions of obstetrics: the highest rates are observed in third-level institutions (27,5-51,8%, a relatively low percentage - II (21,7-50%) and first class (9,2-25, 8%). Comparative analysis of the frequency of cesarean sections in the private and public sectors has been revealed that in the public sector institutions the rate is 9,2-51,8%, whereas in the private sector- 61.8-71,7%.

Daxil olub:19.11.2015

ОПТИМИЗАЦИЯ ТЕРАПИИ БОЛЬНЫХ ИСТИННОЙ АКАНТОЛИТИЧЕСКОЙ ПУЗЫРЧАТКОЙ СИСТЕМНЫМИ ГЛЮКОКОРТИКОИДНЫМИ ПРЕПАРАТАМИ

З.Г.Фараджев, Ю.А.Мирзоев, Г.З. Фараджева, С.А. Алиева, Ф.И.Балакишиев

Азербайджанский медицинский университет, кафедра дерматовенерологии, г.Баку

Açar sözlər: həqiqi akantolitikpemfiqus, sistem qlükokortikoidlər, başlanğıc doza, intermittəedici sxem

Ключевые слова: настоящий акантолитикпемфигус, системные глюкокортикоиды, начальная доза,

Key words: acantholysis (epidermolysis) bullosa, systemic glucocorticoid, initial dosage, supporting dosage, intermittent scheme

Истинная акантолитическая пузырчатка (ИАП) - потенциально угрожаюшее жизни заболевание из группы буллезных дерматозов. ИАП встречается в 0,1-0,5 случаях на 100.000 населения, значительно чаще у лиц еврейской национальности и у индийцев.

В Азербайджанской Республике исследования по ИАП в разное время проводились С.А.Алиевой(1994) и Г.С.Мамедовой (2007), которые выявили распространенность ИАП в Азербайджанской Республике в сравнении с другими республиками бывшего СССР[1] и выраженные нарушения в иммунном статусе [2].

Одной из актуальных проблем в изучении ИАП является проблема терапии, несмотря на то,что после применения в 1951г. G.Thorn и соавт. системных глюкокортикоидов (СГК) смертность больных пузырчаткой резко снизилась с 60-90% до 15-45% [3].

До настоящего времени основными лекарственными средствами, позволяющими добиться положительных терапевтических результатов у больных ИАП являются СГК (преднизолон, метилпреднизолон, дексаметазон, бетаметазон), которые назначаются в виде *монотерапии* и в комбинации с иммуносупрессивными препаратами. Несмотря на многочисленные и разнооб-

разные осложнения, возникающие вследствие глюкокортикоидной терапии, СГК назначаются по жизненным показаниям, в связи с чем не существует абсолютных противопоказаний к лечению ими больных ИАП,так как только СГК предотвращают смерть больных.

При лечении больных ИАП необходимо добиваться стабилизации патологического процесса, подавления воспалительных проявлений, прекращения появления свежих высыпаний, эпителизации эрозий, длительной клинической ремисии,повышения качества жизни. Адекватная терапия пациентов должна проводиться с момента появления пузырей и/или эрозий даже при ограниченном характере высыпаний [4].

Традиционная терапия СГК больных ИАП проводится в 3 этапа. *I этап (наступательная терапия)* начинают с высокой исходной дозы СГК, которая подбирается индивидуально в зависимости от массы больного, распространенности и тяжести патологического процесса.*Исходная доза СГК составляет* 1-*2 мг/кг/д* в преднизолоновом эквиваленте и не должна быть менее 1мг/кг/д. Суточную дозу СГК распределяют таким образом,чтобы 2/3 приходились на утренние часы (8:00–9:00), а 1/3-на дневное время(12:00–13:00). Пероральный прием СГК можно частично заменить парентеральным введением. [5] В руководстве "Guideline on the Diagnosis and Treatment of Autoimmune Bullous Diseases- Pemphigus" разработанном Европейским дерматовенерологическим форумом (2009), лечение больных ИАП рекомендуется начинать сразу с комбинации СГК в исходной дозе 1-1,5 мг/кг/д и азатиоприна в суточной дозе 100 мг, который принимается в данной дозе на протяжении всех этапов терапии СГК.

В результате проведенных исследований и согласованности с литературными источниками нами были успешно апробированы следующие исходные дозировки СГК в зависимости от тяжести течения ИАП:

90-120 мг/д- при легком течении ИАП

120-180 мг/д-при средней тяжести течения ИАП

180-240 мг/д- при тяжелом течении ИАП

Продолжительность приема исходной дозы СГК составляет 2-6 недель до прекращения появления новых пузырей и эпителизации эрозий. Сохранение небольших эрозий на слизистых оболочках не является препятствием для снижения исходной дозы СГК.

II этап (снижающая терапия) проводится с постепенным снижением исходной максимальной дозы СГК до поддерживающей дозы. Н.П.Теплюк и соавт. (2011) предлагают следующую последовательность снижения. Первоначальное снижение исходной дозы СГК возможно на 1/4–1/3 от максимальной дозы с длительностью приема 3 недели.В дальнейшем суточная доза СГК постепенно снижается в течение последующих 6 недель 1 раз в неделю на 15–10–5 мг и доводится до поддерживающей дозы 20–30 мг/д в эквиваленте на преднизолон (табл.1) [6].

В Европейских руководствах снижение исходной дозы СГК рекомендуют проводить через день на 5 мг по *интерметтирующей схеме,* возвращаясь через день к предыдущей дозе до обнуления ''дублирующей'' дозы, после чего, если отклик на проводимую терапию хороший и прогрессирование болезни остановлено (нет очагов на слизистых оболочках, титры антител понизились или остались неизменными) назначаемую через день исходную дозу СГК снижают на 15 мг каждую неделю и доводят до поддерживающей дозы- 45 мг/д (табл.2). Если очаги на слизистых оболочках стойкие или титры антител возрастают,необходимо принимать исходную дозу СГК. Длительность данного приема СГК зависит от течения ИАП. Когда активность процесса стихнет, снижение дозы СГК следует проводить по указанной выше схеме [7].

III этап (поддерживающая терапия) предполагает длительный / пожизненный прием поддерживающих доз СГК при диспансерном наблюдении.Предельно допустимая минимальная поддерживающая доза индивидуальна и может варьировать от 2,5 до 30 мг/д в эквиваленте на преднизолон. В некоторых случаях, при тяжелом течении ИАП, поддерживающую дозу не удается снизить ниже 40-50 мг/д. Обычно больные ИАП пожизненно получают СГК в виде поддерживающей дозы и лишь в редких случаях удается отказатся от их применения.

Абсолютных критериев полной клинической ремиссии и прекращения лечения не существует. Н.С.Потекаев и соавт. (2003) предложили схему поддерживающей терапии при *ИАП с возможной отменой СГК*, предполагающей снижение поддерживающей дозы (ПД) СГК на ¼ таблетки в разные дни недели в течение 7 недель , вследствие чего к 7 недели выводится новая ПД уменьшенная на 1/4 таблетки (ПД1). Аналогичное снижение ПД проводят в последующие недели в течение 2,5-3 лет и доводят ПД до 2,5-5 мг/д эквивалентно преднизолону с дальнейшим пожизненным применением или с последующей плавной отменой препарата. От-

сутствие клинических симптомов при приеме СГК в дозе 5-10 мг ежедневно или через день в течение 2 лет можно расценивать как достижение полной клинической ремиссии, что создает возможность прекратить прием СГК (Таблица 3) [8,9].

Зарубежные исследователи достижение клинической ремиссии также определяют отсутствием клинических симптомов у больных ИАП в течение 2 лет на фоне поддерживающей терапии (Таблица 4) и рассматривают возможность прекращения приема СГК,оставив только иммуносупрессивный препарат– азатиоприн,прием которого можно прекратить спустя год. При рецидиве рекомендуется повторить вышеприведенную поэтапную терапию,но в менее тяжелых случаях можно попытаться принимать только иммуносупрессант [7].

Лечение больных ИАП сопряжено с развитием тяжелых осложнений вследствие длительного приема СГК (стероидный сахарный диабет, артериальная гипертензия, дисциркуляторная энцефалопатия, нарушение микроциркуляции сосудов мозга, гастрит, холецистит, остеопения, остеопороз и др.) что отягощает состояние больных и прогноз аутоиммунного заболевание.

Таблица 1

Алгоритм лечения больных истинной акантолитической пузырчаткой СГК(I и II этапы).Н.П.Теплюк и соавт., 2011 г.

Этапы терапии СГК	Дозировка СГК(из расчета на преднизолон)
Iэтап *(наступательная терапия)* 2–6 недель	*Исходная доза* СГК(1–2 мг/кг/д)–120 мг/д(2/3 дозы–80 мг в 8:00–9:00+1/3 дозы–40 мг в 12:00–13:00)ежедневно
II этап *(снижающая терапия)* 13 недель 1ступень–3недели	*первоначальное снижение* возможно на 1/3–1/4 исходной дозы– 80–90 мг/д ежедневно, 3недели
2ступень–1неделя	*снижение* на 15 мг/нед; 65-75 мг/д ежедневно, 1неделя
3ступень–3недели	*снижение* на 10 мг/нед; 55-65 мг/д ежедневно, 1неделя; 45-55 мг/д ежедневно, 1неделя; 35-45 мг/д ежедневно, 1неделя
4ступень–3недели	*снижение* на 5 мг/нед до поддерживающей 25-35 мг/д дозы(ПД); 30-40 мг/д ежедневно, 1неделя; ежедневно, 1неделя; 20-30 мг/д (ПД) ежедневно, 1неделя
5ступень–3недели (ПД)	20–30 мг/д (ПД) ежедневно,3недели

Примечание: ПД- поддерживающая доза

Тяжелыми осложнениями СГК являются иммуносупрессивные состояния, ДВС–синдром, септицемия, вирусные, бактериальные и грибковые инфекции, которые напрямую связаны с иммуносупрессивным эффектом глюкокортикоидов. Синдром Иценко–Кушинга развивается за счет глюкокортикоидной насыщенности организма,вследствие чего предотвратить развитие кушингоида невозможно.Проявления кушингоида обычно уменьшаются со снижением дозы СГК.

С целью предупреждения осложнений при терапии СГК,больным ИАП с первых дней лечения одновременно с СГК назначают антациды, препараты кальция, калия, витамины, анаболические гормоны, калиисберегающие мочегонные препараты, при необходимости– антикоагулянты, гипогликемические, гипотензивные, психотропные, антибактериальные, антифунгальные и антивирусные препараты [6,10]. В процессе лечения пемфигуса обязательны дезинтоксикационные мероприятия: в/в капельное введение растворов альбумина, реамберина, ремаксола, рингера, реаполиглюкина; плазмоферез.

Внедрение метода экстракорпоральной детоксикации–плазмафереза в лечение больных ИАП в качестве дополнения к СГК и иммуносупрессивным препаратам потенцирует эффект СГК и позволяет более быстро снижать высокие дозы СГК, уменьшает риски развития побочных эффектов и осложнений, удлиняет сроки ремиссий.

Терапевтический эффект плазмафереза при ИАП связан с элиминацией аутоантител IgG и циркулирующих иммунных комплексов, снижением синтеза антител В–лимфоцитами.Однако, наряду с патогенными антителами при плазмаферезе удаляются факторы свертывания крови, медиаторы воспаления, гормоны, альбумины. Плазмаферез проводится 3 раза/нед,за сеанс удаляется 800-2000 мл плазмы.Курс плазмафереза 6-12 процедур После достижения ремиссии процедуры плазмафереза рекомендуется проводить 1 раз/нед для достижения терапевтического

эффекта. [9]. Ряд исследователей придают определенное значение диете у больных ИАП. Отмечают обострения при употреблении чеснока, репчатого лука, лука-порей и рекомендуют диеты безглютеновые, а также с исключением шоколада, карамели, кофе, какао, кисломолочных продуктов, колбас, морепродуктов, алкоголя [7,10].

Цель исследования: Адаптация терапии больных ИАП в условиях Азербайджанской Республики с зарубежным опытом лечения.

Материалы и методы исследования. Ретроспективный анализ тактики лечения СГК больных ИАП по результатам просмотра 100 историй болезни первичных больных ИАП, получивших лечение в РКВД в 2010-2014гг.

Таблица 2

Алгоритм лечения больных истинной акантолитической пузырчаткой СГК (I и II этапы). Европейское руководство по лечению дерматологических болезней, 2008г.

<table>
<tr><td>Этапы терапии СГК</td><td colspan="14">Дозировка СГК(из расчета на преднизолон)</td></tr>
<tr><td>I этап (наступательная терапия)
2–6 недель</td><td colspan="14">Исходная доза СГК(1–2 мг/кг/д)–120 мг/д(2/3 дозы–80 мг в 8:00–9:00+1/3 дозы–40 мг в 12:00–13:00)ежедневно</td></tr>
<tr><td rowspan="15">II этап (снижающая терапия)
II a
снижение исходной дозы СГК через день на 5 мг –46 дней

II b
еженедельное снижение исходной дозы СГК на 15 мг– 5 недель
(35 дней)</td><td colspan="14">Дни/Доза СГК(мг)</td></tr>
<tr><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td><td>7</td><td>8</td><td>9</td><td>10</td><td>11</td><td>12</td><td>13</td><td>14</td></tr>
<tr><td>120</td><td>115</td><td>120</td><td>110</td><td>120</td><td>105</td><td>120</td><td>100</td><td>120</td><td>95</td><td>120</td><td>90</td><td>120</td><td>85</td></tr>
<tr><td colspan="14"></td></tr>
<tr><td>15</td><td>16</td><td>17</td><td>18</td><td>19</td><td>20</td><td>21</td><td>22</td><td>23</td><td>24</td><td>25</td><td>26</td><td>27</td><td>28</td></tr>
<tr><td>120</td><td>80</td><td>120</td><td>75</td><td>120</td><td>70</td><td>120</td><td>65</td><td>120</td><td>60</td><td>120</td><td>55</td><td>120</td><td>50</td></tr>
<tr><td colspan="14"></td></tr>
<tr><td>29</td><td>30</td><td>31</td><td>32</td><td>33</td><td>34</td><td>35</td><td>36</td><td>37</td><td>38</td><td>39</td><td>40</td><td>41</td><td>42</td></tr>
<tr><td>120</td><td>45</td><td>120</td><td>40</td><td>120</td><td>35</td><td>120</td><td>30</td><td>120</td><td>25</td><td>120</td><td>20</td><td>120</td><td>15</td></tr>
<tr><td colspan="14"></td></tr>
<tr><td>43</td><td>44</td><td>45</td><td>46</td><td>47</td><td>48</td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>120</td><td>10</td><td>120</td><td>5</td><td>120</td><td>0</td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="14"></td></tr>
<tr><td colspan="14">Недели/ Дни/Доза СГК (мг)</td></tr>
<tr><td colspan="7">I Неделя</td><td colspan="7">II Неделя</td></tr>
<tr><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td><td>7</td><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td><td>7</td></tr>
<tr><td>120</td><td>0</td><td>120</td><td>0</td><td>120</td><td>0</td><td>120</td><td>105</td><td>0</td><td>105</td><td>0</td><td>105</td><td>0</td><td>105</td></tr>
<tr><td colspan="7">III Неделя</td><td colspan="7">IV Неделя</td></tr>
<tr><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td><td>7</td><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td><td>7</td></tr>
<tr><td>90</td><td>0</td><td>90</td><td>0</td><td>90</td><td>0</td><td>90</td><td>75</td><td>0</td><td>75</td><td>0</td><td>75</td><td>0</td><td>75</td></tr>
<tr><td colspan="7">V Неделя</td><td colspan="7">VI Неделя</td></tr>
<tr><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td><td>7</td><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td><td>7</td></tr>
<tr><td>60</td><td>0</td><td>60</td><td>0</td><td>60</td><td>0</td><td>60</td><td>45
ПД</td><td>0</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
</table>

Примечание: ПД– поддерживающая доза; в течение всех этапов терапии больные одновременно с СГК принимают азатиоприна-100 мг /д

Полученные результаты. В результате проведенного анализа выявили,что исходная доза СГК в эквиваленте на преднизолон составляла 100-120 мг/д- у 37.9%, 65-95мг/д- у 27.6%, 35-60мг/д- у 24,2%,более 120 мг/д- у 10.5% больных ИАП. Первое снижение исходной дозы СГК на 5 мг константировано у 57.7%,на 10 мг, 15 мг, 25 м- с одинаковой частотой у 11.5%,на 35 мг- у 7.7% больных ИАП. В зависимости от сроков, снижение исходной дозы СГК в течение первой недели лечения было проведено у 42.9%, в течение второй недели лечения- у 50,0%, в течение 3-6 недель лечения-у 7.1% больных ИАП.

Сопоставив приведенные данные определили, что первое снижение исходной дозы СГК на *5 мг* (57.7%) было проведено в течение первой

недели лечения у 25,0%, в течение второй недели лечения– у 29.2%, в течение 3-6 недель лечения- у 3,6% больных ИАП. Первое снижение исходной дозы СГК на *10мг* (11.5%) было проведено в течение первой недели лечения у 3.6%, в течение второй недели лечения- у 8.4% больных ИАП. Первое снижение исходной дозы СГК на *15 мг*(11.5%) было проведено в течение первой недели лечения у 7.2%, в течение второй недели лечения- у 4.2% больных ИАП. Первое снижение исходной дозы СГК на *25 мг*(11.5%) было проведено в течение второй недели лечения у 8.4%, в течение 3-6 недель лечения-у 3.6% больных ИАП. Первое снижение исходной дозы СГК на *35 мг* (7.2%) было проведено в течение первой недели лечения. Резюмируя вышеприведенные иследования,нами был проведен анализ тактики лечения СГК больных ИАП в Азербайджанской Республике. Т.о., первоначальное снижение исходной дозы СГК в подавляюшем большинстве случаев связано с улучшением в клинической картине больных ИАП, но с некоторыми отступлениями:

-раннее снижение исходной дозы СГК- в течение первой и второй недель лечения у 92.9% больных ИАП;

-первоначальное неполноценное (низкое) снижение исходной дозы СГК на 5-10мг у значительного числа больных ИАП- 69.2%.

Таблица 3

Алгоритм поддерживающей терапии больных истинной акантолитической пузырчаткой СГК (III этап) .Н.С.Потекаев и соавт., 2003г.

Недели	Дни недели							
	I	II	III	IV	V	VI	VII	
1	ПД - 1/4таб	ПД	ПД	ПД	ПД	ПД	ПД	ПД =n таб
2	ПД - 1/ 4таб	ПД	ПД	ПД	ПД - 1/ 4таб	ПД	ПД	
3	ПД - 1/4таб	ПД	ПД - 1/4 таб	ПД	ПД - 1/4 таб	ПД	ПД	
4	ПД- 1/4таб	ПД	ПД – 1/4 таб	ПД	ПД - 1/4 таб	ПД	ПД - 1/4 таб	
5	ПД - 1/4таб	ПД - 1/4 таб	ПД - 1/4 таб	ПД	ПД - 1/4 таб	ПД	ПД - 1/4 таб	
6	ПД - 1/4таб	ПД - 1/4 таб	ПД - 1/4 таб	ПД - 1/4 таб	ПД - 1/4 таб	ПД	ПД - 1/4 таб	
7	ПД - 1/4таб	ПД - 1/4 таб	ПД - 1/4 таб	ПД - 1/4 таб	ПД - 1/4 таб	ПД - 1/4 таб	ПД - 1/4 таб	ПД - 1/4 таб= ПД1
8	ПД 1– 1/4 таб	ПД 1	ПД 1	ПД 1	ПД1	ПД1	ПД1	
9	ПД1– 1/4 таб	ПД1	ПД1	ПД1	ПД1– 1/4таб	ПД1	ПД1	
10	ПД1– 1/4таб	ПД1	ПД1- 1/4 таб	ПД1	ПД1- 1/4 таб	ПД1	ПД1	
11	ПД1– 1/4таб	ПД1	ПД1– 1/4таб	ПД1	ПД1- 1/4 таб	ПД1	ПД1– 1/4 таб	
12	ПД1– 1/4 таб	ПД1- 1/4таб	ПД1- 1/4 таб	ПД1	ПД1- 1/4 таб	ПД1	ПД1– 1/4 таб	
13	ПД1– 1/4 таб	ПД1- 1/4таб	ПД1- 1/4 таб	ПД1- 1/4 таб	ПД1- 1/4 таб	ПД1	ПД1– 1/4 таб	
14	ПД1- 1/4 таб	ПД1- 1/4таб	ПД1- 1/4 таб	ПД1- 1/4 таб	ПД1- 1/4 таб	ПД1- 1/4 таб	ПД1- 1/4 таб	ПД1- 1/4таб= ПД2
...	...	...	...	...	...	...	...	...
28	ПД3– 1/4 таб	ПД3- 1/4 таб	ПД3- 1/4 таб	ПД3- 1/4 таб	ПД3- 1/4 таб	ПД3- 1/4 таб	ПД3- 1/4 таб	ПД3- 1/4таб= ПД4

								ПД4= ПД–1таб

Примечание: ПД– поддерживающая доза

На основании проведенных клинических исследований и анализа методов лечения СГК больных ИАП по публикациям зарубежных авторов, представленные нами алгоритмы лечения ИАП, предусматривающие поэтапное снижение исходной дозы СГК до поддерживающей с последующими возможностями ее снижения/отмены, позволят сменить тактику лечения больных ИАП от «интуитивной» до клинически обоснованной.

Таблица 4

Алгоритм поддерживающей терапии больных истинной акантолитической пузырчаткой СГК (III этап).Европейское руководство по лечению дерматологических болезней, 2008г.

Сроки проведения поддерживающей терапии (2–2.5 года)	I ступень- 2 мес.	II ступень- 2 мес.	III ступень- 2 мес.	IV ступень- 6–24 мес.
Поддерживающая доза (ПД) СГК в преднизолоновом эквиваленте	45мг	45мг	45мг	45мг
Режим проведения поддерживающей терапии СГК	45 мг/д через день (1,3,5,7...59/61 день)	45 мг/д каждый 3ий день (1,4,7,10....61 день)	45 мг/д 2 раза в неделю (вторник–пятница)	45 мг/д 1 раз в неделю с возможным снижением СГК до более низких доз– 2,5–20 мг,которые принимаются пожизненно или плавно отменяются

Примечание: в течение поддерживающей терапии больные одновременно с СГК принимают азатиоприна-100 мг /д

ЛИТЕРАТУРА

1. Алиева С.А. Оптимизация глюкокортикоидной терапии больных пузырчаткой под контролем уровня тирозина в крови: Автореф. дис. … канд. мед. наук. Баку, 1994, 21с.

2. Мамедова Г.С. Особенности течения истинной пузырчатки, сочетанной с инфекциями урогенитального тракта и комплексные методы лечения: Автореф. Дис. … канд. мед. наук. Баку, 2007.

3. Лыкова С.Г. Морфогенез, клинические особенности ,некоторые аспекты дифференциального диагноза истинной акантолитической пузырчатки. Новосибирск,1996.

4. Соколовский Е.В. Пузырные дерматозы. Псориаз.Современные методы лечения. Серия “Библиотека врача-дерматовенеролога”. Выпуск3. СПб: СОТИС, 1999, 134с

5. Клинические рекомендации. Российское общество дерматовенерологов / Под ред. А.А.Кубановой. М.:ДЕКС-Пресс, 2008, 368с

6. Теплюк Н.П, Теплюк Д.А, Шарафетдинов Х.Х. Современные подходы к комплексной терапии истинной акантолитической пузырчатки // Клин. дерматология и венерол., 2011, №.4, с.37-41

7. Рукко В., Бренер С., Рукко Е. Пузырчатка вульгарная. Европейское рук-во по лечению дерматологических болезней / Под ред. А.Д.Кацамбаса,Т.М. Лотти. М.: МЕДпресс-информ, 2009, 421с.

8. Потекаев Н.С, Кочергин Н.Г., Теплюк Н.П. и др. Терапевтическая тактика при стероидрезистентной вульгарной пузырчатке // Российский журнал кожных и венерических болезней, 2003, №2, с.11-15

9. Кубанов А.А., Абрамова Т.В. Современные методы терапии истинной акантолитической пузырчатки // Вестник дерматологии и венерологии, 2014, №4, с.19-27

10.Карачева Ю.В., Прохоренков В.И., Гузей Т.Н. Современные подходы к лечению акантолитической пузырчатки // Клиническая дерматология и венерология, 2014, №4, с.4-9

Xülasə

Həqiqi akantolitik pemphigus olan xəstələrin sistem qlükokortikoid preparatlar ilə müalicəsinin optimallaşdırılması

Z.Q.Fərəcova, Y.A.Mirzəyeva, Q.Z,Fərəcova, S.A.Əliyeva, F.İ.Balakişiyev

Həqiqi akantolitik pemfiqus (HAP) xəstəliyinin sistem qlükokortikoidlər (SQK) ilə müasir müalicə metoduna görə ədəbiyyatlara baxış keçirilib. HAP xəstələrində steroid sonrası ağırlaşmaları azaltmaq üçün SQK ilə müalicə və profilaktik tədbirlərin mərhələli alqoritmi təqdim olunub.

Summary

Optimization of treatment of patients with true acantholytic pemphigus systemic glucocorticoid drugs

Z.G.Farajev, Y.A.Mirzoyev, G.Z Farajeva, S.A. Aliyeva, F.I.Balakishiyev

It is given a Literature Review on Modern Methods of Therapy of the of acantholysis bullosa (AB) Treatment by the systematic glucocorticoids (SGC). It is presented a Stepwise Algorithm of Treatment by the SGC and preventive measures of Acantholysis Bullosa for decreasing scheme of poststeroid therapy

Daxil olub:07.12.2015

QADINLARDA ÇANAQ DİBİ XƏSTƏLİKLƏRİNİN YENİ METODLA MÜALİCƏSİ

X.N. Musayev, C.F. Qurbanova, K.D.Quliyeva

ET Mamalıq və Ginekologiya İnstitutu, Bakı

Açar sözlər: çanaq dibi xəstəlikləri, cərrahi müalicə, çanaq orqanlarının sallanması və düşməsi

Ключевые слова: болезни тазового дна, хирургическое лечение, выпадение и опушение тазовых органов

Keywords: diseases of the pelvic floor surgery, prolapse and pelvic organ prolapse

Özündə sidik saxlamamağı, çanaq orqanlarının sallanması və düşməsini, düz bağırsağın disfunksiyasını birləşdirən çanaq dibi pozğunluqları qadının həyat keyfiyyətlərinin və əmək qabiliyyətinin azalmasına səbəb olur. Mayo Clinik-in göstəricilərinə görə bütün qadınların üçdə biri həyatlarının müxtəlif dövrlərində bu pozğunluqlardan əziyyət çəkir. Müasir təbabətin imkanları haqqında məlumatı olmayan bəzi qadınlar isə hətta həkimə müraciət etməyərək susmağa üstünlük verirlər [1,7]. Toronto Universitetinin uroginekologiya bölümü demoqrafik göstəricilərin və perspektivlərin hesabatını verərkən çanaq orqanlarının sallanmasını "gizli epidemiya" adlandırırlar [10,12]. M.D.Walters 10-58% qadınların sidik saxlamamazlıqdan əziyyət çəkdiyini göstərir. Inkontinans cavanlaşmağa doğru meyl edir, orta yaşda pik təşkil edir, yaşlı dövrdə davamlı artır [34,38].

Pensilvaniya Univerisitetinin mamalıq və ginekologiya departamentinin tədqiqatları inkontinensiya ilə müraciət etmiş xəstələrin 42% -də kiçik yaşlardan sidik disfunksiyasının olmasını göstərmişlər [19].

Subut olunmuşdur ki, bu patalogiya qadının içtimai, sosial, klinik və psixoloji vəziyyətinə pis təsir edir. Əksər tədqiqatlarda inkontinensiya olan qadınların depressiv vəziyyətə düşməsi, özünü tədric, seksual disfunksiyaların olması göstərilmişdir [18,25].

Müraciət edən 10% qadında çanaq dibi əməliyyatları aparılmış, bunun da 30%-i xəstəliyin residivi ilə əlaqədar olmuşdur. Bu fakt çoxsaylı diaqnostik metodların, cərrahi texnikaların olmasına baxmayaraq residivlərin və qeyri qənaətbəxş nəticələrinin yüksək olmasını fikirləşməyə əsas verir [35].

İnkontineksiya və genital orqanların prolapsının müalicəsinin effektiv olmasına bir sıra faktorlar təsir edir. Bunlardan biri bu xəstələrdə aparılan müayinə alqoritminin olmaması və müalicə metodlarının seçilməsinə individual yanaşma tərzinin olmamasıdır. Diaqnostik alqoritmə riayət olunmaması inkontinensiyanın və prolapsın səbəbini təyin etməyə çətinlik törədir ki, bu da öz növbəsində müalicə taktikasının düzgün seçilməməsinə şərait yaradır.

Haessler A.L., Lin L.L. inkontinensiyanın "gizli" formasını tədqiq edərkən 11-22% qadında əməliyyatdan sonra əmələ gəlməsini nəzərə alaraq ətraflı əməliyyatönü müayinənin aparıması və əsassız cərrahi müdaxilə hallarından uzaqlaşma vacibliyini önə sürmüşlər [19,23].

Çanaq orqanlarının prolapsı və inkontinensiya çox rast gəlinən və müalicəyə cətin tabe olunan patologiyadır. Müxtəlif dərəcələrlə təbii yolla dogmuş qadınların 50%-də rast gəlir [23,31,36]. Bu vəziyyət qadının həyat keyfiyyətini və intim münasibətini pozur. Həyat kefiyyətinin pozulması prolaps inkontinensiya ilə müşayət olunduqda daha dərin xarakter daşıyır. Müəyyən qadınlarda prolaps və ya inkontinensiya infeksion-iltihabi proseslərlə ağırlaşır ki, hətta xəstənin həyatı üçün təhlükəli olur.

Yerli toxumalarla aparılan rekonstruktiv əməliyyatlar yüksək faizli residivlərlə xarakterizə olunur-75% [7,11,27]. 10-45% halda transvaginal implantasiyada yaranın sağalma defektləri, uşaqlıq yolu divarının eroziyası baş verir. Olsen A.L. və b. tədqiqatlarına əsasən (1997) 11 qadından birində rast gəlir. V.F. Bejenar (2006), V.İ.Krasnopolskiy (2007), D.Altman (2007) prolapsın 28%- 38,9% halda müəyyən olunduğunu göstərirlər. J.Tjandra (1999), Vanloarhoven et al (1999) tədqiqatlarına əsasən orta yaşlı və ahıl qadınlarda 15-80% halda proktoqrafiya zamanı rektosele aşkarlanır [9,10,20,25]. Onların 25%-də xəstəliyin klinik simptomları olur. G.W.Davila (2002), N.Mizraliyə (2008) görə yalnız 6% ginekoloqlar əməliyyatönü dövrdə rektoseleli xəstələrdə proktodefekografiya istifadə edirlər [18,21].

Son zamanlarda bəzən çanaq dibi toxumalarını müayinə məqsədilə USM aparılır. Lakin bu metod həldə standartlaşmayıb. Xaricdə geniş istifadə olunan POPQ (İCS,1996) üzrə təsnifatlandırma ölkəmizdə geniş yayılmayıb. Çox zaman ginekoloqlar xəstələrin müaiyinəsində şikayətlər, anamnestik məlumatlar və klinik baxışdan istifadə edirlər ki, bu da xəstəliyin ağırlıq dərəcəsini tam dəqiqləşdirmək, residiv üçün risk qrupunu müəyyən etmək, yanaşı patologiyanı aşkara çıxarmaq, xəstənin əməliyyatdan sonrakı aparılma taktikasını təyin etmək üçün kifayət deyil.

Rektoselenin ləgvi məqsədilə aparılan əməliyyatlardan sonura ağırlaşmalar yüksək %-də qalmaqda davam edir. D.F.A ltomare et al (2002), Y.Abramov (2003) 17-30% halda residivin yaranmasını göstərmişlər [9,13,27].

Çanaq dibi xəstəliklərinin rekonstruktiv-plastik cərrahiyyəsinin inkişaf etməsi əməliyyatdan sonrakı residivlərin profiaktikası nın yeni yollarının açır: az invaziv metodların tətbiqi, müasir sintetik materialların çanaq fassiyasının defektlərinin bərpası məqsədilə istifadəsi. Lakin tədqiqatlarda bir sıra sualların açıq qalması yeni aparılacaq işlərdə sintetik materialın istifadəsinə göstəriş və əks göstərişlərin, kretirilərin və məqsədəuyğun olub-olmamasının dəqiqləşdirilməsini tələb edir.

Tədqiqatın materal və metodları. Çanaq dibi xəstəliklərinin müalicəsi məqsədilə 2014-2015-ci illərdə 70 qadında cərrahi əməliyat aparılmışdır. Xəstələr üç qrupa bölünmüşlər: I qrupa- prolaps və inkontinensiya olan xəstələr (25 xəstə-35,7%) daxil edilmişdir. Bu qrup da öz növbəsində 2 yarım qrupa bölünmüşdür: IA-prolaps və sidik inkontinensiya olan (15xəstə (21,4%)), IB-prolaps və anal inkontinensiya olan (10 xəstə (14,2%)). II qrupa- yalnız prolaps olan xəstələr daxil edilmişdir (26 xəstə (37,2%)). III qrupa- yalnız inkontinensiya olan xəstələr (19 xəstə (24,2%)) daxil edilmişdir.

Xəstələrin yaşı 27-80 arasında olmuşdur. Yaşı 25-45 olan xəstə sayı 25 (35%), 46-55 olan 16 (23%), 56-65 olan 16 (23%), 66 yaşdan yuxarı 13 (19%) olmusdur.

Xəstələrin şikayəti aşağıdakılardan ibarət olmuşdur: uşaqlıq yolunda yad cisim olması hissi-51xəstə (73%), uşaqlıq yolunda qaşınma, quruluq-45 xəstə (64%), dispareuniya- 41 xəstə (58%), çanaq ağrıları- 17 xəstə (24%), dekubital yaralar-14 xəstə (20%). Sidik ifrazı ilə bağlı şikayətlər: sidik boşaltmanın çətinləşməsi- 23xəstə (33%), tez-tez sidiyə getmə hissinin artması- 12 xəstə (17%), sidik saxlamamaq (stress)-15xəstə (24%).

Bağırsaq şikayətləri: bağırsaq boşaltmanın çətinləşməsi-24xəstə (34%), defekasiya zamanı ağrı –7 xəstə (10%), qazların saxlanmaması-6 xəstə (8.5%), duru nəcizin saxlanmaması-3xəstə (4,3%), bərk nəcizin saxlanmaması-1xəstə (1,4%).

İrsiyyəti öyrənərkən 20 xəstədə (28%) ana xəttilə prolapsın müxtəlif formalarının olması müəyyən olmuşdur ki, bu da birləşdirici toxuma strukturlarının çatışmazlığına irsi meylliyin olmasını sübut edir.

Risk faktorlarının araşdırarkən aşağıdakıları müəyyən etmişik: fiziki əməklə bağlı iş-16 xəstə (23%), artıq çəki (BÇİ 25-29,9)- 38 xəstə (54%), piylənmə (BÇİ 30)- 9 xəstə (13%), birləşdirici toxuma displaziyası- 12 xəstə (17%), keçirilmiş ginekoloji əməliyyatlar -17 xəstə (24%), az yaşlı ilk doğan-11 xəstə (16%), təbii yolla doğuş 50 xəstə (71%), 3 doğuşdan artıq-32 xəstə (46%), iri döllə doğuş- 23(33%) xəstə, doğuşda cırıq (epiziotomiya)- 38 xəstə (54%), doğuşda masaların istifadəsi-8 xəstə (11%). Risk faktorlarının analizi göstərir ki, çanaq dibi patalogiyalarının patogenizində piy mübadiləsinin pozulmasının rolu var. 60%-dən çox xəstədə piy mübadiləsinin pozulması aşkar olunmuşdur ki,orta bədən çəkisi indeksi 26,5 + 6,7 olmuşdur.

17 (24%) xəstədə müxtəlif ginekoloji əməliyyatlar-5 (7%) xəstədə total histerektomiya, 3 (4%) xəstədə subtotal histerektomiya abdominal yolla, 3(4%) xəstədə vaginal histerektomiya, 6(8%) xəstədə ön, arxa kolporrafiya icra olunmuşdur.

2 (2,8%) xəstəyə arxa divara polipropilen protez qoyulmuş, sonradan uşaqlıq yolunun xorası ilə bağlı protezin hissəvi kəsilməsi aparılmış və residiv yaranmışdır.

Tərəfimizdən çanaq dibi xəstəliyi olan qadınlarda yanaşı gedən ekstra genital xəstəliklər araşdırılmışdır. Bunlara: II-III dərəcəli hipertonik xəstəlik-17 xəstə (24%), UŞX 9(13%) xəstə, varikoz xəstəlik -14 xəstə (20%), bronxial astma-8(11%) xəstə, MBS-nin xroniki xəstəlikləri- 12 (17%) xəstə, şəkərli diabet-9 xəstə (13%), sidik ifrazı sisteminin xəstəlikləri- 11 xəstə (16%), ostexondroz-5 xəstə (7%).

Xəstələrin müayinə planı tərtib edilmişdir. Xüsusi sual kartı tərtib olunaraq xəstələrə təqdim olunmuşdur. Ginekoloji statusun dəyərləndirilməsi zamanı POPQ (Baden-Walker 1996) sistemindən istifadə olunmuşdur.

I dərəcə-4 xəstə (5%), II dərəcə - 24 (34%) xəstə, III dərəcə -29 (41%) xəstə, IV dərəcə -13 xəstə (19%).

Psixometriya metodunu aparmaq məqsədilə Cleivland Clinik Fondation tərəfindən işlənmiş PFDİ-20 (Pelvic Floor Disorders Distress İnventory) və PFİQ- 7 (Pelvic Floor İmpact Questionnaire) Azərbaycan dilinə tərcümə edərək tətbiq etmişik. 70 xəstənin hamısı əməliyyatdan əvvəl və 1 il sonra sual kartlarını doldurmuşlar. Doldurduqdan sonra ballar sayılmışdır, belə ki, alınan və rəqəm nə qədər yüksək olursa, prolapsın və inkontinensiyanin həyat keyfiyyətinə təsiri bir o qədər neqativ olur. Bütün xəstələrə USM aparılmış aralıq toxumaların vəziyyəti yeni diaqnostik kriterilərlə araşdırılmışdır.

Uroflurometriya, elektromioqrafiya, manometriya, sfinkterometriya tətbiq olunmuşdur.

USM-də 20(28%) xəstədə uretranın deformasiyası, 5(7%) xəstədə uretranın proksimal nahiyyədə genişlənməsi, 3(4%) xəstədə uretranın uzunluğunun azalması müəyyən olunmuşdur. Düz bağırsağın qapayıcı aparatının funksional vəziyyəti 15(21%) xəstədə öyrənilmişdir.

Elektromioqrafiyada düz bağırsağın qapayıcı aparatının fon və iradi aktivliyinin azalması aşkar olunmuşdur.

Xəstələr müvafiq əməliyyatönü hazırlıq kecərək əməliyyata hazırlanmışlar. 15(21%) xəstədə puborektal plastika TOT əməliyyyatı ilə, 10 (14%) xəstədə puborektal plastika sfinkterolevatoroplastika ilə, 8 xəstədə (11%) puborektal plastika pubovesikal arakəsmənin bərpası ilə, 9(13%) xəstədə puborektal plastika rektovaginal arakəsmənin bərpası ilə, 15(21%) xəstədə puborektal plastika pubovesikal və rektovaginal arakəsmənin bərpası ilə, 10(14%) xəstədə vaginal histerektomiya M C kuldoplastika ilə yanaşı puborektal plastika icra olunmuşdur, 3(4%) xəstədə Berç əməliyyatından sonra puborektal plastika icra olunmuşdur.

Beləliklə, qadınlarda çanaq dibi patologiyaların rast gəlmə tezliyinin yüksək olmasını nəzərə alaraq kompleks müayinə metodlarının tətbiqi və vaxtında aparılan kompleks müalicə qadının həyat keyfiyyətini yaxşılaşdıraraq sosial əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1.Абдулаев М.Ш. Клиника, диагностика и лечение ректоцеле. (Казахстанский НИИ клинической и экспериментальной хирургии им. А.Н. Сызганова.) Алма-Ата, 1989

2.Буянова С.Н. Принципы выбора метода хирургической коррекции пролапса гениталий и недержания мочи / Матер. II Российского форума «Мать и Дитя». М.,2000, с.191-192

3.Буянова С.Н., Савельев С.В., А.А. Федоров Роль ДСТ в патогенезе пролапса гениталий российский вестник акуш и гинекологии спец. Выпуск. 2008, с.8-11

4.Буянова С.Н., Смольнова Т.Ю., Иоселиани М.Н., Куликов В.Ф. К патогенезу опущения и выпадения внутренних половых органов // Вестник Рос. ассоциации акушеров-гинекологов, 1998, №1, с.77-79.

5. Васильева Л.Н. Опыт хирургического лечения опущений и выпадений женских половых органов: Автореф. дис. ... канд. мед. наук. Киев, 1975, 23 с.

6. Голдина А.Я., Погосов А.Г. Хирургическое лечение больных с опущением стенок влагалища. / Актуальные вопросы реконструктивно- пластической хирургии в акушерстве и гинекологии. Сборник научных трудов (республиканский). М., 1986, с.37-40.

7.Дульцев Ю.В., Абдулаев М.Ш., Саламов Н.Н., Титов А.Ю. Особенности диагностики и лечения ректоцеле // Акушерство и гинекология 1990, №2, с. 65-67.

8.Загребина В.А., Торчинов А.М. Хирургическая коррекция опущения стенок влагалища при экстирпации матки // Акушерство и гинекология, 1988, №5, с.35-36.

9.Краснопольский В.И. Наш опыт хирургического лечения опущения матки и стенок влагалища // Акушерство и гинекология, 1985, №7, с.58-60.

10.Краснопольский В.И., Буянова С.Н., Попов А.А. Абдоминальные, лапароскопические и сочетанные методы хирургического лечения недержания мочи при напряжении // Акушерство и гинекология, 1996, №5, с.12-15.

11.Краснопольский В.И., Титченко Л.И., Чечнева М.А. и др. Ультразвуковой диагностический алгоритм при стрессовой инконтиненции // Российский вестник акушера- гинекологии, 2003, №3

12.Попов А.А. Современные аспекты диагностики, классификации и хирургического лечения опущения и выпадения женских половых органов: Автореф. дисс. ..д.м.н. М., 2001.

13.Пушкарь Д.Ю. Диагностика и лечение сложных и комбинированных форм недержания мочи у женщин: Автореф. Дис. …докт. мед. наук. М., 1997

14.Рогозин И.А., Супрутская Г.Г. Хирургическое лечение опущений женских половых органов. Диагностика и реконструктивно-хирургические методы лечения заболеваний репродуктивной системы женщины. Сборник научных трудов (республиканский). М., 1988, с. 77-79.

15.Савельева И.С. Реабилитация больных, страдающих опущением внутренних половых органов. Проблемы акушерства и гинекологии в исследованиях МОНИИАГ. М., 1995, с. 94-97.

16.Федоров А.А. Влияние гистерэктомии на анатомо-функциональное состояние мочевой системы6 Автореф. Дисс. … к.м.н. М., 2006, с.27-33.

17.ACOG Committee on Practice Bulletins-Gynecology ACOG Practice Bulletin No. 85: Pelvic organ prolapse // Obstet Gynecol., 2007, v.110(3), p.717-29.

18.Amid P.K. Classification of biomaterials and their related complications in abdominal wall hernia surgery // Hernia, 1997, v.1, p.15-21.

19.Azar M., Noohi S., Radfar S., Radfar M.H. Sexual function in women after surgery for pelvic organ prolapse // Int Urogynecol J Pelvic Floor Dysfunct., 2008, v.19(1), p.53-7

20.Baden W.F., Walker T.A. Genesis of the vaginal profile: a correlated classification of vaginal relaxation // Clin Obstet Gynecol., 1972, v.15, p.1048-1054.

21.Barber M.D., Visco A.G., Wyman J.F. et al. Sexual function in women with urinary incontinence and pelvic organ prolapse // Obstet Gynecol., 2002, v.99(2), p.281-289.

22.Benson J.T., Lucente V., McClellan E. Vaginal versus abdominal reconstructive surgery for the treatment of pelvic support defects: a prospective randomized study with long-term outcome evaluation // Am. J Obstet Gynecol., 1996, v.175, p.1418-21

23.Boyles S.H., Weber A.M., Meyn L. Procedures for urinary incontinence in the United States, 1979-1997 // Am J Obstet Gynecol., 2003, v.189, p.70-75.

24.Brown J.S., Waetjen L.E., Subak L.L. et al. Pelvic organ prolapse surgery in the United States, 1997 // Am J Obstet Gynecol., 2002, v.186, p.712-16

25.Bruce R.G., El Galley R.E., Galloway N.T. Paravaginal defect repair in the treatment of female stress urinary incontinence and cystocele // Urology, 1999, v.54, p.647-51.

26.Chen L., Ashton-Miller J.A., Hsu Y., Delancey J.O. Interaction among apical support, levator ani impairment, and anterior vaginal wall prolapse // Obstet Gynecol 2006; 108: 324–32.

27.Chiaff arino F, Chatenoud L, Dindelli M, et al. Reproductive factors, family history, occupation and risk of urogenital prolapse. Eur J Obstet Gynecol Reprod Biol 1999; 82: 63–67.

28.Cosson M et al Mechanical Properties of synthetic implants used in the repair of prolpase and urinary incontinence in women: which is the ideal material? Int Urogynecol J (2003) 14: 169-178.

29.Cosson M., Caquant F., Collinet P. et al. Prolift mesh for pelvic organ prolapse surgical treatment using the TVM group technique: a retrospective study of 687 patients //Neurourol. Urodyn., 2005, v.24, p.121-22

30.Davila G.W., Gamal M., Wexner G., Wexner S. (Eds.) Pelvic Floor Dysfunction A Multidisciplinary Approach Springer, 2006

31.Debodinance P., Berrocal J., Clave H. et al. Changing attitudes on the surgical treatment of urogenital prolapse: birth of the tension-free vaginal mesh // Gynecol Obstet Biol Reprod., 2004, v.33, p.577-88.

32.DeLancey J.L. Anatomic aspects of vaginal eversion after hysterectomy // Am J Obstet Gynecol., 1992. v.166, p.1719

33.Digesu G.A., Chaliha C., Salvatore S., Hutchings A. Khullar The relationship of vaginal prolapse severity to symptoms and quality of life // V BJOG, 2005, v.112(7), p.971-6

34.Ellerkmann R.M., Cundiff G.W., Melick C.F. et al. Correlation of symptoms with location and severity of pelvic organ prolapse // Am J Obstet Gynecol., 2001, v.185, p.1332-37.

35.Fernandez-Fraga et al. Significance of Pelvic Floor Muscles in Anal Incontinence // Gastroenterology, 2002, v.123, p.1441-1450.

36.Gousse A.E., Barbaric Z.L., Safir M.H. et al. Dynamic half Fourier acquisition, single shot turbo spin-echo magnetic resonance imaging for evaluating the female pelvis // J Urol., 2000, v.164p.1606-1613.

37.Handa V.L., Zyczynski H.M., Brubaker L. et al. Sexual function before and after sacrocolpopexy for pelvic organ prolapse // Am J Obstet Gynecol., 2007, v.197(6), p.629

38.Jia X., Glazener C. Mowatt G. et al. Efficacy and safety of using mesh or grafts in surgery for anterior and/or posterior vaginal wall prolapse: systematic review and meta-analysis BJOG // An International Journal of Obstetrics & Gynaecology, 2005, v.115 Issue 11, p.1350-1361

Резюме

Лечение заболеваний тазового дна у женщин новым методом

Х.Н. Мусаев, Дж.Ф. Гурбанова, К.Д.Гулиева

Нарушения тазового дна, включающие в себе недержание мочи, выпадение и опушение тазовых органов и дисфункцию прямой кишки является причиной снижения качества жизни и трудоспособности женшины. С целью лечения заболеваний тазового дна 2014-2015 годах была оперирована 70 женщин. Больные были разделены на три группы:1 группа: больные с пролапсом и инконтиненцией (25 больных-35,7%). Эта группа была разделена на две подгруппы: 1А-больные с пролапсом и мочевой инконтиненцией (15 больных (21,4%)), 1Б-больные с пролапсом и анальной инконтиненцией (10 больных (14,2%)), 2 группа: больные с пролапсом(26 больных(37,2%)), 3 группа: больные с инконтиненцией(19 больных (24,2%)). Всем больным была проведена соотвествующая предоперационная подготовка. У 15(21%) больных пуборектальная пластика сочеталась с операцией ТОТ, у 10(14%) больных с сфинктеролеваторопластикой, у 8(11%) больных с восстанавлением пубовезикальной перегородки, у 9 (13%) больных с восстанавлением ректовагинальной перегородки, у 15 (21%) больных с восстанавлением пубовезикальной и ректовагинальной перегородки, у 10 (14%) больных с вагинальной гистеректомией и кульдопластикой по МС, у 3(4%) больных с операцией по Берчу.

Summry

Treatment of diseases of pelvic floor in women with new method.

X.N. Musayev, C.F. Gurbanova, K.D.Guliyeva

Disordes of pelvic floor like urine incontinence, swelling of pelvic organs and fall, dysfunction of rectum,results to reduction of life quality and and work capability of women.Surgical operation is carrie out on 70 women in 2014-2015 on the purpose of treatment of disease of pelvic bottom,Patients are distinguished into three groups: I group: patients suffering form prolapse and incontinence (25 patients-35.7%).This group is also divided into two subgroups:IA-prolapse and urine incontinence (15 patients (21.4%)), IB-prolapse (26 patients (14.2%)). II group-patients suffering only from prolapse (26 patients (37.2%)). III group-patients suffering only from incontinence (19 patients (24.2%)). Patients,passing preoperation operation,prepared for operation.Puborectal plastic operation is carried out on 15 patients (21%), puborectal plastic sphincterolevatoroplastics is carried out on 10 patients (11%), puborectal plastic pubovesical, restoration of septum is carried out 8 patients (11%), restoration of puborecrala plastics restovaginal septum, puborectal plastics is carried out on 15 patients (21%), vaginal hysterectomy on 10 patients (14%), puborectal plastics in accompaniment of M C culdoplastics is carried out, puborectal plastics is carried out after Berch operation in 3 (4%) patients.

Daxil olub:14.12.2015

XOŞXASSƏLİ MEXANİKİ SARILIQ ZAMANI ORTA MOLEKULLU PEPTİDLƏRİN QAN ZƏRDABINDA VƏ ÖDDƏ DİAQNOSTİK-PROQNOSTİK ƏHƏMİYYƏTİ

C.N. Hacıyev, E.Q. Tağıyev, N.C. Hacıyev, T.M. Rzayev, Ş.X. Qasımova

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: xoledoxolitiaz, mexaniki sarılıq, sitokin sistemi

Ключевые слова: холедохолитиаз, механическая желтуха, система цитокинов

Keywords: choledocholithiasis, obstructive jaundice, cytokine system

Öddaşı xəstəliyinin ağırlaşmalarından olan xoledo- xolitaz fonunda meydana çıxan mexaniki sarılığın (MX) cərrahi müalicəsi zamanı müasir texnologiyaların tətbiqinə və intensiv konservativ terapiyanın aparılmasına baxmayaraq bu patologiyalarda aktual bir problem kimi öz həllini gözləyir [1,2,3,4].

MS zamanı uzunmüddətli xolestaz və öd hipertenziyası homestazı pozur, ağır endotoksikoz inkişaf edir, immundepressiya və qaraciyər çatmazlığı baş verir [5,6,7,8]. Kəskin qaraciyər çatmazlığının əsas səbəbi isə hepatositlərin endotoksikoz və lipoperoksidləşmə məhsulları ilə zədələnməsidir [9,10,11,12]. Buna görə də MS-nin cərrahi müalicəsi zamanı ağırlaşmaların tezliyini və ölüm faizini azaltmaq məqsədi ilə qarşıda duran əsas məsələlərdən biri də patogenetik cəhətdən əsaslandırılmış vasitələrlə kəskin qaraciyər çatmazlığının qarşısının alınmasıdır [13,14].

Digər tərəfdən, gündəlik praktikada geniş işlədilən qanın analizi aparılan müalicənin səmərəliliyini qiymətləndirməyə və patoloji prosesin gedişini proqnozlaşdırmağa, eləcə də müxtəlif üzvlərdə və sistemlərdə baş verən dəyişiklikləri tam aşkarlamağa imkan vermir. Ona görə də müxtəlif patoloji proseslər zamanı orqanizmdə baş verən dəyişikliklərin obyektiv və kompleks qiymətləndirilməsi digər bioloji mayelərin də - ödün, sidiyin, peritoneal möhtəviyyatın tədqiq edilməsini tələb edir [15,16,17]. Bütün bu yuxarıda qeyd edilənlər xoşxassəli MS zamanı endotoksikoz markeri olan orta malekullu peptidlərin (OMP) qan zərdabında və öddə müqayisəli öyrənilməsinin məqsədəuyğunluğunu göstərir.

İşin məqsədi. Xoledoxolitiaz mənşəli MS zamanı orta molekullu peptidlərin paralel olaraq qan zərdabında və öddə təyininin müalicənin səmərəliliyinin qiymətləndirilməsində və proqnozun təyinində rolunu öyrənmək.

Tədqiqatın material və metodları. Tədqiqatlar xoledoxolitaz mənşəli MS olan və müalicənin növündən asılı olaraq iki qrupa bölünmüş 137 xəstədə qaraciyərin disfunksiyasının dərəcələri nəzərə alınmaqla aparılmışdır. 16-84 yaşlı 65-i (47,4 %) kişi və 72-i (52,6 %) qadın olan xəstələrdə sarılığın davamiyyət müddəti 1-17 gün olmuşdur. Xəstələrdə qaraciyər disfunksiyasının (QD) dərəcələri xolestaz markerləri (ümumi bilirubin, qələvi fosfataza) və hepatositlərin sitoliz göstəricilərinə (alaninaminotransferaza, aspartaminotransferaza) əsasən təyin edilmişdir: I dərəcəli QD - 44 (qanda ümumi bilirubin 50 mkmol/l-ə qədər), II dərəcəli QD - 29 (qanda ümumi bilirubin 50-100 mkmol/l-ə qədər), III dərəcəli QD- 21 (qanda ümumi bilirubin 100-200 mkmol/l-ə qədər), IV dərəcəli QD - 20 (qanda ümumi bilirubin 200 mkmol/l-dən çox) xəstədə olmuşdur. 23 xəstədə isə MS irinli xolangitlə (İX) ağırlaşmışdır.

Bütün xəstələrdə adekvat əməliyyatönü hazırlıqdan sonra cərrahi müdaxilə aparılmışdır (açıq, laparoskopik və azinvaziv) və xəstələr əməliyyatdansonrakı dövrdə aparılan konservativ müalicənin növündən asılı olaraq 2 qrupa bölünmüşdür. I qrupa daxil olan 67 xəstədə (I dərəcəli QD-21, II dərəcəli QD-14, III dərəcəli QD-10, IV dərəcəli QD-9, MS+İX-13) əməliyyatdansonrakı dövrdə ümumən qəbuledilmiş standart kompleks bazis terapiya aparılmışdır. II qrupun 70 xəstəsində isə (I dərəcəli QD-23, II dərəcəli QD-15, III dərəcəli QD-11, IV dərəcəli QD-11, MS-İX-10) əməliyyatdansonrakı dövrdə kompleks bazis terapiya tədbirlərinə rekombinant İL-2-ronkoleykin və hepatoprotektor heptral (ademetionin) əlavə edilmişdir. Ronkoleykin xəstələrdə immünsupressiyanın dərinliyi, heptral isə QD-nin dərəcələri nəzərə alınmaqla fərqli dozalarda və müddətlərdə təyin edilmişdir.

II qrupun xəstələrinə ronkoleykin 400 ml fizioloji məhlulda 1-2 ml/dəq sürətlə 4-6 saat müddətində venaya yeridilmişdir: I dərəcəli QD-də - 0,25 mq (250.000 BV) günaşırı, cəmi 2 dəfə; II dərəcəli QD-də 0,5 mq (500.000 BV) günaşırı, cəmi 2 dəfə; III dərəcəli QD-də - 1,0 q (1.000.000 BV) günaşırı, cəmi 2 dəfə; IV dərəcəli QD-də və MS fonunda İX olan hallarda- 1,0 q (1.000.000 BV) günaşırı, cəmi 3 dəfə. Preparatın bioloji aktivliyinin itirilməsinin qarşısını almaq məqsədi ilə məhlula insan zərdabı albuminin 10%-li məhlulu əlavə edilmişdir: 0,25 mq ronkoleykinə- 4 ml, 0,5 mq-a-6 ml və 1,0 q-a - 8 ml. MS İX ilə ağırlaşan xəstələrdə isə əlavə olaraq 50 ml fizioloji məhlulda həll edilmiş 1,0 q (1.000.000 BV) ronkoleykin xoledoxda saxlanılmış drenaj borusundan 3 saat ərzində damcı üsulu ilə xoledoxa yeridilmişdir. Ronkoleykin xolodox daxilinə cəmi üç dəfə olmaqla günaşırı vurulmuşdur. Ronkoleykinin venadaxilinə və xoledox daxilinə yeridilməsi növbələşdirilmişdir.

Hepatositlərin funksiyasının bərpası və yaxşılaşdırılması məqsədi ilə heptral (ademetionin) I dərəcəli QD-də - 400 mq/sutka dozada 7 gün, II dərəcəli QD-də- 800 mq/sutka dozada 7 gün, III və IV dərəcəli QD-də, eləcə də MS+İX olan hallarda isə 800 mq/sutka dozada14 gün müddətində venaya yeridilmişdir.

Hər iki qrupa daxil olan xəstələrin hamısında qanda OMP miqdarı dinamikada əməliyyata qədər, əməliyyatdansonrakı dövrün 1,3,7 və 14-cü sutkalarında təyin edilmişdir. I qrupun 42 xəstəsində əməliyyat zamanı xoledoxdan götürülmüş öddə (I dərəcəli QD-6, II dərəcəli QD-7, III dərəcəli QD-7, IV dərəcəli QD-9, MS+İX-13)

və biliar dekompressiyadan sonra 3 və 7 sutkalarında isə 37 xəstədə xoledoxdakı drenajdan götürülmüş öddə (xolesistektomiya+ xoledoxolitotomiya və xoledoxun xaricə drenajlanması; QD-nin hər dərəcəsindən 6 və MS ilə İX-13) OMP miqdarı tədqiq edilmişdir. II qrupda isə 50 xəstədə əməliyyat vaxtı (I dərəcəli QD-13, II dərəcəli QD-9, III dərəcəli QD-9, IV dərəcəli QD-9 və MS+İX-10) və əməliyyatdansonrakı dövrdə 31 xəstədə xoledoxdan götürülmüş öddə (QD-niin hər dərəcəsindən 6 və MS+İX-7) 3 və 7 sutkalarda OMP səviyyəsi öyrənilmişdir. 15 praktik sağlam şəxsin qan zərdabındakı OMP miqdarı norma kimi götürülmüşdür. Hər iki biomühitdə OMP miqdarı B.B. Николайчук və həmmüəl. (1991) üsulu ilə təyin edilmişdir.

Tədqiqat zamanı alınan rəqəmlər parametrik və qeyri-parametrik statistik üsullarla işlənilmişdir.

Nəticələr və onların müzakirəsi. Ümumilikdə I qrupa daxil olan 67 xəstədə əməliyyatönü dövrdə qanda OMP miqdarı normaya nisbətən 89,4% ($P<0,001$) artaraq 0,97 ±0,04 q/l, əməliyyat zamanı xoledoxdan götürülmüş 42 xəstədə isə 1,71±0,06 q/l- yəni öddə daha yüksək olmuşdur. Əməliyyatdansonrakı dövrdə qanda OMP səviyyəsi 3-cü sutkaya doğru ilkin göstəriciyə nisbətən artaraq normadan 2,1 dəfə ($p<0,001$) yüksək həddə çatır və sonralar azalaraq 7-ci sutkada sağlam şəxslərin göstəricisindən 92,0% ($P<0,001$) çox olan həddə düşür. Əməliyyatdansonrakı dövrün 14-cü sutkasında qanda OMP miqdarı 0,79±0,03 q/l-ə bərabər olur ki, bu da ilkin göstəricidən 18,7% az ($p_0<0,001$), lakin normadan 54,0% ($p<0,001$) çoxdur. Öddə isə OMP səviyyəsi əməliyyatdansonrakı dövrdə dinamikada azalaraq ilkin göstəricidən 3-cü sutkada 10,4% ($p_0<0,05$), 7-ci sutkada isə 21,0% ($p_0<0,001$) az olur. Bu dövrdə öddə OMP miqdarı 1,35±0,06 q/l, qanda isə 0,98±0,04 q/l səviyyəsinə düşür.

Ümumilikdə II qrupa daxil olan xəstələrdə də əməliyyatdansonrakı dövrdə qanda və öddə OMP miqdarının azalmasında fərqli dinamika müşahidə edilir.

Belə ki, əməliyyatdansonrakı dövrün ilk sutkalarından qanda və öddə OMP miqdarının azalması baş verir. Biliar dekompressiyadan sonra qanda OMP miqdarı daha sürətlə azalaraq I qrupun analoji göstəricisindən 3-cü sutkada 24,9% ($p_1<0,001$), 7-ci sutkasında 31,0% ($p_1<0,001$) və 14-cü sutkasında isə 24,7% ($p_1<0,001$) aşağı həddə düşür. Eyni zamanda əməliyyat zamanı götürülmüş öddə 1,72±0,06 q/l olan OMP miqdarı cərrahi müdaxilədən sonra daha çox azalaraq 3-cü sutkada 1,31±0,05 q/l-ə, 7-ci sutkada isə 0,94±0,05 q/l-ə düşür ki, bu da I qrupdakı analoji göstəricilərdən müvafiq olaraq 14,7% ($P_1<0,01$) və 30,1% ($P_1<0,001$) azdır.

Rekombinant İL-2- ronkoleykinin və hepatoprotektor heptralın standart bazis terapiya təbirləri kompleksinə daxil edilməsi hesabına QD-nin bütün dərəcələrində və eləcə də MS İX ilə ağırlaşan hallarda endogen intoksikasiyanın inteqral markeri olan OMP miqdarını hər iki biomühitdə daha çox azalması müşahidə edilmişdir. I qrupda I dərəcəli QD olan xəstələrdə əməliyyatönü dövrdə qanda 0,63,0±0,01 q/l (normadan 23,6% çox; $p<0,001$) olan OMP miqdarı azalaraq əməliyyat- dansonrakı dövrün 14-cü sutkasında müvafiq olaraq 0,53±0,1 q/l-ə düşür, lakin tam normallaşmır. Bu xəstələrdə əməliyyat vaxtı götürülmüş öddə isə 1,25±0,13 q/l-ə bərabər olan OMP səviyyəsi cərrahi müdaxilədən sonra dinamikada azalaraq 7-ci sitkada 0,85±0,04 q/l-ə düşür ki, bu da ilkin göstəricidən 32,4% ($p_0<0,001$) azdır.

II qrupda QD-nin I dərəcəsində əməliyyatdansonrakı dövrdə kompleks terapiya tədbirlərinə ronkoleykinin və heptralın daxil edilməsi əməliyyatönü dövrdə qanda normadan 25,4% ($p<0,001$) yüksək həddə çatmış OMP miqdarını (0,64±0,1 q/l) biliar dekompressiyadan sonra azaldaraq tədqiqatın sonuna normallaşdırır, əməliyyat vaxtı götürülmüş öddəki OMP səviyyəsini isə 1,30±0,13 q/l-dən cərrahi müdaxilənin 7-ci sutkasında 0,63±0,05 q/l-ə I qrupdakı analoji səviyyədən 25,4% ($p_1<0,01$) aşağı endirə bilir.

QD-nin II, III və IV dərəcələrində də hər iki biomühitdə OMP miqdarının müqayisəli analizi də immun və hepatotrop terapiyanın üstünlüklərini bir daha təsdiqləyir (cədvəl).

Cədvəldən aydın görünür ki, müalicənin növündən asılı olmayaraq OMP-nin miqdarı axar ödündə qan zərdabına nisbətən tədqiqatın bütün müddətlərində daha çox olmüşdur. Onu da qeyd etmək lazımdır ki, biliar dekompressiyadan sonra bazis müalicə tədbirləri fonunda ronkoleykinlə sitokinoterapiyanın və heptralla hepatotrop terapiyanın aparılması hər iki biomühitdə endogen intoksikasiyanın dərinliyini daha çox azaltmağa imkan vermişdir.

Tədqiqatın sonrakı mərhələsində hər iki biomühitdə dinamikada OMP miqdarının xəstəliyinin nəticəsindən asılı olaraq dəyişməsini müqayisəli qiymətləndirilməsi aparılmışdır. Ölən xəstələrdə əməliyyat zamanı götürülmüş axar ödündə OMP səviyyəsi 2,22±0,08 q/l, əməliyyatönü dövrdə qanda 1,45±0,06 q/l - normadan 2,8 dəfə ($P<0,001$) yüksək olmuşdur. Əməliyyatdan-sonrakı dövrdə isə ölən xəstələrdə OMP miqdarının hər iki biomühitdə azalması dinamikası az nəzərə çarpan sürətlə gedir. Belə ki, əməliyyatdan-sonrakı dövrün 7-ci sutkasında bu xəstələrdə qanda OMP miqdarı

1,32±0,08 q/l-ə, axar ödündə isə 1,70±0,06 q/l-ə düşmüşdür. Sağalan xəstələrin hamısında isə istər əməliyyatönü dövrdə qanda, istərsə də əməliyyat vaxtı götürülmüş axar ödündə OMP səviyyəsi ölən xəstələrdəki səviyyədən aşağı olmuş və əməliyyat-dansonrakı dövrdə hər iki biomühitdə daha nəzərəçarpacaq sürətlə azalmışdır.

NƏTİCƏLƏR: 1.Endotoksikozun inteqral göstəricisi olan OMP-nin qanda və axar ödündəki səviyyəsi qaraciyər disfunksiyasının dərəcəsindən və irinli xolangitdən birbaşa asılı olur. 2.OMP miqdarının dinamikada paralel olaraq qanda və axar ödündə təyini iltihabi prosesin intensivliyini, müalicənin səmərəliliyini, əməliyyatdansonrakı dövrün gedişini və nəticəsini qiymətləndirmək üçün daha informativ proqnostik markerlərdən biridir.

Cədvəl
QD-nin müxtəlif dərəcələrində müalicənin növündən asılı olaraq OMP-nin hər iki biomühitdə müqayisəli dəyişməsi

QD-nin dərəcələri	Bio mühit	Qrup lar	Tədqiqatın müddəti (sutka)			Norma
			ə/qədər / ə/vaxtı	3-cü sutka	7-ci sutka	
II	Qan	I	0,86±0,05 0,66-1,3 ***	0,99±0,06 0,69-1,42 ***	0,83±0,05 0,65-1,3 ***	0,51±0,02 0,36-0,67
		II	0,85±0,05 0,65-1,3***	0,74±0,03 0,54-0,9***###	0,61±0,03 0,4-0,8*^^^##	
	Öd	I	1,51±0,13 1,10-2,09	1,36±0,11 0,96-1,87	1,21±0,09 0,86-1,55	
		II	1,48±0,09 1,00-1,85	1,10±0,11 0,80-1,60*	0,75±0,06 0,58-1,10***^^	
III	Qan	I	1,1±0,06 0,81-1,3***	1,28±0,06 0,83-1,52*** ^	0,29±0,07 0,78-1,45*** ^	0,51±0,02 0,36-0,67
		II	1,13±0,07 0,75-1,4 ***	0,90±0,05 0,69-1,1 ***^###	0,72±0,03 0,6-0,91 ***^^^###	
	Öd	I	1,87±0,08 1,61-2,17	1,66±0,05 1,45-1,78^	1,34±0,11 0,95-1,63^^	
		II	1,93±0,09 1,56-2,25	1,30±0,05 1,21-1,56***^^	0,93±0,10 0,65-1,35***^	
IV	Qan	I	1,21±0,09 0,9-1,6***	1,34±0,05 1,16-1,65***	1,30±0,07 0,9-1,5***	0,51±0,02 0,36-0,67
		II	1,22±0,07 0,8-1,6***	1,0±0,05 0,7-1,2***^###	0,80±0,04 0,6-1,0***^^^###	
	Öd	I	1,90±0,08 1,58-2,32	1,72±0,07 1,50-2,10	1,60±0,06 1,20-1,80^	
		II	1,86±0,08 1,60-2,32	1,51±0,09 1,25-2,00*	1,10±0,10 0,70-1,61***^^^	
MS+İX	Qan	I	1,35±0,05 1,1-1,7***	1,47±0,05 1,22-1,80***	1,32±0,04 1,1-1,6***	0,51±0,02 0,36-0,67
		II	1,41±0,06 1,0-1,7***	1,00±0,07 0,7-1,3***^^^###	0,85±0,05 0,65-1,1***^^^###	
	Öd	I	1,93±0,11 1,61-2,41	1,76±0,09 1,51-2,20	1,63±0,08 1,30-1,90	
		II	1,95±0,12 1,60-2,48	1,61±0,08 1,40-2,0*	1,25±0,11 0,86-1,61** ^	

Qeyd: Normaya nisbətən:*-p<0,05;**-p<0,01;***-p<0,001; İlkin göstəriciyə görə ^-p<0,05; ^^- p<0,01; ^^^ - p<0,001; I qrupun göstəricisi ilə: # - p_1<0,05; # # - p_1<0,01; # # # - p_1<0,001

ƏDƏBİYYAT

1. Захараш М.П., Захараш Ю.М., Усова О.В. Мініінвазивні втручання в комплексному лікуванні хворих на механічну жовтяницю, ускладнену гнійним холангітом та біліарним сепсисом // Шпитал. Хіпуріія, 2008, № 4, с.13-16.

2. Даценко Б.М. Обтурационная желтуха- патогенетическая основа развития гнойного холангита и билиарного сепсиса // Вісн. Вінниц. нац. мед. ун-ту., 2010, №14 (1), с.15-19.

3. Ничитайло М.Ю., Годлевський А.І., Саволюк С.І. Критичні моменти післяопераційного періоду у хворих з непухлинними обтураційними жовтяницями після хірургічних методів внутрішньоі біліарноі декомпресіі // Харк. хірург. школа, 2012, №3, с. 71-73.

4. Котив Б.Н., Дзидзава И.И., Смородский А.В. и др. Хирургическая тактика при неопухолевой механической желтухе / Актуал. проб. хирур. гепатологии: матер. конгр. Донецк, 2013, с. 110.

5. Куцик Ю.Б., Довганик Ю.І., Міхель Ю.М., та ін. Етіологія патогенез, особливості хірургічноі тактики у хворих з меха-ничною жовтяницею. // Вісн. Укр. мед. стомат. Академіі, 2009, Т. 9, вип. 1,с. 116-119.

6. Елисеев С.М., Корнилов Н.Г., Чикотеев С.П., Гумеров Р.Р. Обоснование хирургической тактики при обтурационной желтухе // Бюл. ВСНЦ СО РАМН, 2010, № 5(75), с.233-239.

7. Гнатюк М.С., Кліщ І.М., Галей М.М. Морфологічні зміни печінки та іх кореляція при змодельованій обтураційній жовтяниці. // Шпитал. Хірургія, 2008, № 4, с.78-82.

8. Ступин В.А., Гахраманов Т.В., Силина Е.В., Болевич С.Б. Антиоксидантная энергокоррегирующая терапия у больных с механической желтухой // Cərrahiyyə, 2011, №-2, s.11-17.

9. Беляев А.Н., Козлов С.А., Беляев С.А. и др. Функциональные и морфологические нарушения печени при обтурационном холестазе и их патогенетическая коррекция (эксп. иссл.). // Анналы хирургической гепатологии, 2014, № 4, с.64-70.

10. Zhang M., Wang X.Q., Zhou Y.K. et al. Effect of oral Laktobacillus plantarum on hepatocytes tight junction structure and function in rats with obstructive jaundice // Mol. Biol. Rep., 2010, v.37,p.2989-2999.

11. Grintzalis, K., Papapostolou I., Assimakopoulos S.F. et al. Time_related alterations of superoxide radical levels in diverse organs of bile duct_ligated rates // Free Radic. Res., 2009, v.43. № 9, p.803-808.

12. Wang N., Yu H.L., Jiang H.Q. et al. Heme oxygenase -1 over expression in patients with malignant obstructive jaundice // Zhonghua Yi Xul Za Zhu, 2009, v.89 (48), p.3401-3404.

13. Assimakopoulas S.F., Maroulis I., Patsoukis N. et al. Effect of antioxidant treatments on the gut-liver axis oxidative status and function on bile duct-ligated rats // World j. Surg., 2007, v.31. p.2023-2032.

14. Moran M., Oruc M.T., Ozmen M.M. et al. Effect of erythropoietin on oxidantive stress and liver injury in experimental obstructive jaundice //Eur. Surg. Res., 2009, v. 43(2), p.228-234.

15. Бойко В.В., Насиров М.Я., Гаджиев Н.Дж. и др. Прогностическая роль интерлейкин-6, среднемолекулярных пептидов, малонового диальдегида и ферропротеинов в перитонеальном экссудате у больных с распрестраненым перитонитом // Azərbaycan Tibb Jurnalı, 2012, №-3, s.19-26.

16. Гаджиев Дж.Н. Диагностическое значение исследования среднемолекул-ярных пептидов в перитонеальном экссудате, сыворотке крови и моче у больных с распрестраненым перитонитом // Вестник Национального медико-хирургического Центра им. Н.И. Пирогова, 2012, № 3, с. 71-74.

17. Гаджиев Дж.Н., Амиров А.С., Гаджиев Н.Дж. Показатели перекисного оксиления липидов печени, желчи и эритроцитов у больных с острым калькулезным холециститом // Харківска хірургічна школа, 2009, т. 34, № 3, с. 29-32

Резюме

Диагностическо-прогностическое значение средномолекулярных пептидов в сыворотке крови и желчи при механической желтухе доброкачественной этиологии

Дж.Н. Гаджиев, Э.Г. Тагиев, Н.Дж. Гаджиев, Т.М. Рзаев, Ш.Х. Касумова.

Проведены исследования в динамике в периферической крови и протоковой желчи при доброкачественной механической желтухе (МЖ) у 137 больных на фоне хирургического лечения в зависимости от степени печеночной дисфункции (ПД). У всех больных МЖ развивалась на фоне холедохолитиаза. Больные разделены на 2 группы: в сравнительную группу вошли 67 больных, которые после билиарной декомпрессии получали традиционное лечение. В основную группу вошли 70 больных, которые послеоперационном периоде получали Ронколейкин и гептрал. Степень ПД определяли с учетом маркеров синдромов холестаза и цитолиза гепатоцитов: у 44 больного была I, у 29 - II, у 21 - III, у 20 – IV и гнойный холангит у 23. У больных обеих группах в протоковой желчи в динамике взятой во время операции и после холедохолитотомии с помощью наружного дренирования содержание средномолекулярных пептидов (СМП) было больше, чем в сыворотке крови. У умерших больных в обеих группах, независимо от степени ПД содержание СМП в крови до операции и протоковой желчи взятой во время операции было значительно больше, а также медленно снижалась в динамике в обеих биосредах чем у выживших. Таким образом, сравнительная оценка содер-

жания СМП в обоих биосредах в динамике дает возможности прогнозировать течения воспалительного процесса и результаты лечения.

Summary

Diagnostic and prognostic value of middle molecular peptides in serum and bile in mechanical jaundice with benign etiology

J.N. Hajiyev, E.G. Tagiyev, N.J. Hajiyev, T.M. Rzayev, Sh.X. Gasimova

Investigations of the dynamics in the peripheral blood and bile duct benign obstructive jaundice (MFs) in 137 patients during surgery, depending on the degree of hepatic dysfunction (DD). All patients developed against the background of breast choledocholithiasis. In all patients OJ was developed in background of choledocholithiasis. The patients were divided into 2 groups: the comparative group included 67 patients who received biliary decompression after standard treatment. The study group included 70 patients who received postoperative Roncoleukin and Heptral. Degree of HD was determined based on markers of cholestasis syndrome and cytolysis of hepatocytes: in 44 patients was I degree HD, in 29 - II, in 21 - III, 20 - IV and in 23 suppurative cholangitis. In patients of both groups in ductalbile taken during operation and after choledocholithotomy with external drainage, the middle molecular peptides(MMP) were greater than in the serum. In patients who died in both groups, regardless of the degree of HD, the content MMPs in the blood before surgery and ductal bile taken during surgery was significantly higher and slowly decreased over time in both biological media than in survivors. Thus, a comparative assessment of the content of MMP in both biological media in dynamics makes it possible to predict the course of the inflammatory process and the results of treatment.

Daxil olub:21.12.2015

BORULU TORAKOSTOMİYANIN TƏNƏFFÜSÜN FƏRQLİ FAZALARINDA YEKUNLAŞDIRILMASININ QİYMƏTLƏNDİRİLMƏSİ

E.Ş.Məmmədov

Ege Universiteti Tibb Fakultəsi Döş Qəfəsi cərrahiyyəsi bölməsi

Açar sözlər: borulu torakostomiya, tənəffüs, Müller manevri, Valsalva manevri

Ключевые слова: трубочный торакостомия, дыхание, маневр Мюллера, маневра Валсальвы

Keywords: pipe torakostomiya, breathing, Mueller maneuver Valsalva maneuver

Borulu torakostomiyanın tətbiq olunması, döş qəfəsi cərrahiyyəsinin ən geniş tətbiq olunan əməliyyatlarındandır. Ədəbiyyatda torakostomiya əməliyyatınım icrası və ona olan göstərişlərə dair geniş məlumatlar olsa da, qeyd olunan əməliyyatın yekunlaşdırılmasına dair məlumatlar çox azdır [1,5,6,10]. Döş qəfəsinin müxtəlif vəziyyətlərdəki təzyiq göstəriciləri aşağıdakı kimidir və torakal əməliyyatlarda nəzərə alınmalıdır; dərin nəfəsalma zamanım 5-10 mmHg arasında, tam nəfəsvermə zamanı 2-5 mmHg arasında tərəddüd edir [2,7,8, 11,12].

Müller manevri adlandırılan, qırtlaq qapağının qapalı olması zamanı nəfəsalmanı xarakterizə edən hal zamanı bu göstərici- 40 mmHg,Valsalva manevri adlandırılan, qırtlaq qapağının qapalı alması zamanı nəfəsverməni xarakterizə edən hal zamanı bu göstərici +40 mm ilə +50 mmHg arasında dəyişilir [3,4,9].

Bu rəqəmləri nəzərə alaraq, borulu torakostomiyanin döş qəfəsinin daxilindəki təzyiqin ən "müsbət nöqtəyə" çatdığı vaxt yəni, Valsalva manevri zamanı yekunlaşdırılması məqsədəuyğundur. Bu zaman bəzi hallarda əməliyyatdan sonra ağrı, ümumi vəziyyətin pisləşməsi yaxud da xəstənin Valsava manevrini tam başa düşməməsi ilə əlaqədar tətbiq oluna bilmir. Bəzən torakal cərrahlar qeyd olunan əməliyyatı nəfəsvermənin sonunda yeklaşdırmağa üstünlük verirlər. Borulu torkostomiyanın nə zaman icra ediləcəyi və onlar arasındakı fərqlərin müqayisəsinə dair tədqiqatlar azlıq təşkil edir [1,4,7,9].

Tədqiqatın məqsədi. Borulu torakostomiyanın tənəffüsün fərqli fazalarında yekunlaşdırılması zamanı xəstələrin nəticələrinin qiymətləndirilərək ədəbiyyat məlumatları ilə müqayisə edilməsi.

Tədqiqatın material və metodları. Ege Univeristeti Tibb Fakultəsi Döş Qəfəsi Cərrahiyyəsi bölməsində müalicə alan, 2010-cu ilin yanvarından dekabrına kimi müddət ərzində müxtəlif səbəblərdən borulu torakostomiya yekunlaşdırılmış 40 xəstə tədqiqata daxil edilmiş, alınmış rəqəmsal nəticələr χ^2 analizi, Anova testi və Shapiro-Wilk testi vasitəsilə qiymətləndirilmiş, $p<0.05$ dürüstlük

kimi götürülmüşdür. Tədqiqata həm əməliyyat (VTC və əzələ qoruyucu əməliyyyatlar) zamanı, həm də lokal anesteziya altında borulu torakostomiya tətbiq olunan xəstələr cəlb olunmuşdur.

Xətələr borulu torakostomiyanın yekunlaşdırılması vaxtına görə 4 qrupda təsnif olunmuşdur (Cədvəl 1).

Qrup 1. Nəfəsalmanın sonunda borulu torakostomiyası yekunlaşdırılanlar

Qrup 2. Nəfəsvermənin sonunda borulu torakostomiyası yekunlaşdırılanlar

Qrup 3. Valsalva manevri zamanı borulu torakostomiyası yekunlaşdırılanlar

Qrup 4. Müller manevri zamanı borulu torakostomiyası yekunlaşdırılanlar.

Tədqiqat zamanı orta aksial (qoltuq) xəttin üzərində icra edilən borulu torakostomiyalar müqayisə olunmuş, drenajın fiksə edilməsi yalnız "U" tikişi ilə həyata keçirilmiş, drenajlar əməliyyatdan sonra 3 və 7-ci günlər arasında yalnız bir cərrah tərəfindən yekunlaşdırılaraq çıxarılmışdır.

Cədvəl 1

Torakostomiya müdaxiləsi müxtəlif fizioloji hallar zamanı həyata keçirilmiş xəstələr


Parametr	Borulu torakostomiyanın yekunlaşdırılma forması				Cəmi
	Nəfəsalmanın sonu	Nəfəsvermən in sonu	Valsalva manevri	Müller manevri	
Xəstələrin sayı	10	10	10	10	40
Yaş	18-59 (36±15,3)	19-67 (36±18,3)	18-65 (38±18,4)	22-71 (42±16,2)	
Cins (kişi/qadın)	3 / 7	3 / 7	2 / 8	5 / 5	13/27
Borulu torakostomiyanın tətbiqi üsulu (əməliyyat öncəsi / yerli anesteziya)	8 / 2	7 / 3	8 / 2	5 / 5	2 /12

Əməliyyatdan əvvəl xəstələrin xəstəlik tarixlərinin yenidən nəzərdən keçirilməsi daha məqsədəuyğundur. Bu əməliyyat zamanı bəzi hallarda, ələxsus da tək drenajın qoyulduğu zaman drenajın özünə də əlavə bir dəlik açılmalı olur. Drenajın yekunlaşdırılması üçün lazım olacaq tənəffüs halları xüsusilə Valsalva və Müller manevrləri xəstəyə izah edilməli, onun texnikanı tam başa düşdüyünə və həmin vəziyyəti təşkil edəcəyinə əmin olmaq lazımdır.

Borulu torakostomiya xəstənin müxtəlif vəziyyətlərində icra oluna bilər. Məsələn oturaq vəziyyət zamanı borulu torakostomiya icra olunan tərəfdə onun qolu başı üzərinə qaldırılır və torakostomiyanın giriş yeri antiseptik vasitələrlə işlənilir. Drenajın üzərindəki tikiş açıldıqdan sonra ipin sərbəst ucları qüvvətlə yuxarıya doğru dartılaraq qapadılır (Şək. 1).



Şək. 1. Borulu torakostomiyanın yekunlaşdırılması zamanı iplərin uclarının dartılması



Şək 1. Xəstələrdə yaş və borulu torakostomiyanın yekunlaşdırılması texnikasına görə paylanması

Bu zaman drenaj yavaşca bayıra doğru dartılır. Drenaj dəliyə təxminən 4 sm-ə yaxın yaxınlaşıldıqda həkim dartmanı saxlayır və pasiyentə tələb olunan tənəffüs halına gəlməyi xahiş olunur. Daha sonra drenaj sürətlə dartılaraq tikiş düyünlənir, tikiş yeri isə antiseptik məhlulların biri ilə işləndikdən sonra quru tamponla qapadılır. Xəstələrdə drenaj çıxarıldıqdan sonra 6-24-cü saatlarda pulmonaqrafiya icra edilərək ağciyərlərin vəziyyəti öyrənilmişdir.

Tədqiqatın nəticələri və müzakirəsi. Tədqiqata cəlb olunmuş xəstələrin 27-si (67,5% -i) kişi, 13-ü (32,5% -i) qadın, onların orta yaş göstəricisi isə 38,5 olmuşdur (Şək.2). Borulu torakostomiyanın yekunlaşdırılmasından sonra tədqiq olunan pulmonaqrafiyalarda; nəfəsvermə və nəfəsalmanın sonunda hər qrupda 1, Valsalva və Müller manevrləri zamanı çəkilən xəstələrdə isə hər qrupda 2 xəstədə ağciyərin genişlənmə problemlərinin olması qeydə alınmışdır (cədvəl 2). Plevrada dəliyin yaranması orada mənfi təzyiqin aradan qalxmasına və ağciyərlərin tənəffüs zamanı genişlənmələrinin effektivliyinin azalmasına gətirib çıxarır.

Ümumilikdə 40 xəstədən 6-da (15%) borunun çıxarılmasından sonra ağciyərlərin genişlənməsində qüsurlar qeydə alınmış, bu xəstələrdə 3 l/dəq həcmində oksigen terapiyasında başlanılmış və onlarda kontrol məqsədilə ağciyərin rentgenoqrafiyası aparılaraq 2 günə kimi saxlanıldıqdan sonra evə buraxılmışlar.

Tədqiqata daxil edilmiş pasiyentlərdə müxtəlif üsullarla aparılan borulu torakostomiya yekunlaşdırıldıqdan sonra yaranan ağırlaşmalara görə texnikalar arasında statistiki dürüst fərq aşkar edilməmiş (p=0,85), hər bir texnikanın ağ ciyərlərin genişlənməsində problem yaratma dərəcəsi bir-birinə yaxın olmuşdur. Bu səbəbdən hər bir döş qəfəsi cərrahı özünün tətbiq etdiyi üsullarla borulu torakostomiyanı yekunlaşdırmasl daha məqsədəuyğundur.

Cədvəl 2

Borulu torakostomiyanın yekunlaşdırılması texnikalarının effektivliyi

Rentgenoloji müayinənin nəticələri	Borulu torakostomiyanın yekunlaşdırılması müddətləri				
	Nəfəsalmanın sonunda	Nəfəsvermənin sonunda	Valsalva manevri	Müller manevri	p
Ağciyərlərin genişlənmə problemi qeydə alınmış xəstələrin sayı (n)	1	1	2	2	0.85

ƏDƏBİYYAT

1. Trapnell D.H., Thurston J.G.B. Unilateral pulmonary edema after pleural aspiration // Lancet, 1970, v.1, p.1367-1369
2. Baird R., Al-Balushi Z., Wackett J., Bouchard S. Iatrogenic Horner syndrome after tube thoracostomy // J Pediatr Surg., 2009, v.44(10), p.2012-2014.
3. Fleishman J.A., Bullock J.D., Rosset J.S. et al. Iatrogenic Horner's syndrome secondary to chest tube thoracostomy // J Clin Neuro Ophthalmol., 1983, v.3, p.205-210.
4. Bourque P.R., Paulus E.M. Chest-tube thoracostomy causing Horner's syndrome // Can J Surg., 1986, v.29, p.202-203.
5. Campbell P., Neil T., Wake P.N. Horner's syndrome caused by an intercostal chest drain // Thorax, 1989, v.44, p.305-306.
6. Altinok T., Sunam G.S. Göğüs Cerrahisi Acillerinde Tüp Drenaj //JSurgMed Sci.,2007, v.3, p.25-28.
7. Parmar J. How to insert a chest drain // Br J Hosp Med., 1989, v.42, p.231-233.
8. Quigley R. Thoracentesis and chest tube drainage //Crit Care Clin., 1995, v.11, p.111-126.
9. McFadden P., Jones J. Tube thoracostomy: anatomical considerations, overview of complications, and a proposed technique to avoid complications // Mil Med., 1985, v.150, p.681-685.
10. Semrad N. A new technique for closed thoracostomy insertion of a chest tube // Surg Gynecol Obstet., 1988, v.166, p.171-173.
11. Davis J.W., Mackersie R.C., Hoyt D.B. et al Randomized study of algorithms for discontinuing tube thoracostomy drainage // J Am Coll Surg., 1994, v.179, p.553-557
12. Etoch S., Bar-Natan M., Miller F. Tube thoracostomy // Arch Surg., 1995, v.130, p.521-526

Резюме

Оценка завершения трубчатой торакостомии дяхания на разных фазах

Э.Ш.Мамедов

Целью исследования явилось Оценка завершения трубчатой торакотомии дыхания на разных фазах и сопоставление их с литературными данными. В исследование вошли 40 больных. При сравнении различных методов торакостомии выяснилось что, между этими методиками нет стати-

стически достоверных различий при завершении на различных фазах. Мы пришли к выводу что, использование различных способов тарокостомии по усмотрению хирурга является целесообразным.

Summary

Evaluation complete tubular torakostomii dyahaniya at different phases

E.Sh.Mamedov

The aim of the study was to rank the completion breathing tube thoracotomy in various phases and their comparison with literature data. The study included 40 patients. When comparing different methods torakostomii revealed that, among these methods are no statistically significant differences at the end of various F Zech. We concluded that the use of different methods tarokostomii at the discretion of the surgeon is appropriate.

Daxil olub:28.12.2015

MALYARİYA XƏSTƏLİYİNİN ELİMİNASİYASINDAN SONRA AĞSU RAYONUNDA APARILAN PROFİLAKTİK TƏDBİRLƏRİN EPİDEMİOLOJİ CƏHƏTDƏN QİYMƏTLƏNDİRİLMƏSİ

F.H.Hüseynova, İ.A.Hacıyev, M.İ.Əliyev, Ə.Nəsirov

V.Axundov adına Milli Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu,
Ağsu rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Açar sözlər: malyariya, elminasiya, Ağsu rayonu, profilaktika
Ключевые слова: мальярия, элиминация, Ахсуинский район, профилактика
Keywords: malaria elimination, Agsu, prevention

Ağsu rayonu Şirvan bölgəsində yerləşməklə dağ, dağətəyi və aran əraziyə malikdir. Rayon çoxsahəli təsərrüfatla məşğuldur. Əsas istehsal sahəsi taxılçılıq, maldarlıq, qismən pambıqçılıqdır. Ərazinin su təchizatı Ağsu və Girdiman çayları və yuxarı Şirvan kanalıdır. Su təchizatını təmin etmək məqsədilə süni yaradılmış 80 hektar sahəsi olan Cavanşir su anbarıdır. Bunlardan başqa suvarma ilə əlaqədar əmələ gələn kiçik həcmli sututarı vardır [1]. Bütün bunlar iqlim şəraiti ilə əlaqədar malyariya ağcaqanadlarının çoxalmasına şərait yaradır. Lakin, rayon ərazisində malyariyanın eliminasiyasına nail olunduğuna görə sututarların çox olması gərginlik yaratmır. Buna baxmayaraq, daimi sututarlar üzərində entomoloji nəzarət aparılır və yeni sututarların əmələ gəlməməsi üçün cari sanitar nəzarət tədbirləri həyata keçirilir, eləcə də təsərrüfat əhəmiyyəti olmayan sututarların ləğv edilməsi istiqamətində iş aparılır [1].

Azərbaycanda malyariyanın eliminasiyasına nail olunmasına baxmayaraq, Ağsu rayonunun təbii-iqlim və sosial-iqtisadi şəraitinin keçiricilərin inkişafı üçün əlverişli olması [2] xarici ölkələrdən malyariya hadisəsinin gətirilməsinin intensivləşməsi, eləcə də son dövrlər xaricdən malyariya infeksiyasının əsasən ölkə vətəndaşları tərəfindən gətirilməsi ölkədə malyarioloji gərginlik yaradır [1,2]. Belə ki, 1996-2010-cu illərdə (15 ildə) xaricdən gətirilmə 27 malyariya hadisəsi qeydə alınmışdırsa, son 2 ildə (2011-2013) 8 gətirilmə malyariya hadisəsi qeydə alınıb. Onu da qeyd etmək lazımdır ki, 2006-2010-cu illərdə institutun parazitar xəstəliklər klinikasında malyariya diaqnozu ilə müalicə almış 7 xəstənin 6 nəfəri (85,7%) respublika vətəndaşıdır [5].

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə 2014-cü ildə dünya üzrə 198 milyon malyariya hadisəsi qeydə alınıb, onlardan 584 min nəfər ölümlə nəticələnib.

Çoxillik müşahidələrimiz və epidemioloji təhlillər göstərmişdir ki, hansı ərazidə malyariyaya görə profilaktik tədbirlər zəifləyirsə, orada xəstəliyin bərpası və alovlanması baş verir [6,7]. Odur ki, apardığımız araşdırmanın məqsədi malyariyanın eliminasiyasına nail olunmasına baxmayaraq, malyarioloji sabitliyi saxlamaq üçün profilaktik tədbirlərin aparılması vəziyyətini öyrənmək, epidemioloji cəhətdən qiymətləndirmək və bu istiqamətdə konsultativ, metodik məsləhətlər vermək, praktik köməklik göstərməkdən ibarətdir [8].

Bu məqsədlə, biz Şirvan bölgəsində yerləşən və 1970-1971-ci illərdə epidemik alovlanma mərkəzi olan Ağsu rayonunda aparılan epidemioloji nəzarəti öyrənməyə çalışmışıq.

Rayonun 15 yaşayış məntəqəsindən 324 nəfərdən qan preparatı götürüb, nəzarət qaydası ilə institutun laboratoriyasında müayinə edilmişdir (Cədvəl 1).

Bundan başqa, seçmə üsulu ilə malyariya xəstəliyinə şübhə doğuran 56 xəstəlik tarixi və 116 ambulator kartasına baxış keçirmişik. Müəyyən edilmişdir ki, malyariyaya şübhəli olan bütün xəstələrin laborator müayinəsi aparılır. Rayon üzrə əhalinin malyariyaya görə laborator müayinəsi azalmayıb, əksinə 2011-ci ildən sonra artıb (Cədvəl 2).

Cədvəl 2

Ağsu rayonu üzrə qan preparatı götürülüb müayinə edilmişdir

Sıra sayı	Yaşayış məntəqələrinin adı	Cəmi	o cümlədən				cinsi	
			0-14 yaş	15-40	41-60	61 və yuxarı	kişi	qadın
1	2	3	4	5	6	7	8	9
1	Abasxanlı	38	17	20	1	-	16	22
2	Bozavand	16	1	9	5	1	5	11
3	II Aratkənd	23	7	12	4	-	16	7
4	Ağalarbəyli	10	-	6	3	1	5	5
5	Rəhimli	56	9	26	19	2	22	34
6	Mustafalı	30	3	16	10	1	11	19
7	Musabəyli	15	-	5	10	-	8	7
8	Bico	22	2	10	5	5	9	13
9	Pirhəsənli	15	3	8	4	-	5	10
10	Qaraqaşlı	33	4	27	2	-	13	20
11	Göydəlləkli	4	-	2	1	1	2	2
12	2-ci sahə	18	1	4	8	5	5	13
13	PMK	10	-	5	5	-	-	10
14	Ağ-Arx	16	1	9	5	1	4	12
15	Məşədiqanlı	18	1	5	5	7	4	14
CƏMİ		324	49	164	87	24	125	199
Müayinənin nəticəsi		-	-	-	-	-	-	-

Cədvəl 2

Malyariya xəstəliyinə görə müayinə edilmiş qan preparatları haqqında məlumat (2011-2014 və 2015-ci ilin I yarısı)

İllər üzrə				
2011	2012	2013	2014	2015-ci ilin I yarısı
6388	11297	10538	10057	4318

Apardığımız epidemioloji araşdırmalar əsasında deyə bilərik ki, hazırda Ağsu rayonunda əhali üzərində malyariyaya görə epidemioloji nəzarət tələb olunan səviyyədə aparılır.

Əməli təkliflər:

1. Miqrasiya edən əhali üzərində epidemioloji nəzarəti gücləndirmək;
2. Keçmişdə malyariya hadisəsi qeydə alınan yaşayış məntəqələrində evbəev gəzintiləri gücləndirmək və qan preparatlarının məqsədyönlü götürülməsinə diqqəti artırmaq;
3. Müalicə idarələrində parazitoloji müayinə aparan laborantlar üzərində parazitoloq nəzarətini gücləndirmək və onların vaxtaşırı təkmilləşmə kursuna göndərilməsinə nail olmaq;
4. Təsərrüfat əhəmiyyəti olmayan sututarların ləğv edilməsinə və ləğv edilməsi mümkün olmayan sututarların qambuziyalaşdırılmasına diqqəti artırmaq;
5. Əhalinin malyariyanın profilaktikasına aid maarifləndirilməsi işini daim aparmaq.

ƏDƏBİYYAT

1. Abdullayev X.İ., Hacıyev İ.A., Əliyev M.İ., Məmmədov S.M. Azərbaycanda 1995-1996-cı illərdə baş vermiş malyariya epidemiyasının əmələ gəlmə səbəbləri və onun epidemik xüsusiyyətləri / "XXI əsrdə klinik mikrobiologiyanın aktual problemləri" respublika elmi-prak. konf. məcmuəsi. Bakı. 2001, s.6-10

2. Hacıyev İ.A., Abdullayev X.İ., Nəcəfov İ.H., Məmmədova G.M. Müasir şəraitdə əhalinin miqrasiyasının xüsusiyyətləri və malyariyanın yayılmasında onun rolu. / V.Axundov adına Milli ET Tibbi Profilaktika İnstitutunun 75 illiyinə həsr edilmiş yekun elmi konfransının materialları, Bakı, 1997, s.54-55

anadan olmasının 90 illik yubileyinə həsr olunmuş respublika elmi konfransının məcmuəsi, Bakı, 2006, s.204-209

3. Hacıyev İ.A., Əliyev M.İ., Hüseynova F.H. və b. Ağsu rayonunda mövcud malyarioloji vəziyyətin epidemioloji cəhətdən qiymətləndirilməsi / İctimai sağlamlıq və səhiyyə, Bakı, 2006, s.82-87

4. Hacıyev İ.A., Əliyev M.İ., Mütəlibova N.F. Azərbaycan Respublikasında 1996-2009-cu illərdə malyarioloji vəziyyətin retrospektiv analizi. / V.Axundov adına Milli ET Tibbi Profilaktika İnstitutunun elmi əsərləri (Beynəlxalq məqalələr toplusu), Bakı, 2010, s.41-45

16. Государственной Фармакопея СССР XI изд. Вып. 1. Общие методы анализа МЗ ССС. М. 1987, 336 с.

Xülasə

Azərbaycanda bitən süsən cinsinin növləri ksantonların perspektivli mənbəyidir

H.M.Qurbanov, C.İ.İsayev

Süsən cinsinə aid bitki növləri Azərbaycanda fərqli geobotanik ərazilərdə yayılmışdır. Tədqiqatın məqsədi Azərbaycanda bitən süsən cinsinə aid bitki növləri arasında tərkibində daha çox ksantonlar olan nümayəndələri aşkar etməkdir. Tədqiq olunan bitki nümunələri onların çiçəkaçma dövründə müxtəlif bölgələrdə toplanmışdır. Analiz olunan məhlulların optiki sıxlığı 410 nm dalğa uzunluğunda spektrofotometrdə ölçülmüşdür. Süsən cinsinə aid olan 8 bitki növü tədqiqi edilmişdir. Miqdari təyinat nəticəsində müəyyən edilmişdir ki, *I. medwedewii* - 4,31%, *I. carthaliniae* - 1,46% и *I. imbricata* - 1,23% bitki növləri ksantonların miqdarına görə perspektivli növlər hesab edilir.

Summary

The species of Iris genus growing in Azerbaijan are perspective source of xanthones

H.M.Gurbanov, J.I.Isayev

The species of Iris genus have been spread in different geobotanic area in Azerbaijan.The purpose of investigation is to discover more xanthones in the species of Iris genus growing in Azerbaijan. Examined plant samples have been gathered in florescence period from various regions. The optical density of analysed solutions have been measured in 410 nm wavelengths by spectrophotometer. 8 plant species of Iris genus have been explored. The result of quantitative analysis determined as *I. medwedewii* - 4,31%, *I. carthaliniae* - 1,46% and *I. imbricata* - 1,23% plant species are considered perspective depending on xanthones amount.

Daxil olub:23.11.2015

LƏMBLİOZ VƏ HİMENOLEPİDOZUN BAĞIRSAQ MİKROFLORASINA TƏSİRİ

A.Ə.Salehov, M.İ.Əliyev, F.İ.Xanmirzəyev, R.O.Quliyeva, S.H.Baxşıyeva, G.O.Əliyeva

V.Axundov adına Milli ET Tibbi Profilaktika İnstitutu

Açar sözlər: Ləmblioz, himenolepidoz, disbakterioz

Ключевые слова: Лямблиоз, гименолепидоз, дисбактериоз

Key words: Lamblia, hymenolepidos, disbakterios

Bağırsaqların normal mikroflorasının kəmiyyət və keyfiyyətcə dəyişməsində digər amillərlə yanaşı parazitozların da xüsusi rolu vardır. Bağırsaq parazitozlarının yayılma səviyyəsindən, növ tərkibindən, yoluxma intensivliyindən asılı olaraq, bağırsaq mikroflorasında baş verən dəyişikliklər müxtəlif olur [1,2,3,5,6,8,9,10].

Eyni zamanda, bağırsaq mikroflorasının vəziyyətindən, onun kəmiyyət və keyfiyyətcə dəyişməsindən, asılı olaraq orqanizmin immun sisteminin vəziyyəti dəyişir ki, bu da bir sıra yoluxucu-parazitar xəstəliklərlə xəstələnmə səviyyəsinə, xəstəliyin patogenezinə, klinik gedişinə, müalicəsinin nəticəsinə və profilaktik tədbirlərin səmərəliliyinə bilavasitə təsir edir. Bu baxımdan təmas parazitozları olan və əhali arasında geniş yayılan ləmblioz və himenolepidozda bağırsaq mikro-florasının öyrənilməsi

maraq doğurur. Belə ki, bu parazitozlar, xüsusən onların mikst invaziyasında bağırsaq mikroflorası az tədqiq edilmişdir [2,4,5,7,11,12].

Bundan başqa, ləmblioz və himenolepidozun müalicəsində effektli antiparazitar preparatların istifadə edilməsinə baxmayaraq, bu gün də onların dayanıqlı epidemioloji effektə malik müalicəsi problem olaraq qalmaqdadır.

Bu məsələdə də bağırsaqların normal mikroflorasının rolu danılmazdır. Ona görə də. parazitozlarla yoluxmuş şəxslərdə effektli müalicə və profilaktika tədbirləri həyata keçirmək üçün hər bir parazitoza xas bağırsaq mikroflorasının təyin edilməsi və onun yaratdığı disbakteriozun kəmiyyət və keyfiyyətcə qiymətləndirilməsi parazitologiyada aktual məsələlərdəndir.

Tədqiqatın **məqsədi** ləmblioz və himenolepidozun mono və mikst invaziyalarında bağırsaq mikrobiosenozunda baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinin öyrənilməsidir.

Tədqiqatın material və metodları. Tədqiqatda parazitoloji, epidemioloji, mikrobioloji, statistik və s. üsullardan istifadə edilmişdir.

850 nəfər ləmblioz və himenolepidoza görə müayinə olunmuş, 144 nəfər ləmbliozu, 42 nəfər himenolepidozu, 5 nəfər mikst invaziyası olan və 34 praktik sağlam şəxslərin nəcisi mikrobioloji müayinə edilmişdir.

Alınmış nəticələr və onların müzakirəsi. Aparılan müayinələrin nəticələri göstərir ki, bağırsaq parazitozları olan şəxslərdə ümumi disbakterioz 135(67,2±3,3%) nəfərdə aşkar edilmişdir ki, onlardan 49 (24,3±3,0%) nəfərdə disbakterioz normal mikrofloranın azalması, 86(42,8±3,5%) nəfərdə isə şərti-patogen və patogen mikrofloranın aşkar edilməsi ilə müşahidə edilmişdir. Bu göstəricilər praktik sağlam şəxslər arasında müvafiq olaraq 14,7±6,1%; 8,8±4,9% və 5,9±4,0% olmuşdur. Ümumi disbakterioz ləmbliozlu şəxslərin 64,6±4,0%-də, himenolepidozlu şəxslərin 71,5± 7,0%-də, həm ləmbliozlu, həm də himenolepidozlu şəxslərin isə 80,0±10,3%-də aşkar edilmişdir (Cədvəl 1).

Göründüyü kimi, disbakterioz mikst invaziyası olan şəxslərdə mono invaziyası olanlara nisbətən daha çox aşkar edilir.

Müalicədən sonra insanlarda bağırsaqların mikroflorasının normallaşması müşahidə edilir. Müalicədən sonra disbakteriozun göstəriciləri 2 saylı cədvəldə göstərilmişdir. Cədvəldən göründüyü kimi, normal mikrofloranın azalması müalicədən sonra ləmbliozlu şəxslərin 10,1± 2,6%-də, patogen və şərti-patogen mikrofloranın aşkar edilməsi müayinə edilənlərin 21,6±3,5%-də, ümumi disbakterioz isə 31,7±4,0%-də müşahidə edilir. Hər 3 halda müalicədən əvvəlkinə nisbətən disbakterioz 2 dəfə azalmışdır.

Himenolepidozu olan şəxslərdə bu göstəricilər müvafiq olaraq 12,8±5,3%, 20,5±6,5% və 33,3±7,5%-də aşkar edilmişdir. Burada da müalicədən əvvəlkinə nisbətən mikroflorada baş verən dəyişikliklər müalicədən sonra 2-3 dəfə az rast gəlir. Həm ləmbliozu, həm də himenolepidozu olan şəxslərdə də müalicədən sonra normal mikrofloranın azalması təqribən 3 dəfə, patogen və şərti-patogen mikrofloranın aşkar edilməsi 2,5 dəfə, ümumi disbakterioz 2 dəfə azalmışdır.

Cədvəl 1

Ləmblioz və himenolepidozla yoluxmuş və praktik sağlam şəxslərdə bağırsaq mikroflorasının vəziyyəti

Müayinə kontingenti	Müayinə edilən sayı	Normal mikrofloranın azalması ilə			Patogen və şərti-patogen mikroflora ilə			Ümumi disbakterioz		
		müt	%	p	müt	%	p	müt	%	p
Ləmblioz	144	31	21,5±3,4	<0,05	62	43,1±4,1	<0,001	93	64,6±4,0	<0,001
Himenolepidoz	42	13	31,0±7,1	<0,01	17	40,5±7,6	<0,001	30	71,5±7,0	<0,001
Ləmblioz + hinenolepidoz	15	5	33,3±12,2	<0,01	7	46,7±12,9	<0,001	12	80,0±10,3	<0,001
Bağırsaq parazi-tozları olan şəxslər (cəmi)	201	49	24,3±3,0	<0,01	86	42,8±3,5	<0,001	135	67,2±3,3	<0,001
Praktik sağlam şəxslər	34	3	8,8±4,9		2	5,9±4,0		5	14,7±6,1	

Göründüyü kimi, bağırsaq mikroflorası bu parazitozların təsirindən pozulur və onun kəmiyyət və keyfiyyət göstəriciləri sağlam şəxslərdən əsaslı şəkildə fərqlənir. Bağırsaqların mikroflorasının tərkibini təşkil edən ayrı-ayrı mikrobların ləmblioz, himenolepidozun mono və

mikst invaziyalarında dəyişməsinin öyrənilməsi elmi və praktik cəhətdən maraq doğurur. Bunu nəzərə alaraq, ləmblioz və himenolepidozla yoluxmuş şəxslərdə bağırsaqların 12 növ mikroorqanizmləri öyrənilmişdir. Alınmış nəticələr 3 saylı cədvəldə öz əksini tapmışdır. Cədvəldən göründüyü kimi, bifidobakteriyaların azalması ən çox ləmblioz və himenolepidozun mikst invaziyalarında (33,3±12,2%), nisbətən çox ləmbliozda (32,6±3,9%), daha az himenolepidozda (21,4±6,3%) müşahidə edilir.

Laktobakteriyaların azalması ləmblioz (51,4±4,2%), himenolepidozda (52,4±7,7%) təqribən eyni olub, ləmblioz və himenolepidozun mikst invaziyasında nisbətən çox (60,0±12,6%) rast gəlir.

Tipik xassəli E.coli-nin azalması himenolepidozla, ləmblioz və himenolepidozun mikst invaziyasında təqribən eyni (66,7±7,3%) olub, ləmbliozun mono invaziyasında nsbətən az (50,0±4,2%) rast gəlir.

Zəif fermentativ xassəli E.coli-nin artması ləmblioz və himenolepidozun mikst invaziyasında (26,7±11,4%) çox, ləmbliozda (22,2±3,5%) nisbətən çox, daha az isə himenolepidozda (16,7±5,8%) müşahidə edilmişdir.

Laktozaneqativ E.coli-nin artmasında da eyni hal müşahidə edilir (uyğun olaraq 26,7±11,4%; 27,8±3,7% və 23,8±6,6%).

Hemolizəedici E.coli-nin artması ləmbliozda (22,2±3,5%), himenolepidozda (19,1±6,1%) və onların mikst invaziyasında (20,0±10,3%) təqribən eyni səviyyədə rast gəlir.

Cədvəl 2

Ləmblioz və himenolepidozla yoluxmuş şəxslərdə müalicədən sonra bağırsaq mikroflorasının vəziyyəti

Müayinə kontingenti	Müayinə edilən sayı	Normal mikrofloranın azalması			Patogen və şərti-patogen mikroflora			Ümumi disbakterioz		
		Müt	%	p	Müt.	%	p	Müt.	%	p
Ləmblioz	139	14	10,1±2,6	<0,01	30	21,6±3,5	<0,001	44	31,7±4,0	<0,01
Himenolepidoz	39	5	12,8±5,3	<0,05	8	20,5±6,5	<0,05	13	33,3±7,5	<0,001
Ləmblioz + hinenolepidoz	15	2	13,3±8,8	>0,05	3	20,0±10,3	>0,05	6	40,0±16,3	<0,001
Bağırsaq parazitozları olan şəxslər (cəmi)	193	21	10,9±2,2	<0,05	41	21,2±2,9	<0,05	63	32,6±3,4	<0,001
Praktik sağlam şəxslər	31	3	9,7±5,3		3	9,7±5,3		6	19,4±7,1	

Cədvəl 3

Ləmblioz və himenolepidozda bağırsaq mikroflorasında dəyişikliklər

Bağırsaq mikroflorası	Bağırsaq mikroflorasında dəyişiklik baş verən şəxslər								
	Ləmblioz			Himenolepidoz			Ləmblioz+himenolepidoz		
	müt	%	p	müt	%	p	müt	%	p
Bifidobakteriyaların azalması (10^8-10^9)	47	32,6±3,9	>0,05	9	21,4±6,3	>0,05	5	33,3±12,2	>0,05
Laktobakteriyaların azalması (10^6-10^9)	74	51,4±4,2	>0,05	22	52,4±7,7	>0,05	9	60,0±12,6	>0,05
Tipik xassəli E.coli-nin azalması (10^7-10^8)	72	50,0±4,2	>0,05	28	66,7±7,3	>0,05	10	66,7±12,2	>0,05
Zəif fermentativ xassəli E.coli-nin artması (<10%)	32	22,2±3,5	>0,05	7	16,7±5,8	>0,05	4	26,7±11,4	>0,05
Laktozaneqativ E.coli-nin artması (<5%)	40	27,8±3,7	>0,05	10	23,8±6,6	>0,05	4	26,7±11,4	>0,05
Hemolizəedici E.coli-nin artması (<10^4)	32	22,2±3,5	>0,05	8	19,1±6,1	>0,05	3	20,0±10,3	>0,05
Proteus mənşəli qr.(-) çöplərin artması(<10^3)	3	2,1±1,2	>0,05	1	2,4±2,4	>0,05	1	6,7±6,5	>0,05
Staphylococcus aureus (<10^2) artması	23	15,9±3,1	>0,05	4	9,5±4,5	>0,05	2	13,3±8,8	>0,05
Staphylococcus epidermidis (<10^4)	31	21,5±3,4	<0,01	3	7,1±4,0	<0,01	2	13,3±8,8	>0,05
Candida mənşəli göbələklərin artması (<10^4)	36	25,0±3,6	>0,05	6	14,3±5,4	>0,05	4	26,7±11,4	>0,05

Proteus mənşəli qram (-) çöplərin artması nisbətən çox ləmblioz və himenolepidozun mikst invaziyasında (6,7±6,5%), nisbətən az və təqribən bərabər ləmbliozda (2,1±1,2%) və himenolepidozda (2,4±2,4%) aşkar edilmişdir.

St.aureus mikroblarının artması ən çox ləmbliozda (15,9±3,1%), sonra ləmblioz və himenolepidozun mikst invaziyasında (13,3± 8,8%), daha sonra isə himenolepidozda (9,5± 4,5%) müşahidə edilir.

St.epidermidis-də ən çox ləmbliozda (21,5±3,4%), sonra onların mikst invaziyasında (13,3±8,8%), nisbətən az (7,1±4,0%) himenolepidozda rast gəlir.

Candida mənşəli göbələklər ən çox mikst invaziyalarda (26,7±11,4%), sonra ləmbliozda (25,0±3,6%), nisbətən az himenolepidozda (14,3±5,4%) aşkar edilir.

Yekun. Aparılan bu müayinələrin yekunu göstərir ki, ləmbliozla yoluxmuş şəxslərdə adətən qram (-) bakteriyaların miqdarı azalır. Qram (+) bakteriyalar və Candida göbələkləri isə əksinə, artır. Himenolepidozda bu hal müşahidə edilmir. Nəhayət, qeyd etmək lazımdır ki, mikst invaziyalarda mono invaziyalara nisbətən disbakterioz çox təsadüf edilir. Ona görə də, təmas parazitozları olan ləmblioz və himenolepidozun, xüsusilə də onların mikst invaziyalarının müalicəsində bağırsaq mikroflorasının vəziyyəti nəzərə alınmalı və etioloji təyinatla yanaşı mikroflora korreksiya edilməlidir, onda daha dayanıqlı və epidemioloji baxımdan uzunmüddətli effektə nail olmaq olar.

ƏDƏBİYYAT

1. Благова Н.Н., Некоторые факторы иммунитета у больных аскаридозом и энтеробиозом на фоне лечения альбендазолом: Автореф. дисс. канд. мед. наук, СПб, 1997, 18 с.
2. Алешкин В.А., Афанасьев С.С. Дисбактериоз кишечника: пути решения проблемы. М., 2004, 24 с.
3. Бегайдарова Р.Х., Кузгибекова А.Б., Култаков Б.Ж. и др. Клинико-морфологические проявления лямблиоза у подростков // Аллергология и иммунология, 2013, т.14, №2, с.103
4. Гринкевич В.А., Захаренко С.М. Принципы коррекции дисбиозов кишечника // Лечащий врач, 2008, №6, с.6-9
5. Куимова И.В. Клинико-патогенетические аспекты патологии органов пищеварения и аллергодерматозов у детей с лямблиозной инвазией. Автореф. дис. докт. мед. наук. Новосибирск,2003,46с.
6. Мадримов З.Х. Микробиоценоз толстой кишки у взрослых больных с лямблиозной инвазией на фоне общепринятого лечения / Актуальные вопросы инфекционной патологии,. Витебсек, 2008, с.98-99
7. Мехтиев С.Н., Гриневич В.Б., Захаренко С.М. «Дисбактериоз кишечника. Вопросы и ответы» Учебно-методическое пособие, М., ГОУ ВУНМЦМзиСР, 2006, 64 с.
8. Салехов А.А., Иманова Э.М. Дисбактериоз и кишечные паразитозы (аскаридоя, энтеробиоз, ляблиоз) // Научные и педагогические известия университета «Одлар Юрду», Баку, 2006, №16, с.25-29
9. Яковлева О.П. Возрастные особенности кишечной микрофлоры у детей с лямблиозо / Материалы XIVконгресса детских гастроентерологов России «Актуальные проблемы абдоминальной патологии у детей». М., 2007, с.253-255
10. Adam R.D. The biology of Giardia Lamblia. // Clin. Mikrobiol. Rev: 1991, v.55, p.706-732
11. Gardner T.B.O., Hill D.R. Treatment of giardiasis // Clinikal Microb. Reviews, 2001, №14, p.114-128
12. Saffer M.J. Gaffari J., Khallian A.R., Kosaraian M. Rapid reinfection by Giardia lamblia lamblia after treatment in hyperendemic area: the case against treatment // East Mediter. Health J., 2005, v.11, p.73-78

Резюме

Влияние лямблиоза и гименолепидоза на кишечную микрофлору

А.А.Салехов, М.И.Алиев, Ф.И.Ханмирзоев, Р.О.Кулиева, С.Н.Бахшиева, Г.О.Алиева

Результаты проведенных исследований показывают, что у лиц зараженных лямблиозом, количество грамм отрицательных бактерий уменьшается. А наоборот, количество грамм положительных бактерии и грибов рода Candida увеличивается. При гименолепидозе эти изменения не выявляется. Надо отметить, что при микст инвазиях по сравнению с моноинвазиями дисбактериоз часто выявляется. Поэтому, при лечении лямблиоза и гименолепидоза, особенно в их микст инвазиях необходимо учитывать нарушении микрофлоры кишечника и корректировать

его. Только в таком подходе к лечению этих паразитозов можно достичь стойкого и эпидемиологического долгосрочного положительного эффекта.

Summary

The effect giardia lamblioz, hymenolepidoz and mix invasion to mikroflora of intestinalis

A.A.Salehov, M.I.Aliyev, F.I.Khanmirzoev, R.O.Quliyeva,S.H.Baxshiyeva, G.O.Aliyeva

Results undertaken stadies showed at persons infected by a Giardiazis lamblia, amaunt gramme negative to the bacterium decreased, but amaunt gramma positive to the bacterium, and Candida inereased. Hymenolepidosis these changes daes not come. It is necessary to mark that at mix of invasion as compared to monoinvazion dysbacteriozis after detected. Therafore, at treatment of Giardiazis lamblia, Hymenolepidozis, especially their mix invasion along with treatment, it is necessary to take into account of intestinal mikroflora. Only in such going treatment of these possible to attain the proof and long-term positive effect of treatment.

Daxil olub:25.11.2015

ANTİFOSFOLİPİD SİNDROMUN MÜASİR ASPEKTLƏRİ VƏ MAMALIQ AĞIRLAŞMALARININ İNKİŞAFINDA ONUN ROLU

C.F.Qurbanova, M.A.Quliyeva

*Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu; Azərbaycan Tibb Universiteti**

Açar sözlər: antifosfolipid sindrom, trombotik ağırlaşmalar, trombozun profilaktikası

***Ключевые слова*:** антифосфолипидный синдром, тромботические осложнение, профилактика тромбоза.

***Key words**:* antiphospholipid syndrome, thrombotic complications, profilaxis of thrombosis

Antifosfolipid sindromu (AFS) hazırkı dövrdə immun mənşəli qazanılmış trombofiliyanın ən vacib səbəblərindən biri kimi tanınır. AFS-in əsasını qan damarlarının trombotik və / və ya okkluziv zədələnməsi ilə əlaqədar olan vaskulopatiya təşkil edir [1]. Lakin antifosfolipid antiteli aşkar edilən xəstələrin böyük əksəriyyəti fertil yaşa malik olan qadınlardır. Bu qadınlarda antifosfolipid sindromu ekstragenital trombozlar və mamalıq patologiyaları ilə təzahür edir və müalicə aparılmayan hallarda dölitirmə sindromunun tezliyi 50-75% təşkil edir [2].

Hamilə qadınların hemostaz sisteminin və immunitetinin pozğunluqları arasında plasentar çatışmazlığa, hestoza, dölün inkişafının ləngiməsinə, dölün antenatal ölümünə, hamiləliyin ikinci yarısının toksikozuna, doğuşdan sonrakı dövrün ağırlaşmalarına, tromboemboliyalara səbəb olan patologiyalardan ən çox rast gəlinəni antifosfolipid sindromudur [3].

Antifosfolipid sindromu- antifosfolipid antiteli ilə yanaşı arterial və ya venoz trombozun, yaxud da dölitirmə sindromunun ən azı bir klinik təzahürü ilə xarakterizə olunan autoimmun xəstəlikdir [1, 4].

Antifosfolipid sindromun öyrənilmə tarixi 1906-cı ildən başlayır. Belə ki, A.Vasserman sifilisli xəstələrin qan plazmasının zədələnmiş toxumaların ekstraktı ilə reaksiyaya girmək qabiliyyətini sübut etmiş və bunun əsasında diaqnostika metodu işləyib hazırlamışdır. 1941-1944-cü illərdə M.C.Pangborn müəyyən etmişdir ki, Vasserman reaksiyasının əsas antigen komponenti fosfolipiddir ki, bunu da o, kardiolipin adlandırmışdır. Ekstraktın digər komponentləri (fosfatidilxolin və xolesterin) də effektiv aqlütinasiyada əhəmiyyətə malik olmuşdur [5].

ABŞ-da 1938-ci ildən skrininq müayinələrə başlanılan zaman aydın olmuşdur ki, müsbət Vasserman reaksiyası sifilisi olmayan insanlarda da aşkar oluna bilər. Keçən əsrin 50-ci illərinin başlanğıcında müəyyən olunmuşdur ki, yalançımüsbət Vasserman reaksiyasına bir sıra infeksion və immun xəstəliklərdə də rast gəlinir. Belə ki, sistemli qırmızı qurdeşənəyi zamanı onun rastgəlmə tezliyi 30% təşkil edir. L.C.Conley və R.C.Hartman 1952-ci ildə sistemli qırmızı qurdeşənəyi olan xəstələrin qan plazmasında qanın laxtalanmasını *in vitro* şəraitdə tormozlayan faktor aşkar etmişlər. Lakin sonralar onun olmasını qanaxma ilə deyil trombozla əlaqələndirsələr də o, "qurdeşənəyi antikoaqulyanı" adlandırılmışdır [6]. E.N.Harris et al. kardiolipin və AFA ilə reaksiyaya girən antiteli

təyin etməyə imkan verən bərkfazalı radioimmun müayinə metodu işləyib hazırlamışlar. Bu metod həssaslığına görə Vasserman reaksiyasından 200-400 dəfə üstündür [2, 7].

Hughes G.R. (1983) qurdeşənəyi antikoaqulyantı olan xəstələrdə oxşar klinik təzahürlər-trombozlar, serebrovaskulyar patologiyalar və hamiləlik patologiyaları olduğuna diqqət yetirmişdir [8]. Müəllif belə güman etmişdir ki, xəstələrdə xüsusi klinik-laborator sindrom inkişaf edir ki, bunu da o "antikardiolipin", daha sonra isə antifosfolipid sindromu adlandırmışdır. 1994-cü ildə bu xəstəliyi "Hughes sindromu" adlandırmaq təklif olunmuşdur. Antifosfolipid sindromunun növbəti öyrənilməsində proqres kardiolipinin, C və S zülalların və s. birləşməsində β-2-qlikoprotein-1-in (β2GP-1) rolunun təyin edilməsi ilə bağlıdır [3, 9].

MDB ölkələrində antifosfolipid sindromunun öyrənilməsinə 1985-ci ildən başlanmışdır. Antifosfolipid sindromun təsnifatı və diaqnostikasının müasir meyarları 1999-cu idə işlənib hazırlanmışdır. Bu tövsiyələrə görə antifosfolipid sindromu diaqnozu bir klinik və bir laborator meyar olan hallarda qoyulur [1, 2].

Hazırkı dövrdə antifosfolipid sindrom dedikdə - trombozla müşayiət olunan plazmanın fosfolipid birləşdirən proteininə qarşı antitelin sirkulyasiyasını, döl itirmə sindromunu, immun trombositopeniyanı və/və ya nevroloji pozğunluqları özündə cəmləşdirən simptomokompleks başa düşülür [1, 10].

Hamilə qadınlarda antifosfolipid sindromu üçün aşağıdakı klinik təzahürlər xarakterikdir:

1. Damar trombozu: istənilən toxuma və ya orqanda arteriya, vena və ya kiçik damarların trombozunun bir və ya daha artıq klinik epizodları;

2. Hamiləlik patologiyaları: hamiləliyin 10-cu həftəsindən sonra bir və ya bir neçə dəfə morfoloji normal dölün ana bətnində ölməsi hadisəsi; preeklampsiya / eklampsiya və ya aydın nəzərə çarpan cift çatışmazlığı sayəsində hamiləliyin 34-cü həftəsinə qədər bir və ya bir neçə sayda morfoloji normal dölün vaxtından əvvəl doğulması; hamiləliyin 10-cu həftəsinə qədər ardıcıl üç və daha artıq spontan abort hadisəsi [2, 11].

Klinik gedişatın ağırlığına görə antifosfolipid sindromun 3 dərəcəsi ayırd edilir: I dərəcə - bir klinik meyarın olması, trombositlərin sayının 100 - 150 qiqa/l-dən artıq olması, kardiolipinə qarşı İgG-nin- normadan 30% çox olması; II dərəcə- bir klinik meyarın olması, trombositlərin sayının 50-100 qiqa/l-dən artıq olması, kardiolipinə qarşı İgG-nin- normadan 30 -50% çox olması; III dərəcə- bir klinik meyarın olması, trombositlərin sayının 50 qiqa/l-dən az olması, kardiolipinə qarşı İgG-nin normadan 100% çox olması [3].

Antifosfolipid sindromla müştərək rast gəlinən bir sıra klinik təzahürlər mövcuddur. Bunlara autoimmun hemolitik anemiya, mitral qapağın patologiyaları, endokardın zədələnməsi (Libman-Saks sindromuna oxşar), hipertenziya, ağciyər hipertenziyası, retikulyar livedo, xoreya, damarların katastrofik okklüziya sindromu, nefrotik sindrom aiddir [1,12].

Antifosfolipid sindrom izoləolunmuş gedişə malikdirsə birincili, hər hansı bir xəstəliyin (birləşdirici toxumanın xəstəlikləri, infeksion və autoimmun xəstəliklər, Bexçet, Şeqren sindromları, bədxassəli xəstəliklər, limfoproliferativ proseslər və s.) fonunda inkişaf edirsə ikincili hesab olunur [7].

Antifosfolipid sindrom diaqnozunun qoyulması üçün ən azı xarakterik klinik təzahürlərdən biri olmalı, eləcə də laborator təsdiqlənməlidir. İnfeksiyalardan (mikoplazma mənşəli, adenovirus infeksiyası, ornitozlar, qızılyel, qızılca, malyariya, epidemik parotit, HİV-infeksiya və s.) və ya bəzi dərman preparatlarının (fenitoin, fanzidar, xinidin, xinin, hidralazin, prokainamid, fenotiazinlər, alfa-interferon, kokain) qəbulundan sonra antifosfolipid antitelin (AFA) tranzitor sirkulyasiyasını istisna etmək üçün müayinələrin 3 ay intervalla təkrarlanması məsləhətdir [13].

Sidneydə (2005) diaqnostik meyarların yenilənmiş son tövsiyələrinə əsasən antifosfolipid sindromun laborator meyarlarına aşağıdakılar aid edilir: 1) aralarındakı fasilə 12 həftədən az olmayaraq aparılan iki və ya daha artıq müayinələrdə qanda kardiolipinə qarşı antitelin - İgG və / və ya İgM izotiplərinin orta və ya yüksək titrdə aşkar olunması; 2) aralarındakı fasilə 12 həftədən az olmayaraq aparılan iki və ya daha artıq müayinələrdə qan plazmasında qurdeşənəyi antikoaqulyantının olması. (fosfolipid-asılı reaksiya); 3) β2-qlikoprotein-1-ə (β2GP-1) qarşı antitellərin olması [2, 8].

Antifosfolipid sindromun az-az rast gəlinən laborator əlamətlərinə proteinuriya, İgA, fosfolipidlər yarımqrupuna (fosfatidilserinə, fosfatidilinozitola, fosfatidil-qliserola, fosfatidiletanoamin və s.), kofaktorlara (anti- β2GP1, protrombin, C-protein, S-protein, V anneksin, trombomodulin və s.) və ya protrombinaza kompleksinə qarşı antitellərin olması aiddir [5,12].

Hazırkı dövrdə qəbul olunmuşdur ki, antifosfolipid antiteli anion və ya neytral fosfolipidlərin β2GP-1 və ya plazmanın digər zülalları (protrombin, aşağı- və ya yüksək-

molekullu kininogenlər, C-zülal, S-zülal, anneksin V və s.) ilə qarşılıqlı təsiri nəticəsində əmələ gələn antigen determinantlarını tanıyır. Belə fosfolipidlərə fosfatidilinozitol, fosfatidilxolin, fosfatidilqliserol, kardiolipin, fosfatidilserin, fosfatidiletanolamin aiddir ki, bunlardan da ən çox əhəmiyyət kəsb edəni son üçü, xüsusən də fosfatidilserindir. Antifosfolipid antitelinin damar epitelinin heparin-sulfat proteoqlikan komponentləri və trombomodulinin xondroitinsulfat komponenti ilə reaksiyaya girmək qabiliyyəti bu patologiyada da endotelin iştirak etdiyini göstərir [5, 13].

Bəzi müəlliflərin [2, 14] verdiyi məlumatlara görə, antifosfolipid antiteli bilavasitə dölə zədələyici təsir göstərə bilər, belə ki, immunoqlobulinlər plasentanı keçərək anaya göstərdiyi təsir kimi dölə də təsir edir, xüsusən döldə immun trombositopeniyaya və trombozlara gətirib çıxarır.

Angiomatoz, mikrotrombozlarla xarakterizə olunan vaskulopatiya, endotel hüceyrələrin distrofiyası, nekrozu və deskvamasiyası, intima hüceyrələrinin proliferasiyası, bazal membranın ödemi antifosfolipid sindromu zamanı baş verən proseslərdir. İkincili antifosfolipid sindromu endotel hüceyrələrin aydın nəzərə çarpan proliferasiyası, distrofiyası, nekrozu, deskvamasiyası və nəticə etibarilə tromb əmələ gəlməsi ilə xarakterizə olunur [15].

İmmunokompleks vaskulitlər zamanı autoimmun komplekslər qanda uzun müddət sirkulyasiya edir, damarların subendotelial qatında toplanaraq yerli iltihab törədir. Bir qayda olaraq, hamiləlik dövründə, xüsusən də hestozlar zamanı sirkulyasiya edən immun komplekslərin səviyyəsi yüksəlir. Retikulo-endotelial sistem immun komplekslər tərəfindən blokadaya alındığından AFS zamanı bu komplekslər qandan lazımi sürətlə xaric ola bilmir [1,6,16]. Çox güman ki, qadınların immun sistemində (retikuloendotelial, makrofaqal və komplement sistemlərində) dərin dəyişikliklər antifosfolipid antitelin sirkulyasiyası ilə əlaqədardır [2].

Endotelin zədələnməsi xarici faktorlar (viruslar, vaksinlər, dərman preparatları, maliqnizasiya), immun komplekslər, autoantitellər (antiendotelial, antineytrofil və bazal membran əleyhi) genetik amillər (HLA sistemi) və s. tərəfindən törənə bilər. AFS zamanı endotelin zədələnməsi bu sindromun bütün klinik təzahürlərinin əsasında duran vacib prosesdir [2,4,16].

Antifosfolipid sindromu zamanı trombofiliyanın patogenezinin bir neçə hipotezi müvcuddur. Triplett D.A. 1993-cü ildə AFS-in patogenezinin aşağıdakı modelini təklif etmişdir ki, bunun da əsasında endotelial hüceyrələrin funksiyasının pozulması durur [2]:

- Prostasiklinin sintezinin, trombomodulinin funksional aktivliyinin pozulması, heparinsulfatın funksional aktivliyinin azalması, toxuma faktorunun ekspressiyasının sürətlənməsi, endotel hüceyrələrində fosforilxolinin asetilqliserin efirinin aktivliyinin dəyişməsi;
- Fibrinolitik aktivliyin pozulması, yəni toxuma tipli plazminogen aktivatorunun hasilatının azalması, plazminogen aktivatoru inhibitorunun hasilatının sürətlənməsi, endotelin aktivləşməsi (zədələnməsi), Villebrandt faktorunun sintezinin sürətlənməsi;
- Trombositlərin aktivləşməsi;
- Tənzimləyici zülallar sistemində anomaliyalar- C-zülalın aktivliyinin azalması, sərbəst sirkulyasiya edən S-zülalının səviyyəsinin azalması, antitrombin III-ün funksional aktivliyinin zəifləməsi;
- Plasentar mənşəli antikoaqulyant zülalların sintezinin və funksional aktivliyinin zəifləməsi;
- Prokoaqulyant fosfolipidlərin effektini imitasiya edən idiotipik antitellərin sintezinin induksiyası.

Antifosfolipid antiteli təbii vazodilatatorların və trombositlərin aqreqasiya inhibitoru olan prostasiklinin sintezini ləngidir ki, bu da trombositlərin hiperaktivliyinə gətirib çıxarır [3,15].

Trombositlərin, eləcə də neytrofillərin və monositlərin aktivləşməsinin patogenezində FcyRII reseptorları vacib rol oynayır. Belə ki, hüceyrə səthində antifosfolipid antitelinin bu reseptorlarla birləşməsi siqnal transduksiyasına, tromboksan A_2-nin əmələ gəlməsinə və trombositlərin bərk qranulalarının azadolma reaksiyasına gətirib çıxarır. Trombositlərin aktivləşməsi FcyRII reseptorlarının amplifikasion ekspressiyasına səbəb olur ki, bu da trombositlərin aktivləşmə prosesini sürətləndirir [4]. Endotelin zədələnməsi zamanı çoxlu miqdarda fibronektin hasil olur. Antifosfolipid antiteli C-zülal kimi çox vacib və təbii antikoaqulyant sistemini praktiki olaraq tam aradan qaldırır. C-zülalın aktivasiyasının trombin-trombomodulin kompleksinin təsiri ilə pozulması endotelin fosfolipidlərinin zədələnməsi və antifosfolipid antitelinin trombomodulinə birbaşa təsiri, S-zülalın təsirinin blokadaya alınması, plazminogen aktivatoru inhibitoruna C-zülalın tormozlayıcı təsirinin olmaması sayəsində onun ekspressiyasının azalması hesabına baş verir. Antifosfolipid antitelinin epiteliositlərin səthindəki qlikozaminqlikanlarla birləşməsi sayəsində

antitrombin III aktivliyinin zəifləməsi baş verir [2,13,15].

Antifosfolipid sindromu olan xəstələrdə toxuma faktorunun koaqulyasion zəncirinin əsas triggerinin sintezində antifosfolipid antitelinin rolunun öyrənilməsinə həsr olunmuş bəzi tədqiqat işlərində monosit və endotelositlərdə toxuma faktorunun ekspressiyasının artması aşkar edilmişdir [6,16]. Həmçinin müəyyən edilmişdir ki, antifosfolipid antiteli olan xəstələrdə bu antitel protrombotik vəziyyətə səbəb olan endotelial hissəciklər (membran hissəcikləri) əmələ gətirə bilər [16].

Ədəbiyyatların verdiyi məlumatlara görə, antifosfolipid sindromu olan xəstələrdə 30-46% (digər məlumatlara görə 10-15%) hallarda inkişaf mexanizmi hələ də məlum olmayan trombositopeniya müşahidə olunur [5,12]. J.Arnout və J.Vermilen trombositopeniyanın trombotik və immun təbiətli olması hipotezini irəli sürmüşdür. İmmun trombositopeniyanın patogenezinin əsasında FcyRII- trombosit reseptorunun vasitəçinin (plazma proteini-kofaktor) iştirakı ilə antitelin Fc fraqmenti ilə qarşılıqlı təsiri durur. Antitellə və buna qədər isə kofaktorla (β2GP-1) qarşılıqlı təsirdə olan trombosit hər hansı bir əlavə səbəb üzündən aktivləşməlidir. Əhəmiyyətli sayda FcyRII-reseptorlarının qarşılıqlı təsirdə iştirak etməsi siqnalın transduksiyasına və trombositlərin aktivləşməsinə, çoxlu miqdarda tromboksan A_2-nin sintezinə səbəb olur ki, bu da trombositlərin geriyədönməz damardaxili aqreqasiyasına, damarların spazmına və mikrosirkulyator staza gətirib çıxarır [3,5,17].

Antifosfolipid antiteli damar endotelinə, qan hüceyrələrinə, koaqulyasiyanın plazma proteinlərinə müxtəlif təsirlər göstərməklə bir çox xəstəliklərin patogenezində iştirak edir. Antifosfolipid sindromu ilə assosiasiya olunan hamiləliyin ağırlaşmalarına dölitirmə sindromu, hestozlar, feto-plasentar çatışmazlıq, dölün bətndaxili inkişafının ləngiməsi, normal yerləşmiş ciftin vaxtından əvvəl ayrılması, trombositopeniya, residivləşən trombozlar, kəskin və xroniki bakterial, virus, parazitar infeksiyalar, HELLP-sindromu, hamiləlik hipertenziyası, ekstrakorporal mayalanma cəhdlərinin uğursuzluğu, I tip (insulindən asılı olan) şəkərli diabet, əvvəllər keçirilmiş hamiləlik zamanı ağırlaşmaların olması aiddir [1, 2, 15].

Məlumdur ki, antifosfolipid sindromu hamiləlik dövründə tromboza meyl yaradır. Aydın nəzərə çarpan antifosfolipid sindromu olan qadınlarda aparılan iki böyük tədqiqat işinin nəticələrinə görə, prospektiv izlənilən hamiləliklə assosiasiya olunmuş trombozların səviyyəsi uyğun olaraq 5% və 12% təşkil etmişdir. Bu qadınların bir hissəsi heparinlə tromboprofilaktika almışlar [4,18]. Digər müəlliflərin verdiyi məlumatlara görə, AFS olan hamilələrdə trombozun tezliyi 33%-ə qədər çatır. Vacib məqamlardan biri ondan ibarətdir ki, AFS insult da daxil olmaqla arterial trombozların riskini artırır (1-2%) [1,19].

Hamiləliyin təkrar pozulması zamanı qadınların 14-42%-də antifosfolipid antiteli aşkar edilir. Hamiləliyin son dövrlərinin pozulması AFS üçün xarakterikdir: II və III trimestrlərdə hamiləliyi pozulmuş qadınların 29%-də, dölün inkişafının bətndaxili izoləolunmuş ləngiməsi olan hallarda isə antifosfolipid antiteli 40% xəstələrdə aşkar edilir. Anamnezində təkrari düşüklər olan və antifosfolipid antiteli aşkar edilən qadınlardan 80%-də, antifosfolipid antiteli aşkar edilməyən qadınların isə 25%-də dölün ölməsi baş vermişdir. Antifosfolipid sindromun dəqiq klinik və laborator əlamətləri olan qadınların retrospektiv təhlili göstərmişdir ki, onlarda 41% hallarda dölün ölümü ilə müşayiət olunan vaxtından əvvəl doğuşlar olmuşdur [1, 2, 4, 20].

Hamiləliyi normal keçən qadınlarda antifosfolipid antitelin aşkar olunma tezliyi 0-11%, orta hesabla 2% təşkil edir. Ekstrakorporal mayalanmadan sonra antifosfolipid antiteli qadınların 24%-də, sistemli qırmızı qurdeşənəyi olan qadınların isə 37%-də aşkar olunur. Vərdişli düşükləri olan xəstələr arasında AFS-ə 27-42% rast gəlinir ki, bunlardan da fosfolipidlərə qarşı antitelləri olanların 90-95%-də müalicə aparılmayan hallarda dölün (embrionun) ölümü müşahidə olunur [3, 20]. Ümumilikdə antifosfolipid antiteli aşkar edilən qadınların 76-81%-də mamalıq patologiyalarına rast gəlinir. Antifosfolipid antiteli aşkar edilən qadınlarda dölün ana bətnində ölümünün nisbi riski- 4,5%, preeklampsiya -10,5%, vaxtından əvvəl doğuş riski isə 10,5% təşkil edir [21].

Son illər ədəbiyyatlarda "şübhəli AFS" terminina rast gəlinir. Diaqnoza şübhə aşağıdakı hallarda meydana çıxa bilir: xəstəliyin klinik əlamətlərinin (trombozlar və / və ya hamiləliyin təkrari pozulmaları) olması və antikardiolipin antitelinin təyininə yönəlmiş sınaqların aşağı-pozitiv və ya qurdeşənəyi antikoaqulyantı sınağının neqativ olması və əksinə qeyri "klassik" klinik əlamətlərin (köndələn mielopatiya və ya ürək qapaqlarının patologiyası) olması və antikardiolipin antitelinin və ya qurdeşənəyi antikoaqulyantı sınağının təyininə yönəlmiş sınaqların pozitiv olması. Belə hallarda klassik klinik səciyyəli və aşağı pozitiv və ya

mənfi sınaqlar aşkar olunan xəstələrdə müayinələr təkrarlanmalı və lazım gələn hallarda əlavə olaraq anti- β2-qlikoprotein-1 (β2GP-1), antikardiolipin antitelinə qarşı IgA-nın təyini həyata keçirilməlidir. AFS diaqnozunun qoyulması üçün həm klinik, həm də laborator əlamətlərin vacibliyi nəzərə alınarsa, şübhəli hallarda mütəxəssisin təcrübəsi, eləcə də laboratoriyanın imkanları böyük əhəmiyyət kəsb edər [3, 22, 23].

Sonda qeyd etmək lazımdır ki, statistik məlumatlara görə, antifosfolipid antitelin sirkulyasiyası fizioloji hiperkoaqulabellik fonunda trombogen potensialın patoloji artması sayəsində hamiləliyin gedişini, doğuşu və doğuşdan sonrakı dövrü əhəmiyyətli dərəcədə ağırlaşdırır. Belə şəraitdə isə nəinki hamilələrdə və təbii doğuşdan sonrakı dövrdə, eləcə də keysəriyyə əməliyyatı keçirmiş xəstələrdə trombotik ağırlaşmaların profilaktikası vacib əhəmiyyət kəsb edir [2,24,25]. Hamiləlik və doğuşdan sonrakı dövrdə trombotik ağırlaşmaların müalicəsi ümumi populyasiyadan əhəmiyyətli dərəcədə fərqlənməsə də, onların qarşısının alınma üsulları əksər hallarda müzakirə mövzusu olaraq qalmaqdadır.

ƏDƏBİYYAT

1. Макацария А.Д. Антифосфолипидный синдром в акушерской практике. М.: Руссо, 2001, 344 с.
2. Макацария А.Д., Бицадзе В.О. Вопросы патогенеза тромбофилии и тромбозов у больных с антифосфолипидным синдромом // Акушерство и гинекология, 1999, №2, с.13-17
3. Громыко Г.А. Роль антифосфолипидного синдрома в развитии акушерских осложнений (обзор литературы) // Проблемы репродукции, 2007, №4, с.13-17
4. Насонов Е.Л. Антифосфолипидный синдром. М.: Литтерра, 2004, 440 с.
5. Backos M. Pregnancy complications in women with recurrent miscarriage associated with antiphospholipid antibodies treated with low dose aspirin and heparin // Br. J. Obstet. Gynaecol., 1999, v.106, p.102-107.
6. Carp H.J. Antiphospholipid antibodies and infertility // Clin. Rev.Aller Im., 2007, v.2, p.159-161.
7. Hughes G.R. Thrombosis, abortion, cerebral disease and lupus anticoagulant // Brit. Med. J., 1983, v. 187, p.1088-89
8. Miyakis S., Lockshin M.D., Atsumi T. et al. International consensus statement on an update of the classification criteria for definite antiphospholipid syndrome//J.Th.Haemost., 2006, v.4, p.295-306.
9. Berkun Y. Pediatric antiphospholipid syndrome // IMAJ, 2008, v.10. p.45-47
10. Uthman I. Ethnic and geographical variation in antiphospholipid syndrome // Ann. Rheum. Dis, 2005, v. 64, p.1671-1076.
11. Blank M., Krause I., Fridkin M. et al. Bacterial induction of autoantibodies to beta-2-glycoprotein I accounts for the infectious etiology of antiphospholipid syndrome // J. Clin. Invest., 2002, v.109, p.797-804.
12. Carmona F., Font J., Azulay M. et al. Risk factors associated with fetal losses in treated antiphospholipid syndrome pregnancies: a multivariate analysis // Am. J. Reprod. Immunol., 2001, v. 46, p.274-279.
13. Shoenfeld Y. Lessons from experimental APS models // Lupus, 1998, v. 7, p 158-161.
14. Salmon J.E. Antiphospholipid antibodies and pregnancy loss: a disorder of inflammation // J. Reprod. Immunol., 2008, v.77, p. 51-56.
15. Pierangeli S.S. Antiphospholipid antibodies and the antiphospholipid syndrome: pathogenic mechanisms // Semin. Thromb. Hemost., 2008, v.3, p.236-250.
16. Francis J. Impaired expression of endometrial differentiation markers and complement regulatory proteins in patients with recurrent pregnancy loss associated with antiphospholipid syndrome // Hum. Reprod., 2006, v.7, p. 435-442.
17. Andre M. Ovarian vein thrombosis in the antiphospholipid syndrome//Arthritis Rheum., 2004, v.1, p. 183-186.
18. Berman J. TNF-alpha is a critical effector and a target for therapy in antiphospholipid antibody induced pregnancy loss // J. Immunol., 2005, v. 74, p.485-490.
19. Urbanus R.T. Current insight into diagnostics and pathophysiology of the antiphospolipid syndrome // Blood Rev., 2008, v. 22, p.93-105.
20. Cervera R., Piette J.C., Font J. et al. Euro Phospholipid Project Group. Antiphospholipid syndrome: clinical and immunologic manifestations and patterns of disease expression in a cohort of 1000 patients // Arthritis Rheum, 2002, v. 46, p. 1019-27.
21. Erkan D. New treatments for antiphospholipid syndrome // Rheum.Dis. Clin. North Am., 2006, v.32, p. 129-148.

22.Derksen R.H. Management of the obstetric antiphospholipid syndrome // Arthritis Rheum., 2004, v.50, p.1028–39.
23.Galli M., Borrelli G., Jacobsenet E.M. et al. Clinical significance of different antiphospholipid antibodies in the WAPS [warfarin in the antiphospholipid syndrome] study // Blood, 2007, v.110, p.1178-1183.
24.Espinosa G. Thromboprophylaxis and obstetric management of the antiphospholipid syndrome // Expert Opin. Pharmacother., 2009, v. 4, p.601-614.
25.Farquharson R.G. Antiphospholipid syndrome in pregnancy: a randomized controlled trial of treatment // Obstet. Gynecol..2002, v. 100, p. 408-413

Резюме

Современные аспекты антифосфолипидного синдрома и его роль в развитии акушерской осложнений

Дж.Ф.Курбанова, М.А.Кулиева

В данной статье приведены современные данные о патогенезе антифосфолипидного синдрома (АФС), рассмотрены классификация, методы диагностики данного заболевания, описаны разнообразные акушерские, сосудистые формы АФС. В статье приведен исторический экскурс, изложены общепринятые в настоящее время диагностические критерии АФС, представлены современные подходы к лечению больных во время беременности. Эти сведения дают возможность проводить своевременную коррекцию возникающих аутоиммунных, гемостазиологических, метаболических нарушений во время беременности и в послеродовом периоде у больных с АФС, позволяющую снизить риск развития тромбоэмболических осложнений у женщин и способствовать рождению жизнеспособных детей.

Summary

Modern aspects of antiphospholipid syndrome and its role in development of obstetric complications

J.F.Kurbanova, M.A.Kuliyeva

This article presents the current data on pathogenesis of antiphospholipid syndrome (APS), considered the classification, methods of diagnosis, described a variety of obstetric, vascular form of APS. The paper presents a historical review of the currently accepted diagnostic criteria for APS, modern approaches to the treatment of patients during pregnancy. These data make it possible to carry out timely correction resulting autoimmune, hemostatic, metabolic disorders during pregnancy and the postpartum period in patients with APS, can reduce the risk of thromboembolic complications in women and to promote the birth of a healthy child.

Daxil olub:11.01.2016

QLOMERULONEFRİTLƏRIN MÜALİCƏSİNDƏ İSTİFADƏ OLUNAN İMMUNSUPRESSİV PREPARATLAR

E.İ. Həziyev

Azərbaycan Tibb Universiteti, Tədris Terapevtik Klinika, Efferent Terapiya Mərkəzi

Açar sözlər: kortikosteroidlər, immunsupresiya, plazmaferez
Ключевые слова: кортикостероиды, иммунсупрессия, плазмафарез
Keywords: corticosteroids, immunosuppression, plasmapheresis

Kortikosteroidlər. Kortikosteroidlər ilk immunsupressiv dərmanlar sayılır. Əsas təsir mexanizmi iltihab reaksiyasını zəiflətmək və immun cavabı dayandırmaqdır. Qlukokortikoidlər (QK) immunsupressiv təsirini əsasən monosit və makrofaqların İL-1 sintezini dayandırmaqla həyata keçirir. Bundan başqa aktiv olan limfositlərin G1 fazasından S fazasına keçməsini ləngidir. Monosit, makrofaq və neytrofillərin miqrasiyasını və faqositoz qabiliyyətini dayandırır və komplement sistemin aktivləşməsini sakitləşdirir [1].

QK müalicəsindən əvvəl hər hansı bir infeksiyanın, şəkərli diabetin, osteoporozun, mədə xorasının, psixiki pozğunluğun və arterial hipertenziyanın varlığı araşdırılmalıdır[2].

Glomerulonefritlər zamanı QK-lər prednizolon və ya metilprednizolon şəklində, oral və ya vena daxili puls terapiya formasında istifadə olunur. Xəstəliyin gedişinə sürətli təsir etmək məqsədilə preparat 1000 mg/gün dozada ardıcıl 3-5 gün olmaqla istifadə olunur[3].

QK müalicəsi alan xəstələrdə aparılan immunsupresiya nəticəsində əmələ gələn immun zəiflik infeksion xəstəliklərin və onkoloji xəstəliklərin baş qaldırmasına səbəb olur [4]. Bundan başqa uzun müddətli istifadədən sonra qarın nahiyyəsində piylənmə, kuşinqoid görüntülər, bufalo (donqar) boyun, dərinin nazikləşməsi, striaların yaranması, üzdə eritema, tüklənmə o cümlədən metobolik yan təsirlərdən hiperqlikemiya, hipokalemiya, hiperlipidemiya, natriumun bədəndə ləngiməsi, ikincili amenoreya, osteoporoz, aseptik sümük nekrozu, uşaqlarda böyümə geriliyi, davranış pozğunluqları, psixoz, gözlərdə subkapsulyar arxa katarakta, qlaukoma, mədə xorası, mədə-bağırsaq qanaxmaları, hemorragik pankreatit müşahidə oluna bilər [5]. QK-in meatbolik yan təsirlərini azaltmaq məqsədilə, kalorili qidaları azaltmaqla çəki artımının qarşısını almaq olar. Xörək duzunun qəbulunu məhdudlaşdırmaqla ödem və arterial hipertenziyanı, dolayı yolla hipokalemiyanı nəzarətdə saxlamaq olar. Tələbat olduqda kaliumu oral və ya venadaxili yolla bədənə daxil etməklə onun qıtlığını aradan qaldırmaq olar. Mədə turşuluğunu azaltmaqla-bürüyücü, histamin reseptorlarının və hidrogen nasosunun blokatorları ilə- mədənin selikli qişasını qorumaq olar. Osteoporozun qarşısını almaq üçün vitamin D və kalsium praparatları istifadə olunur.

Sitostatik (şiş əleyhinə; immunsupressiv) dərmanlar. Qlomerulonefritlərlə yanaşı sitostatiklər orqan transplantasiyalarında, sistem qırmızı qurdeşənəyi, revmatoid artrit, sistem vaskulitlər, sistem sklerodermiya, dermatomiyozit, polimiyozit və digər autoimmun xəstəliklərdə istifadə olunur.

Metotreksat (MTK): MTK fol turşusunun antoqonisti olub, fol turşusunun dihidroksifolreduktaza fermenti ilə reaksiyaya girməsinin qarşısını alır və beləliklə DNT və RNT sintezinə lazım olan timidin əmələ gəlmir.

MTK immunsupresiv təsirini limfositlərin proliferasiyasında və İL-1 sintezində azalma ilə göstərir. Əsasən iltihab əleyhinə, ikinci yerdə isə immunsupressiv təsirə malikdir. MTK müalicəsi zamanı fol turşusunun xəstəyə verilməsi alopesiyanın, selikli qişalarda yaraların əmələ gəlməsinin və mədə-bağırsaq traktına mənfi təsirin qarşısını alır.

MTK əlvə yan təsirləri kimi ürəkbulanma, həzm prosesinin pozulması, qarın ağrısı, ishal, qaraciyərə toksiki təsir, ağciyərlərdə fibrozun artması, hamiləlikdə düşüklər və döldə mutasiyalar müşahidə edilə bilər [6].

Azatioprin: Azatioprin purinin analoqu olub, aktiv forması 6-merkaptopurindir. DNT sintezini ləngitməklə limfositlərin proliferasiyasının qarşısını alır. 1-3 mg/kg/gün dozada daxilə qəbul edilir. Azatioprin tətbiqi zamanı leykopeniya, anemiya, trombositopeniya, pansitopeniya, ürəkbulanma, qusma, mədə xorası, pankreatit, qaraciyər fermentlərinin səviyyəsinin yüksəlməsi, toksik hepatit kimi yan təsirləri müşahidə oluna bilər. Ayda bir dəfə hemoqramma və qanda qaraciyər fermentlərinin səviyyəsi yoxlanmalıdır [1].

Siklofosfamid: Siklofosfamid sitostatik təsirini DNT-də quanini qələviləşdirməklə purin həlqəsini destruksiya edir. Daxilə 2 mg/kg/gün qəbul olunur. İmmunsupressiv təsiri oral müalicəyə başladıqdan 2-3 həftə sonra başlayır. Qısa müddətə effekt əldə etmək üçün intravenoz infuziya 750-1000 mg/m² şəklində istifadə oluna bilər. Əsasən qlomerulonefritlərdə, Lupus nefritdə, vaskulitlərdə, Vegener qranulomatozunda və digər mikroangiopatik vaskulitlərdə vena daxili istifadə olunur. Əlavə yan təsirlərindən neytropeniya, cinsi vəzlərə və hormonlara supressiv təsir (oliqospermiya, yumurtalıq disfunksiyası), alopesiya, dəri səpkiləri, mədə-bağırsaq pozğunluğu, hemorragik sistit, hipoqammaqlobulinemiya, pulmonar interstisyal fibroz [7].

Xlorambusil: Xlorambusil siklofosfamidlə eyni təsir mexanizminə malikdir. Gunlük dozası 0.1-0.2 mg/kq/gündür (2-8 mg/gün). Hemotoloji yan təsirləri sırasına leykoz və digər şiş hüceyrələrinin əmələ gəlməsi daxildir. Bu səbəblə istifadəsi məhdudlaşmışdır. Bunlara baxmayaraq bəzi qlomerulonefritlərdə hələ də istifadə olunur [8].

Mikofenolat Mofetil: Mikofenolat mofetil (MMF), mikofenol turşusunun sələfidir (MFT). MFT inozin monofosfat dehidrogenazanın selektiv inhibitorudur. MFT digər immun hüceyrələrə nisbətdə limfositlərə daha çox təsir edir. Çox mərkəzli randomizə olunmuş araşdırmalarda MMF-in sterodi və siklosporinlə kombinasiyası azatioprin və plaseboya görə transplantın kəskin ayrılma reaksiyası riskini azaltdığı müşahidə edilmişdir. Böyrək transplantasiyasında istifadə dozası 2 g/gündür. Son illərdə qırmızı qurd eşənəyində, qlomerulonefritlərdə və Behçet xəstəliyində istifadə olunur.

MMF qəbulunda azatioprinlə müqayisədə dəri xərçəngi əmələ gəlmə riski daha yüksəkdi. MMF-in infeksion, mədə-bağırsaq ağırlaşmaları və hepatotoksikliyi azatioprinə nisbətən daha azdır [9].

Kalsinevrin inhibitorları

Siklisporin-A: Göbələkdən alınan makrolid molekulasıdır. İmmunsupressiv təsiri T-helperlərin funsiyalarını selektiv ləngitməklə həyata keçirir. İL-2, İL-4, İL-5, interferon qamma, TNF-α, sintezini və sekresiyasını ləngidir. Siklosporin-A qlomerulonefritlərin, autoimmun xəstəliklərin, qırmızı qurd eşənəyinin, revmatoid artritin, Behçet xəstəliyinin, psoriazın, dağınıq sklerozun, dermatomiozitin, polimiozitin müalicəsində o cümlədən, orqan transplantasiyalarında istifadə olunur [7].

Takrolimus: Siklosporin-A-dan 50-100 dəfə güclü immunsupressiv təsirə malikdir. Orqan transplantasiyalarında Siklosporin A-nın yerini tutmağa başlamışdır. Xüsusilə qaraciyər və böyrək transplantasiyasında Siklosporin A ilə müqayisədə daha yaxşı nəticələr əldə edilmişdir. Siklosporin və Takrolimus aktivləşmiş limfositlərdə kalsinevrin asılı sitokin sintezini ləngidir. Takrolimus intrasellular zülal olan FKBP-12 ilə birləşərək kalsinevrinin təsirini ləngidir və bununla İL-2 asılı T limfosit aktivasiyası azalır. Başqa bir təsiri isə İL-8 sintezini azaltmaqla B limfositlərida aktivləşməsinin qarşısını alır. Siklosporin-A və Takrolimusun arzuolunmaz əlavə təsiri nefrotoksik təsirə malikdir. Geriyə dönə bilən kəskin böyrək zədələnməsi, xroniki nefropatiya, interstisyal fibroz kimi müxtəlif kliniki sindromlar yarada bilirlər. Hər iki dərmanı istifadə edən pasientlərdə kreatinin səviyyəsi nəzarətdə saxlanılmalıdır. İlkin göstəriciyə görə müalicə prosesində 20% yüksəlmə nefrotoksiklik haqda düşünməyə vadar edir. Bu halda hər iki dərmanın dozası aşağı salınarsa iki həftə içərisində qanda kreatinin göstəricisinin normaya qayıtmasını görmək olar [10]. Steroid rezistent ayrılma sindromlarında Takrolimiusun yararlı olamsı təcrübədə təsdiq olunmuşdur. Takrolimus hirsutizm, diş ətinin hiperplaziyası, hiperlipidemiya, arterial hipertenziya, hemolitik uremik sindrom kimi siklosporin toksikliyi qeyd olunan xəstələrdə də istifadə edilə bilər[11].

Takrolimusun əlavə təsirləri arterial hipertenziya, tremor, baş ağrısı, yuxusuzluq, böyrəklərin funsiyasarının pisləşməsi, qəbizlik, ishal, ürəkbulanma, hiperkalemiya, hiperqlisemiya, hipofosfatemiya, leykositoz və infeksiyalara meyillik ola bilər [12].

Poliklonal Antilimfosit preparatlar. Bu qrup dərmanlar, insan T limfositləri ilə immunizasiya edilmiş heyvanlardan əldə edilir. Limfositlərə qarşı əmələ gələn qlobulinlər selektiv olmayaıb digər immun hüceyrələrə də təsir edir. Buna görədə selektivlikləri azdır. Orqan transplantasiyalarında ayrılma reaksiyasının həm müalicəsində həm də profilaktikasında istifadə olunur. Son illərdə autoimmun xəstəliklərin müalicəsində istifadəsi barədə araşdırmalar aparılır. ALG (Anti Limfosit Qlobulin) və ATG (Anti Timosit Qlobulin) preparatları vardır. Bu qrup antitellər mərkəzi venalardan infuziya edilməlidirlər. Bu isə xəstəxana şəraitində mümükündür [15].

Bədən hərarətinin yüksəlməsi, titrəmə, səpkilər, arterial hipotenziya, anafilaktik şok, respirator distress sindrom, granulositopeniya, trombositopeniya, artralgiya, flebit, glomerulonefrit, limfoproliferativ xəstəliklər kimi yan təsirlər müşahidə edilə bilər[13].

Monoklonal Antitellər. OKT3: İnsan T hüceyrələrini tanıyan, ona spesifik olaraq yetişdirilimiş siçan monoklonal antitelləridir[14].

ANTİ-İL-2 reseptor antitelləri: Orqan transpalntasiyalarında ayrılma reaksiyalarının profilaktikasında istifadə olunur. Basiliximab və Daclizumab adlı iki preparatı vardır. T limfositlərində olan İL-2 reseptorunun a zəncirinə bağlanarak İL-2-nin stimulə ettiyi T hüceyrə proliferasiyasını ləngidir. Böyrək transplantasiyası zamanı kəskin ayrılma reaksiyasının profilaktikasında istifadə olunur[15].

ANTİ-TNF-α monoklonal antitellər: Şiş nekrozu faktoru- α (TNF- α) revmatoid artrit (RA) patogenezində əsasən rola malikdir. İnfliksimab və Etanetcept TNF-α-ya qarşı monoklonal antitel preparatlarıdır. İnfliksimab, TNF-α-nın həm qanda həll olan, həm də transmembranoz formalarına bağlanaraq onun təsirini dayandırır. RA-li xəstələrdə TNF-α inhibisiyasından sonra iltihabi mediatorlar və vaskulyar endotelial böyümə faktorunun qanda miqdarı azalır. Sinovial toxumada xemokinlərin sintezi və oynaqlarda limfosit miqrasiyası azalır[16].

Таким образом, изучение акушерского анамнеза при БА, ХОБ и БЛД, позволило установить ряд особенностей в течение беременности и родов. Анализ определенных признаков позволяет использовать их в дифференциально-диагностических целях при хронической бронхолегочной патологии у детей. Так характерными особенностями течения беременности при БЛД оказались гестозы (токсикозы второй половины беременности), протекающие тяжело, сопровождающиеся угрозой прерывания беременности. В результате указанных осложнений имели место преждевременные роды, кесарево сечение с последующим рождением подчас глубоко недоношенного плода. Многоплодная беременность, характерная для БЛД, также может быть использован как критерий диагностики заболевания.

Указанные отличительные особенности течения беременности и родов позволяют использовать их в дифференциальной диагностике хронических обструктивных бронхолегочных заболеваний у детей.

ЛИТЕРАТУРА

1. Голобородько М.М. Распространенность и факторы риска формирования болезней мелких бронхов у детей на примере г.Санкт-Петербурга и Ленинградской области: Автореф. дис ... канд. мед. наук. СПб, 2009, 27 с.

2. Дементьева Г.М. Болезни бронхолегочной системы у новорожденных / Под ред. Ю.Е. Вельтищева: М., 2004, 87 с.

3. Каракушикова К.В., рахимова Г.М. Особенности иммунного статуса недоношенных детей с перинатальной патологией в раннем неонатальном периоде// Педиатрия, 2010, №1, с.20-24

4. Миралиева У.С. Особенности течения раннего неонатального периода в зависимости от фактора риска перинатальной патологии: Автореф. дисс. … к.м.н., Душанбе, 2004, с.110

5. Неонатология.Практические рекомендации / Под ред. Райнхард Рооз. М.: Медицинская литература, 2011, 568 с.

6. Грачева Л.В., Кузьмина Т.Б., Дементьева Г.М. и др. Хронические бронхолегочные заболевания у детей, находившихся в неонатальном периоде на искусственной вентиляции легких. / Сб. научных трудов к 60 летию ГКБ №13 "Актуальные вопросы практической медицины". М.:РГМУ, 2000, с.454-457

7. Balasubramaniam V. Neonatal Chronic Lung Disease // ACCP AAP Ped Pul Brd. Rev., 2010, No.1, p.193-198

8. Cutz E., Chiasson D. Chronic lung disease after premature birth // N Engl J Med., 2008, vol.358, p.743-745

9. Kaplan A.P. Kinins,airway obstruction andanaphylaxis//Chem. Immunol. Allergy, 2010, 67-84

10. Tibboel D., Jobe A.H. Update in Pediatric Lung Disease 2009 // Am. J. Respir. Crit. Care Med., 2010, v.181, No.7, p.661-665

Xülasə

Uşaqlarda kiçik bronxların xəstəliklərində neonatal dövrün xüsusiyyətlərinin differensial-diaqnostik əhəmiyyəti

İ.A.Mustafayev

112 bronxial astma (BA), 139 xroniki obliterasiya olunan bronxiolit XOB), 103 bronxopulmonal displaziyalı (BPD) xəstələrin neonatal dövründə hamiləliyin və doğuşun xüsusiyyətləri öyrənilmişdir. Gestozlar, keysəriyyə əməliyatının tədbiqi, vaxtından əvvəl doğuş və nəticədə yarımçıq doğulmuşlar, çoxdöllü hamiləlik kimi əlamətlər qeyd olunan xroniki obstrukriv bronx-ağ ciyər patologiyalarının differensiasiyasında önəmli rol oynayırlar.

Summary

Differential diagnostic values of the state of the neonatal period in diseases of small airways in children

I.A.Mustafayev

The 112 children with bronchial asthma (BA), 139- with bronchiolithis obliterans (BO), 103 patients with bronchopulmonal dysplasia (BPD) were under observation. Studied especially the neonatal period. Analysis of pregnancy and childbirth has shown that such symptoms as preeclampsia, preterm delivery, caesarean section, multiple pregnancy can be used in the differential diagnosis of chronic obstructive pulmonary disease in children.

Daxil olub:14 01.2016

RETROSTERNAL DÜYÜNLÜ URLARIN DİAQNOSTIKASI VƏ CƏRRAHİ MÜALİCƏSİNƏ MÜASİR BAXIŞLAR

N.A.Ağayeva

Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə, Bakı

Açar sözlər: döş sümüyü arxası düyünlü ur, cərrahi müalicə, proqnoz

Ключ слова: загрудинный узловой зоб, хирургическая тактика, прогноз

Key words: retrosternal nodular goiter, surgical treatment, prediction

Retrosternal düyünlü urlar zamanı əməliyyat vaxtı cərrahi kəsiyin hansı növünün seçilməsi, yəni kəsiyin boyundan aparılması və ya sternotomiyanın aparılması bu gün də cərrahları düşündürən məqamlardandır.

Döş sümüyü arxasında yerləşmiş qalxanabənzər vəzi ilk dəfə 1749 – cu ildə Albrecht von Haller tərəfindən təsvir edilmişdir. "Disputationes Anatomicae Selectae" adlı əsərində o, həmçinin qeyd etmişdir ki,döş sümüyü arxasında yerləşmiş qalxanabənzər vəzi üzrəində cərrahi əməliyyatın aparılması zamanı müəyyən çətinliklərlə üzləşiləcək. Döş sümüyü arxasında yerləşmiş qalxanabənzər vəzinin ilk dəfə tireoidektomiya əməliyyatını 1820-ci Klein adlı cərrah yerinə yetirmişdir [1].

Döş qəfəsi daxili qalxanabənzər vəzilər birincili və ikincili olmaqla 2 qrupa bölünür.Birincili döş qəfəsi daxilində qalxanabənzər vəzi nadir rast gəlinir və bütün retrosternal vəzilərin təxminən 1%-ni təşkil edir. Bu vəzilər anadangəlmə olaraq divararalığında abberant yerləşmiş qalxanabənzər vəzidən inkişaf edir və çox vaxt normal boyunda yerləşmiş vəzi ilə heç bir əlaqəsi olmur. Döş qəfəsi arxası yerləşmiş qalxanabənzər vəzilərin böyük əksəriyyəti boyunda yerləşmiş vəzinin boyunun fassiyaları ilə aşağıya doğru döş qəfəsinə doğru yayılması nəticəsində formalaşır ki, bunlar da ikincili retrosternal vəzilər adlanır [2].

Əməliyyat vaxtı qalxanabənzər vəzin döş sümüyünün arxasına doğru sirayət etdiyi və yaxud düyünün böyük olduğu hallarda boyundan aparılan kəsiklər əməliyyatın adekvat icra edilməsinə müəyyən çətinliklər törədir. Qalxanabənzər vəzinin lokalizasiyasını öncədən dəyərləndirilmədiyi hallarda, xəstələrdə kəsiyin aparılmasının düzgün seçilməsində problemlər yaranır. İxtisaslaşmış klinikalarda təcrübəli cərrahlar tərəfindən qalxanabənzər vəzinin boyundan aparılan kəsiklə çıxarılmasının mümkün olub-olmamasının müəyyənləşdirməyin bəzi subyektiv kriteriləri mənimsənilmişdir. Lakin qalxanabənzər vəzinin və ya düyünün lokalizasiyasından asılı olaraq sternotomiyanın aparılmasına göstərişi müəyyən edən klinik instrumental müayinələrin nəticələrinə əsaslanmış obyektiv yanaşma yoxdur [3,4].

Döş sümüyü arxasında yerləşmiş düyünlü urlar zamanı əməliyyatın öncədən planlaşdırılmasının daha bir əhəmiyyəti ondan ibarətdir ki, əgər əməliyyat sternotomik kəsiklə icra ediləcəkdirsə, o halda döş qəfəsi cərrahı və ya ürək cərrahiyyəsi ilə məşğul olan cərrahları əməliyyat otağında iştirakı təmin olunmalıdır. Sternotomiyanın aparılması ilə icra edilən əməliyyatın davametmə vaxtının və eləcə də əməliyyatdan sonrakı dövrdə stasionarda qalma müddətinin uzun olacağı barədə xəstə və qohumaları öncədən məlumatlandırılmalıdır. Bəzi hallarda xəstələr sternotomiyanın riskləri, ola biləcək fəsadlaşmaları barədə informasiyanı aldıqdan sonra dərman terapiyasının davam etdirilməsini üstün tuturlar. Lakin bu seçim

təbiidir ki, yanlışdır. Çünki qismən və ya tamamilə döş sümüyü arxasında yerləşmiş urlar zamanı, düyünün və ya vəzinin aorta qövsünün şaxələrinin sıxması, tənəffüsün çətinləşməsi kimi hallara gətirib çıxarır ki, bu narahatlıqları artıq medikamentoz dərman preparatları müalicə etmək mümkün deyil [5,6,7].

Uzun illər ərzində qalxanabənzər vəzinin cərrahiyyəsi ilə məşğul olan və retrosternal ur ilə kifayət qədər sayda əməliyyat icra etmiş cərrahlar belə bir mülahizə ilə çıxış etmişlər ki, bu xəstələrdə boyundan aparılan kəsiklə əməliyyatı başa çatdırmaq mümkündür. Lakin daha sonralar digər bir konsepsiya formalaşdır ki, 1-11% hallarda retrosternal yerləşmiş urların cərrahi müalicəsi zamanı sternotomiyaya ehtiyac duyulur [2,8].

Ümumiyyətlə, ədəbiyyat araşdırması zamanı retrosternal uru olan xəstələrin boyunda aparılmış kəsik vasitəsilə icra edilmiş cərrahi əməliyyatların yaxşı nəticələrini dərc etdirən kliniki tədqiqata rast gəlinməmişdir. Boyun və sternotom kəsiklər aparılmış xəstələrin cərrahi müalicəsinin nəticələrinin müqayisəli analizini aparan müəlliflərin son fikri isə sternotom kəsiyin daha üstün olması ilə nəticələnmişdir. Vəzinin ümumi həcminin 50%-ə qədərinin retrosternal yerləşmiş urların boyun kəsiyindən aparılmış tireoidektomiya əməliyyatı zamanı şişin profilaktikası məqsədilə tam radikal cərrahi əməliyyatın aparılması şübhə altında olmuşdur. Digər tərəfdən, retrosternal urlar zamanı vəzinin qanla təchiz edən damarların anomaliyaları və yerdəyişmələri çox rast gəlinidiyindən, hemostazın tam dəyərli icra edilməsinin manevr baxımından daha zəif imkana malik olmasını nəzərə alaraq boyundan aparılan kəsik zamanı cərrahi əməliyyatın qarşıya qoyduğu problemləri adekvat həll etmək tam mümkün olmur [9,10,11,12].

Qismən döş sümüyü arxası və ya retrosternal yerləşmiş qalxanabənzər vəzinin cərrahi əməliyyatları zamanı kəsiyin növünün seçilməsi zamanı ilk növbədə vəzinin anatomo- topoqrafik yerləşməsinə nəzər yetirmək lazımdır. Palpator fizikal müayinənin imkanları retrosternal urlar üçün çox zəifdir. USM zamanı məqsədyönlü olaraq müəyyən ölçülərin götürülməsi ilə müəyyən qədər məlumat toplamaq mümkündür. Lakin hazırda tibbdə daha dəqiq və informativ olan müayinə üsulu kompyüter tomoqrafiya üsulu mövcuddur [12,13].

İxtisaslaşmış cərrahi endokrinoloji klinikalar və ya şöbələrdə düyünlü ur ilə cərrahi əməliyyata hazırlanan xəstələrin gündəlik rutin planında yalnız döş qəfəsinin rentgenoskopiyası mövcuddur. Böyük ölçülü düyünlər zamanı, əgər traxeya və qida borusuna kompressiya əlamətləri varsa, onda xəstələrə həzm traktının kontrast rentgen müayinəsi yerinə yetirilir. Kontrast rentgen müayinə zamanı qida borusunun kompressiyası və ya yerdəyişməsi vizualizasiya etmək mümkün olduğu halda, qalxanabənzər vəzinin özünün lokalizasiyası və ölçüləri haqda informasiya almaq olmur. Bu zaman cərrahi əməliyyatın aparlması hansı kəsiyin seçilməsi də tam dürüstlüklə müəyyən edilmir [14,15].

Kompyüter Tomoqrafiya müayinəsi döş qəfəsi arxası yerləşmiş urlar zamanı kifayət qədər məlumat verə bilər. Lakin heç də bütün hallarda xəstələrə düyünlü ura görə KT müayinəsi aparılmır və vəzinin qismən döş qəfəsində yerləşməsi yalnız cərrahi əməliyyat zamanı aşkara çıxır. Döş qəfəsində lokalizasiya olunmuş və ya qismən döş qəfəsi arxasında yerləşmiş düyünlü urların əməliyyatdan öncə kəsiyin növünün seçilməsinin klinik-instrumental müayinələrin köməyi ilə təyin etmək cərrahların işində mühüm əhəmiyyətli faktor ola bilər.Qeyd edilənlər bizə bir araşdırmanın aparılması üçün təkan vermişdir ki, USM və KT- nin, eləcə də kontrast Rentgen müayinələrinin imkanlarından istifadə edərək, kompleks yanaşma yolu ilə retrosternal yerləşmiş urların əməliyyat kəsiyinin növünü müəyyənləşdirməyin mümkünlüyünü araşdıraq [4,7,16].

Əgər nəzərə alsaq ki, ümumiyyətlə, dünya əhalisinin təxminən 5%-i, endemik zonalarda yaşayanların isə 10%-ə qədərində düyünlü ur aşkar etmək mümkündür, retrosternal yerləşmiş urların yayılma faizi tireoidektomiya olunanlar arasında 2% ilə 26% arasında dəyişir. Bu inter= valın geniş olmasının əsas səbəbi, müxtəlif müəlliflər tərəfindən retrosternal urların dəyərləndirilməsində müxtəlif kriteriyalardan istifadə edilməsidir. Bəzi müəlliflər hesab edirlər ki, əgər vəzinin sərhədləri döş qəfəsinin girəcəyindən aşağıda yerləşmişsə, ona retrosternal demək olar. Digər bir dəyərləndirməyə əsasən isə vəzin ümumi kütləsinin 50%-i və daha çox döş qəfəsi girəcəyindən aşağı yerləşdiyi hallarda bu halda onu döş sümüyü arxası lokalizasiyaya malik olmasından danışıla bilər [16,17].

Tibbi ədəbiyyatda döş qəfəsində yerləşmiş qalxanabənzər vəzilərin ən geniş yayılmış aşağıdakı təsnifatlarına rast gəlinir. Tarixinə görə ilk məlumat 1939-cu ildə Crile tərəfindən verilmişdir və o bildirmişdir ki, o vəzilərə döş sümüyü arxası demək lazımdır ki, onlar aorta qövsünə qədər uzanır. Onun ardınca Lindskog və Goldenberg kimi müəlliflərin fikri ədəbiyyatda işıqlandırılmışdır. Müəlliflər hesab etmişlər ki,

Rentgen müayinəsi zamanı əgər qalxanabənzər vəzidən inkişaf etmiş düyün və ya vəzinin aşağı qütbü IV döş fəqərəsinə qədər uzanırsa, o halda döş sümüyü arxasında yerləşmiş urlardan söhbət gedə bilər. Hedayati və McHenry tərəfindən təklif edilmiş dəyərləndirmənin əsas mahiyyəti ondan ibarətdir ki, döş sümüyünün dəstəyindən (manubrium) aşağı düşmüş istənilən vəzi döş sümüyü arxası qalxanabənzər vəzi kimi qeydə alınmalıdır. Katlic və həmm. tərəfindən verilmiş klassifikasiya isə daha çox populyarlıq qazanmışdır. Bu klassifikasiyaya əsasən vəzi kütləsinin əgər 50%-dən çox hissəsi döş qəfəsinin girəcəyindən aşağıda yerləşmişsə, onda bu vəziləri döş sümüyü arxası vəzilərə aid etmək lazımdır.

Terminologiya ilə yanaşı döş sümüyü arxası yerləşmiş düyünlü urların diaqnostikası və cərrahi müalicəsində olan yanaşmalarda da biri – birindən əhəmiyyətli fərqlənən strategiyalara rast gəlinmişdir.

Boyun nahiyyəsinin və döş qəfəsinin kompyüter tomoqrafik müayinəsi döş qəfəsi daxilində yerləşmiş urların ölçü, sərhədlərini müyyənləşdirmək ilə yanaşı, vəzinin toxuma tərkibinin differensasiya edilməsini təmin edir. Michel və Bradpiece kimi müəlliflər kliniki araşdırmaları nəticəsində müəyyən etmişlər ki, retrosternal urlar zamanı kompyüter tomoqrafiyanın diaqnostik həssaslığı 100%, USM- in həssalığı 77%, döş qəfəsinin rentgen müayinəsinin həssaslığı isə 59% təşkil edir.

Araşdırmalar göstərmişdir ki, döş qəfəsi daxilində yerləşmiş qalxanabənzər vəzi toxumasının radioaktiv yodu udmaq qabiliyyətinə malik deyil, bu səbəbdən ^{131}J maddəsi ilə retrosternal urların radioizotop dəyərləndirilməsi heç bir diaqnostik əhəmiyyəti yoxdur. Maqnit-Rezonans Tomoqrafiyanın (MRT) döş qəfəsi daxili urların differensial diaqnostikasında rolunun dəyərləndirilməsində də müəyyən ziddiyətlər mövcuddur. Bəzi müəlliflər hesab edirlər ki, MRT informativliyi yüksəkdir, digərləri isə tamamilə əks mövqedə dururaq, yenə KT müayinəsinin imkanlarını yüksək dəyər- ləndirirlər [18,19].

Döş qəfəsi daxili yerlşmiş urların diaqnostikası əksər hallarda o zaman aparılır ki, xəstələrdə ya yuxarı boş venanın, yaxud da traxeyanın sıxılması və bu kompressiya ilə əlamətlər meydana çıxır. Düyünlü uru olan hallarda isə xəstə əməliyyata hazırlanan zaman diaqnostikanın profili daha da genişləndirilir [20,21].

Dəqiq differensasiya olunmuş düyünlü uru olan xəstələrdə cərrahi əməliyyata göstəriş qoyulduqdan və razılıq alındıqdan sonra xəstələr əməliyyata götürülür. Artıq qeyd edildiyi kimi, əksər cərrahlar boyundan aparılmış kəsiklə əməliyyatın adekvat icra edilməsini kliniki tədqiqatlarla sübut etmişlər. Raffaelli M. və həmm. tərəfindən dərc edilmiş məqalədə qeyd edilir ki, tireoidektomiya olunmuş 2263 xəstədən 355 nəfərində qalxanabənzər vəzi döş sümüyü arxası yerləşmişdir. Yalnız 2 xəstədə (0,6%) sternotomiya aparılmasına ehtiyac olmuşdur. Xəstələrin birində qalxanabənzər vəzinin birincili olaraq döş sümüyü arxasında yerləşməsi, digərində isə residiv bədxassəli törəmə olmuşdur. Müəlliflər kliniki tədqiqatlarının nəticələri əsasında sübut etməyə çalışmışlar ki, retrosternal urların böyük əksəriyyətini boyundan aparılın kəsiklə tam çıxarmaq mümkündür [18].

Bu fikri bölüşən bir sıra digər müəlliflər də, retrosternal urlar zamanı boyundan aparılan kəsiyin üstünlüklərini qeyd edir, ağırlaşma faizinin aşağı, ölüm faizinin isə ümumiyyətlə olmamasını fakt kimi göstərirlər [2].

Servikal və ya sternotom kəsiyin aparılmasının tərəfdarları qeyd edilən konteksdə daim qarşılıqlı ziddiyətli mövqelərdə dururlar. ABŞ-ın Nyu York şəhər xəstəxanasında tireoidektomiya olunmuş 33,900 xəstənin cərrahi müalicəsinin nəticələrinin analizi göstərmişdir ki. bu xəstələrdən 1153 nəfərində qalxanabənzər vəzi retrosternal yerləşmişdir. Müəlliflər tərəfindən boyunda yerləşən və retrosternal urların cərrahi müalicəsinin nəticələrini müqayisə edilmişdir. Məlum olmuşdur ki, servikal kəsiklə retrosternal urlar xaric edilmiş xəstələrdə qayıdan qırtlaq sinirinin zədələnməsi, postoperasion qanaxma, dərin venaların trombozu və tənəffüs çatmamazlığı kimi ağırlaşmalara daha çox təsadüf edilir [11,23]

İnternet portalında araşdırma aparılan zaman çoxsaylı oxşar və qarşılıqlı ziddiyət təşkil edən diskusiyalara rast gəlinir. Lakin uzun sürən mübahisələrdən sonra nəhayət ki, müəyyən ortaq məxrəcə gəlmək mümkün olmuşdur.

Alman alimlərinin kliniki materialında qeyd edilir ki, 88 retrosternal yerləşmiş qalxanabənzər vəzinin xaric edilməsi zamanı 27 xəstədə (30,7%) sternotomiyanın aparılmasına ehtiyac yaranmışdır. Son nəticə olaraq belə qərara gəlinmişdir ki, residiv döş sümüyü arxası yerləşmiş düyünlü urlar, birincili retrosternal yerləşmiş vəzilər, arxa divararalığına sirayət etmiş vəzilər və abberant zoblar sternotomiyanın aparılması üçün risk faktorları hesab edilir.

Risk faktorlarının varlığında sternotomiyanın aparılmasını tələb edən daha bir neçə kliniki tədqiqatların nəticələri də dərc edilmişdir. Tədqiqatçılardan bəziləri, qeyd edirlər ki, retrosternal düyünlü urları servikal kəsiklə çıxarmaq mümkündür, lakin bu əməliyyatı sternotom kəsiklə daha rahat və radikal etmək mümkün olardı [10].

Bir sıra kliniki tədqiqatlarda retrosternal yerləşmiş residiv düyünlü urlar zamanı əgər əvvəllər xəstəyə servikal kəsiklə əməliyyat icra edilmişdirsə,indi mütləq sternotomiyanın aparılmasını təkid edirlər. Həmçinin retrosternal qalxanabənzər vəzinin bədxassəli şişinə şübhə vardırsa, radikallıq nöqteyi nəzərdən sternotom kəsiklə əməliyyatı başlamağı tövsiyyə edirlər [13]

Bütün qeyd edilənləri yekunlaşdıraraq qeyd etmək istərdik ki, döş sümüyü arxası düyünlü urlar üçün cərrahi əməliyyat kəsiyinin düzgün seçilməsi, istər əməliyyatın nəticələrinin yaxşılaşdırılması, istərsə də xəstənin əməliyyatdan sonrakı residivsiz rahat həyat sürməsi baxımından çox vacibdir. Bu istiqamətdə aparılmış kliniki tədqiqatların nəticələrinin analizi sübut etmişdir ki, əməliyyatdan öncə risk faktorlarına əsasən kəsiyin servikal və sternotom olmasını proqnozlaşdırmaq olar [23,24,25,26]. Bizim tədqiqatın qarşıya qoyduğu vəzifələrdən biri də məhz bu məsələnin həllinə doğru istiqamətlənmişdir. Bizdə belə bir fikir formalaşmışdır ki, bu vaxta qədər retrosternal düyünlü urlara görə əməliyyat olunmuş xəstələrin müayinə və müalicəsinin nəticələrini, xüsusən də, USM, KT və Rentgen müayinələrinin cavablarını və şəkillərin müəyyən hissələrini, fraqmentlərini çarpaz korrelyasion üsul ilə analiz etsək, növbəti bu tip kontingentli xəstələrdə sternotom kəsiyin aparılmasını tələb edən kriteriləri təyin edə bilərik.

ƏDƏBİYYAT

1. El Hammoumi M., El Oueriachi F., Arsalane A., El Hassane K. Surgical Management of Retrosternal Goitre: Experience of a Moroccan Center // Acta Otorrinolaringol Esp., 2014,v.65,p.177-182.
2. Abboud B., Sleilaty G., Mallak N., AbouZeid H., Tabchy B. Morbidity and mortality of thyroidectomy for substernal goiter //Head Neck., 2010, v.32(6), p.744-749.
3. Acprzak G., Karas J., Rzechonek A., Blasiak P. Retrosternal goiter located in the mediastinum: surgical approach and operative difficulties // Interact CardiovascThorac Surg., 2012, v15, p.935-937.
4. Ahmed M., Ahmed E., Mahadi S. Retrosternal goiter: the need for median sternotomy // World J Surg., 2006, v.30(11), p.1945-1949.
5. Bizakis J., Karatzanis A., Hajiioannou J., Bourolias C., Maganas E., Spanakis E. et al. Diagnosis and management of substernal goiter at the University of Crete // Surg Today, 2008, v. 38, p.99-103.
6. Burns P., Doody J., Timon C. Sternotomy for substernalgoitre: an otolaryngologist's perspective // J Laryngol Otol., 2008, v.122, p.495-499.
7. Cannon CR, Lee R, Didlake R. Management of the substernal goiter: a team approach // J Miss State Med Assoc., 2010, v. 51(7), p.179-182.
8. Chauhan A., Serpell JW. Thyroidectomy is safe and effective for retrosternal goiter // Aust NZ J Surg., 2006, v.76, p.238-242.
9. Casella C., Pata G., Cappelli C., Salerni B. Preoperative predictors of sternotomy need in mediastinal goiter management // Head and Neck 2010, v.32(9), p.1131-1135.
10. Cichonr S., Anielski R., Konturek A., Baczynr ski M., Cichonr W., Orlicki P. Surgical management of mediastinal goiter: risk factors for sternotomy // Langen. Arch Surg., 2008, v.393, p.751-757.
11. Cohen JP. Substernal goiters and sternotomy // Laryngoscope,2009, v. 119(4), p.683-688.
12. Coskun A., Yildirim M., Erkan N. Substernal Goiter: When is a Sternotomy Required? // Int Surg., 2014, v. 99, p.419-425.
13. De Perrot M., Fadel E., Mercier O. et al. Surgical management of mediastinal goiters: when is sternotomy required? // ThoracCardiovasc Surg., 2007, v.55, p.39-43.
14. Erbil Y., Bozbora A., Barbaros U., Ozarmagan S., Azezli A., Molvalilar S. Surgical management of substernal goiters: clinical experience of 170 cases // Surg Today 2004, v. 34(9), p.732-736.
15. Flati G., De Giacomo T., Porowska B., Flati D., Gaj F., Talarico et al. Surgical management of substernal goiters: when is sternotomy inevitable? // Clin Ter., 2005, v.156(5), p.191-195
16. Sakkary M., Abdelrahman M., Mostafa A. et al Retrosternal goiter: The need for thoracic approach based on CT findings: Surgeon's view // Journal of the Egyptian National Cancer Institute, 2012, v.24, p.85-90.
17. Shen W., Kebebew E., Duh Q., Clark OH. Predictors of airway complications after thyroidectomy for substernal goiter // Arch Surg., 2004, v.139(6), p.656-659
18. Raffaelli M., De Crea C., Ronti S. et al Substernal goiters: incidence, surgical approach and complications in a tertiary care referral center // Head Neck. 2011, v. 33(10), p1420-1425.
19. Huins C., Georgalas C., Mehrzad H.., Tolley N. A new classification system for retrosternal goitre based on a systematic review of its complications and management // Int J Surg., 2008, v.6, p.71-76.

20.Neves M., Rosano M., Hojaij F. et al A critical analysis of 33 patients with substernal goiter surgically treated by neck incision // Braz J Otorhinolaryngol., 2009, v.75, p.172-176.
21.White M., Doherty G., Gauger P. Evidence-based surgical management of substernal goiter // World J Surg., 2008, v. 32(7), p.1285-1300.
22.Pieracci F., Fahey TJ 3rd. Substernal thyroidectomy is associated with increased morbidity and mortality as compared with conventional cervical thyroidectomy //J Am Coll Surg., 2007, v. 205,p1-7.
23.Pace-Asciak P., Higgins K. Management of intrathoracic goiter // Can J Surg. 2008, v.51, p.111-112.
24.Rosenthal R., Oerteli D. Multinodular, retrosternal goiter. In:Oertli D, Udelsman R, editors. Surgery of the thyroid and parathyroid glands. Springer, 2007, p.179-90.
25.Rugiu M., Piemonte M. Surgical approach to retrosternal goitre: do we still need sternotomy? // ActaOtorhinolaryngol Ital. 2009, v.6, p.331-338.
26.Sancho J., Kraimps J., Sanchez-Blanco J.et al. Increased mortality and morbidity associated with thyroidectomy for intrathoracic goiters reaching the carina tracheae // Arch Surg., 2006, Vol. 141(1), p.82-85

Резюме

Современные взгляды на диагностику и лечение загрудинного узлового зоба

Н.А.Агаева

Целью данного исследования явилось, изучить и проанализировать разные подходы в лечении загрудинного зоба. Вопрос о проведении шейного разреза или стернотомии остается актуальным. Имеются разные данные о результатах хирургического лечения загрудинного зоба. Прогнозирование метода доступа до хирургического вмешательства имеет огромное значение. С помощью различных фрагментов из протоколов инструментальных методов можно определить адекватный доступ для хирургического вмешательства.

Summary

Modern views on the diagnosis and treatment of retrosternal nodular goiter

N.A.Agayeva

The aim of this study was to examine and analyze the different approaches in les chenii retrosternal goiter. The issue of cervical incision or sternotomy is still relevant. There are different data on the results of surgical treatment of retrosternal goiter. Prediction of the access method before surgery is crucial. Using the various fragments of the protocols instrumental methods can determine the appropriate access to the surgical intervention.

Daxil olub:13 01.2016

POSTERİOR C1-C2 TRANSARTİKULYAR VİDA YERLƏŞDİRMƏ (MAGERL) VƏ POSTERİOR C2-C3 STABİLİZASİYA (HANGMAN) TEXNİKASI

F.Ə. Qaralov

Azərbaycan Tibb Universiteti, Neyrocərrahiyyə kafedrası, Bakı

Açar sözlər: oynaqlar, posterior C1-C2, posterior C2-C3
Ключевые слова: связки, постериор C1-C2, постериор C2-C3
Keywords: bundle, posteriori C1-C2, C2-C3 posteriori

Atlantoaksial oynaq boynun rotasion hərəkətlərinə imkan verən oynaqdır. Oynaqların səthi buna görə düzdür və arada disk yoxdur. Ayrıca sarı, ön boylama və arxa boylama bağ çox azdır və ya yoxdur. Köndələn bağ odontoidi C1 fəqərə səviyyəsində spinal kanalın ön qismində tutaraq həm rotasiyaya yardım edir, həm də arxaya sürüşərək onurğa beyninə təzyiq etməsinə mane olur. Köndələn bağın qopması halında atlantoaksial qeyri-stabillik əmələ gəlir. Xüsusilə travma, infeksiyalar, revmatoid artrit kimi sistem infeksiyalar səbəbilə köndələn bağ zədələnə bilər. Odontoid sınıqlarında anterior və ya posterior yanaşma ilə cərrahiyyə tətbiq edilə bilər. Cərrahiyyə əməliyyatlarının aparılması yolunun seçilməsi cərraha və xəstəyə görə dəyişdiyi qeyd olunur [1,2]. Posterior fiksasiya yaxşı füzyon əmələ gətirməklə bərabər boynun hərəkətlərini

məhdudlaşdırır. Anterior odontoid vida ilə fiksasiyanın boyun hərəkətlərini nə qədər qoruduğu düşünülsə də, klinik tədqiqatlarda postoperativ dönəmdə boyun hərəkətlərinin məhdudlaşdığı göstərilir [10].

Posterior transartikulyar vida ilə fiksasiya xüsusilə köndələn bağın qopduğu odontoid sınıqlarında, anterior odontoid vidalamanın aparıla bilinməyən qısa boyunlu, obez və ya digər komorbidliyi olan xəstələrdə, anterior odontoid vida taxılmış, lakin fiksator çatışmazlığı və psevdoartroz əmələ gələn xəstələrdə reviziya məqsədilə, ser vikal immobilizasiyanın daha rahat tolerə edildiyi heriatrik xəstələrdə, boylama və köndələn xarakterdə qeyri-stabil C2 sınıqlarında, C1-C2 laminalarının rezeksiya edil diyi və bu səbəbdın telləmə aparılmayan hallarda, posterior subluksasiya göstərən odontoid sınıqlarında, odontoidin patoloji sınıqlarında, osodontoidin genetik liqamentoz laksite (Larsen sindromu) və qeyri-stabil Cefferson sınıqlarında tətbiq edilir [8,11]. C2-nin qövs sınıqları əsasən yıxılma, suya atılama və nəqliyyat qəzası kimi deselerasiya qüvvələri nəticəsində əmələ gəlir. Bu əsasən lateral fleksiyanın da iştirakı olan hiperekstensiya və aksial yüklənmə ilə olur. Hiperfleksiyanı izləyən hiperekstensiya daha nadir görülən bir mexanizm olmaqla yanaşı ən ciddi sınıq çıxıqlı paternləri bu mexanizmdə əmələ gəlir (4). Bu sınıq paterni üçün C2-nin travmatik spondilolistezi və aksisin həlqə sınıqları terminləri istifadə edilməklə birlikdə əksər hallarda "Hangman" sınığı olaraq qeyd edilir. Əslində Hangman sınığı dəyişik mexanizm ilə əmələ gələn və dəyişik radioloji görüntüləri olan bir qrup zədələnmələrin toplusudur və hamısı tam olaraq asılmalarda görülən və Vood-Jones tərəfindən təsvir edilən sınığa bənzəmir [11]. Müasir dövrdə bu sınıqlar ən çox motosiklet qəzaları sonrasında yaranır və 6,5% nisbətində onurğa beyni yaraları ilə birlikdə baş verir [9,12]. Hangman sınıqları böyük bölümü"halo-cast" və "halo-vest" kimi üsullarla konservativ olaraq müalicə edilməklə birlikdə, bir qismi də cərrahi müalicə tələb edir. Hangman sınıqlarını Effendi və əməkdaşları sınığın əmələ gəlmə mexanizminə görə üç yerə ayırmışlar. 1-ci tip sınıqlar aksial yüklənmə və hiperekstensiya ilə əmələ gəlir. 2-ci tip sınıqlar hiperekstensiya və buna görə əmələ gələn hiperfleksiya ilə yaranır. 3-cü tip sınıqlardakı əsas yüklənmə isə fleksiya yönündədir. Bu təsnifata daha sonra Levine və Edvards fleksiya-distraksiya mexanizmi ilə əmələ gələn 2 a tipını də, əlavə etmişlər [5,7]. 1-ci tip Hangman sınıqları non-deplasedir və stabildir. Sərt boyunlu, sterno-oksipito-mandibulyar imobilizasiya korseti və ya Minerva ortezi ilə müalicə edilir [4]. 2 və 2 a tip sınıqlar qeyri-stabil olma ehtimallarına baxmıyaraq serviko-torasik ortezlər ilə müvəffəqiyyətlə müalicə edilə bilir [3]. Konservativ müalicə ilə uğurlu olmayan və ya ortez istifadəsini tolerə edə bilməyən xəstələrdə cərrahi müalicə göstərişdir. 3-cü tip sınıqlar qapalı olaraq reduktə edilməyib, açıq reduksiya və daxili fiksasiya tələb edir. Bu zaman cərrahi müalicənin müddəti,xəstənin tibbi durumu ,spinal təzyiq miqdarı, artan nevroloji defisitin olması ,əməliyyatxana və briqadanın uyğunluğu nəzərə alınaraq təyin edilməlidir. Uyğun şərtlər əldə edildikdə erkən mobilizasiya və reabilitasiya üçün cərrahi müalicəni mümkün olan ən qısa zamanda aparılması düşünülür.

Tədqiqatın **məqsədi** posterior C1-C2 transartikulyarvida yerləşdirmə və posterior C2-C3 stabilizasiya texnikasının tətbiqinin nəticələrinin araşdırılması olmuşdur.

Tədqiqatin material və metodları. Tədqiqatlara 64-ü qadın, 170-i isə kişi olmaqla cəmi 234 xəstəyə posterior servikal fiksasiya tətbiq edilmi xəstə daxil edilmişdir. Qadın xəstələrin yaş həddi 23-81(orta hesabla 53,9), kişi xəstələrin yaş həddi isə 16-82(orta hesabla 53,3) arasında olmuşdur.Xəstələrin 125-i servikal spondilotik mielopatiya, 64-ü travma, 16-sı servikal spinal şişləri, 15-i genetik anomaliya və 4-ü isə revmatik xəstəliklərlə bağlı əməliyyat edilmişdir.Xəstələrin 23-nə eyni zamanda qonşu seqment olaraq oksipitoservikal, 14-nə isə servikotorakal nahiyyə fiksasiyası tətbiq edilmişdir.

Bütün bu xəstələrə 1520 lateral mass vida taxılmışdır. Vidaların ölçüləri orta hesabla 14-20x3,5-4 mm olmuşdur. Cərrahi olaraq Magerl texnikası tətbiq edilmişdir.Dəyərləndirdiyimiz xəstələrin 5,55%-də infeksiya əmələ gəlmiş, toplam 10 xəstə(4,27%) isə dərin yara yeri infeksiyası səbəbi ilə müalicə (reviziya) edilmişdir.Bütün xəstələrin 6,83% və ya 16-sında fiksator problemi ilə əlaqədar olaraq təkrari (reviziya) cərrahiyyəsi aparılmışdır.

Tədqiqatın nəticələri və onun müzakirəsi. Tədqiqatlar aparılarkən ilk olaraq posterior C1-C2 transartikulyar vida yerləşdirmə (Magerl) texnikası tətbiq edilmişdir.Bunun üçün xəstə prone pozisiyasında mismarlı başlığı alınaraq və baş qismi fleksiyaya gətirilərək fiksə edilir. Fleksion pozisiyanın iki önəmli avantajı vardır. Densin normal pozisiyaya gəlməsinə imkan yaradır və vida istiqamətinin uyğun pozisiyaya gəlməsinə imkan yaradaraq vida göndərilməsini asanlaşdırır. Floroskopiya ilə C1-C2 oynağı əldə edilir, vida istiqamətində xəta olmaması üçün

pozisiyanın tam yan olmasına xüsusi diqqət edilməlidir. Xəstənin kürəyinə qədər steril olaraq təmizliyinin əldə edilməsi və örtülməsi lazımdır. Çünki vida giriş dəliyi vida istiqamətinə görə buralara qədər enə bilər.Xəstə örtüldükdən sonra C0-C3 ortalayacaq şəkildə kəsik aparılır. Subperiostal seksiya ilə faset kapsulasına zərər vermədən C1-in posterior qövsü, C2-nin tin çıxıntısı, laminaları və C2-C3 faset oynağı əldə edilir. Xüsusilə C2-nin istmus qisminə tamamilə hakim olunmalıdır. Bunun üçün atlantoaksial oynağın posterior kapsulası açılır, əyri disektor yardımı ilə C2 kökü və onu çevrələyən venoz elementlər kraniala doğru diqqətlə ekartə edilir. Əgər C2 kökü ətrafındakı venoz kələfdə qanaxma olarsa, surgicell və ya süngər C2 istmusu ilə venoz kələf arasına yerləşdirilərək qanaxma dayandırılır. Diseksiya nəticəsində C2 istmusu tamamilə ortaya çıxarılır. C2-nin istmusunun sıyrıla bildiyi qədəri vidanın içindən keçəcəyi xəttin başlanğıc qismini təşkil edir. C2 giriş nöqtəsi C2 inferior fasetin alt hüdudundan 2-3 mm yuxarı, C2-C3 fasetinin medial kənarından 2-3 mm lateraldır. Giriş nöqtəsindəki kortikal sümük ilk dəlici ya da dril yardımı ilə dəlinib rəhbər telin girəcəyi bir çalışma teli yaradılır. C1-C2 transartikulyar vida yerləşdirmək üçün sagital planda olduqca çox açmaq lazımdır və açdığımız kəsik xətti buna imkan verməz. Bu səbəbdən üst torakal bölgədə uyğun ölçüdə vida yollanmasına imkan verən yardımçı kəsiklər aparılmalıdır. Uzun bir rəhbər tel lateral floroskopiya yardımı ilə lazımı vida pozisiyasında tutulur və sagital planda dəriyə qarşı gələn qismi işarələnir. Daha sonra anteroposterior planda bilateral C2 istmusunun bərabərindən bir xətt çəkilir və sagital planda aşkar etdiyimiz nöqtə ilə birləşdirilərək yardımçı kəsik yeri təyin edilir. Kəsik yeri təyin edildikdən sonra hər iki tərəfə 1.5 sm-lik mini kəsik aparılır. Hemostatik klemplər vasitəsilə açılan kəsiklərdən dərialtı və fassiya genişləndirilir. Əgər istifadə olunacaqsa rəhbər boruya yer açılır. Ardından vida yerləşdirmək üçün uyğun açıqlıqda və giriş nöqtəsini hədəf alacaq şəkildə rəhbər boru birləşdirilə bilər. Buna görə rəhbər tel elektrikli dril yardımı boru içindən yeridilir və ucu giriş nöqtəsinə yerləşdirilir. Rəhbər tel giriş nöqtəsinə yerləşdirildikdən sonra dril yardımı ilə C1-in ön qövsünün orta qismini təşkil edən anterior qabarcıq hədəf alınacaq şəkildə istmusun içindən yuxarıya doğru və təxmini olaraq 10^0 mediala yönlənəcək şəkildə göndərilir. Burada tel C2 pedikuluna doğru deyil, pars interartikulyarisdən C1-C2 oynağını keçəçək şəkildə yeridilməli və bütün iş sırasında lateral və AP floroskopik görüntülərdən faydalanılmalıdır. Rəhbər tel C1-2 oynağını keçib C1-in ön qövsünün ortasına gəldiyində dayandırılır. Rəhbər tel yerləşdirildikdən sonra gedəcək vidanın boyu rəhbər tel üzərindən ölçülərək uyğun vida uzunluğu təsbit edilir. Vida rəhbər tel yardımıyla göndəriləcəyi üçün uyğun vida sistemi istifadə edilir. Normalda vidanın lag vida olması lazım olmaz, çünki vidanın yaradacağı kompressiv yüklənməyə ehtiyacımız yoxdur. Əgər C1-in anterior subluksasiyası varsa lag vida istifadə olunur və vida boyu ölçülən vida uzunluğundan 1-2 mm daha qısa olmalıdır. Əksər hallarda uzunluq olaraq 40 mm, çap olaraq 3,5-4 mm qalınlığında vidalar seçilməlidir. Əgər sümüyün quruluşu yumşaqdırsa, uyğun vida rəhbər tel üzərindən yerləşdirilə bilər. Sümüyün quruluşu sərt olduqda isə vida yerləşdirilmədən öncə 2 və ya 2,5 mm dril ilə C1-ə girdiyində cərrah atlas və aksisin təxminən sıxıldığını hiss edə bilər. Vida yerləşdirildikdən sonra lateral floroskopik görüntü ilə uyğun vida pozisiyası doğrulanmalıdır. Vida pozisiyası doğrulandıqdan sonra rəhbər tel dril yardımı ilə çıxarılır və vida yerləşdirilməsi tamamlanmış olur. Bu iş sonra qarşı tərəfə edilir.Əgər xəstədə anormal çıxışlı vertebral arteriya *(high riding vertebral artery)* varsa, vertebral arteriya yaralanması riski çox yüksəkdir. Anormal çıxışlı vertebral arteriya C1 üzərində daha mediala dönüş etməsi, çox yuxarı və ya çox arxada yerləşməsi kimi təsvir edilir və C1 istmusunu daraldır. Anormal çıxışlı vertebral arteriya tək tərəfli isə, normal olan tərəfdən tək vida yeləşdirilə bilər. Lakin bu halda füzyon üçün eksternal immobilizasiya lazımlıdır. Anormal çıxışlı vertebral arteriya olduqda fərqli vasitələr ilə C1-2 vida yerləşdirilməsi təklif edilir. Neo və əməkdaşları, Magerl orta qisminə doğru deyil, C2 istmusunun ən medial və posterior qismindən keçəcək şəkildə yönləndirilməsi təklif edilmişdir [5,6]. Lee və əməkdaşları tərəfindən giriş nöqtəsi olaraq C2-3 faset oynağının orta nöqtəsindən 2 mm medial, 5-6 mm superioru istifadə edilmiş və anterior C1 qövsünün inferior qisminin hədəfləyərək vida yollanması təklif edilmişdir(4,5). Lakin bu üsul zəif tutuş əmələ gətirdiyi üçün və vertebral arteriya yarlanma riskini yetərincə azaltmadığı səbəbindən istifadədən kənarlaşdırılmışdır. C1-2 transartikulyar vida yerləşdirilməsi planlaşdırılan bütün hallarda əməliyyat öncəsi sagital, koronal, aksial, incə kəsikli tomoqrafiya görüntüləri dəyərləndirilməli, cərrahi anatomik quruluşların təyini və lazım olarsa transartikulyar vida yerləşdirməkdən imtina edilməsi kimi ağırlaşmanın qarşısını alma üsuludur.

Vida yerləşdirildikdən sonra sümük qreft ilə birlikdə C1-2 sublaminar telləmə edilir. Sublaminar telləmə edilməsi güclü bir stabilizasiya əmələ gətirir. C1 qövsünün inferior kənarı, C2 tin çıxıntısının və posterior C2 qövsünündril və ya kerrison rongeur yardımı ilə dekortikə edilir. C2 lamina ilə tin çıxınıtının birləşdiyi yerə telin yerləşə biləcəyi şəkildə kerrison rongeur yardımı ilə bilateral kəsik götürülür. Təxminən 4 sm uzunluğunda, 3sm genişliyində trikortikal autoloji sümük qrefti posterior qalça qanadından alınır. Yuvarlaq olan üst kortikal kənar lekssell yardımıyla yonularaq uyğunluq dərəcəsi artırılır və C1-2 məsafəsinə uyacaq şəkildə hazırlanır. Qreftin C1 posterior qövsü səviyyəsində olacaq şəkildə yüksəkliyi uyğunlaşdırılır və C2 tin çıxıntısına gələn qisminə kəsik açılaraq tam olaraq oturması əldə edilir. Son olaraq hazırlanan qreft C1 posterior qövsü ilə C2 arasına diqqətli bir şəkildə yerləşdirilərək yoxlanılır. Daha sonra qreft keçici olaraq və tel yerləşdirmə işinə başlanılır. Yerləşdiriləcək tel ikiyə qatlanır və telin hər iki ucu orta xəttə C1 posterior qövsünün altından keçirilir. Hazırlanan sümük qreft yerinə yerləşdirilir və telin ikiyə qatlanan qismi sümük qreftin üstündən və C2 tin çxıntısının arxasından daha öncə hazırlanan kəsiyə uyacaq şəkildə yerləşdirilir. Telin boşda olan iki ucu döndürülərək sümük qreft C1 və C2 arasında diqqətli sıxışdırılaraq bağlama işi aparılır. Daha sonra posterior C1-2 qövsünün və sümük qreftin səthi drillənərək dekortikasiya edilir. Radioloji olaraq füzyon oluncaya qədər xəstə Philadelphia tipli yarımsərt korset istifadə etməlidir. Əgər posterior elementlərin yoxluğundan dolayı telləmə aparmaq mümkün olmazsa C1-2 arasına lateraldan sümük qreft yerləşdirilməli və 12 həftədən az olmamaq şərti ilə servikal kolar taxılmalıdır.

Posterior C2-C3 stabilizasiya (Hangman) cərrahi texnikası isə aşaöıdakı kimi tətbiq edilmişdir.Bunu üçün xəstə ümumi anesteziya altında intubasiya olunaraq üzü üstə pozisiyaya çevrilir. Xəstənin gövdəsi qarına boş buraxılaraq qarın içi təzyiqi azaldacaq şəkildə altlıq və ya valcıqlar üzərinə çevrilir. Çiyinlər düşmüş pozisiyada qollar vücudun iki yanına alınır. Daha öncədən baş traksiyası tətbiq edilmişsə bu cihaz saxlanılır, əks təqdirdə baş əməliyyat zamanı traksiyaya imkan verəcək bir tutucuya yerləşdirilməlidir. Bu mərhələdə skopiya ilə ön arxa və yan qrafiyalar alınaraq pozisiya təyin edilməlidir. Əməliyyat sırasında arxa elementləri daha yaxşı ortaya qoyulması üçün boyun maksimum fleksiyaya alınır. Əməliyyat masası, boyun fleksiyası situasiya içərisində dəyişdirilə biləcək şəkildə quraşdırılmalıdır. Xəstənin saçları uyğun şəkildə qırxılır və bundan sonra o müvafiq qaydada hazırlanıb örtülür. Posterior oksipital çıxıntı dəri qələmi ilə işarələnir. C2-dən başlanaraq servikal fəqərələrin tin çıxıntıları əllənərək işarələnir. Daha sonra C2-3 üzərindən orta xətt kəsik ilə açılır. Situasiya boyunca uyğun sıralamanı qorunmasına və qeyri-stabil əzilmiş olan sinir elementlər üzərinə təzyiq edilməməsinə diqqət edilir. Sümük elementlərin arabir dərialtı və paraspinal yumşaq toxumaları da zədələnmiş olduğundan,bu halda kəsiyi normal anatomiyanın qorunduğu bölgələrə uzadaraq orientasiyanın əldə edilməsi uyğun ola bilər. Boyun ardı bağın tam orta xəttən koterizə edilərək açılması qanaxmanı minimuma endirir. Rektus kapitis major və kapitis oblikvus inferior əzələləri subperiostal olaraq C2 laminasından ayrılır. Yanaşma C2 və C3-ün posterior elementləri ilə hüdudda tutulmalıdır. C3-4 faset kapsulası qorunmalıdır. Bu bölgədə subperiostal diseksiya aparılarkən mikrokoretlər və bipolyar koter istifadə edilməlidir. C1-2 faseti üzərində yerləşmiş olan kavernoz venoz pleksus, qanaxmanı qarşısını almaq üçün diqqətlə koterizə edilməlidir. Situasiyada trombin daxil olan hemostatik agentlərin olması da faydalıdır.

Cərrahi müalicənin iki əsas məqsədi dekompressiya və stabilizasiyadır. Dekompressiya quruluşun saxlanılması, təzyiq edən sümük və bağ quruluşlarını uzaqlaşdırılması və hematoma kimi digər yer tutan lezyonlara müdaxilə edilməsi ilə həyata keçirilə bilər. Stabilizasiya üçün isə fiksasiya istifadə edilir və sümük qaynamasının əmələ gəlməsi hədəf tutulur. Fiksasiyada 2,7 və 3,5 mm ölçüdəki və uyğun boylardakı poliaksial titan pedikul vidaları istifadə edilir. C2 üçün üst qismi yivli olmayan vidalar düzəldilmişdir. Bu üsul həm daha stabil bir quruluş əmələ gətirir, həm də kök qanqlionunun irritasiyasının qarşısını alır. Stabilizasiya üçün 3 mm-lik rodlar istifadə edilir. Mümkün olan ən uzun və qalın vidaların istifadəsi və bikortikal tutulmanın əldə edilməsi stabilizasiya baxımından önəmlidir. C2-yə vida qoyulması əsnasında referans nöqtəsi pars interartikulyarisin orta nöqtəsindən keçən cizgi ilə laminanın ortasından keçən cizginin kəsişmə yeridir. Bu nöqtə eyni zamanda pedikul medial divarının 2-3 mm lateralı və inferior faset alt kənarının 2-3mm superiorudur. C2 vidasının C2 pedikulu içərisindən istmus yolu ilə irəliləyərkən medial sərt qişanı, C2 kökünü,vertebral arteriyanı yaralamaması, C1-2 oynağına girməməsi lazımdır. Transvers planda vida yerləşməsi orta xətt ilə 15-30, sagital planda isə yerə dik düzlən ilə 35 dərəcəlik açılmalıdır. Vidanı uyğun şəkildə yönəldə bilmək üçün C2-nin medial istmusunun

izlənməsinin arabir yoxlayıcı və lateral skopiya görüntüləri də dəfələrlə dəyərləndirilməlidir. C3 üçün giriş nöqtəsi lateral massın orta kəsiyi ilə C2-nin inferior faset hüdudunun 2-3 mm aşağısının kəsişməsidir. C3-ə pedikul vidası transvers planda təxminən 45 dərəcəlik açılma və sagital planda dikə yaxın bir planda yerləşdirilməlidir. Servikal pedikul vidaları yerləşdirilərkən bikortikal tutulma yaradan şəkildə yüksək kalibrasiyada fiksatorlar seçilməlidir. Fiksasiya tamamlandıqdan sonra qatlar anatomiyaya uyğun olan şəkildə bağlanılır. Saç cizgisinidə əhatə edən kəsiklərdə əməliyyat sonrası infeksiya baxımından xüsusilə diqqətli olunmalıdır. Bağlamadan əvvəl çoxlu miqdarda yuyulma aparılmalıdır. Dren istifadəsi hematoma və serum əmələ gəlmə ehtimalını azalda bilər, lakin qəza və ya cərrahi səbəblə sərt qişa açıq olan halllarda diqqətli istifadə edilməlidir. Sərt qişanın ilkin və ya plastikat köməyi ilə bağlanılmadığı halllarda lokal və ya distal intratekal kateter istifadəsi spinal maye axıntısının və yaradan sızıntının qarşısını almaq üçün istifadə edilə bilər.

Posterior C1-C2 transartikulyarvida yerləşdirmə texnikasının ağırlaşmaları: -C1-2 transartikulyar vida yerləşdirmə texnikası olduqca rigid stabilizasiya əmələ gəlməsinə qarşı çətin texnikadır. Boyun ağrısı və ənsə sərtliyi əməliyyat sonrasında sıx qarşılanan şikayətlərdir. Xüsusilə ənsə sərtliyi şikayəti posterior yanaşmalarda daha çox müşahidə edilir. Ayrıca vidanın aşırı sıxılması C2 faset və parsının qırılmasına və vida tutulması pozula bilər. İnfeksiya, psevdoartroz, fiksator çatışmazlığı, vida malpozisiyası görülə bilər.Vida malpozisiyası sinir defektlərinə, kök zədələnmələrinə, sərt qişa zədələnmələrinə və BOM fistuluna, onurğa beyni zədələnmələrinə səbəb ola bilər. Vida çox önə yerləşdirilərsə C1-i penetrə edərək udlağı, normadan çox rostral yerləş dirildikdə isə vida oksipitoatlantal oynağı zədələyə bilir, bu oynaqda istənilməyən füzyon yarada bilər və ya bölgədə ağrı əmələ gətirər. Vida çox laterala yönləndirilərsə vertebral arteriyanı zədələyə bilər və ya çox mediala yönləndirilərsə duranın və onurğa beynin zədələnməsinə səbəb olar.

Posterior transartikulyar fiksasiyada ən çox qorxulu ağrılaşma vertebral arteriya zədələnməsi olub,yüksək mortallığa və morbidliyə səbəbolur. Vertebral arteriya yaralanmasının ən başlıca səbəbi anormal çıxışlı vertebral arteriyadır*(high riding vertebral artery)*. Əməliyyat öncəsi radioloji görüntülü metodları ilə vertebral arteriya trasesi və C2 münasibəti yaxşı analiz edilməlidir. Əməliyyat sırasında C1-C2 arasında reduksiya yaradılmazsa vertebral arteriya yaralanması riski daha çoxdur. Bunun üçün lazım olarsa vida yerləşdirmədən öncə sublaminar telləmə aparılaraq reduksiya edilməsi təklif edilir. Əgər bir tərəf vertebral arteriya zədələnərsə mortallıq və morbidlik riskini çox artıracağı üçün digər tərəfə vida qoymağa çalışılmamalıdır. Əməliyyat sırasında vertebral arteriya yaralanmasına bağlı qanaxma olarsa qanaxmanın vida yolunda yoxsa açıq sahədə olduğu araşdırılmalıdır. Vida yolunda yaralanma olduğu düşünülərsə vidani yerləşdirmək əksər hallarda qanaxmanı dayandıra bilər. Vida yerləşdirməklə qanaxma dayanmazsa bone-vax və tampon da faydalı ola bilər. Əgər qanaxma açıq sahədə olarsa tampon da qanaxmanı dayandırmaq üçün yetərli hesab olunur. Buna baxmayaraq qanaxma dayanmayıbsa zədənin tikilməsi, arteriyanın bağlanması və ya endovaskulyar embolizasiya aparılmalıdır. Qanaxma durarsa xəstə angioqrafiyaya alınmalıdır. Əgər angioqrafiyada anevrizma görülərsə onda vertebral arteriya oklüziyası lazım ola bilər.

Posterior C2-C3 stabilizasiya(Hangman) cərrahi texnikası ağırlaşmaları:

Venoz pleksuslardan ciddi qanaxmalar yarana bilər, lakin yanaşma əsasında yuxarıda göstərilən nöqtələrə diqqət yetirilərsə bu durumun qarşısı alınacaqdır. Vertebral arteriya yaralanması da vida yerləşməsi səbəbindən yarana bilər. Bu durumda dərhal hemostatik agentlər qoyulur və dəlik sümük mumu ilə tıxanır. Fiksasiyanın əldə edilməsi və tampon təsiri göstərməsi məqsədilə vidanın yerləşdirilməsi təklif edilə bilər. Hər iki durumda da qarşı tərəfə fiksator qoyulmasından imtina edilir. Qanaxma nəzarət altına alınan kimi neyrovaskulyar mütəxəsislərindən kömək tələb edilir. Lateral mass vidaları qoyulması və əməliyyat sonrası rigid ortezlər istifadəsi düşünülməlidir. Yetərincə stabillik əldə edilmirsə bir neçə səviyyə distala və proksimalda ənsəyə qədər fiksasiya uzadıla bilər. Nevroloji durumda pisləşmə və sinir kökü irritasiyası da baş verə biləcək ağırlaşmalar sırasındadır. Nadir hallarda implant çatışmazlığı da görülə bilər.

Fiksator pozisiyasının təyini üçün əməliyyat əsasında iki planlı floroskopiya və rentgen ,əməliyyat sonrasında rentgen və ya kompüter tomoqrafiya ilə anatomiya və quruluşun son durumu, dekompressiyanın miqdarı və fiksatorların pozisiyaları müəyyənləşdirilməlidir. Stabilliyin yaradıldığının müəyyən etmək üçün dinamik olaraq görüntülərdən də istifadə edilə bilər. Atlantoaksial oynağın stablizasiyasında 1987-ci ildə Magerl tərəfindən yeni bir texnika göstərillmişdir. Bu texnikada C1-C2 oynağı transartikulyar yolla fiksə edilir (C1-C2

transartikulyar fiksasiya, atlantoaksial fiksasiya). Posterior transartikulyar fiksasiya biomexanik olaraq sublaminar texnikasına görə daha güclü stablizasiya əmələ gətirir və buna görə də füzyon şansını artırır. İndi bu metod bir çox onurğa cərrahı tərəfindən geniş istifadə edilməkdədir. Tətbiqində hər hansı bir həddolmayıb, hər yaşda tətbiq edilə bilər. Bu üsulun önəmliliyi bir avantajı eksternal immobilizasiyaya gərək olmamasıdır. Anterior sistemə görə dezavantajı C1-C2 fiksə edildiyində boyun rotasiyasında 75%-lik azalma meydana gəlməsidir. Fiksator pozisiyasının təyini üçün əməliyyat əsasında iki planlı floroskopiya və rentgen, əməliyyat sonrasında rentgen və ya kompüter tomoqrafiya ilə anatomiya və quruluşun son durumu, dekompressiyanın miqdarı və fiksatorların pozisiyaları müəyyən ləşdirilməlidir. Stabilliyin yaradıldığının müəyyən etmək üçün dinamik olaraq görüntülərdən də istifadə edilə bilər.

Beləliklə, aparılan tədqiqatların nəticələri göstərir ki, posterior servikal fiksasiya cərrahiyyəsi xüsusi cərrahi alətlər və cərrahi texnika tələb edir. Eləcə də xəstənin dəqiq seçimi və düzgün aparılmış cərrahiyyə əməliyyatın uzun müddət izlənilməsi hər zaman yaxşı nəticələr əldə etməyə imkan verə bilər. Klinikamızda aparılmış olan bu tədqiqat posterior servikal lateral mass və ya transpedikulyar vida-rod fiksasiya cərrahiyyəsinin etibarlılığını və effektivliyini göstərir.

ƏDƏBİYYAT

1.Abumi K., Kaneda K., Shono Y., Fujiya M. One-stage posterior decompression and reconstruction of the cervical spine by using pedicle screw fixation systems // J. Neurosurg., 1999, v.90, p.19-26.

2.Audat Z.A., Barbarawi M.M., Obeidat M.M. Posterior cervical decompressive laminectomy and lateral mass screw fixation // Neurosciences (Riyadh), 2011, v.16(3), p.248-252.

3.Chouka J., Spivak J.M., Kummer F.J., Steger T. Flexion failure of posterior cervical lateral mass screws.Influence of insertion technique and position // Spine, 1996, v.21, p.462-468.

4.Cunningham B.W., Sefter J.C., Shono Y., McAfee P.C. Static and cyclical biomechanical analysis of pedicle screw spinal constructs // Spine, 1993, v.18, p.1677-1688.

5.Graham A.W., Swank M.L., Kinard R.E. et al. Posterior cervical arthrodesis and stabilization with a lateral mass plate.Clinical and computed tomographic evaluation of lateral mass screw placement and associated complications // Spine, 1996, v.21, p.323-329.

6.Moh'd M Al Barbarawi, Ziad A Audat, Moutasem M Obeidat et al. Decompressive cervical laminectomy and lateral mass screw-rod arthrodesis./Surgical analysis and outcome, 2011, May 19

7.Yin Q., Ai F., Zhang K. et al. Irreducible anterior atlantoaxial dislocation:one-stage treatment with a transoral atlantoaxial reduction plate fixation and fusion //Spine, 2005, v.30(13), p.375-381.

8.Yüksel K.Z., Crawford N.R., Melton M.S., Dickman C.A. Augmentation of accipitocervical contoured rod fixation with C1-C2 transarticular screws // Spine J., 2007, v.7,N2 ,p.180-187.

9.Sekhon LH. Posterior cervical lateral mass screw fixation:analysis of 1026 consecutive screws in 143 patients // J spinal Disord Tech., 2005, v.18, p.297-303.

10.Seybold E.A., Baker J.A., Criscitiello A.A. et al. Characteristics of unicortical and bicortical lateral mass screws in the cervical spine // Spine, 1999, v.24, p.2397-2403.

11.Weinstein J.N., Spratt K.F., Spengler D. et al. Spinal pedicle fixation:reliability and validity of roentgenogram-based assessment and surgical factors on successful screw placemen //Spine,1988, v.13, p.1012-1018.

12.Zygmunt S.C., Christensson D., Saveland H. et al. Occipito-cervical fixation in rheumatoid arthritis-an analysis of surgical risk factors in 163 patients // Acta Neurochir, 1995, v.135, p.2531-2539.

Резюме

Техника трансартикулярный (Magerl) постериор C1-C2 и C2-C3 метод стабилизации (Hangman)

Ф.В.Гаралов

Мы исследовали пациентов, оперированных методом задней C1-C2 трансартикулярный (Magerl) и метод стабилизации (Hangman). 234 пациентов (64 женщин, 170 мужчин) были прооперированы с разными диагнозами: 125 больных с цервикальной миелопатии спандилозс, 64 пациентов с травмой, 16 у пациентов с опухолью, у 15 пациентов с генетической аномалией, у 4 больных с ревматических длиной diseases.The винта составляет 14-20 мм x 3,5-4мм. У 5,55% пациентов был выявлен инфекционный процесс после операции и у 6,83% больных проблем винта. Им были введены в хирургические ревизии.

Summary

Posterior C1-C2 transarticular (Magerl) and C2-C3 stabilisation technique (Hangman)

F.A.Garalov

We researched patients who were operated with posterior C1-C2 transarticular (Magerl) and stabilization technique (Hangman).234 patients (64 women,170 men) were operated with different diagnoses:125 patients with cervical spondilotic myelopathy,64 patients with trauma,16 patients with tumor,15 patients with genetic anomaly,4 patients with rheumatical diseases.The length of screw is 14-20 mm x 3,5-4mm.5,55% of patients with infections after operation and 6,83% of patients with screw problem were taken into revision operation.

Daxil olub:17 01.2016

POSTNATAL ONTOGENEZDƏ SİDİKLİYİN LİMFOİD TÖRƏMƏLƏRİNİN İNVOLYUTİV XÜSUSİYYƏTLƏRİ

G.A. Hüseynova

Azərbaycan Tibb Universiteti, İnsan anatomiyası kafedrası, Bakı

Açar sözlər: postanatl ontogenez, limfoid törəmələr
Ключевые слова: постнанатльный онтогенез, лимфоидные образования
Keywords: postnatal ontogenesis, formation of lymphoid

Borulu orqanların divarında yerləşən limfoid törəmələr insanın normal həyat fəaliyyətində və bir sıra xəstəliklərin gedişi zamanı vacib rola malik olub, müxtəlif morfoloji xüsusiyyət və qanunauyğunluqlarla (fərdi, yaş, cinsi, yerləşmə və s.) səciyyələnir [1-3,5-6,9,11-14,16,17]. Borulu orqanlardan olan sidiklik divarında yerləşən limfoid törəmələrə də bir sıra morfoloji xüsusiyyətlər xasdır [1,5,15-16]. Bu xüsusiyyətlərə limfoid törəmələrin postnatal ontogenez boyunca məruz qaldığı involyutiv dəyişkənlik xüsusiyyətini də aid etmək olar.

Makromikroskopik və mikroanatomik morfoloji tədqiqatlarımızın nəticələrinə görə [1,5,15-16], sidiyin antigenlik xüsusiyyətinə malik olmasına baxmayaraq, sidiklik divarında, limfoid törəmələr orqanın selikli qişa və selikaltı əsasında limfoid düyüncük, diffuz limfoid toxuma elementləri və s. ilə təmsil olunur.

Postnatal ontogenezin ən erkən yaş dövründə - yenidoğulmuşlarda sidiklik artıq yaxşı ifadə olunan limfoid törəmələrə malikdir; qeyd edilən bu xüsusiyyət isə ilk növbədə nəzərdə tutulan yaş dövründə yeni həyat şəraitinə uyğunlaşma tələbləri ilə izah edilə bilinər [11-13].

Postnatal ontogenezin bütün yaş dövrlərində sidiklik divarında limfoid toxuma elementləri kiçik vəzilərlə sıx mikrotopoqrafik- mikrosintopik əlaqədə olur. Limfoid düyüncüklər, əsasən, vəzi axacaqlarını əhatə edir. Bu tip əlaqə alimlər [13-14] tərəfindən limfoid törəmələrin bilavasitə özünəməxsus "gözətçi postu" və ya "nəzarətçi məntəqə" funksiyası yerinə yetirməsi ilə əlaqələndirilir. Vəzilərin serkesiya prosesində bioritmlərin mövcudluğu [7,8,10] və asinxronluq xüsusiyyətləri əsasında yad hissəciklərin və s. bütün hallarda "yuyulmamasını" nəzərə alsaq, qeyd edilən mikrosintopik münasibətin böyük əhəmiyyəti aşkarlanır.

Diffuz limfoid toxuma hüceyrələrinə gəldikdə isə, bu törəmələr sidiklik vəzilərinin axacaq aparatı ilə yanaşı, alveol şöbələri və alveolları ətrafında stromada, qlandulositlərin bilavasitə yaxınlığında yerləşir. Belə yerləşmə xüsusiyyəti isə çox güman ki, sekresiya prosesi üzərində immun nəzarət fəaliyyətini yerinə yetirməyə xidmət edir. Bu baxımdan Y.S. Şvartsman və L.B. Hazensonun (1978) mülahizəsi də diqqətəlayiqdir ki, qlandulositlər vəzilərin alveolu ətrafında yerləşən limfoid toxumanın plazmatik hüceyrələrinin hasil etdiyi "immunglobulin A"nın sekretor tərkibi hesab edilən komponentin sintezində iştirak edir. Beləliklə, limfoid toxuma və onun törəmələri (limfoid düyüncük və diffuz limfoid toxuma) immun sistemin periferik orqanlarının struktur nümayəndəsi kimi MALT-sistemə (mucosa-associated lymphoid tissue) qoşularaq selikli qişanın, həmçinin onun epitel səhifəsinin özünəməxsus qoruyucu xüsusiyyətlərinin yerinə yetrilməsində bilavasitə iştirak edir.

Sidiklik divarında aşkarlanan diffuz limfoid toxuma və limfoid düyüncüklər (çoxalma mərkəzi olmayan) immun sistemin digər periferik

orqanları ilə eynitipli hüceyrə tərkibinə malikdir [15]. Limfoid toxumanın tərkibində kiçik və orta limfositlər, retikulyar hüceyrələr (üstünlük təşkil edən hüceyrə tipləri), habelə limfoblastlar, makrofaqlar, plazmatik hüceyrələr və s. müəyyən edilir. Qeyd edilən limfoid düyüncüklərdə çoxalma mərkəzinin aşkarlanmamasını isə həm də orqanizmin daxili mühitinə aid olan sidiyin zəif nisbi antigen aktivliyi ilə izah etmək mümkündür.

Sidiklik divarında limfoid törəmələrin involyusiya prosesi ilk növbədə, onların say və morfometrik göstəricilərinin müxtəlif yaş dövrlərində əldə etdiyi qiymətdə öz əksini tapır. Sidiklik divarında limfoid törəmələrin morfoloji göstəricilər üzrə yaş xüsusiyyətlərində maksimal ontogenetik effekt isə erkən uşaqlıq yaşı dövründə aşkarlanır. Belə ki, 1-3 yaşlı uşaqlarda yenidoğulmuşlarla müqayisədə limfoid düyüncüklərin uzunluq və en ölçü göstəriciləri, habelə yerləşmə sıxlığı 1,6 ($p<0,05$), ümumi sayı 1,7 ($p<0,05$), sahə göstəricisi isə 1,9 dəfə ($p<0,05$) artıq qiymət əldə edir. Limfoid düyüncüklərin və diffuz limfoid toxumanın hüceyrələri də erkən uşaqlıq yaşı dövründə maksimal ontogenetik qiymətinə çataraq, yenidoğulmuşlara nisbətən 1,2-1,3 dəfə ($p>0,05$) artımla səciyyələnir. Araşdırılan bu fakt immun sistemin periferik orqanlarının morfogenezinin ümumi qanunauyğunluqlarına müvafiq olub, qeyd edilən törəmələrin kəmiyyət və keyfiyyət baxımından formalaşmasının və inkişafının erkən uşaqlıq yaşı dövrünə təsadüf etdiyini göstərir [13]. Erkən uşaqlıq yaşı dövründən sonra isə sidiklik limfoid törəmələrinin involyusiya prosesi başlanır. Qeyd edilən xüsusiyyət qocalıq yaşı dövründə daha qabarıq təzahür edir. Belə ki, bu yaş dövründə sidiklik divarının yuxarı və orta hissələrində selikli qişada limfoid düyüncüklər ya təsadüfi hallarda aşkarlanır, ya da demək olar ki, heç qeyd edilmir. Qocalıq yaşı dövründə yalnız sidikliyin aşağı hissəsində, xüsusən də, sfinkterlər sahəsində selikli qişada forma dəyişikliklərinə uğramış (adətən, üçbucaqşəkilli) limfoid düyüncüklər diqqəti cəlb edir [4,15]. Belə ki, bu yaş dövründə sidikliyin hər üç hissəsində diffuz limfoid toxuma qeyd edilsə də, erkən uşaqlıq yaşı dövrü ilə müqayisədə onun limfoid sıra hüceyrələrin sayı 2,0 dəfə ($p<0,05$) azalır; yaşdan asılı olaraq limfoid toxumanın (istər limfoid düyüncüyünün, istərsə də diffuz limfoid toxumanın) tərkibində nəzərə çarpan morfoloji dəyişikliklər baş verir. Belə ki, qocalıq yaşı dövründə erkən uşaqlıq yaşı dövrü ilə müqayisədə kiçik limfositlərin (immun fəaliyyətin aktiv iştirakçılarının) faiz tərkibi 1,2-1,3 ($p<0,05$), böyük limfositlərin müvafiq göstəricisi isə 2,0 dəfə ($p<0,05$) azalır; yuxarıda qeyd edilənlərlə yanaşı, mitotik bölünmə mərhələsində olan limfoid hüceyrələrinin, həmçinin limfoblastların say göstəricilərindəki azalma meylliliyi bu yaş dövründə limfopoez prosesinin zəifləməsindən xəbər verir.

Sidiklik selikli qişasında diffuz limfoid toxumanın plazmatik hüceyrələrinin faiz tərkibi yenidoğulmuşlarla müqayisədə erkən uşaqlıq yaşı dövründə 1,3 dəfə ($p<0,05$) azalır. Lakin, bu yaş dövrü ilə müqayisədə plazmatik hüceyrələrin faiz tərkibi yeniyetmə yaşı dövründə 1,2 ($p <0,05$), I yetkinlik və qocalıq yaşı dövrlərində isə 1,1 dəfə ($p <0,05$) artır.

Degenerativ limfoid sırası hüceyrələrin faiz tərkibinə nəzər yetirsək, əksinə, bu istiqamətdə artım meyilliliyi müəyyənləşir- erkən uşaqlıq yaşı dövrü ilə müqayisədə qocalıq yaşı dövründə nəzərdə tutulan göstərici 9,6 dəfə ($p<0,05$) artır. Bu isə öz növbəsində postnatal ontogenezin son yaş dövrlərində limfoid toxumadakı destuktiv proseslərin aktivləşməsinin təzahürüdür. Bununla yanaşı, immun sisteminin periferik orqanlarına aid edilən və sidiklik divarının yerli immunitetində iştirak edən limfoid törəmələr qocalıq yaşı dövründə heç də tamamilə itmir.

Beləliklə, postnatal ontogenezdə, sidiklik divarında yerləşən limfoid törəmələr involyutiv əlamətlərlə səciyyələnir və bir sıra morfoloji göstəricilər üzrə erkən uşaqlıq yaşı dövründə maksimal ontogenetik effekt əldə edirlər. Bu yaş dövründən sonra başlanan İnvolyusiya prosesi ilk növbədə, sidiklik limfoid törəmələrinin destruktiv dəyişikliklərində, eləcə də say və morfometrik göstəricilərinin əldə etdiyi qiymətlərdəki azalmalarda öz əksini tapır.

ƏDƏBİYYAT

1. Şadlinski V.B., Hüseynova G.A. Sidik kisəsi vəziləri və limfoid törəmələrinin morfoloji xüsusiyyətləri (monoqrafiya). Bakı: Elm, 2013, 186 s.

2. Аллахвердиев М.К., Шадлинский В.Б. Морфофункциональные взаимоотношения желез и лимфоидного аппарата внепеченочных желчевыводящих путей человека в зависимости от возраста // Экспериментальная и клиническая медицина. Тбилиси, 2003, №13-14,с.19-21

3. Аллахвердиев М.К., Никитюк Д.Б., Шадлинский В.Б. О лимфоидных взаимоотношениях в стенках общего желчного протока // Морфологические ведомости, 2005, №1-2, с. 75

4. Гусейнов Б.М. Некоторые топографо-анатомические особенности и размерно-количественные показатели лимфоидных образований трахеи и главных бронхов человека в возрастном аспекте // Морфологические ведомости, 2008, №1-2, с. 41-43

5. Гусейнова Г.А. Микроанатомия и клеточный состав лимфоидной ткани мочевого пузыря человека // Морфологические ведомости, 2010, №4, с. 25-28

6. Девонаев О.Т. Структурно-функциональные характеристики и особенности морфогенеза лимфоидного аппарата мочевыводящих путей в норме и при воздействии холодового стресса и высокогорья (анатомо-экспериментальное исследование): Автореф. дисс. … докт. мед. наук. Душанбе, 2007, 31 с.

7. Оранский И.Е. Природные лечебные факторы и биологические ритмы. М.: Медицина, 1988, 288 с.

8. Оранский И.Е., Цафис П. Г. Биоритмология и хронотерапия. М.: Медицина, 1989, 159 с.

9. Плявинь Л.А. Макро- и микроскопическая анатомия и топография лимфоидных скоплений пищевода человека в постнатальном онтогенезе: Автореф. дисс. …канд. мед. наук. М., 1986, 16 с.

10. Разумов А.Н., Пономаренко В.А., Пискунов В.А. Здоровье здорового человека. М.: Медицина, 1996, 413 с.

11. Сапин М.Р. Иммунные структуры пищеварительной системы. М.: Медицина, 1987, 203 с.

12. Сапин М.Р., Никитюк Д.Б. Локальные характеристики и взаимоотношения желез с лимфоидными скоплениями в стенке пищевода // Архив анат., гис. и эмбриол.,1990, вып.8, с.58-64

13. Сапин М.Р., Этинген Л.Е. Иммунная система человека. М.: Медицина, 1996, 300 с.

14. Сапин М.Р., Никитюк Д.Б., Шадлинский В.Б., Мовсумов Н.Т. Малые железы пищеварительной и дыхательной систем. М.: Элиста, АПП «Джангар», 2001, 134 с.

15. Шадлинский В.Б., Гусейнова Г.А. Морфологические характеристики железистого аппарата мочевого пузыря на разных этапах постнатального онтогенеза // Морфология, 2011, №1, с. 68-73

16. Шадлинский В.Б., Гусейнова Г.А. Структурные микроанатомические особенности лимфоидных узелков мочевого пузыря у людей разного возраста // Журнал теоретической и практической медицины, , 2011, №9, с. 245-249

17. Шварцман Я.С., Хазенсон Я.Б. Местный иммунитет. Ленинград: Наука, 1978, 223 с.

Резюме

Инвольютивные особенности лимфоидных структур мочевого пузыря в постнатальном онтогенезе

Г.А. Гусейнова

Лимфоидные образования стенки мочевого пузыря человека характеризуются инволютивными особенностями. Количество и размеры лимфоидных узелков, абсолютное содержание клеток лимфоидного ряда в их составе и в диффузной лимфоидной ткани, содержание малых лимфоцитов, клеток с картиной митоза, лимфобластов максимальные в возрасте 1-3 лет, после чего происходит постепенная инволюция лимфоидной ткани.

Summary

The involution peculiarities of the urinary bladder lymphoid structures in postnatal ontogenesis

G.A. Huseynova

Lymphoid structures wall human urinary bladder characterized by involutive characteristics. Quantity and the sizes of lymphoid nodules, the absolute quantity maintenance of lymphoid cells in their structure and in diffuse lymphoid tissue, the maintenance of small lymphocytes, mitotic cells, lymphoblast`s maximum at the age of 1-3 years then occurs gradual involution the lymphoid tissue.

Daxil olub:09 12.2015

SUDA HƏLLOLAN VİTAMİNLƏRSİZ QİDALANMA FONUNDA BEYİN QABIĞI HÜCEYRƏLƏRİNDƏ ƏMƏLƏ GƏLƏN MORFOLOJİ DƏYİŞİKLİKLƏR

B.M.Abuşov[1], F.B.Əskərov[1], Ə.Ə.Səmədov[2]

AMEA-nın A.İ.Qarayev adına Fiziologiya İnstitutu[1], Bakı Dövlət Universiteti[2], Bakı

Açar sözlər: Suda həllolan vitaminlər, neyron, morfoloji dəyişikliklər, siçovul

Ключевые слова: Водорастворимые витамины, нейрон, морфологические изменения, крыса

Keywords: Water-soluble vitamins, neuron, morphological alterations, rat


Insan və heyvanların həyatında vitaminlərin böyük əhəmiyyəti olduğunu bu gün heç kimə sübut etməyə ehtiyac yoxdur. Vitaminlər suda və yağda həllolma qabiliyyətinə görə iki qrupa ayrılır. Təbiətin vitaminlər arasında belə bir qruplaşma aparması heç də təsadüfi deyil. Çox güman ki, canlı orqanizmlərdə baş verən metabolik proseslərinin xarakterinə uyğun olaraq təkamül prosesində belə bir bölgüyə ehtiyac yaranmışdır [8,14]. Suda həllolan vitaminlər (C, B qrupuna aid (B1, B2, B3, B5, B6, B11, B12, B13, B15), PP, N, P, U və s.) orqanizmin müqavimətini artırır, qanyaradıcı üzvlərin fəaliyyətinə təsir edir, əzələ ağrılarını aradan qaldırır, sinir sisteminin fəaliyyətini tənzimləyir və dəri xəstəliklərinin qarşısını alır. Bundan əlavə, diş əti xəstəliklərinə mane olur, enerjiyaranma proseslərində iştirak edir və antioksidant xüsusiyyətə malikdir, oksidləşmə-reduksiya reaksiyalarında, amin turşularının mübadiləsində, nuklein turşularının sintezində və zülalların mübadiləsində iştirak edir [10,13,17,18].

Hazırkı tədqiatlarımızın əsas məqsədi suda həllolan vitaminlərsiz qidalanma şəraitində beyin qabığı neyronlarının morfoloji quruluşunda əmələ gələn dəyişikliklərin xarakterinin və dinamikasının araşdırılmasından ibarətdir.


Tədqiqatların obyekti və üsulları. Tədqiqatlar klassik neyromorfoloji Nissl metodu ilə yerinə yetirilmişdir. Eksperimentlər 4 aylıq ağ siçovullar üzərində aparılmışdır. Eksperimentlər 35 baş ağ siçovul üzərində aparılmışdır. Heyvanlar hər birində 5 siçovul olmaqla 7 qrupa ayrılmışlar. I qrup siçovullar vivarium şəraitində saxlanmış, II-IV qruplar- Nikinorov və əməkdaş. resepti [15] ilə 20, 30 və 40 sutka qidalandırılmışlar (reseptin tam tərkibi saxlanmışdır). V-VII qrup heyvanlar isə reseptdən suda həllolan vitaminlər çıxarılmaqla 20, 30 və 40 sutka yemlənmişlər. Təcrübələrin sonunda heyvanlar dekapitasiya olunmuş və beyinləri tədqiq olunmuşdur. Belə ki, hər heyvanın beynindən 10 mkm qalınlıqda 20 kəsik hazırlanmış, Nissl metodunun köməyi ilə krezil-fioletlə (Almaniyanın "Merk" firmasının istehsalı) boyanmış və işıq mikroskopu (Almaniyanın "Amplival" firmasının istehsalı) altında baxılaraq mikrofotolar çəkilmişdir. Tədqiqat obyekti kimi siçovulların beyin qabığının hərəki və limbik nahiyələrinin neyronları seçilmişdir. Tədqiq olunan sinir törəmələrinin identifikasiyası siçovulların beyninin mövcud xəritəsindən [9] istifadə olunmaqla aparılmışdır.

Alınmış elmi faktlar və onların müzakirəsi. Adi vivarium şəraitində yemlənmiş siçovulların beyninin limbik və hərəki qabıqlarının I-II və VI-VII qatlarında əsasən orta diametrli piramidal neyronlar yerləşir, III-V qatlarda isə sinir hüceyrələri daha iridir. Iri nüvə sitoplazmada mərkəzi mövqe tutur, nüvəcik nüvənin mərkəzində yerləşir. Sinir hüceyrələrinin sitoplazmasında Nissl maddəsi müxtəlif həcmli danələr və zərrəciklər şəklində olub sitoplazmada bərabər şəkildə paylanır. İri piramidal neyronlarda Nissl maddəsi kəsəkciklər şəklindədir. Bu səbəbdən də, bəzi iri piramidal neyronlarda Nissl maddəsinin yüksək konsentrasiyası diqqəti cəlb edir (şək. 1). Belə neyronların aksonlarının proksimal hissəsində az miqdarda Nissl maddəsi olur və bu səbəbdən də onlar açıq bənövşəyi rəngə boyanırlar. Neyronlarda müşahidə olunan morfoloji heterogenlik onların fərqli funksional fəallığının əlaməti kimi qiymətləndirilir [2].

20, 30, 40 sutka tam vitamin tərkibli qida almış siçovulların beyin qabığı neyronlarında müşahidə olunan morfoloji dəyişikliklər nüvənin sitoplazmada, nüvəciyin isə karioplazmada periferik mövqe tutması və Nissl maddəsinin miqdarının vivarium şəraitində saxlanmış heyvanlarla müqayisədə artması ilə səciyyələnir. Müxtəlif ekstremal faktorun təsiri zamanı sinir hüceyrələrində müşahidə olunan belə dəyişikliklərə reparativ dəyişikliklər kimi baxılır [1,4,7]. Qidalanma müddəti uzandıqca reparativ dəyişikliklərə uğramış neyronların miqdarının artması diqqəti cəlb edir. Belə ki, 20 sutka tam vitamin tərkibli qida almış heyvanlarda hər görüş dairəsində 2,1% neyronda reparativ dəyişikliklər qeydə alınır. 30 sutka tam vitamin tərkibli qida almış heyvanlarda bu göstərici 2,9%, 40 sutka bu şəraitdə saxlanmış heyvanlarda- 4% təşkil edir.



Şək. 1. 40 sutka vivarium şəraitində yedirilmiş ağ siçovulun hərəki qabığlğının V qatında Nissl maddəsi ilə zəngin iri piramidal neyronlar. x1 500.



Şək.2. 30 sutka suda həllolan vitaminlərsiz qidalandırılmış ağ siçovulun hərəki qabığının V qatında distrofik dəyişikliklərə məruz qalmış iri piramidal neyronlar. x1500


20 sutka suda həllolan vitaminlərsiz qidalanmış heyvanların öyrənilən hər iki beyin qabığı nahiyəsinin neyronlarında morfoloji dəyişikliklər reparativ xarakterə malıkdir. Bəzi iri neyronlarda Nissl maddəsinin miqdarı artır, nüvə və nüvəcik ekssentrik mövqe tutur. Hər görüş dairəsində yerləşən neyronların 0,6%-də qeyd olunan reparativ xarakterli struktur dəyişiklikləri müşahidə olunur.

30 sutka suda həllolan vitaminlərsiz qida almış heyvanlarda beyin qabığının bir qrup iri piramidal neyronunda Nissl maddəsinin bazal dendrit yaxınlığında yüksək konsentrasiyası diqqəti cəlb edir. Təcrübələrin bu mərhələsində reparativ dəyişikliklərə uğramış neyronların miqdarı 0,8% təşkil edir. Digər bir qrup iri piramidal neyronun sitoplazmasında isə Nissl maddəsinin miqdarı nisbətən azalır, sitoplazmanın periferik sahəsində və nisbətən şişmiş apikal dendritlərdə xırda vakuollar görünür (şək. 2). Belə neyronların miqdarı 0,5% təşkil edir. Müxtəlif ekstremal və patogen amillərin təsiri altında neyronlarda qeydə alınan belə struktur dəyişiklikləri distrofik dəyikiliklər hesab olunur [1,4,7].

40 sutka vitaminsiz qidalanmış heyvanların neyronlarında reparativ xarakterli dəyişikliklər xeyli zəifləyir (0,1%), distrofik dəyişikliklər isə inkişaf edərək daha çox (2,8%) neyronu əhatə edir. Başqa bir qrup iri piramidal neyronda Nissl maddəsinin miqdarı xeyli azalır, sitoplazmada nisbətən iri həcmli vakuollar müşahidə olunur. Bunlardan əlavə, distrofik dəyişikliklərə uğramış bəzi neyronlarda nüvənin deformasiyası da qeydə alınır (şək. 3).

Beləliklə, vivarium şəraitində saxlanan heyvanlarla müqayisədə Nikinorov və əməkdaş. resepti üzrə tam tərkibli qida almış heyvanların baş beyin neyronlarında nəzərə çarpan reparativ dəyişikliklərə optimal qidalanma şəraitində neyronlarda sintetik proseslərin intensivləşməsinin morfoloji ekvivalenti kimi baxılır [2]. 20 sutka suda həllolan vitaminlərsiz qida almış heyvanların beyin qabığı neyronlarında reparativ dəyişikliklərin müşahidə olunması bu şəraitdə beyində baş verən kompensator proseslərin morfoloji təzahürü kimi qiymətləndirilə bilər. Təcrübələrin 30 və 40 sutkasında beyin qabığı hüceyrələrində qeydə alınan distrofik dəyişikliklər digər ekstremal və patogen faktorların da beynə təsiri zamanı müşahidə olunur və neyronun kompensasiyaedici imkanlarının tükənməsi kimi dəyərləndirilir [3, 7].

Suda həllolan vitaminlərsiz qidalanma şəraitində neyronlarda nəzərə çarpan polimorfizm sinir hüceyrələrinin beyində yaranmış vitamin qıtlığına fərqli həssaslığının nəticəsidir. Bu vitaminlər bir sıra fermentlərin fəallıq mərkəzi olduğundan vitaminsiz qidalanma şəraitində sinir hüceyrələrində müşahidə olunan distrofik dəyişikliklərin metabolik prosesləri katalizə edən fermentlərin kəmiyyət və keyfiyyətinin pozulması nəticəsi kimi də dəyərləndirilə bilər. Bizim morfoloji tədqiqatların nəticələri laboratoriyamızda aparılmış biokimyəvi və neyfizioloji tədqiqatların nəticələrinə yğundur [5,6,11,12].



Şək. 3. 40 sutka suda həllolan vitaminlərsiz qidalandırılmış ağ siçovulun hərəki qabığının V qatında distrofik dəyişikliklərə uğramış iri piramidal neyronlar. x1500

ƏDƏBİYYAT

1. Abuşov B.M., Əskərov F.B., Qədimova S.O. 30 sutka vitaminsiz qidalanma zamanı neyronlarda struktur dəyişiklikləri / İdman fiziologiyasının müasir problemləri (konf. mat.). Bakı: 2008, s.6-11.

2. Abuşov B.M., Əskərov F.B., Səmədov Ə.Ə. Vitaminsiz qidalanma şəraitində siçovullarin beyin qabiği neyronlarinda morfoloji dəyişikliklər // Azərb. təb. müasir nailiyyətləri, 2015, №2, s.204-206.

3. Abuşov B.M., Məhərrəmova L.M. Zülal qıtlığı zamanı baş beyin neyronlarında morfoloji dəyişikliklər / AMEA-nın A.İ.Qarayev adına fiziologiya İnstitutunun əsərləri külliyyatı "Fiziologiya və biokimyanın problemləri". Bakı: 2000, XIX c., s.17-20.

4. Абушов Б.М., Аскеров Ф.Б., Сулейманова Л.М. Возрастные особенности морфологии структур мозга на фоне белковой депривации / мат. II Международ. конф. «Свободные радикалы, антиоксиданты и старение» (г.Астрахань, 2-3 ноября 2011г.). Астрахань: 2011, с.30-32.

5. Азимова А.М. Влияние безвитаминного питания на активность Mg – и Na, K-АТФаз коры головного мозга, гипоталамуса и продолговатого мозга взрослых белых крыс / Azərbaycan zoologlar cəmiyyətinin əsərləri. Bakı: 2013, № 1, cild 5, s.109-115.

6. Аскеров Ф.Б., Мовсумов Г.Д., Абушов Б.М., Азимова А.М., Панахова Х.Г., Кадымова С.О. Особенности энегообеспечения и энерготраты мозга при формировании эмоционально-мотивационного состояния на фоне дефицита витаминов / IX Международ. междисциплинар. Конгр. «Нейро-наука для медицины и психологии». М.: 2013, с.67.

7. Кривицкая Г.Н., Гельфанд В.Б., Попова Э.Н. Деструктивные и репаративные процессы при очаговых поражениях головного мозга. М.: Медицина, 1980, 216с.

8. Савченко А.А., Анисимова Е.Н., Борисов А.Г., Кондаков А.Е. Витамины как основа иммунометаболической терапии. Красноярск.: КрасГМУ, 2011, 213 с.

9. Светухина М.В. Цитоархитектоника новой коры в отряде грызунов (белая крыса) //Арх. Анат., 1962, т.42. № 2, с.31-44.

10. Amano A., Sato Y., Kishimoto Y. et al. Effects of Ascorbic Acid Deficiency on Protein and Lipid Oxidation in Livers from SMP30/GNL Knockout Mice // J. Nutrition. Sci. a. Vitaminol., 2013, v. 59, No. 6, p. 489-495

11. Askerov F.B., Azimova A.M., Movsumov G.J. et al. The impact of deficiency of liposoluble vitamins on energy-consumption in the CNS / Abstracts of "9. Ulusal sinirbilim congresi". İstanbul, 2010, p. 200.

12. Askerov F.B., Movsumov G.D., Abushov B.M. et al. Conditioning reflexes and level of energy consumption and energy support in CNS under liposoluble vitamins of in diet / VI Международ. междисциплинар. Конгр. «Нейронаука для медицины психологии» (Судак, Крым, Украина, июня 2010 г). М., 2010, с. 37-39.

13. Dief A.E., Samy D.M., Dowedar F.İ. Impact of Exercise and Vitamin B_1 Intake on Hippocampal Brain-Derived Neurotrophic Factor and Spatial Memory Performance in a Rat Model of Stress // J. Nutrition. Sci. a. Vitaminol., 2015, Vol. 61, No. 1, p. 1-7

14. Gerald F. Combs, Jr. What is a Vitamin? / The Vitamins. Academic Press, 2012, 598 c.

15. Nikonorow M., Urbanek-Karlowska B., Karlowska K. Protein deficient diets activity of selected enzymes of protein and karbohydrate metabolizm // Toxicology, 1973, N 1, p.168-179.

16. Nissl F. 1903 (цитирован по Питерс А., Палей С., Уэбстар Г.) Ультраструктура нервной системы. М.: Мир, 1972, 176с.

17. Shibata K., Morita N., Kawamura T. et al. Effects of Fatty Liver Induced by Excess Orotic Acid on B-Group Vitamin Concentrations of Liver, Blood, and Urine in Rats // J. Nutrition. Sci. a. Vitaminol., 2015, v. 61, No. 5, p. 355-361

18. Wang R., Liu J., Guo X.et al. Vitamin C Protects against INS832/13 β-Cell Death and/or Dysfunction Caused by Glucolipotoxicity or 3T3-L1 Adipocyte Coculture // J. Nutrition. Sci. a. Vitaminol., 2014, v. 60, No. 5, p. 313-320

Резюме

Морфологические изменения в нейронах коры мозга крыс в условиях без водорастворимого витаминного питания

Б.М.Абушов, Ф.Б.Аскеров, А.А.Самедов

В настоящей работе рассматриваются структурные изменения происходящие в пирамидных нейронах лимбической и моторной коры 4-х месячных белых крыс, при кормлении без водорастворимых витаминов в течение 20, 30, 40 суток. Было установлено, что морфологические изменения носят полиморфный характер. Возможно, что полиморфные изменения в нейронах связаны с разной чувствительностью нейронов коры головного мозга к отсутствию водорастворимых витаминов в пище.

Summary

Morphological alterations in cortical neurons of white rats under water-soluble vitamins deficiency in food

B.M.Abushov, F.B.Askerov, A.A.Samedov

The paper presents the results of structural alteration which occur in the pyramidal neurons of limbic and motor cortex of 4-month-old rats fed with water-soluble vitamins deficiency food for 20-, 30-, 40-days. It was revealed that morphological alterations revealed in large pyramidal neurons bear dystrophic disposition (vacuolization of cytoplasm, deformation of nucleus). Polymorphic alterations in neurons seems to be due of different sensitivity cortical neurons of the III-V layers to water-soluble vitamins deficiency food.

Daxil olub:09.02.2016

İŞEMİK İNSULTLU XƏSTƏLƏRİN KLİNİK VƏ RADİOLOJİ XÜSUSİYYƏTLƏRİ, ASPİRİN TOLERANTLIĞIN ANLAYIŞI VƏ RAST GƏLMƏ TEZLİYİ

N.M. Ağayeva

Hacıtəpə Universiteti Tibb Fakültəsi, Ankara, Türkiyə

Açar sözlər: işemik insult, antiaqreqant preparatlar, aspirinə tolerantlıq

Ключевые слова: ишемический инсульт, антиагрегантные препараты, аспириновая толерантность.

Key words: ischemic stroke, antiplatelet drugs, aspirin tolerance.

Serebrovaskulyar xəstəliklərin yüksələn templə inkişaf dinamikası, əlillik və ölümün strukturunda bu xəstəliklərin ön sıralara çıxması, müalicə və bərpa imkanlarının həddən məhdud olması bu problemi kliniki təbabətin ən aktual məsələlərindən birinə çevirmişdir. Dünya üzrə ölüm hadisələrinin 45,6%-ni ürək-damar xəstəlikləri təşkil edir ki, bunlardan 40% insultlardır. Bu xəstəlik əlilliyin əsas səbəblərindən biridir, hər üçüncü xəstə kənar köməyə möhtac olur, 20%-i gəzə bilmir, və yalnız beş nəfərdən biri əmək fəaliyyətinə qayıdır [1].

Antiaqreqant agentlər ürək-damar xəstəliklərinin birincili və ikincili profilakasında böyük

əhəmiyyət kəsb edir [2]. Serebrovaskulyar xəstəliklər keçirən insanların təxminən yarısı antiaqreqant müalicə alarkən yenidən insult keçirirlər. Antiaqreqant müalicə alarkən insultun olması klinikada "antiaqreqant tolerantlıq" adlandırılır [3]. Bu əsaslı klinik anlayışdan fərqli olaraq, antiaqreqant tolerantlıq laborator testlər tərəfindən də təsvir edilə bilər. Bu testlərin əsas prinsipi antiaqreqant agentlərdən istifadə edən individumun qan nümunələrinin in vitro mühitində çalışmaqla trombosit aqreqassiyasının dərəcəsinin ölçülməsinə əsaslanır. Bu səbəbdən son illərdə daha praktik istifadə edilən alternativ testlər inkişaf etdirilmişdir. Bu testlərdən birbirlərindən fərqli üsullarda istifadə edilsədə, aspirin istifadə edən individumdaCyclo-oxygenase-1 (COX-1) fermentinin inhibə nəticəsində trombosit-tromboksan A2 (TxA2) əmələ gəlməsinin dərəcəsi, tienopiridin (tikolip- din, klopidogrel və s.) istifadə edən individumlarda isə P2Y12 reseptorlarının blokadası nəticəsində adenozin difosfat ilə artmış trombositlərin aqreqassiya dərəcəsinin təsbit edilməsi planlaşdırılır [3,4].

Tədqiqatın **məqsədi**- işemik insultlu xəstələrin klinik və radioloji xüsusiyyətlərini, farmakoloji aspirin tolerantlığın anlayışını və rast gəlmə tezliyini araşdırmaqdır.

Tədqiqatın material və metodları. Tədqiqat işi Türkiyə Cumhuriyyəti Hacıttəpə Universiteti Tibb Fakültəsinin Nevrologiya kafedrasında 2011-ci il sentyabr və 2013-cü il iyul tarixləri arasında işemik insult diaqnozu ilə daxil olan və insult simptomlarının başlamasından sonrakı 48 saat müddətində müraciət edən xəstələr üzərində aparılmışdır. Xəstələr iki qrupa bölünmüşdür. Daimi aspirin istifadə edərkən işemik insult keçirən xəstələrdən (n=99) son aspirin dozasının qəbulundan sonra ilk 48 saatda VerifyNow® üsulundan istifadə edilərək farmakoloji aspirin tolerantlığın olub olmadığı müəyyən olunmuşdur (əsas qrup). Xəstələrin 43 qadın, 56 kişi, orta (ÇAA) yaşları 71 (63-79) təşkil etmişdir. Aspirin istifadə etməyən, lakin bənzər şəkildə simptomların başlanmasından sonra ilk 48 saatda qiymətləndirilən 314 xəstə "aspirin istifadə etməyən xəstə qrupu" olaraq işə daxil edilmişdir (nəzarət qrupu). Bu 314 xəstə arasından təsadüfi seçilmiş 16 xəstədən də qan alınaraq farmakoloji aspirin tolerantlığı yoxlanılmışdır.

Alınmış nəticələrin statistik işlənməsi üçün kategorik dəyişənlər n (%), rəqəmlər orta dəyər (çeyreklikler (dörddə bir) arası aralıq, ÇAA) olaraq müəyyən olunmuşdu. Xəstələrdə tolerantlıq baxımından ən uyğun eyni dəyərin müəyyən olunması məqsədiylə "Receiver Operating Characteristics" (ROC) əyriləri yaradılaraq əyri altında qalana sahə hesabı aparılırdı.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Tədqiqat dövründə aspirin qəbul edərkən işemik insult keçirmiş 99 xəstədə son aspirin dozasının istifadəsindən sonra ilk 48 saatda VerifyNow® üsulundan istifadə edərək farmakoloji aspirin müqavimətinin olub olmadığı qiymətləndirilmişdir. Xəstələrin klinik və radioloji xüsusiyyətləri cədvəldə göstərilib.

Risk faktorlarına baxıldığında xəstələrin 79% hipertensiya, 31% şəkərli diabet, 55% hiperlipidemiya, 46% koronar catmamazlıq, 37% qulaqçıqların səyriməsi və 21% xəstənin anamnezində keçirilmiş insult aşkarlanmışdır. Etiopatogenetik cəhətdən işemik insultun 5 əsas yarımtipini fərqləndirirlər (TOAST təsnifatına görə): 1. İri arteriyaların aterosklerozu nəticə- sində baş verən insult, 2. Kardioembolik insult, 3. Kiçik çaplı arteriyaların okkluziyası nəticəsində baş verən insult (lakunar), 4. Digər məlum etiologiyalı insultlar (qeyri-aterosklerotik vaskulopatiyalar və arteriitlər), 5. Naməlum etiologiyalı insult. Bizim apardığımız tədqiqatda yuxarıda göstərilən təsnifata görə tez-tez rast gəlinənlər bunlar idi: kardioembolik insult (43%), iri arteriyaların aterosklerozu (17%), digər səbəblər (9%) və kiçik çaplı damarların okkluziyası (5%). Xəstələrin 25% isə bu sistemə görə təsnifatlandırılmadı.

Xəstələrin müraciət etdikləri dövrdə orta (ÇAA) NIHSS (National Institute of Health Stroke Scale) hesabı 5 (2-13) təşkil etmişdir. İşə daxil edilən 99 xəstənin 91-də təxminən 48 saat müddətində maqnit-rezonans tomoqrafiya müayinəsi (MRT) aparılmışdır. Bu 91 xəstədə diffuziya ağırlığını göstərən görüntüləri üzərindən aparılan hesablarda işemiyaya məruz qalan sahənin orta (ÇAA) həcmi 2,75 (0,83-30,7) ml müəyyən olundu. Bu xəstə qrupunda simptomların başlanğıcından MRT edilməsinə qədər keçən orta (ÇAA) müddət 14,2 (7,0-25,2) saat hesablandı.

İşemik insult keçirdikləri vaxt dövründə, xəstələrin 59%-i 100 mg, 41%-ı isə 100 mg-dan daha yüksək dozada aspirindən istifadə etmişlər. Aspirin müalicəsinə əlavə olaraq xəstələrin 17% antiaqreqant və 10% antikoagulyant müalicəsi tətbiq olunmuşdur. Tədqiqat qrupunda proton nasosun inhibitorlarından istifadə nisbəti 21%, qeyri-steroid iltihab əleyhinə dərman istifadəsinin nisbəti 5% və statinin istifadə nisbəti 24% səviyyəsində aşkarlanmışdır. Xəstələrdən qan nümunələri, ən son aspirin dozası verilən müddətdə orta (ÇAA) dəyəri 21,1 (10,3-30,0) saat sonra əldə edildi.

Cədvəl
Əsas qrupun klinik və radioloji xüsusiyyətləri

Parametrlər	N=99
Orta yaş (ÇAA)	71 (63-79)
Qadın (%)	43 (43,4%)
Hipertenziya(%)	78 (79%)
Şəkərli diabet (%)	31 (31%)
Hiperlipidemiya (%)	54 (55%)
Koronar çatmamazlıq (%)	45 (46%)
Qulaqçıqların səyriməsi (%)	37 (37,4%)
Keçirilmiş insult (%)	41 (41,4%)
NİHSS hesabı (orta dəyər, ÇAA)	5 (2-13)
MRT olana qədər keçən vaxt (orta dəyər, ÇAA) saat*	14,0 (7,0-24,8)
Diffuziya ağırlıqlı görüntünün həcmi (ortalama, ÇAA),mL*	2,9 (0,8-33,6)
İnsultun tipləri (%)	
İri arteriyaların aterosklerozu	17 (17,2%)
Kardioemboliya	43 (43,4%)
Kiçik çaplı arteriyaların okkluziyası	5 (5,1%)
Digər məlum etiologiyalı insultlar	9 (9,1%)
Naməlum etiologiyalı	25 (25,3%)
Aspirin dozası (%)	
100 mg	58 (59%)
>100 mg	41 (41%)
Digər dərmanlar	
Digər antiaqreqantlar**	17 (17%)
Antikoaqülyantlar	10 (10%)
Proton pompa inhibitorları	21 (21%)
Non-steroid iltihab əleyhinə preparatlar	5 (5%)
Statinlər	25 (25%)
Hematokrit (orta dəyər, ÇAA) %	40,3 (35,7-43,3)
Trombositlərin sayı (orta dəyər, ÇAA) %	220 (174-267)
Qanda şəkər (orta dəyər, ÇAA) mg/dl	131 (108-170)
Aspirin tolerantlığı (orta dəyər, ÇAA), ARU	466 (406-529)

Qeyd: * - MRT ilə əlaqəli analizlər ilk 48 saat müddətində MRT aparılmış 91 xəstəyə aiddir; **-kombinə antiaqreqant müalicəsi alan xəstələrdən 1 xəstə dipridamol, 1 xəstə dipridamol və klopidoqrel, 15 xəstə klopidoqrel təyin edilmişdir

VerifyNow® üsulundan istifadə edərək aspirin tolerantlığının qiymətləndirməsində istehsalçı firma tərəfindən istifadə olunması üçün təklif olunan eyni dəyər 550ARU-dur (Aspirin Reaction Unit). Nə qədər çox eyni dəyər asprin tolerantlığı olan xəstələrdə aşkarlansada, həssaslıq baxımından qeyri-kafi qalmaqda davam edir. Bu səbəbdən tədqiqat işində istehsalçı firma tərəfindən təklif edilən eyni dəyərə əlavə olaraq xəsətlər qrupunda ortaya qoyduğumuz eyni dəyərdəndə analizlərin aparılması nəzərdə tutulmuşdur. Nəzarət qrupunda eyni dəyərin aşkarlanması məqsədilə 314 xəstənin arasından təsadüfi seçilmiş 16 xəstədə eyni üsuldan istifadə edilərək aspirin tolerantlığı təyin edilmişdir.

Aspirin müalicəsi alan 99 və almayan 16 xəstədən alınmış qan nümunələrində aspirin tolerantlığın təyini qiymətləndirildikdə aspirin qəbul edən xəstələrin orta ARU dəyəri 466 (406-529) aşkarlanarkən, aspirindən istifadə etməyən pasiyentlərdə bu dəyər 558 (531-595) olaraq tapılmışdır.

ARU dəyərinə ROC əyrisi ilə baxdıqda aspirin istifadə edən xəstələrdə təyin edilmiş düzgünlük nisbəti 0,807 (0,701-0,912) olaraq müəyyən olunmuşdur. İstehsalçı firmanın təklif etdiyi eyni dəyəri 550 ARU-ya görə aspirin istifadə edən xəstələrdə 17 (17,2%) farmakoloji tolerantlıq aşkarlanarkən, aspirin qəbul etməyənlərin 8-də (50%) aspirin müalicəsi alan xəstələrdəki kimi, araxidon turşusu ilə stimulyasiya cavabsız trombosit fəaliyyəti ilə müşahidə olunmuşdur. Digər bir testdə ARU 550 eyni

dəyərində aspirin istifadəsi üçün həssaslıq 50%, spesifikliyi isə 83% təşkil etmişdir.

Əsas və nəzarət qruplarında, aspirin istifadə edən və etməyən xəstələrdə uyğun həssaslıq və spesfikliyi fərqləndirə bilən eyni dəyərin hansı olduğunu araşdırdıqda, bura 510 ARU dəyərinə yaxın dəyərlərin olduğu müşahidə olunmuşdur. Bu eyni dəyərin həssaslığı 88%, spesifikliyi 69% və dəqiqliyi 78% olmuşdur. Eyni dəyərin ARU 510 alındığında aspirin qəbul edən xəstələrin 13 (31%) farmakoloji tolerantlıq olarkən, aspirin istifadə etməyən 16 nəfərin yalnız 2-də (13%) araxidon turşuya qarşı cavabsız trombosit fəaliyyətin olduğu aşkarlanmışdır.

Bu nəticələr diaqnoza görə dəyişməklə birlikdə, farmakoloji aspirin tolerantlıq işemik insult olan xəstələrin 17-31%-də müəyyən olduğunu göstərir. Bu nisbət patofizioloji tolerantlığın sıxlığı ilə müqayisədə olduqca aşağı səviyyədə qalmaqda davam edir.

Beləliklə, bu analizlər nəticəsində aspirin istifadə edərkən insult keçirən xəstələrdə farmakoloji aspirin tolerantlığın olmasının xəstələrin klinik və radioloji göstəriciləri ilə məna kəsb edən əlaqənin olması aşkarlanmamışdır. Aspirin tolerantlığını qiymətləndirən üsullar və eyni dəyərin müəyyən edilməsi ilə əlaqədar problemlər və klinik mənasının da mübahisəli olduğu göz önünə alınaraq tolerantlığın prognoz üçün nə qədər etibarlı parametr sayıla biləcəyi məlum deyil.

ƏDƏBİYYAT

1.Warach S. et al. Effect of citicoline on ischemic lesions as measured by diffusion- weighted magnetic resonance imaging //Ann Neurol., 2000, №48, p.713-722

2. Watson T., Lip G.Y.The role of aspirin in cardiovascular prevention: implications of aspirin resistance // J Am Coll Cardiol, 2008, №51(19), p.1829-1843.

3.Hankey G.J., Eikelboom J.W. Aspirin resistance // Lancet, 2006, №367 (9510), p. 606-617.

4.Topcuoglu M.A., Arsava E.M., Ay H. Antiplatelet resistance in stroke // Expert Rev Neurother, 2011, №11 (2), p. 251-263.

Резюме

Клинические и инструментальные особенности больных ишемическим инсультом, понятие аспириновой толерантности и частота ее встречаемости

Н.М.Агаева

Цель исследования – исследование клинических и инструментальных особенностей больных ишемическим инсультом, а также определение аспириновой толерантности и частоты ее встречаемости. В исследование было включено 99 больных с ишемическим инсультом, которым применялось антиагрегантное лечение (основная группа) и 314 больных, которые не получали аспирин (контрольная группа). У 16 пациентов из этой группы определялась аспириновая толерантность. Таким образом, в результате этого анализа, пациенты, которые перенесли инсульт при использовании аспирина, между фармакологической толерантностью аспирина и клиническими и радиологическими показателями больных не были признаны значимыми отношения.

Summary

Clinical and instrumental features of patients with ischemic stroke, the concept of aspirin tolerance and frequency of its occurrence

N.M. Agayeva

Purpose of the study - the study of clinical and instrumental characteristics of patients with ischemic stroke, as well as the definition of aspirin tolerance and frequency of its occurrence. The study included 99 patients with ischemic stroke, which is used antiplatelet treatment (study group) and 314 patients who did not receive aspirin (control group). 16 patients in this group was determined aspirin tolerance. Thus, as a result of this analysis, patients who have suffered a stroke using aspirin, aspirin tolerance between pharmacological and clinical and radiological characteristics of the patients were not considered significant relationship.

Daxil olub:15 02.2016

ERKƏN VAXTLARDA HAMİLƏLİYİN POZULMASI QEYD EDİLƏN QADINLARIN KOMPLEKS MÜALİCƏSİNDƏ LİMFOSİTOİMMUNTERAPİYA

G.H.Məmmədli

Azərbaycan Tibb Universiteti, II mama-ginekologiya kafedrası

Açar sözlər: hamiləlik, hamiləliyin pozulması, limfositoimmunterapiya, HLA
***Ключевые слова*:** беременность, невынашивание, лимфоцитоиммунотерапия, HLA.
Key words: pregnancy, pregnancy disorders, lymphocyte immune therapy, HLA.

Mamalıq-ginekologiyada son onillikdə əldə edilən böyük inkişafa baxmayaraq, hamiləliyin pozulması problemi indiyə qədər mürəkkəb məsələ olaraq qalır [1,3,7]. Bu ağırlaşmanın tezliyi uzun illər ərzində arzu olunan bütün hamiləlik hallarının 15-20%-ni təşkil edir. Praktik olaraq bütün düşüklərin 75-80%-i birinci trimestrdə baş verir [6,7].

Müasir dövrdə reproduktiv funksiyanın pozulmasının əsasını təşkil edən immunoloji mexanizmlərin öyrənilməsinə böyük diqqət verilir [2]. İmmunoloji səbəblərin arasında alloimmun dəyişikliklər- HLA-antigen sistemi üzrə cütlüklərin uyğunluğu ayırd edilir [2,7].

Alloimmun dəyişikliklərin əsas müalicə metodu kimi allogen limfositlərlə aktiv immunlaşdırma- limfositoimmunterapiya (LİT) təklif edilir [2,4,5]. Hazırda LİT metodu hamiləliyin pozulmasının kompleks müalicə və profilaktikasında müvəffəqiyyətlə tətbiq edilir. Terapiya mexanizmi ananın orqanizminin zəifləmiş yerli immun cavabının reaktivləşməsindən ibarətdir. LİT-in gözlənilən terapevtik effekti immun cavabın supressor tənzimlənməsinə stimuləedici təsiri ilə şərtlənmişdir. LİT-in aparılmasına göstərişlər bunlardır: cütlüklərin 3 və daha çox alleləri üzrə HLA sisteminin antigenləri üzrə uyğun olması; cütlüklərin DRB1, DQA1 və DQB1 lokusları üzrə homoziqotluğu.

Hazırkı tədqiqat işinin yerinə yetirilməsinin **məqsədi** kompleks müalicədə limfositoimmunterapiya metodunun tətbiqi yolu ilə erkən vaxtlarda hamiləliyin adəti pozulmasının müalicəsinin effektivliyinin yüksəldilməsi olmuşdur.

Tədqiqatın material və meodları. Anamezdə erkən vaxtlarda hamiləliyin adəti pozulması qeyd edilən 60 cütlükdə II sinif HLA sisteminin antigenləri öyrənilmişdir.

HLA II sinif antigenlərin paylanmasını öyrənmək üçün zəncirvari polimeraza reaksiyasından (ZPR) istifadə edilmişdir. DNT nümunələri periferik qanın limfositlərindən alınmışdır. DRB1, DQA1 və DQB1 lokuslarının polimorf allellərinin təyin edilməsi «DNT-Texnologiya» (Rusiya) firmasının reagentlər dəstindən istifadə etməklə istehsalçı firma tərəfindən tövsiyə olunan təlimata əsasən aparılmışdır.

LİT proseduru hamiləlikdənkənar dövrdə ayda 1 dəfə olmaqla gözlənilən hamiləliyə qədər 2 sikl ərzində aparılmışdır. Limfositlərin yeridilməsi aybaşı siklinin 6-9-cu günü 2 sikl ərzində ardıcıl şəkildə həyata keçirilmişdir. Ərinin allogen limfositlərinin qarışığı bazunun ön hissəsinə 8-10 nöqtədə dərialtı yeridilmişdir. Hüceyrə qarışığının yerildilməsinə qarşı orqanizmin yerli reaksiyasının vizual qiymələndirilməsi və 3 gün ərzində termometriyası aparılmışdır. Bu qrupda olan pasiyentlərə LİT 100 mln. hüceyrə miqdarında yeridilmişdir. Hamilə qalan qadınlara yoldaşının allogen limfositlərinin yeridilməsi hamiləliyin 5-ci və 12-ci həftəsində həyata keçirilmişdir. Bu qadınlar LİT ilə yanaşı, ənənəvi qoruyucu terapiya da almışlar.

Nəzarət qrupunu hamiləliyi normal keçən və anamnezində doğuşları vaxtında baş verən 30 qadın təşkil etmişdir.


Əldə olunan məlumatların statistik işlənməsi «Medcalc» proqramından və Microsoft Excel cədvəl redaktorundan istifadə etməklə variasion statistika metodlarının vasitəsilə həyata keçirilmişdir. Sıra göstəricilərində öyrənilən əlamətlərin tezliyinin paylanmasını müqayisə etmək üçün standart χ-kvadratı meyarından istifadə edilmişdir. Fərqlər $p<0,05$ və $p<0,001$ olduqda statistik dürüst hesab edilmişdir.

Nəticələr və onların müzakirəsi. Müayinələr aparıldıqdan sonra hamiləliyin adəti erkən pozulması olan qadınların hamısı 2 qrupa bölünmüşdür. Birinci qrupa erkən vaxtlarda hamiləliyi pozulmuş 38 (63,3%) qadın daxildir ki, onlara hamiləliyə hazırlıq dövründə həyat yoldaşının allogen limfositləri ilə LİT aparılmışdır. İkinci qrupa hamiləliyin adəti erkən pozulması qeyd edilən və cütlüklərdə HLA sisteminin antigenləri uyğun olan 22(36,7%) qadın daxildir ki, onlara limfositoimmunterapiya aparılmamışdır. Bu pasiyentlərə birinci trimestrdə ümumi qəbul edilmiş dərman terapiyası aparılmışdır ki, buraya spazmolitik vasitələr, sedativ preparatlar, vitaminlər, antiaqreqantlar daxildir.

Hamiləliyin erkən pozulması təhlükəsi müxtəlif terapiya metodları ilə müalicə olunan qadınların qrupları öz aralarında yaşa, sosial mövqeyinə, mama-ginekoloji anamnez məlumat-

larına, aşkar edilən ekstragenital patologiyanın tezliyinə görə müqayisə olunmuşlar ki, bu da aparılan müalicə tədbirlərinin effektivliyini qiymətləndirməyə imkan vermişdir.

Həyat yoldaşı ilə HLA-uyğunluq zamanı hamiləliyin adəti pozulması qeyd edilən pasiyentlərdə limfositoimmunterapiyanın aparılması alqoritmi şəkil 1-də təsvir edilmişdir.



Şək. 1. Həyat yoldaşı ilə HLA-uyğunluq zamanı hamiləliyin adəti pozulması qeyd edilən pasiyentlərdə limfositimmunterapiyanın aparılması alqoritmi

Aparılan hazırlıqdan sonra 6 ay ərzində birinci qrupdakı 38 ər-arvad cütlüyündən 29 (76,3%) qadında hamiləlik baş vermişdir. İkinci qrupda (hansı ki, LİT aparılmamışdır) 22 cütlükdən 8 (36,4%) qadında hamiləliyin erkən vaxtlarından pasiyentlərin hamısına Dyufaston (didrohesteron) 10 mq dozada gündə 2 dəfə 16 həftəyə qədər təyin edilmişdir.


Müayinə qruplarında hamiləliyin birinci trimestrində ən çox rast gələn ağırlaşma - təhlükəli düşüklərdir. Hamiləliyin gedişinin xüsusiyyətlərinin təhlili zamanı hər şeydən əvvəl diqqəti bir fakt cəlb etmişdir ki, ikinci qrupda olan LİT almayan qadınların hamısında (100,0%) birinci trimestrdə hamiləliyin pozulması təhlükəsinin inkişaf etməsi özbaşına düşüklərlə başa çatmışdır.

Birinci qrupdan olan və sxem üzrə LİT alan hamilə qadınlarda nəzarət qrupu ilə müqayisədə hamiləliyin birinci trimestrində hamiləliyin pozulması təhlükəsinin inkişaf etməsi dürüst çox rast gəlmişdir (müvafiq olaraq 100,0% və 0,0%, $p<0,001$). Hamiləliyin pozulması təhlükəsinin klinik simptomları ultrasəs müayinəsinin məlumatları ilə təsdiq edilmişdir. USM-nin məlumatlarına görə, 29 (100,0%) qadının hamısında hestasiyanın 12-ci həftəsinə qədər uşaqlığın yüksək lokal tonusu (müvafiq olaraq 100,0% və 0,0%, $p<0,001$) aşkar edilmişdir. Həmçinin 8 (nəzarət qrupunda 0,0% müqabilində 27,6%, $p<0,01$) qadında döl yumurtasının aralan- ması və 7 hamilə qadında (nəzarət qrupunda 3,3% müqabilində 24,1%, $p<0,05$) aşağı plasen- tasiya şəklində döl yumurtasının implan- tasiyasının anomaliyası qeyd olunmuşdur (şəkil 2).

Kompleks dərman müalicəsinin və LİT fonunda müayinə olunan qadınların hamısında hamiləliyin müddətini uzatmaq mümkün olmuşdur. Ultrasəs dopplerometrik müayinənin məlumatlarına görə, uşaqlıq-cift və döl-cift qan cərəyanının dəyişiklikləri hestasiyanın 22-24-cü həftəsində 4(13,8%) qadında aşkar edilmiş və I dərəcəyə uyğun olmuşdur. Hestasiyanın 30-32-ci həftəsində hemodinamikanın həm I dərəcəli - 3 (10,3%), həm də II-III dərəcəli- 2(6,8%) aşkar edilmişdir. Hamilə qadınların nəzarət qrupunda hemodinamik dəyişikliklər müşahidə edilmə- mişdir. Bununla bərabər, USM məlumatları onu təsdiq edir ki, hamilə qadınlarda LİT istifadə etməklə aparılan kompleks müalicədən sonra cift çatışmazlığının dolayı əlamətləri az aşkar edilmişdir.

Birinci qrupdakı qadınlarda hazırkı hamiləliyin nəticələrinin təhlili zamanı vaxtından

əvvəl baş verən doğuşlar bir hadisədə hamiləliyin 36-37-ci həftəsində müşahidə edilmişdir. Bu halda doğuşun vaxtındanəvvəl aparılması üçün göstəriş dölün bətndaxili hipoksiyasının inkişaf etməsi olmuşdur. Kompleks müalicənin tərkibində LİT alan birinci qrupdakı qadınlarda hazırkı hamiləliyin nəticələri vaxtında baş verən doğuşların tezliyinin dürüst azalması (nəzarət qrupunda 100,0% müqabilində 82,7%, p<0,01) və erkən vaxtlarda adəti özbaşına düşüklərin tezliyinin yüksəlməsi (nəzarət qrupunda 0,0% müqabilində 13,8%, p<0,01) ilə fərqlənmişdir. Yalnız dərman müalicəsi alan ikinci qrupdakı qadınların hamısında hamiləliyin erkən adəti düşüklərlə nəticələnməsi (nəzarət qrupunda 0,0% müqabilində 100,0%, p<0,001) qeydə alınmışdır. LİT-dən sonra qadınlarda hazırkı hamiləliyin nəticələri müqayisə qrupundakı qadınlardan vaxtında baş verən doğuşların sayının dürüst artması (müvafiq olaraq 82,7% və 0,0%, p<0,001) və hamiləliyin erkən vaxtlarında özbaşına düşüklərin sayının azalması (müvafiq olaraq 13,8% və 100,0%, p<0,001) ilə fərqlənmişdir. Birinci qrupdakı LİT alan qadınlarda cəmi 82,7% hadisədə vaxtında baş verən doğuşlar, 3,4% hadisədə vaxtından əvvəl baş verən doğuşlar və 13,8% hadisədə- erkən özbaşına düşüklər qeydə alınmışdır.



* - p<0,05; **p<0,01; ***p<0,001 nəzarət qrupuna nisbətən

Şək 2. Hamiləliyin birinci trimestrində müayinə olunan qadınlarda USM-nin göstəriciləri

Hamiləliyin pozulması təhlükəsi olan qadınlarda təbii doğuş yollarından baş verən doğuşların tezliyi nəzarət qrupu ilə müqayisə edilə bilər (müvafiq olaraq 76,0% və 86,7%, p>0,05). Həmçinin Qeysəriyyə kəsiyi vasitəsilə aparılan operativ doğuşların sayında dürüst fərqlər müşahidə olunmamışdır (nəzarət qrupunda 13,3% müqabilində 24,0%, p>0,05). Qeyd etmək lazımdır ki, çox vaxt dölün kəskin hipoksiyası vaxtındanəvvəl operativ doğuşların aparılmasına göstəriş olmuşdur. Təbii doğuş yolları vasitəsilə baş verən özbaşına doğuşlar hamiləliyin 38-40-cı həftəsinə təsadüf etmişdir.

Doğuş prosesinin ən çox rast gələn ağırlaşması dölyanı suların vaxtındanəvvəl axması olmuşdur ki, o da müşahidə qrupunda 8(32,0%) zahı qadında və nəzarət qrupunda 2 (6,7%) zahı qadında nəzərə çarpmışdır (p<0,01). Daha sonra tezliyinə görə doğuş fəaliyyətinin anomaliyaları- müşahidə qrupunda 7 (28,0%) qadında və nəzarət qrupunda 2(6,7%) qadında nəzərə çarpmışdır (p<0,001). Sonun aralanmasının ləngiməsi müşahidə qrupunda 2(8,0%) zahı qadında rast gəlmişdir və nəzarət qrupundakı qadınlarda qeyd olunmamışdır (p<0,05).

- xaric olunan ödün sekresiya sürəti və ümumi miqdarının ölçülməsi;

-ödün əsas tərkibinin, o cümlədən, bilirubin, öd turşuları və xolesterin miqdarının təyin edilməsi.

2.Qan zərdabında qaraciyərin funksional sisteminin fəaliyyətini əks etdirən fermentlərin, o cümlədən, Aspartat aminotransferazanın (AST), və aspartat alanin transferazanın (ALT), Qlütamin transferazanın (γ-GTP) qələvi fosfatazanın qatılığının müəyyən edilməsi; Qan zərdabında xolesterin, triqliseridlər, aşağı sıxlıqlı lipoproteidlərin, çox aşağı sıxlıqlı lipo- proteidlərin və yuxarı sıxlıqlı lipoproteidlərin miqdarı, C-reaktivli zülalın qatılığının təyin edilməsi;

3.Qan zərdabında lipid peroksidləşmə intensivliyinin təyini;

Dien konyuqantlarının və malon dihaldehidin qatılığının təyini.

4. Qaraciyər və öd yolları strukturunda baş vermiş dəyişikliklərin öyrənilməsi.

Oksidləşmə stressinin ifadəliliyi qanda və qaraciyər toxumasında dien konyuqantlarının (DK) və malon dialdehidinin (MDA) konsentrasiyasına əsasən tiobarbitur turşusunun məhsullarının rənglənməsinə görə fotokalorimetrik metodla təyin edilmişdir.

Qanda adları göstərilən biokimyəvi markerlər Bioskrem markalı analizatorunda Stat Fax, chem.-well (Almaniya istehsalı) olan reaktiv dəstlərindən istifadə etməklə təyin edilmişdir.

Oksidativ stress göstəriciləri olan diyen konyuqantları İ.D. Stalnaya metodu [3] və malon dealdehidi isə Uchiyama M., Michara M. metodu ilə [10] təyin edilmişdir.

Eksperimentlərin gedişində alınan kəmiyyət göstəriciləri statistik analizi Fişer-Stüdentin "t" əmsalına əsasən parametrik metodla və U (Vilkokson-Mann-Uitniyə görə) və "Q" (Rozenbauma görə) kriteriyalarına əsasən qeyri-parametrik metodla aparılmışdır [4].

Bütün heyvanlar qruplarından asılı olmayaraq, eyni qulluq və qida rejimi şəraitində saxlanılmışdır.

Heyvanlar üzərində bütün eksperimentlər 1986-cı il, "Eksperimental və digər elmi məqsədlər üçün istifadə edilən onurğalı heyvanların müdafiəsi üzrə Avropa konvensiyası"na (Strasburq, 18 mart 1986-cı il) uyğun olaraq keçirilmişdir.

İşin gedişi və alınmış nəticələr:

1. Dərman hepatitinin tetratsiklin modeli.

Model 15 baş ağ siçovul üzərində yaradı-l mişdır. Təcrübə heyvanların 12-də və ya 80%-də eksperimental hepatitə məxsus əlamətlər qeydə alınmışdır. Onlardan götürülmüş qan zərdabında ümumi bilirubinin miqdarı və ALT, AST, GTP qatılığı kəskin sürətdə artmış, xolesterin, triqliseridlər, aşağı sıxlıqlı lipoproteidlərin, çox aşağı sıxlıqlı lipoproteidlərin və yuxarı sıxlıqlı lipoproteidlərin miqdarı patoloji istiqamətdə dəyişikliyə uğramışdır. İntakt vəziyyətlə müqayisədə qələvi fosfatazanın fəallığı 80% azalmış, C-reaktivli zülalın qatılığı 56% artmışdır.

Lipid peroksidləşmə məhsullarının qatılığının təyini göstərmişdir ki, dien konyuqantları 568%, malon dihaldehidiisə 496% artmışdır.Beləliklə, modelin yaradılması metabolik pozulmalarasəbəb olmuşdur. Bu ümumi zülalın miqdarının azalması, orta molekullu peptidlər miqdarının yüksəlməsi, dislipidemiya və sərbəst yağ turşularının qanda artması ilə özünü büruzə vermişdir.

Qaraciyərdən götürülmüş tikələrdən hazırlanmış mikropreparatların mikroskopiyası zamanı portal traktda spesifik dəyişikliklər qeydə alınmışdır (Şəkil 1A). Hüceyrəarası sahələr geniş-lənmiş, hepositlərin membranın zədələnməsi diqqəti cəlb etmişdir. Qaraciyər stromasında aydın görünən limfohistositar infiltrasiya (Şəkil 1B), və bununla yanaşı qeydə alınan digər əlamətlər, o cümlədən, qaraciyərin paylarında mərkəzilobulyar nekrozlaşma, Kupfer hüceyrələrinin perevaskulyar hiperplaziya və hipertrofiyası, ulduz endoteliositlərin proliferasiyası, sinusoid kapillarların genişlənməsi, portal traktların limfositar infiltrasiya və sklerozlaşması, ikinüvəli və çoxnüvəli hepositlərin müşahidə olunması (Şəkil 1C) yaradılmış modelin hepatitə uyğun olmasını göstərir.


Beləliklə, apardığımız tədqiqatlar belə bir qənaətə gəlməyə imkan verir ki, ağ siçovulların mədəsinə tetraskilinin yeridilməsi hepatitin inkişafına səbəb olur və bu modeldə dərman hepatiti üçün xarakterik əlamətlər meydana çıxarır.

3-cü qrupa daxil olan təcrübə heyvanlarından 6-sı və ya 30%-i müxtəlif səbəblərdən ölmüşdür. Sağ qalan 14 baş siçovulun üzərində aparılan təcrübələrin nəticəsində aşağıdakılar müəyyən edilmişdir.


İlk öncə xaric olunan ödün sekresiya sürəti ilə miqdarının intakt vəziyyətlə müqayisədə azalması diqqəti cəlb etmişdir. Belə ki, xaric olunan ödün sekresiya sürəti 45% və ümumi miqdarı 80% azalmışdır. Ödün əsas tərkibində də hepatit üçün xarakterik olan əlamətlər müşahidə edilmişdir. Ödün əsas tərkibi hissəsi olan bilirubin miqdarı 50% artmış, öd turşuları və xolesterinin miqdarı isə müvafiq olaraq 42% və 18% azalmışdır. Qan zərdabında aparılan müayinələrdə də xarakterik nəticələr alınmışdır. ALT, AST, GTP miqdarı müvafiq olaq 22%,18% və 9% artmışdır. Xolesterin, triqlise- ridlər, aşağı sıxlıqlı lipoproteidlərin, çox aşağı sıxlıqlı lipoproteidlərin miqdarı müvafiq olaraq 5%, 62%, 10%, 12,5% artmış, yuxarı sıxlıqlı lipoproteidlərin miqdarıisə 29% azalmışdır.

Qələvi fosfatazanın fəallığı 67% artmışdır. İltihabın əsas göstəricisi olan C-reaktivli zülalın qatılığında olan artım 52 %-ə çatmışdır.

Oksidativ stres intensivləşmişdir. Onun markeri olan dien konyuqantlarının qatılığı 450%, malon dihaldehidin qatılığı isə 478% artmışdır. Hüceyrə metabolizminin əsas göstəricilərindən olan ümumi zülalın miqdarı 68% azalmış, orta molekullu peptidlərin qaıtılığı 89%yüksəlmişdir. Eləcə də metabolizmin digər göstəricilərindən olan ümumilipidlərin miqdarı ilə sərbəst yağ turşularının miqdarında da patoloji istiqamətə yönəlmiş dəyişikliklər izlənmişdir. İntakt vəziyyətlə müqayisədə ümumi lipidlərin miqdarı 2,5% azalmış, sərbəst yağ turşularının miqdarı isə 178% artmışdır.



Şək. 1. Tetratsiklin modeli fonunda qaraciyərin mikroskopik mənzərəsi. Boyaq: Hematoksilin və eozin. Böyütmə 200; ob.x20.



Şəkil 2. *4-xlor karbon*modeli fonunda ağ siçovul qaraciyərin mikroskopik mənzərəsi Boyaq: Hematoksilin və eozin. Böyütmə:200; ob.x20

Histoloji müayinələrin nəticəsində qaraciyərdə sinusoid kapillarların və Disse məsafələrinin genişlənmiş, hepasitlərin diskomplekasiyası və piyli distrofiyası, qaraciyər stromasının mülayim dərəcəli limfohistositar infiltrasiyası aşkar edilmişdir. Bəzi görmə sahələrində isə nekroza uğramış hepatositlər müşahidə olunur (Şək. 2).

Qeyd olunan əlamətlər bütövlükdə xroniki toksiki hepatobiliar pozuntuların adekvat modelin yaranmasını sübuta yetirir.

3.Peritoneal mayenin qaraciyərə yeridilməsindən qələvi fosfataza, alanin - və aspartattransaminaza, amilaza, γ-глютамин transferazanın qatılığında elə bir ciddi dəyişiklik baş verməmişdir. Lakin, təcrübənin 15-ci günündə intakt vəziyyətlə müqayisədə qələvi fosfotazanın fəallığı 338%, alanintransaminazanın və aspartattransaminazanın fəallığı isə müvafiq olaraq 238% və 233% artmışdır. Amilazanın fəallığının artımı 99%, γ- qlyutamintransferazanın fəallığı

artımı 112% təşkil etmişdir.

Beləliklə, yüksək toksiki xüsusiyyətə malik peritoneal ekssudatın qaraciyərə yeridilməsi nəticəsində öd yollarının kəskin iltihabına (kəskin xolesistitə) uyğun dinamikaya malik model yaradılmışdır.

Apardığımız tədqiqatlar nəticəsində hepatobilliar sisteminin müxtəlif mənşəli xəstəliklərinin adekvat modeli seçilmişdir. Bu modellər əsasında biz Azərbaycan florasına aid olan dərman bitkilərindən hazırlanmış yeni qalen preparat larının hepatobilyar sistemin xəstəliklərinin müalicəsində təsirini öyrənməyi planlaşdırırıq.

Bu iş Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir-**Qrant №EIF/MQM-/Universitet-2014-5(20)-11/09/3**

ƏDƏBİYYAT

1. Гараев Г.Ш., Фараджов В.Ф., Гараева С.Г. О создания модели острого холецистита / Матер. XII Международной научно-практической конференции "Европейская наука и технологии". Мюнхен, 2015, с.209-210

2. Денисова Т.П., Шульдяков В.А., Тюльтяева Л.А., и др. Мониторинг распространенности заболеваний внутренних органов на примере патологии пищеварительной системы // Саратовский научно-медицинский журнал, 2011, № 4, с. 772-776.

3. Стальная И.Д. Метод определения диеновой конъюгации ненасыщенных жирных кислот// Современные методы в биохимии. М.: Медцина,1997, с.63-64.

4. Статистические методы исследования в медицине и здравоохранении / под редакцией проф. Л.Е.Полякова. Ленингрнд, Медицина, 1971, 199 с.

5. Звягинцева Т.Д. Хронические заболевания печени и оксидативный стресс // Здоров, яУкраіны, 2015, №7, с 42-43

6. Полунина Т.Е., Маев И.В.Лекарственные поражения печени // Гастроэнтерология № 2, 2011, с.54 (приложение к consilium medicum)

7. Ajay B., Kahrilas P.J. Treatment of GERD complications (Barrett's, peptic stricture) and extra-oesophageal syndromes // Best Practice & Research in Clinical Gastroenter., 2010, v.24, №.6, p. 961-968

8. Kranz J., Hessel S,, Aretz J., et all. The role of the efflux carriers Abcg2 and Abcc2 for the hepatobiliary elimination of benzo[a]pyrene and its metabolites in mice // iginal Research Article. Chemico-Biological Interactions, 2014, v.224, p.36-41

9. Samarasena J.B., Ke-Qin Hu Hepatobiliary Manifestations of Gastrointestinal and Nutritional Disorders.Review Article // Clinics in Liver Disease, 2011, v.15, Issue1, p.89-110

10.Uchiyama M., Michara M. Determination of malonaldehyd Cursor in tissues bu Thiobarbiturie acid test // Biochem,1978, N1, p.271-278

Резюме

Характеристика экспериментальных моделей патологий гепатобиллиарной системы

Г.Ш.Гараев, Р.Э.Джафарова, Р.А.Ахундов, Т.А.Эйвазов, В.Ф. Фараджли, Ш.Г. Гасымов

Скачкообразный рост патологий гепатобиллиарной системы в связи с ухудшением экологической обстановки, повышением применения гепатотоксичных препаратов, в том числе антибиотиков, инфекционные болезни печени и желчевыводящих путей вирусной или бактериальной этиологии требует разработки новых эффективных методов лечения и создания более действенных лекарственных препаратов. Но любые научные изыскания невозможны без серьезных экспериментальных исследований на адекватных экспериментальных моделях. В данной работы приведены сведения о создании 4 моделей патологий гепатобиллиарной системы (лекарственная -тетрациклиновая модель, токсическая – 4-хлор-углеродная модель, 2 модели-инфекционной патологии путем введения бактериально инфицированной перитонеальной жидкости), созданных с учетом этиопатологических факторов развития болезни. Оценка функционального состояния печени, а также биохимические и микроскопические исследования доказали развитие у экспериментальных животных адекватных моделей патологий гепатобиллиарной системы.

Данная работа выполнена при финансовой поддержке Фонда Развития Науки при Президенте Азербайджанской Республики- **Грант№EIF/MQM/Universitet-2014-5(20)-11/09/3**

Summary

Characteristics of experimental models of pathologies of the hepatobiliary system

G.Sh.Garaev, R.E.Dzhafarova, , R.A.Ahundov, T.A.Eyvazov, V.F. Farajli, Sh.H. Qasımov.

The abrupt increase in pathologies of the hepatobiliary system due to environmental degradation, increasing the use of hepatotoxic drugs, including antibiotics, infectious disease of the liver and biliary tract viral or bacterial etiology requires the development of new and effective methods of treatment and the creation of more effective drugs. But any scientific research is impossible without serious experimental studies on appropriate animal models. This work provides information about creating 4 models of pathologies gepatobilliarnoy system (drug -tetratsiklinovaya model, toxic - 4-chloro-carbon model, infectious model by introducing bacterially infected peritoneal fluid), created by taking into account etiopatologicheskih factors for the disease. Evaluation of the functional state of the liver, as well as biochemical and microscopic studies have shown development in experimental animal models of pathologies gepatobilliarnoy adequate system.

This work was supported by the Science Development Foundation under the President of the Republic of Azerbaijan- **Grant №EIF/MQM/Universitet-2014-5(20)-11/09/3**

Daxil olub:03.12.2015

OBSTRUKTİV DEFEKASİYA SİNDROMUNDA DEFEKOQRAFİYANIN ROLU

S.S. İmanova, * A.K. Safiyeva, M.R. Hüseynova, B.M Zeynalov

Azərbaycan Tibb Universiteti, I-cərrahi xəstəliklər kafedrası; Mərkəzi Gömrük Hospitalı. Bakı

Açar sözlər: obstruktiv defekasiya, defekoqrafiya
Ключевые слова: обструктивная дефекация, дефекография
Keywords: obstructive defecation defekografiya

Xroniki qəbizlik son illərdə cərrahiyyə və qastroenterologiyanın ən aktual problemlərdən biri olaraq qalmaqdadır. Dünya əhalisinin 2%-27% bu problemdən əziyyət çəkir. Dunya Səhiyyə Təşkilatı hər il milyon dollarların təkcə işlədici preparatların istifadəsinə xərcləndiyini etiraf edir. Xroniki qəbizlik təkcə fiziki deyil, həm də psixoloji problemlər yaradaraq insanların normal həyat fəaliyyətini pozur. Əsasən əhalinin yaşlı nəsli, qadınlar,oturaq həyat tərzi keçirən şəxslər bu problemdən əziyyət çəkir. Qəbizlik defekasiya pozulmasının ən çox rast gəlinən forması olaraq bir neçə faktordan asılı dəyişə bilər: pəhriz, fizioloji, kultural, anatomik və funksional, neyroloji aspektlərdən.

Qəbizlik bir neçə təsnifatla skorlanır. 2006-cı ildə Roma kriteriyaları yenilənərək, bəzi əlavələr edildi və Roma III kriteriyası adında təsdiqləndi. Roma III kriteriyalarına əsasən xroniki qəbizlik bu şəkildə dəyərləndirlir: həftdə İki və daha az defekasiya, ən azı həftədə bir dəfə fekal inkontinans tablosu, nəcis ləngiməsi əlamətləri, nəcis formasının həddən artıq böyük olması, ağrılı bağırsaq hərəkətləri, əlamətlərin ən azı həftədə bir dəfə olması, laxativlərin istifadəsi olmadan nəcisin yumşaq, duru şəklində olması, qıcıqlanmış bağırsaq sindromu olan xəstələrin ən azı son üç ayda şikayətlərin olması ilə xarakterizə olunan əlamətlər .

Qəbizlik etioloji faktoruna görə kolon və ekstrakolonik olaraq siniflənir. Əmələ gəlmə səbəbinə görə kəskin və xroniki olaraq təsnif olunur. Xroniki qəbizliyi bir neçə təsnifatla dəyərləndirmək olar: 1.Xəstəliyə bağlı qəbizlik. 2.Dərmana bağlı qəbizlik. 3.Funksional pozulmalara bağlı qəbizlik. 4.Qəbizlik əlamətləri ilə müşayət olunan Qıcıqlanmış bağırsaq sindromu.

Qəbizliyin bağırsaqdan kənar səbəbləri bu şəkildə təsnifat olunur:

1. Endokrin və metobolik faktorlar.
2. Nevroloji faktorlar(serebral,spinal,perifer).
3.Dərmandan asılı olan qəbizlik.
4. Miopatiya.

Qəbizlik kolon tranzit zamanına və obstruktiv defekasiya sindromuna baglı olaraq təsnifat olunur: kolonun ətaləti, obstruktiv defekasiya sindromu və funksional qəbizlik. Cərrahiyyədə ləng gedişli qəbizlik və obstruktiv defekasiya sindromu olan xəstələrin diaqnostikası və cərrahi müalicəsi aktual problem sayılır.

Obstruktiv defekasiya sindromu defekasiya disfunksiyası və qəbizlik əlamətləri ilə müşayət olunur. Daha çox qadın xəstələrdə rast gəlinir. Obstruktiv defekasiya sindromu özündə çanaq

dissinerjisi, rektosele, rektal invaginasiya, enterosele, çanaq orqanlarının prolapsını cəmləyir. Bütün bunlar ya çanağın bağ aparatınn defekti və ya çanaq dibinin əzələ aparatının abnormal funksiyası zamanı rast gəlinir. Sadalanan defektlərin etiologiyası müxtəlif olsa da daha çox innervasiya pozulması və normal doguş zamanı çanağın yumşaq toxumalarının zədələnməsi ilə izah olunur. Bəzən birbaşa travmalar da endopelvik fassiyanın və çanağın bağ aparatının defektini yarada bilər. Obstruktiv defekasiya zamanı xəstələrin tipik şikayətləri defekasiya disfunksiyası və qəbizlik olur, rektumun tam boşalmaması, natamam evakuasiya.

Obstruktiv defekasiya insanların həyat ritminə təsir edən problemdir. Adətən çanaq bağ aparatının və funksiyalarının pozulması ilə müşayət olunur və müalicə bütün şikayətlərin aradan qalxmasına yardımçı olmur. Bu baxımdan obsruktiv defekasiya sindromu olan xəstələrin obyektiv dəyərləndirlməsi, dogru müayinə metodlarının seçilməsı müalicədən sonrakı dövrdə xəstələrin normal həyat tərzinə dönməsinə səbəb olur. Obstruktiv defekasiya sindromunun dogru dəyərləndirilməsi müalicə effektivliyinin qarantıdır.

Obstruktiv defekasiya sindromu bir neçə təsnifatla skorlanır, ən sadə təsnifat növü: artıq gücənmə, natamam rektal evakuasiya, imalə və laksativlərin istifadəsi, vaginal-anal-perineal barmaq müyinəsi, qarın ağrıları və diskomfort hissi. Hər bir şikayət 0-5 balla dəyərləndirlir. Maksimum bal 20-dir. Obstuktiv defekasiya sindromu olan xəstələr əsasən konservativ müalicə olunur, əsasən liflə zəngin qidalar, laksativlər, rektal irriqasiya, biofeedback, transanal elektrostimulyasiya, yoga və psixoterapiya, patologiyanın 20% isə cərrahi əməliyyatla müalicə olunur. Ədəbiyyatda bəzi müəlliflər ODS-ni "iceberg sindromu" adalandırırlar, cərrahi əməliyyatla müalicə olunanlar "icebergin" "sualtı qayalar"ıdır. Bunlara rektosele, rektal internal mukozal prolapsdır.

Obstruktiv defekasiya sindromu olan xəstələrın diaqnostik müayinəsində defekoqrafiya (proktoqrafiya) vacib müayinə metodlarından biridir. Defekoqrafiya anorektal bölgə və çanaq dibi xəstəliklərin anatomik, morfoloji və funksional dəyərləndirilməsində istifadə olunan ən sadə və dəqiq radioloji müayinə metodu hesab olunur. Defekoqrafiya minimal invaziv, aparılması rahat və sadədir. İsitrahət zamanı anal kanal bağlı, rektumun isə normal dik konfiqurasiyada olması ehtimal olunur. Çanaq dibi isə əsasən pubokoksigial xətdə(simfizin aşağı kənarının sakrokoksigial oynagla birləşdirən xətt) uyğun şəkildə yerləşir. Perineal çokmə bu xətlə anorektal oynağa qədər məsafəyə görə ölçülür və istirahət zamanı 1.8 cm qədər ola bilər. Bəzən çanaq dibinin evakuasiya zamanı aşağı enməsi normal hesab edilərək, bu ölçünün 3 cm qədər olması qəbul ediləndir. Anorektal bucaq isə rektumun boylama oxuna paralel olaraq arxa rektum xətti ilə anal kanalın boylama oxu arasında ölçülən bucaqdır. Istirahət anında 90-100°, puborektal uzunluq isə anorektal bucaqla simfiz pubis arasındakı məsafəyə görə ölçülür. Bosalma fazasında defekoqrafiya bizə rektumun strukturu və funksiyası barədə vacib informasiya verir. Normal defekoqrafiyada biz anorektal bucağın artmasını, puborektal obliterasiyanın təsirini, anal kanalın geniş açılmasını, düz bağırsaq möhtəviyyatının boşalmasını izləyirik. Boşalma tam bitdikdən sonra anal kanal bağlanmalı, anorektal bucaq bərpa olunmalıdır. Defekoqrafiya ilk dəfə olaraq 1952-ci ildə Wallden tərəfindən təsvir olunmuş, lakin kliniki praktikada geniş isitfadəsi 1980-cı ildən başlamışdır. Xəstənin düz bağırsağına 180-200 ml nişastalı barium yeridərək istirahət sırasında, sfinkterlərin sixilması, boşalması və evakuasiya zamanının dinamiki görüntüləri çəkilir. Müayinə 10-15dəq çəkir. Bu qısa zaman sigmoidasel,enterosel, rektosel, rektal prolaps kimi diaqnzoların qoyulmasına yardımçı olur. Bu isə öz növbəsində dogru müalicəyə isitqamət verir.

Defekoqrafik müayinə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahi klinikasinda və Mərkəzi Gömrük Hospitalında 2013-cü ildən aparılır. Defekoqrafiya müayinəsi qəbizlik, natamam defekasiya hissi və ağrılı defekasiyası olan, qarında ağrı, dolgunluq şikayətləri ilə müraciət edən xəstələrə tətbiq edilmişdir. Tədqiqat işinə 2013-2016-cı illərdə qəbizlik, natamam və ağrılı defekasiya şikayətləri ilə müraciət edən 175 xəstə aiddir. Xəstələrin 11 kişi, 164-i qadındır. Yaş qrupu 20-71 arasıdır.

Xəstələrdən müayinədən öncə tam anamnez alınır. Xəstənin yaşı, cinsiyyəti, əməliyyat olub olmadığı, qadındırsa hamiləlik və dogumu,yanaşı gedən xəstəlikləri, zərərli vərdişləri haqda tam informasiya toplanılır. Ardından xəstələrə digital müayinə, qadındırsa həm də vaginal müayinə aparılır. Digital müayinədə önəmli məlumat almaq mümkündü(anal çat, fistul, trombozə hemorroy, rektal prolaps). Daha sonra qarın müayinəsində qarında kütlə və ya törəmənin olub olmaması müəyyən olunur. Xəstəyə müayinədən 3 saat öncə imalə edilir. Düz bağırsağın tam boşalmış olması müayinənin dəqiq aparılmasına yardımçı olur. Sonra xəstəyə müayinənin ardıcıllığı izah olunur. Müayinə adətən Rentgen ota-

gında aparılır. Xəstə sol lateral vəziyyətdə uzanaraq düz bağırsağına 180-200 ml nişastalı bairum yeridilir. Xəstə tam dolğunluq hiss etdikdə xəstəni defekoqrafiya stuluna (şək. 1) oturdub müayinəyə başlanalır. Bu ardıcılıqla görüntülər alınır.

1.istirahət zamanı görüntülər
2.anal sfikterlər və çanaq əzələlərinin tam yıgılması zamanı
3.gücənmə sırasında
4.evakusaiya zamanı
5.evakusaisyadan sonrakı zamanı

Dəyərləndirlmə aşagıdakı parametrlərə görə aparılır:


1.Anorektal bucaq-rektumun boylama oxuna paralel olaraq arxa rektum xətti ilə anal kanalın boylama oxu arasında olan ölçülən bucaqdır. Istirahət anında 90-100°,

2.Anorektal keçidin pozisiyası- anal kanlın ən üstəki nöqtəsidir. Anorektal keçid oturaq sümüyü qabarıqlığını birləşdirən xəyali xətt üzərində və ya altında olması ilə izah olunur.

3.Anal kanalın uzunluğu-eksternal anal orifislə anal kanal düz irəliləyib distal rektuma qədər uzandığı məsafədir. Anal kanalın istirahətdəki ortalama uzunluğu qadınlarda 16 mm, kişilərdə 22 mm-dir (şək. 2).



Şək. 1. Defekoqrafiya müayinəsi üçün stul



Şək.2. Defekoqrafiya müayinəsinin aparılmasının ardıcıllığı

Defekoqrafiya müayinəsi sırasında xəstələrdə aşagıdakı patologiyalar qeydə alınmışdır: Enterosele- 9(5,2%) xəstə, Sigmoidosele-5(2,9%) xəstə, Anal stenoz-10(5,7%) xəstə, Normal-11(6,4%) xəstə, Megarektum-13(7,4%) xəstə, Rektal prolaps-11(5,7%) xəstə (tam rektal

prolaps, hissəvi rektal prolaps), çanaq dibi dissinerjisi- 17(9,7%) xəstə, anal inkontinans-6(3,4%) xəstə, anal kanal deformasiyası-4(2,4%) xəstə, sigmoidosele +megarektum- 17(9,7%) xəstə, sigmiodosele+rektal prolaps- 9(5,3%) xəstə, rektosele I dərəcə- 13(7,4%) xəstə, rektosele II dərəcə-15(8,6%) xəstə, rektosele III dərəcə-16(9,2%) xəstə, rektosele IV dərəcə-19 !0,9%)xəstə.

Rekotsele olan xəstələrə rektoselin ləğvi əməliyyatı, rektal prolapsı olan xəstələrə rektopeksiya əməliyyatı, çanaq dibi dissenerjisi olan xəstəyə perkutan tibial sinir stimulaysiyası proseduru aparılmış, sigmoidsele olan xəstəyə isə -S-varı bağırsağın rezeksiyası əməliyyatı aparılmışdır.

Nəticə olaraq qeyd etmək lazımdır ki, qəbzilik şikayətləri ilə müraciət edən xəstələrin dogru diaqnostikasında defekoqrafiya icra edilən ən sadə, minimal invaziv və tam yararlı müayinə metodu hesab olunur. Müayinə texniki olaraq asan yerinə yetirlir və çanaq dibi patalogiyalarında effektiv metod olaraq dəyərləndirilir. Dogru diaqnostika isə düzgün müalicənin başlangıcıdır.

ƏDƏBİYYAT

1.Zhang S.C., Wang W.L., Su P.J. et al. Decreased enteric fatty acid amide hydrolase activity is associated with colonic inertia in slow transit constipation // J Gastro. Hepatol., 2014, v.29, p.276-283.

2.Bozkurt M.A., Kalaycı M.U., Gemici E., Dilege E. Alış H. Is colonic transit-time measurement valuable in the etiological evaluation of constipation? // Ulusal Cer Derg., 2012, v.28, p.31-33.

3.Hedrick T.L., Friel C.M. Constipation and pelvic outlet obstruction // Gastroenterol CliNorth-Am., 2013, v.42, p.863-876

4.Bozkurt M.A., Sürek A., Gönenc M. et al.. Significance of defecography and the role of rectocele in constipated patients // Open Journal of Gastroenterology, 2012, v.2, p.40-44.

5.McNevin M.S. Overview of pelvic floor disorders // Surg Clin N Am., 2010, v.90, p.195-205

6.Hedrick T.L., Friel C.M. Constipation and pelvic outlet obstruction // Gastroenterol Clin-NAm., 2013, v.42, p.863-876

7.Benezech A., Bouvier M., Grimaud J.C. et al. Three-dimensional high-resolution anorectal manometry and diagnosis of excessive perineal descent: a comparative pilot study with defaecography // Colorectal Dis., 2014, v.16, p.170-175.

8.Ömer Alabaz, Pelvik Taban Hastalıkları, Anorektal Bölgənin Selim Hastalıkları 167-187, Türk Kolon Və Rektum Cə rrahisi Derneği-2011.

9. David E., Beck and Nechol L. Rectocele // Clin Colon Rectal Surg., 2010, v.23, p.90-98.

10. Mellgren A., Bremmer S., Johansson C. et al. Defecography. Results of investigations in 2816 patients // Dis Colon Rectum, 1994, v.37, p.1133-1141

11. Taylor SA. Defecographic study of rectal evacuation in constipated patients. In: Santoro GA, Di Falco G. Benign anorectal diseases: diagnosis with endoanal and endorectal ultrasound and new treatment options. Milan: Springer, 2006, p.231-241

Резюме

Роль дефекографии в обструктивном дефекационном синдроме

С.С. Иманова, А.К. Сафиева, М.Р. Гусейнова, Б.М.Зейналов

Хронический запор является общей проблемой в хирургии и гастроэнтерологии. Распространенность хронического запора находится в диапазоне от 2% до 27%. Хронический запор можно подразделить на три группы: медленно-транзиторный запор, синдром затрудненной дефекации и функциональный запор. Симптомами запора являются неполное опорожнение, испражнения менее двух раз в неделю и неспособность дефекации. Дефекография играет важную роль в диагностике пациентов с синдромом затрудненной дефекации. Как правило, дефекография выполняется у пациентов с давним запором, необъяснимыми болями в области ануса и прямой кишки, ректоцеле, остаточными ощущениями после дефекации и у пациентов с подозрениями пролапса. Дефекография оценивает реальное физиологическое время прохождения бария через прямую кишку и анальный канал. Исследование включает 175 пациентов (164 женщин и 11 мужчин), которые наблюдались в Центральном Госпитале Таможенного комитета в отделении общей хирургии с 2013 до 2016 года. У 175 пациентов имелась патология, состояние 11 пациентов оценивалось как нормальное. Дефекография рекомендуется в качестве полезного диагностического способа точной диагностики синдрома затрудненной дефекации.

Summary

Role of defecorgrahy in obstructiv defecation syndrome

S.S.İmanova, A.K. Safiyeva, M.R.Huseynova, B.M.Zeynalov

Chronic constipation is a common problem in surgery and gastroenterology. The prevalence of chronic constipation ranges from 2% to 27%. Chronic constipation can be subclassified into three group: slow transit constipation, obstructed defecation syndrome and functional constipation. Symptoms of constipation include less than two bowel movements un a week, incomplete evacuation and inability to pass stool. Defecography plays an important role in diagnosis of patients with ODS. As a rule, defecography is performed in patients with longstanding constipation, unexplained anal and rectal pain, and rectocele, residual sensation after defecation or suspected prolapse. Defecography evaluates physiologic real time of barium passage through rectum and anal canal. Survey includes 175 Patients (female 164 and male 11) who presented to the Department of surgical diseases-I AzMedUniversitet and Central Customs Hospital general surgery outpatient clinic from 2013 till 2016. Among them 175 patients observed to have pathology while 11 patients evaluated as normal. Defecography is recommended as a beneficial diagnostic tool for accurate diagnosis of ODS.

Daxil olub:26 11.2015

QEYRİ-TOKSİK DÜYÜNLÜ URUN LAZER İNDUKSİYAEDİCİ TERMOTERAPİYA METODU İLƏ MÜALİCƏSİ

A.M. Əliyev, M.M.Məmmədov

M.A.Topçubaşov adına Elmi Cərrahiyə Mərkəzi, Bakı

Açar sözlər: qeyri-tokisik ur, lazer induksiyaedici termoterapiya, müalicə

Ключевые слова: не токсичный зоб, лазер индуцированная термотерапия, лечение

Keywords: non-toxic goiter induced thermotherapy laser treatment

Qeyri- toksik ur tireoid patologiya strukturunda birinci yerlərdən birini tutur, son illər isə bu xəstəlikdən əziyyət çəkən xəstələrin sayı artaraq endemik xarakter alır. Bu kütləvi yod profilaktikasının aparılmaması, ətraf mühitin çirklənməsi, eləcə də ultrasəs müayinə metodikasının skrininq- metod kimi geniş yayılması ilə bağlıdır. Müasir elmin uğurlarına baxmayaraq hazırda sözügedən patologiyanın öyrənilməsində elə bir müalicə metodu ilə təqdiqatlar aparılmamışdır ki, onlar xəstəliyi effektiv müalicə etməyə və ya onu tam aradan qaldırmağa imkan versin. Tireoid hormonlarla konservativ müalicəyə yalnız hiperterioz olan xəstələrdə göstəriş vardır, baxmayaraq ki, əvəzedici terapiya zamanı düyünün həcminin azalması yalnız 10-20% xəstələrdə stabil olarq qalır. Supressiv dozada tireoid hormonların qəbul edilməsi daha çox sayda xəstələrdə düyünün artmasının qarşısının alınmasına imkan verir (20-30%), lakin onun reqressi praktik olaraq mümkün deyildir. Qeyd etmək lazımdır ki, belə müalicə xəstələr tərəfindən yaxşı keçirilir. Cərrahi əməliyyatın üstün cəhəti odur ki, qalxanvarı vəzidə düyünü tez və bir dəfəyə götürmək mümkün olur və bununla urun bütün simptomları aradan qalxır, daha dəqiq diaqnoz düyün toxumasının histoloji verifikasiyası zamanı qoyulur. Lakin qeyd etmək lazımdır ki, qalxanvarı vəzidə cərrahi müdaxilə zamanı ağır spesifik fəsadlar (3-5%) və əməliyyatdansonra hipotireoz riski yüksək olur (14-50%) və xəstəliyin residivinin baş verməsi mümkündür (46%-ə qədər). Ona görə də hazırda ətraf parenximaya təsir göstərməyən, yəni xəstə üçün minimal invaziv olaraq düyün toxumasında lokal destruksiyaya nail olmağa imkan verən yeni metodların klinik praktikaya tətbiq olunması tələbatı qarşımizda durur. Belə metodlardan etanol ilə skleroterapiya, kriodestruksiya, diatermokoaqulyasiya və lazerlə induksiyaedici termoterapiyadır (LİTT, lazertermiya

Tədiqaqtın məqsədi. Qeyri- toksik düyünlü urun müalicəsində USM nəzarəti altında punksion LİTT metodikasının efektliyinin qiymətləndirilməsi.

Tədiqaqtın material və metodları. İş yerinə yetirilmişdir. Tədqiqat işinə 2010-2015-ci illər ərzində müalicə alan qeyri-toksik düyünlü kolloid ur olan 58 xəstə daxil ediımişdir. Xəstələrin yaşı 21- 78 yaş arasında olmuşdur, orta yaş həddi 50,8±12,6 təyin edilmişdir. Onların müalicəsində minimal invaziv metodika istifadə olunmuşdur.

Xəstələrin seçilməsi prinsipləri Tədqiqat işinə Azərbaycan ərazisində yaşayan və uzun müddət həkim- endokrinoloqun nəzarəti altında olan qeyri-toksik düyünlü ur olan xəstələr daxil edilmişdir. Onların hamısı konservativ müalicə almışlar ki, o da effektiv olmamışdır. Çünki klinik və ultrasəs müayinələrin nəticələrində düyünün artması fiksə olunmuşdur.

Minimal invaziv müalicəyə başlanmazdan əvvəl klinik müayinələr aparılmışdır. Buraya xəstəliyin anamnezinin öyrənilməsi, palpasiya və qalxanvari vəzinin ultrasəs müayinəsi daxil edilmişdir. Bütün xəstələrə nazik iynəli aspirasiya punksiya biopsiyası aparılmış, alınan materialın histoloji müayinədən keçirilmiş, tireoid hormonların səviyyəsi və hipofizin tireotrop hormonu təyin edilmişdir. Qalxanvari vəzidə bədxassəli törəmənin olduğunu göstərən klinik, ultrasəs və sitoloji əlamətlər olmadıqda müalicə üçün minimal invaziv metodikaların istifadə olunması haqqında qərar qəbul olunmuşdur. Xəstələrə bu növ müalicənin mahiyyəti, onun xüsusiyyətləri, çatışmazlıqları və nəzəri cəhətdən mümkün ağırlaşmalar izah olunmuşdur. Bundan sonra lazerlə müalicəyə könüllü informasiyaverici razılıqlarını imzalayırlar. Xəstələr içərisində qadınlar üstünlük təşkil etmişdir, 37 qadın və 21 kişi olmuşdur.

Lazertermiyanın və skleroterapiyanın qalxanvari vəzinin düyünlərinin ilkin həcmindən asılı olaraq effektiliyini müayinə etmək üçün əsas qrupda və müqayisə qrupunda olan qeyri- toksik düyünlü ur olan xəstələr düyünün həcminin artmasına uyğun olaraq 5 yarımqruplara ayrılmışlar. LİTT qrupunda düyünün həcmi 1 sm^3 –dən az olan 14(19%), 1-2 sm^3 olan-18(24%), 2-4 sm^3 14(19%), 4-8 sm^3 7(22%) və 8 sm^3-dən çox olan 5(16%) xəstə vardır.

Ümumilikdə 156 lazertermiya seansı aparılmışdır. Lazerin gücünün orta həddi 2,75 Vt olmuşdur. Lazer təsirinin ümumi müddəti 74546 saniyə (20 saat), ümumi enerji isə 205,4 kC olmuşdur. Qalxanvari vəzidə bir düyünün müalicəsinə 1-7 seans LİTT düşmüşdür, ümumi sərf olunan müddət və lazer şülanmasının enerjisi uyuğn olaraq 994 saniyə və 2738 C olmuşdur. 1 seansa düşən müddət və enerji uyğun olaraq 478 saniyə və 1317 C olmuşdur.

Tədqiqatın nəticələri. Lazer induksiyaedici termoterapiyadan sonra düyünün həcminin azalması hər bir halda mümkün olmuşdur. Müalicəyə qədər düyünlərin ümumi həcmi 362,2 sm^3 olmuş, mülicədən sonra 157,7 sm^3-a qədər azalmışdır. Düyünlərin həcmi medianı müalicədən əvvəl və sonra 3,0 sm^3 və 0,8 sm^3 , aşağı kvartil 1,2 sm^3 и 0,3 sm^3, yuxarı kvartil 6,0 sm^3 və 1,6 sm^3 oluşdur. Beləliklə, düyünlərin həcm medianı 73,3% azalmışdır.

LİTT- dən sonra düyünlərin həcminin dəyişməsi statistik dürüst olumşdur ($p<0,001$).

Düyünlü törəmələrin ümumi azalma göstəriciləri və aparılan lazertermiya seanslarının sayı müqayisə olunduqda müəyyən olunmuşdur ki, lazerlə müalicənin bir seansına düyünün həcminin 1,3 sm^3 azalması düşür.

LİTT-dən sonra 58 xəstədən 18-də qalxanvari vəzi düyünləri 75%-dən çox, 28 xəstədə- 50%-dən 75%-ə qədər, 8 xəstədə 25%-dən 50%-ə qədər, 4 xəstədə düyünlərin həcmi 25%- dən aşağı azalmışdır. Düyünün minimal azalması 16,7% olmuşdur.

Beləliklə, düyünlərin həcmi 46(77,3%) xəstədə 50% və daha artıq, 11(22,7%) xəstədə 50%- dən aşağı azalmışdır. Qeyri- toksik düyünlü urun müalicəsini statistik təhlilindən məlum olmuşdur ki, 1 LİTT kursu zamanı düyünün həcminin azalma həddi lazerlə təsirin seanslarının miqdarı (Spirman əmsalı= 0,7; $p<0,001$) və müalicəyə sərf olunan ümumi enerjinin miqdarı (Spirman əmsalı=0,67; $p<0,001$) ilə düz mütənasibdir. Lazer şüalanmasının xüsusi çəksinin təhlili zamanı müəyyən olunmuşdur ki, düyünün həcmini 1 sm^3 azaltmaq üçün 139C-dan 6000 C-a qədər enerji, 1157 xüsusi median enerji tələb olunmşdur. Göstəricilər statistik işləndikdə sübut edilmişdir ki, düyünlü törəmənin ilkin həcmi ilə lazer şüalanmasının xüsusi enerjisi araslnda tərs mütənasiblik vardır (spirman əmsalı=-0,64; $p<0,001$).

Beləliklə, müalicədən əvvəl düyün nə qədər böyük olarsa, düyünün həcminin 1 sm^3 azaldılması üçün bir o qədər az miqdarda enerji tələb olunmşdur.

Birinci qrupda düyünün ilkin 1 sm^3 – a qədər olmuşdur, medianı 0,8 sm^3 olan 14 düyünlü ur müalicə olunmuşdur. Hər düyünə orta gücü 2,8 Vt olan 2 LİTT seansı düşmüşdür, yalnız 2 halda biz təkrar müalicə seansları apardıq. Qeyd etmək lazımdır ki, düyünə ikinci lazer təsirindən sonra bu xəstələrdə düyünün ölçülərinin nəzərəçarpacaq dərəcədə azaldılması bizə müyəssər olmamışdır. Görünür, bu onunla bağlıdır ki, artıq birinci müalicə seansından sonra düyünün bütün parenximası çapıqlı toxuma ilə bağlan-

mışdır, bu da lazer induksiyaedici termoterapiyanın növbəti prosedurundan çox olmamışdır.

Bir düyünə lazer təsirinin müddəti və enerjisi uyğun olaraq 405 san və 1124 C təşkil etmişdir. Xüsusi çəki medianı (düyünün həcminin 1 sm^3 azaldılması üçün enerjinin miqdarı) bu qrupda 2473 C-a bərabər olmuşdur.

Müalicədən sonra 14 xəstədən 13-də düyünün həcmi 50% və daha aşağı azalmışdır. Qalxanvari vəzinin iki düyünü ultrasəs müayinə zamanı artıq görünmürdü. Yalnız bir halda düyünün nisbi azalması 33,3% təşkil etmişdir. Lazer təsirindən sonra düyünün həcmi medianı 75%: 0,8 sm^3-dan 0,2 sm^3-a qədər azalmışdır. Düyünün ilkin həcmi 1-2 sm^3 olan ikinci qrupda düyünün həcm medianı 1,5 sm^3 olan 18 xəstə sağalmışdır. Bu qrupda əksər hallarda bir düyünə 1 seans LİTT aparılmışdır. 3 nəfərə 2 seans aparılmışdır ki, onlardan sonra birinci qrupda olduğu kimi düyünün həcminin azalmasında nəzərəçarpacaq azalma baş verməmişdir. Bir müalicə kursuna orta zaman həddi və enerji uyğun olaraq 681 san və 1884 C təşkil etmişdir. Lazerlə müalicədən sonra düyünün həcm medianı 66,7% azalmış və 0,5 sm^3-a çatmışdır. 13 xəstədə düyünün həcmi 50%- dən çox azalmışdır, 5 nəfərdə effekt daha az qabarıq olmuş, düyünlər 23,1%, yəni minimal azalmışdır. Lazer şüalanmasının xüsusi çəkili enerjisi təhlil olunduqda məlum olmuşdur ki, bu qrupda 1 sm^3 həcm üçün daha az enerji- 1665 C tələb olunmuşdur. Düyünlərin həcmi 2-4 sm^3 olan üçüncü qrupa 14 nəfər daxil edilmişdir. Müalicədən əvvəl düyün həcmi medianı 3,0 sm^3 olmuşdur, LİTT müalicə kursundan sonra 1,0 sm^3- a qədər azalmıdşır (66,7%), hər bir düyün 1-3 dəfə lazer şülanmasına məruz qalmışdır, orta hesabla 1,7±0,8 seans aparılmışdır. Lazer şülanmasının orta gücü 2,76 Vt, bir müalicə kursunun orta enerji və müddəti 785 san. və 2178 C olmuşdur. Müalicədən sonra 3 xəstədə düyünün həcmi 50% və daha çox azalmışdır, minimal azalma 20% olmuşdur. Bu qrupda lazerlə müalicənin xüsusi enerji çəkisi 1212 C olmuşdur LİTT- dən sonra xəstələrdə düyünün həcminin azalması statisitik dürüst olmuşdur ($p< 0,001$).Düyünlərin həcmi 4-8 sm^3 olan üçüncü qrupa 12 nəfər daxil edilmişdir. Müalicədən əvvəl düyün həcmi medianı 5,7 sm^3 olmuşdur. Hər bir düyün 1-7 dəfə lazer şülanmasına məruz qalmışdır, orta hüsabla 2,8±1,7 seans aparılmışdır. Lazer şüalanmasının orta gücü 2,73 Vt, bir müalicə kursunun orta enerji və müddəti 1304 san. və 3604C olmuşdur. Müalicədən sonra qalxanvari vəzi düyününün həcmi medianı 1,5 sm^3, başqa sözlə ilkin düyünlə müqayisədə 73,7% azalmışdır. 10 xəstədə düyünlərin həcmi 50% və daha çox, 2 nəfərdə 50%-dən az aşağı düşmüşdür. Yalnız bir halda düyünün nisbi azalması 16,7 % təşkil etmişdir. Bu qrupda lazer şüalanması enerjisinin xüsusi çəkisi 945 C olmuşdur

Beşinici qrupa qalxanvari vəzidə düyünün həcmi 8 sm^3-dan çox olan xəstələr daxil edilmişdir. Bu qrupda düyünün maksimal həcmi 48,7 sm^3, median həcm 24,9 sm^3 olmuşdur. Xəstələrə 1-7 LİTT seansı aparılmışdır, ortra hesabla hər düyünə 3-4 seans düşmüşdür. Lazer şüalanmasının orta gücü 2,69 Vt olmuşdur. Müalicədən sonra median həcm 9,3 sm -a qədər azalmışdır, nisbi azalma 62,7% tşkil etmişdir.

Bir düyünün müalicə kuкsuna 5331 C lazer şüalanması və 1954 san. müddət sərf olunmuşdur. LİTT- ən sonra 3 xəstədə düyünün həcmi 50% və daha çox, 1 xəstədə 50%- dən az aşağı düşmüşdür. Bu qrup xəstələrdə digər qruplara nisbətən enerjinin xüsusi çəkisi daha az olmuşdur, onun orta həddi 399 C olmuşdur LİTT- dən sonra xəstələrdə düyünün həcminin azalması statisitik dürüst olmuşdur ($p<0,001$).

Nəticələrin müzakirəsi. LİTT-dən sonra bütün hallarda düyünün həcmnini azalması qeydə alınmışdır. Müalicəyə qədər düyünlərinin ümumi həcmi 468,5 sm^3 olmuşdur. Lazerlə təsirdən sonra199,9 sm^3 a qədər azalmışdır. Müalicədən əvvəl və sonra düyünlərin həcmi medianı 3,0-0,8 sm^3 təşkil etmiş, 73,3% azalmışdır. Düyünlərini ümumi həcminin azalmasını lazertermiyanın aparılan seanslarını qarşı- qarşıya qoysaq,məlum olmuşdur ki, lazerlə müalicənin 1 seansına düyünün həcmi 1,7 sm^3 azalmışdır. LİTT-dən sonra 48(77,3%) nəfərdə düyünün həcmi 50% və daha çox, 10(22,7%) nəfərdə 50% və daha azalmışdır.

ƏDƏBİYYAT

1. Yusifov D.H., Alimetov S.N. Endokrin sistemi xəstəliklərinin diferensial diaqnostikası. Bakı, 2008.
2. Alimetov S.N., İbrahimova Ş.S.Endokrin sistemi xəstəlikləri. Bakı: Elm və təhsil, 2014
3. Qalxanabənzər vəzin xəstəlikləri Abbasov A.H, Hümmətov A.F, Bayramov N.Y 2012
4. Məmmədhəsənov R.M. Daxili xəstəliklər. Bakı: Şirvannəşr, 2004.
5. Xüsusi histologiya. Dərs vəsaiti. Bakı, 2009
6. Милюкова И. Болезни щитовидной железы. Лечение без ошибок М.:Сова, 2007
7. Эндокринология : большая медицинская энциклопедия. М.: Эксмо, 2011

8. Кулиева Н.Ф.Исследование функционального состояния системы гипофиз-щитовидная железа у женщин с метаболическим синдромом. Баку: 2012
9. Панова Т.Н., Назарочкин Ю.В. Диагностика и лечение узловых заболеваний щитовидной железы. Астрахань, 2007
10. Düyünlü ur xəstəliyinin diaqnostika və müalicəsi üzrə klinik protokol. Bakı, 2009
11. Гусейнова Н.Ф. Систематизированный подход к диагностике и лечению функционального состояния щитовидной железы в сочетании с синдромом поликистозных яичников: Автореф. дис. ... д-ра филос. по медицине. Баку, 2012, 21с.
12. Дедов И.И., Мельниченко Г.А., Фадеев В.В. Эндокринология. М.: Медицина, 2000
13. Şadlinski V.B., Qasımov Ş.İ., Mövsümov N.T. İnsan anatomiyası: iki cilddə Bakı: Müəllim, 2007
14. Гоникман Э.И. Тайна и сила великих желез. М.: Велигор, 201
15. Данилова Н.А. Болезни щитовидной железы: эффективные методы лечения и профилактики. СПб: Вектор, 2013
16. Məmmədhəsənov R.M. Endokrinologiya. Bakı: Qismət, 2008.
17. Абдулхалимова М.М., Митьков В.В., Бондаренко В.О. Диагностика узловых образований щитовидной железы с использованием современных методов исследования // Ультразвуковая диагностика, 1999, №3, с.69-81
18. Александров Ю.К., Доборджгинидзе Т.Р., Крюкова Н.А. Малоинвазивные хирургические вмешательства на щитовидной железе под контролем ультразвукового исследования / Материалы второго конгр. ассоциации хирургов им. Н.И.Пирогова. СПб., 1998, с.114.
19. Александров Ю.К., Могутов М.С., Крюкова Н.А. Малоинвазивные хирургические вмешательства при «холодных» узлах щитовидной железы //Современные аспекты хирургической эндокринологии: материалы девятого (одиннадцатого) Рос. симпозиума по хирургической эндокринологии. Челябинск, 2000, с.22-27

Резюме

Лечение не токсического узлового зоба методом лазер индуцированной термотерапией

А.М.Алиева, М.М.Мамедов

Целью исследования оценка эффективности ЛИТТ под контролем УСМ при лечении не токсического узлового зоба. Исследования проводились в 2010-2015 года. В исследование вошли 58 больных в возрасте 21-78 лет. После использования ЛИИ\ТТ во всех случаях было отмечено, уменьшение объема зоба.

Summary

The treatment is not toxic nodular goiter by laser-induced thermotherapy

A.M.Alieva, M.M.Mamedov

The aim of the research evaluation of LITT under control in the treatment of trigger is not toxic nodular goiter. The studies were conducted in the 2010-2015 year. The study included 58 patients aged 21-78 years. After using LITT in all cases it was observed a decrease of the crop.

Daxil olub:14 01.2016

К ВОПРОСУ ОБ ЭПИДЕМИОЛОГИИ ПОВЕРХНОСТНЫХ МИКОЗОВ КОЖИ В РАЙОНАХ КУРИНСКОЙ ВПАДИНЫ

З.Г. Фараджев, И.А. Амирова, С.А. Алиева, И.А. Ахмедов, С.Д. Ахмедова, Ф.И.Балакишиева

Азербайджанский медицинский университет, Кафедра дерматовенерологии , Баку

Açar sözləri: Kür hövzəsi, dəri mikozları, intensiv göstərici
Ключевые слова: Куринская впадина, микозы кожи, интенсивный показатель.
Keywords: Kura basin, mycosis of skin, intensive indicator.

Грибковые заболевания кожных, слизистых покровов и придатков кожи, являются одними из наиболее распространенных в мире [1]. По данным различных авторов, наблюдается неуклонный рост грибковых инфекций: частота встречаемости грибковой патологии среди взрослых составляет 7-20%, на дерматомикозы приходится 37-42% от всех болезней кожи, ногтей и волос; патогенными грибами поражен каждый четвертый житель планеты, а среди пожилых людей – каждый второй [2,3]. В распространении грибковой патологии огромную роль играет влияние различных предрасполагающих факторов (изменение химического состава пота, повышенная потливость, эндокринные заболевания, вегетативно-сосудистые нарушения, иммунодефицитные состояния, распространенность патологического процесса более 18% площади кожи, давность заболевания более 2 лет и др.) под действием которых непатогенные формы (сапрофитные) трансформируются в патогенные мицелиальные формы [3,4].

Поверхностные микозы кожи (ПМК)-инфекционные заболевания, вызываемые дерматомицетами, дрожжевыми и плесневыми грибами. Микотическая патология является актуальной медико-социальной проблемой, характеризующейся клиническим полиморфизмом, появлением стертых форм, что нередко служит причиной диагностических ошибок [5]. Под влиянием социально-эпидемиологических факторов число больных ПМК продолжает неуклонно расти, что крайне негативно отражается на качестве жизни пациентов, несмотря на то, что современная противогрибковая терапия позволяет достигнуть эффективности в 80-90% случаев [6].

В последние годы в России и за рубежом было проведено несколько исследований, посвященных эпидемиологии, клиническим особенностям и факторам, имеющим значение в распространении ПМК [7]. С этой точки зрения, большой интерес представляет клинико-эпидемиологическое исследование ситуации, в районах Куринской впадины (Агджабеди, Агдам, Агдаш, Аджикабул, Акстафа, Ахсу, Барда, Бейлаган, Биласувар, Газах, Горанбой, Геокчай, Джабраиль, Джалилабад, Евлах, Зардаб, Имишли, Кюрдамир, Мингачевир, Нафталан, Нефтчала, Саатлы, Сабирабад, Сальян, Тартар, Товуз, Уджар, Физули, Ханлар, Шамкир и Ширван) с целью совершенствования медико-социальной помощи больным.

За период с 2000 по 2011 год в вышеперечисленных районах Куринской впадины Азербайджана было зафиксировано 411 эпизодов ПМК.

Цель исследования- провести ретроспективный клинико-эпидемиологический анализ заболеваемости ПМК в районах - Агджабеди, Агдам, Агдаш, Аджикабул, Акстафа, Ахсу, Барда, Бейлаган, Биласувар, Газах, Геокчай, Горанбой, Джабраиль, Джалилабад, Евлах, Зардаб, Имишли, Кюрдамир, Мингачевир, Нафталан, Нефтчала, Саатлы, Сабирабад, Сальян, Тартар, Товуз, Уджар, Физули, Ханлар, Шамкир, Ширван- Куринской впадины Азербайджана за период с 2000-2011гг.

Материалы и методы исследования. Проведен ретроспективный анализ заболеваемости ПМК в 31 районе Куринской впадины Азербайджана за период с 2000 по 2011 гг. по данным формы государственного статистического наблюдения № 9 (“Сведения о заболеваниях, передаваемых преимущественно половым путем, грибковых кожных заболеваниях и чесотке”), утвержденной постановлением Азербайджанской Государственной Статистической комиссии от 04.12.2000г. № 72/5.

Данные обращаемости, профилактических осмотров, госпитализации, работа с текущей и архивной документацией в городском кожно-венерологическом диспансере №1, республиканском кожно-венерологическом диспансере и республиканском детском кожно-венерологическом диспансере №3 Азербайджанской Республики по изучаемым районам Курин-

ской впадины, были взяты за основу в проведении данной работы.

Статистическая обработка данных выполнена с помощью параметрических и непараметрических методов. Достоверность различий оценивали с помощью критерия Стьюдента.

Диагноз ПМК устанавливался после лабораторной (микроскопической) верификации на наличие мицелия гриба.

Результаты и обсуждение. Анализ заболеваемости ПМК позволил выявить, что в течение исследуемого периода (с 2000 по 2011 гг.) на территории Куринской впадины Азербайджана - в районах Агджабеди, Агдам, Агдаш, Агсу, Аджикабул, Акстафа, Барда, Бейлаган, Биласувар, Газах, Геокчай, Горанбой, Джабраиль, Джалилабад, Евлах, Зардаб, Имишли, Кюрдамир, Мингачевир, Нафталан, Нефтчала, Саатлы, Сабирабад, Сальян, Тартар, Товуз, Уджар, Физули, Ханлар, Шамкир, Ширван- 12,65% наивысший пик заболеваемости зафиксирован в 2000 году; 11,92% - в 2011 году; 9,49% и 9,73% в 2006 и в 2001 годах соответственно (рис. 1).




Рис.1. Встречаемость ПМК в 31 районе Куринской впадины Азербайджана (на 100.000 населения)




Рис.2 Посещаемость пациентов с ПМК в 31 районе Куринской впадины Азербайджана по годам на общем амбулаторном и стационарном приеме (на 100.000 населения)

На рис. 2 представлена встречаемость ПМК по посещаемости на общем амбулаторном и стационарном приеме на 100.000 населения за исследуемый период, которая повторяет тенденцию пиковых всплесков в 2000, 2011, 2001, 2006 годах. При распределении больных по половому фактору зафиксировано превалирование мужского пола - в 1,3 раза, по сравнению с женским (рис.3). Анализируя заболеваемость ПМК по возрастным признакам следует отметить, что средний возраст пациентов 25 лет, при возрастном аспекте от 1

года до 82 лет. Наибольшее количество пациентов с диагнозом ПМК зафиксировано в возрастных группах 21-30 лет, 0-10 лет, 11-20 лет, что составляет 24,33%; 23,60%; 21,65% соответственно (рис.4).

Продолжая клинический анализ заболеваемости дерматомикозов кожи и ее придатков по заболеваниям, составляющим группу ПМК, преимущественное количество пациентов зарегистрировано с диагнозом разноцветный лишай 25,55±2,15%, что соответствует, наиболее подверженному данному дерматомикозу, контингенту пациентов в возрастной группе от 21 до 30 лет, составляющему 24,33%. На втором месте микоз гладкой кожи 14,63±5,52%. По убывающей отмечена следующая тенденция: микоз волосистой части головы у 15,09±1,77%; микоз стоп у 12,90±1,65%; паховая эпидермофития у 8,76±1,39%; реже диагностировались онихомикоз у 7,54±1,30%; сочетанное поражение волосистой части головы и гладкой кожи у 4,87±1,06%; инфильтративно-нагноительная форма трихомикозов у 4,62±1,04%; кандидоз у 3,41±0,89% пациентов (рис.5).




Рис.3. Структура заболеваемости ПМК по половому признаку в 31 районе Куринской впадины Азербайджана




Рис.4.Структура заболеваемости ПМК в 31 районе Куринской впадины Азербайджана по возрастному признаку




Рис.5. Структура заболеваемости по диагнозам, входящим в группу ПМК в 31 районе Куринской впадины Азербайджана




Рис.6. Выявляемость ПМК по посещаемости на амбулаторном и стационарном приеме в кожно-венерологических учреждениях (с 2001-2010гг. на 100.000 населения в 31 районе Куринской впадины Азербайджана).

Результаты эпидемиологического анализа позволили также рассчитать интенсивный показатель (ИП): ИП1- заболеваемости ПМК на 100.000 населения, а также ИП2 - по посещаемости на общем амбулаторном и стационарном приеме на 100.000 населения.

ИП1 заболеваемости ПМК за исследуемый период варьировал и был самым высоким в 2000 году- 1,750±0,243%; соответственно ИП2- 0,459±0,064%. В 2011 году ИП1- 1,490±0,213%; ИП2- 0,467±0,067%, в 2001 интенсивные показатели соответственно: ИП1- 1,341±0,212%; ИП2-0,365±0,058%, в 2006 году ИП1- 1,246±0,199%; ИП2- 0,343±0,055% совпадающие с пиковой тенденцией в эти годы.

На рис. 6 представлена выявляемость ПМК на фоне дерматологической патологии, на рис. 7 представлена выявляемость ПМК по посещаемости на общем амбулаторном и стационарном приеме в 31 районе Куринской впадины Азербайджана. Частота выявления ПМК на фоне других дерматозов по посещаемости, наиболее высокая в Физулинском районе, затем следуют районы: Уджар, Бейлаган, Аджикабул, Саатлы и др.




Рис.7. Выявляемость ПМК по посещаемости на общем амбулаторном и стационарном приеме (с 2001-2010гг. на 100.000 населения 31 районе Куринской впадины Азербайджана)

Выводы. Низкая обращаемость населения с ПМК и неоднозначная активность дерматовенерологической службы по выявлению ПМК у больных, обратившихся в специализированные медицинские учреждения в 31 районе (Агджабеди, Агдам, Агдаш, Агсу, Аджикабул, Акстафа, Барда, Бейлаган, Биласувар, Газах, Геокчай, Горанбой, Джабраиль, Джалилабад, Евлах, Зардаб, Имишли, Кюрдамир, Мингачевир, Нафталан, Нефтчала, Саатлы, Сабирабад, Сальян, Тартар, Товуз, Уджар, Физули, Ханлар, Шамкир, Ширван) Куринской впадины Азербайджана за период с 2000-2011гг. нашла отражение в клинико-эпидемиологическом анализе. ИП1 заболеваемости ПМК (на 100.000 населения) в изучаемом регионе составил – 0,941±0,055%; ИП2 по посещаемости на общем амбулаторном и стационарном приеме (на 100.000 населения) составил - 0,259±0,015%. Лидирующее место

занимает кератомикоз (разноцветный лишай) - 25,5%, микоз гладкой кожи - 14,6%, а также микоз волосистой части головы - 15% обследуемых. Эти показатели коррелируют с возрастным аспектом от 0-30 лет, что соответствует 69,58% от всех обследуемых. В районах Джабраиль и Нафталан в связи с низкой обращаемостью населения необходимо усилить работу по профилактике распространения дерматомикозов.

ЛИТЕРАТУРА

1. Соколова Т.В., Малярчук А.П., Малярчук Т.А. Клинико-эпидемиологический мониторинг поверхностных микозов в России и терапии // Российский медицинский журнал, 2011, №21, с.1327 – 1332.

2. Сергеев А.Ю., Иванов О.Л., Сергеев Ю.В. и др. Исследование современной эпидемиологии онихомикоза // Вестник дерматологии и венерологии, 2002, №3, с.31-35

3. Сергеев А.Ю., Сергеев Ю.В. Грибковые инфекции. М. 2008.

4. Разнатовский К.И., Родионов А.Н., Котрехова Л.П. Дерматомикозы. СПб. 2006.

5. Сергеев Ю.В., Мокина Е.В., Чернявская М.Г. и др. Проблемы и перспективы терапии и профилактики микозов стоп и онихомикозов // Российский мед. журнал, 2004, №18, с.3-9.

6. Асташина С.М. Опыт системного лечения онихомикозов у лиц пожилого возраста / Тез докл съезда микологов России. “Современная микология России”. М., 2008, с.410-411.

7. Бурова С.А. Лечение онихомикоза у больных сахарным диабетом или с нарушением толерантности к глюкозе // Вестник дерматологии, 2005, №6, с.55-57.

Xulasə

Kür hövzəsinin rayonlarında dəri səthi mikozlarin epidemiologiyası məsələsi

Z.H. Fərəcov, İ.A. Əmirova, S.A. Əliyeva, İ.A. Əhmədov, S.C. Əhmədova, F.İ.Balakişiyeva

Məqalədə 2000-2011 illər ərzində Azərbaycanın Kür hövzəsinin 31 regionlarında- dəri səthi mikozlarin və dəri artimlarının (DSM dəri səthi mikozlari) xəstələnmə xüsusiyyətləri, klinik və epidemioloji tədqiqat nəticələri izah olunur. 2000, 2001, 2006 və 2011-ci ildə DSM ilə xəstələnmə zirvələri təyin olundu. Əlvan dəmrov diaqnozu ilə 25,55% xəstə qeydiyyata alınaraq, və bu ən məsuliyyət 21- 30 yaş, 24,33% təşkil etmiş, xəstələrin kontingentinə uyğundur.

Summary

The question of epidemiology of superficial mycosis of skin in the regions ofKura basin

Z.H. Faradjev, I.A. Amirova, S.A. Aliyeva, I.A. Ahmadov, S.D. Ahmedova, F.I.Balakishiyeva

In the article there are expounded the results of clinical and epidemiological research of the features of morbidity with fungal infection of skin and its appendages (superficial mycosis of skin- SMS) in 31 regions of Kura basin of Azerbaijan within the period of 2000-2011. There were identified the peaks of morbidity with SMS in 2000, 2001, 2006 and 2011. Prevailing amount of patients- 25,55%, was registered under the diagnosis of pityriasis versicolor, and this corresponds to the contingent of patients that is most liable to given dermatomycosis in the age group of 21-30, comprising 24,33%.

Daxil olub:14 01.2016

ПРИМЕНЕНИЕ СОВРЕМЕННЫХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ЦЕЛЯХ СОВЕРШЕНСТВОВАНИЯ ЭПИДЕМИОЛОГИЧЕСКОГО НАДЗОРА

Н.М.Устун

Республиканская Противочумная станция им.С. Имамалиева, г.Баку

Açar sözlər: informasiya texnologiyaları, epidemiolojı nəzarət, riyazi modelləşdirmə

***Ключевые слова*:** информационные технологии, эпидемиологический надзор, математическое моделирование

Key words: information technology, epidemiologi surveillance , mathematical modeling

Современные информационные технологии все более успешно применяются во множестве сфер жизни общества. Медицина не является исключением, а, скорее наоборот, получает массовое привлечение. Прогресс в информационных технологиях положительно сказался на развитии новых направлений организации медицинской помощи населению.

Информационные технологии представляет собой упорядоченную совокупность способов и методов сбора, обработки, накопления, хранения, поиска распространения, защиты и использования информации, осуществляемых в процессе управленческой деятельности [1,2,3].

Развитие и широкое применение информационных и коммуникационных технологий, а также программного обеспечения является глобальной тенденцией мирового развития последних десятилетий [4,5]. Современные информационные технологии широко используют компьютеры, вычислительные сети и программное обеспечение в процессе управления. Информационные технологии включают два фактора- технический и человеческий. Для современных информационных технологий характерны следующие возможности:

- интегрированные базы данных, предусматривающих единую унифицированную форму представления, хранения, поиска, отображения, восстановления и защиты данных; безбумажный процесс обработки документов; возможности совместной работы на основе сетевой технологии, объединенных средствами коммуникации; возможности адаптивной перестройки форм и способа представления информации в процессе решения задач [6, 7, 8]. Основой любой информации являются данные, т.е. сведения, представленные числами или символами, которые фиксируются на носителях (бумажных, электронных), обрабатываются и передаются с использованием средств информационной технологии.

Относительно систем управления в здравоохранении использование данных более актуально для получения первичной статистической информации, которая применяется для формирования аналитических отчетов, и других статистических материалов. Данные, сгруппированные и представленные в определенном виде, являются исходным материалом для статистического анализа.

Повсеместное распространение вычислительной техники позволяет перейти к новому этапу развития работ в области информатизации, который можно характеризовать как переход от локальных информационных систем к информационно-управляющим технологиям, системам поддержки решений и созданию единого информационного пространства [9,10]. Это позволит значительно интенсифицировать обмен информацией и скорость внедрения в повседневную практику последних достижений науки и практики, отвечающих задачам совершенствования и развития здравоохранения [11,12,13].

Медицинские информационные системы представляют интерес для руководителей медицинских организаций, специалистов по организации здравоохранения, эпидемиологов. Все они постоянно нуждаются во всевозможных статистических данных и достоверной информации о заболеваемости, результатах диагностики, лечения и многих других данных.

В настоящее время к современной медицине предъявляются высокие требования, как к квалификации врачей, так и используемым методикам. Ежегодно общее количество информации о заболеваниях увеличивается и специалист не в состоянии оценить с точностью важность имеющегося материала для медицинской практики , тогда приходят на помощь математические методы , которые помогают структурировать имеющийся материал.

Математические методы в эпидемиологии это совокупность математических приемов, используемых для систематизации и количественного выражения (в специальных показателях) характера распределения заболеваемости во времени и пространстве (по территории, среди различных групп населения), а также для выявления факторов, влияющих на развитие эпидемического процесса, описание основных элементов механизма эпидемического процесса с помощью системы соотношений, формул, функций, уравнений [14,15].

В эпидемиологии моделирование, в основном, применяется в исследовательских целях , дисциплинирует исследовательскую работу, систематизирует научные знания, а также используется для прогнозирования характера эпидемического процесса , позволяет судить о числе контактов, определить степень риска инфицирования и заболевания, исследовать особенности возрастного и территориального распределения заболеваемости, определяет стратегии служб здравоохранения . Не менее важной функцией модели является описание многолетней динамики заболеваемости, включая сезонные циклы, что дает возможность определить уровень развития основных показателей эпидемического процесса, а также чрезвычайно полезно при планировании профилактических и противоэпидемических мероприятий, для выбора оптимальных

путей борьбы с эпидемическим распространением заболеваний [16].

Структурно-организационная основа эпидемиологического анализа остается неизменной и сводится к последовательно реализуемым этапам обработки информации, характеризующей эпидемический процесс. Используемая информация очень разнообразна не только по содержанию (заболеваемость, смертность, носительство, демографические материалы, данные о возбудителе, внешней среде и др.), но и по источникам (официальная и полученная в результате научных исследований), для нее характерны большие объемы и сложность структур [17,18].

Выполнение требований, предъявляемых к обработке информации (оперативность, непрерывность, качество, достоверность), связано с определенными трудностями, преодоление которых возможно лишь с помощью информационных систем. В этой ситуации средства информационных систем, освобождая человека от выполнения огромного объема работы, становятся одним из основных факторов роста производительности труда эпидемиолога.

Тенденцией в развитии эпидемиологического надзора в последние десятилетия можно считать, все более широкое привлечение высокотехнологических методов обработки информации, повышающие точность и наглядность ретроспективного анализа, направленного на прогноз и предупреждение распространения заболеваемости.

На современном этапе информатизации в целях совершенствования эпидемиологического надзора представляется наиболее оправданным использование географических информационных систем (ГИС-технологий) для пространственного анализа и анализа данных эпидемиологической ситуации [19,20]. Географические информационные системы предназначенны для сбора, хранения, анализа и графической визуализации пространственных данных и связанной с ними информации о представленных в геоинформационных системах объектах. Другими словами географические информационные системы это - современная компьютерная технология для картографирования и анализа объектов реального мира, происходящих и прогнозируемых событий и явлений [20].

Геоинформационные системы объединяет традиционные операции при работе с базами данных - запрос и статистический анализ, с преимуществами полноценной визуализации и географического (пространственного) анализа, которые предоставляет карта [21]. Эта особенность дает уникальные возможности для применения данных систем в решении широкого спектра задач, связанных с анализом явлений и событий, прогнозированием их вероятных последствий, планированием стратегических решений.

Данные в геоинформационных системах хранятся в виде набора тематических слоев, которые объединены на основе их географического положения. Такой подход и возможность географических информационных систем работать как с векторными, так и с растровыми моделями данных, эффективен при решении любых задач, касающихся пространственной информации. Географические информационные системы тесно связаны с другими информационными системами и используют их данные для анализа объектов.

В Азербайджане также внедрены новые методы оценки эпидемического состояния на основе современных информационных технологий . Нами разработана методика применения геоинформационных систем при эпидемиологическом надзоре за особо опасными заболеваниями, такими как сибирская язва , бруцеллез . За рубежом эпидемиологический анализ с использованием геоинформационных систем проводился в Германии(мониторинг пространственного распределения заболеваемости кишечными инфекциями с учетом структуры водоснабжения) [18], Испании (прогнозирование ареала популяций иксодовых клещей) [19], Украине (разработаны электронные карты распространения пандемии холеры в мире и на территории Украины), Казахстане (создана электронная база данных по фенотипическим и генотипическим признакам атипичных штаммов чумного микроба) [20,21,22].

Таким образом, существующий уровень внедрения в эпидемиологию технологии информационных систем , в часности географических информационных систем, способствует решению многих задач, связанных с обеспечением санитарно-эпидемиологического благополучия на территории республики. Возможности программы помогают эпидемиологам в проведении пространственного анализа изучаемых объектов, выявлении динамики распространения заболеваний, в создании аналитических карт, графиков, диаграмм и, в целом, для наглядного представления всего комплекса данных на одной карте, позволяют существенно оптимизировать

работу специалистов [22]. Информационные технологии призваны, основываясь и рационально используя современные достижения в области компьютерной техники и новейших средств коммуникации, программного обеспечения и практического опыта врача , решать задачи по эффективной организации информационного процесса для снижения затрат времени, труда специалистов и материальных ресурсов.

ЛИТЕРАТУРА

1.Данилов, А.Н., Филимонов Е.С., Куклев Е.В., Кутырев В.В. Анализ структуры и функциональных возможностей современных ГИС-технологий в эпидемиологии // Пробл. особо опасных инф., 2009, Вып.1(89), с.19-20.

2.Дейт К. Д. Введение в системы баз данных. изд. 8-е. М.: Вильяме, 2008, 1328 с.

3.Доклад о состоянии здравоохранения в мире, 2007. Более безопасное будущее: глобальная безопасность в области общественного здравоохранения в XXI веке. Женева: ВОЗ, 2007, 74 с.

4.Ковтунов А.И., Колобухина Л.В., Москвина Т.М. и др. Заболеваемость и зараженность населения Астраханской области лихорадкой Западного Нила в 2006 г. // Вопр. вирусол., 2007, № 5, с.9-11.

5.О санитарно-эпидемиологической обстановке в Российской Федерации в 2008 году: Государственный доклад. М.: Федеральный центр гигиены и эпидемиологии Роспотребнадзора, 2011, 456 с.

6.Черкасский Б.Л. Понятие «риск» в эпидемиологии // Эпидемиология и инфекционные болезни. 2008, № 4, с.5-10.

7.Rogers D.J., Randolph S.E. Studying the global distribution of infectious diseases using GIS and RS // Nat Rev Microbiol., 2009, № 1, p.231-237.

8.Уменюк Н.В., Марченко К.Г. Медицинские информационные системы, как важный раздел информатизации системы здравоохранения / Сборник научных трудов Sworld по материалам международной научно-практической конференции, 2010, Т. 2, № 4, с. 22-26.

9.Dangendorf F., Herbst S., Reintjes R., Kistemann T. Spatial patterns of diarrhoeal illnesses with regard to water supply structures a GIS analysis // Int. J. Hyg. Environ. Health, 2006, v.205, c.183-91.

10.Peña A. E. Epidemiological surveillance of tick populations: A model to predict the colonization success of Ixodes ricinus (Acari: Ixodidae) // Eur. J. Epidemiol., 2007, v.13(5), p.573-80.

11.Бейли Н. Математика в биологии и медицине. М., 2006.

12.Беляков В.Д., Кравцов Ю.В., Герасимов Л.Н. Состояние и перспектива математического моделирования в эпидемиологии // Журн. микробиол., эпидем. и иммуноб., 2007, №6, с.109-13.

13.Беляков В.Д., Герасимов Л.Н., Кравцов Ю.В.Математическая модель эпидемического процесса антропонозной инфекции при стабильных и однородных факторах // Журн.микробиол., эпидемиол. и иммунобиол., 2005, №3, с.29-32.

14.Бочаров Г.А., Гольдман И.Е. Математическое исследование асимптоматической динамики экспериментальных вирусных инфекций / Вычислительная математика и математическое моделирование. Т. 1. М.: ИВМ РАН, 2006, с. 98-213.

15.Абдуманонов А.А., Карабаев М.К., Хошимов В.Г. Информационно-коммуникационная технология организации лечебно-диагностических процессов в стационарах экстренной медицины // Информационные технологии моделирования и управления, 2013 № 5, с.378-385.

16.Алексеева Н.Ю., Гайдаров Г.М. Об основных подходах к модернизации системы здравоохранения субъекта российской федерации // Бюллетень Восточно-Сибирского научного центра СО РАМН, 2012,№ 6-1, с.200-205.

17.Аристов В.А. Возможные проблемы на путях широкомасштабной информатизации здравоохранения // Врач и информационные технологии, 2013, № 5, с.41-43.

18.Блюм В.С., Виноградов В.М., Карташев А.В. Информатизация здравоохранения и иммунокомпьютинг // Врач и информационные технологии, 2010, № 3, с.17-27.

19. Гулиев Я.И., Гулиева И.Ф., Рюмина Е.В. Оценка экономической эффективности использования информационных технологий в медицине: мировой опыт // Проблемы прогнозирования. 2013, № 6, с.86-94.

20.Бобров А.В. Физическая основа информационных методов в технологиях и медицине // Сознание и физическая реальность, 2011, № 9, с.28-40.

21. Романюха А.А., Руднев С.Г., Зуев С.М. Анализ данных и моделирование инфекционных заболеваний / Современные проблемы вычислительный математики и математического моделирования. М.: Наука, 2014, Т 2, с.352-404.

22.Мека-Меченко Т.В., Некрасова Л.Е., Садовская В.П.,Дубянский В.М., Лухнова Л.Ю., Бегимбаева Э.Ж. Географическая информационная система (ГИС) в микробиологическом мониторинге чумы. Карантинные и зоонозные инф. в Казахстане. Алматы, 2012, с.120–6.

Xülasə

Epidemiolojı nəzarətin təkmilləşdirməsi üçün müasir informasiya texnologiyalarının tətbiqi

N.M.Ustun

İnformasiya texnologiyaları sisteminin epidemiologiyada tətbiqi, respublikanın sanitariya-epidemioloji problemlərinin həllinə yardim edir, epidemiologiyada modelləşdirmə, əsasən elmi-tədqiqat məqsədləri ilə istifadə olunur.

Summary

Application of modern information technologies in order to improve surveillance

N.M.Ustun

The current level of implementation in the epidemiology of technology information systems, geographic information systems in the above privacy, help solve many problems associated with the provision of sanitary and epidemiological welfare of the republic. Program features help epidemiologists to conduct spatial analysis of the objects under study, revealing the dynamics of the spread of disease.

Daxil olub:14 01.2016

MÜASİR MEZOTERAPİYANIN PARODONTİTİN KOMPLEKS MÜALİCƏSİNDƏ TƏTBİQİNİN DİŞ ƏTİ TOXUMALARINDA QANIN MİKROSİRKULYASIYASINA TƏSİRİ

A.Ç. Paşayev, İ.E.Cəfərli

Azərbaycan Tibb Universiteti,Terapevtik stomatologiya kafedrası, Bakı

Açar sözlər: mezoterapiya, parodontit, diş əti, müalicə
Ключевые слова: мезотерапия, пародонтит, десна, лечение
Keywords: mesotherapy, periodontitis, gum treatment

Ədəbiyyat məlumatlarının təhlili, eləcə də kliniki müşahidələr əhali arasında parodontitli xəstələrin sayının davamlı artmasını göstərir [1,2]. Göstərilənlər ilk növbədə insanların həyat tərzi, orqanizmin immunoloji rezistentliyinin zəifləməsi, eləcə də digər etioloji amillər ilə əlaqəlidir [3,4].

Son illərdə xəstəliyin müayinə və müalicə səmərəliliyinin artırılması üçün müxtəlif üsullar istifadə edilsə də, müalicə nəticələri qənaətbəxş hesab edilmir [1]. Parodontitin cavan yaşlı insanlar arasında daha çox təsadüf etməsi və bunlarda xəstəliyin tez-tez proqressivləşməsinə görə dişlərin erkən yaşlarda itirilməsi daha səmərəli müalicə üsulların hazırlanmasını aktual edir [3]. Ədəbiyyat məlumatlarının təhlili göstərir ki, müxtəlif müəlliflər parodontitin müalicə nəticələrinin yaxşılaşdırılması üçün müxtəlif tərkibli fitopreparatların və ya əlavə vasitələrin (ultrasəs şüalanması, krioterapiya, lazer terapiyası, ozon terapiyası və dig.) ənənəvi üsullarla yanaşı tətbiqini zəruri hesab edirlər [3,4].

Parodontitli xəstələrin müalicə effektivliyinin artırılması üçün bizim diqqətimizi mezoterapiyanın terapevtik effektləri cəlb etmişdir [6]. Mezoterapiya əksər vaxt kosmetologiyada, dərinin irinli-iltihabi xəstəliklərində, eləcə də dərinin elastikliyinin (cavanlaşdırılması məqəsədi ilə) artırılması üçün geniş tətbiq edilir [8]. Tədqiqatçılar göstərilən fizioterapevtik müalicə üsulunun müxtəlif patologiyalarda tətbiqi zamanı regionar mikrosirkulyasiyanın artması və yerli immunoloji amillərin güclənməsini aşkar etmişlər. Bunun nəticəsi olaraq, zədələnmiş toxumalarda iltihabi reaksiyaların daha sürətlə azalması regenerator və reparativ proseslərin sürətlənməsi ilə səciyyələnir [6].

Eyni zamanda mezoterapiyanın parodontitin müalicəsində tətbiqinə dair məlumatlara əldə etdiyimiz ədəbiyyat mənbələrində demək olar ki, rast gəlmədik.

Tədqiqatın məqsədi müasir qeyri-invaziv mezoterapiyanın generalizə olunmuş parodontitin kompleks müalicəsində tətbiqinin diş əti toxumalarında qanın mikrosirkulyasiyasına və xəstəlin kliniki təzahürlərinə təsirinin öyrənilməsidir.

Tədqiqatın material və metodları. Hazırki

təqdqiqat Azərbaycan Tibb Universitetinin Stomatoloji klinikasına müraciət etmiş kəskin generalizə olunmuş parodontitli 27 xəstənin müalicə nəticələrinin təhlilinə əsaslanmışdır. Xəstələrin orta yaş müddəti 33,6±3,8 yaş təşkil etmişdir. Tərəfimizdən təklif etdiyimiz müalicə kompleksinin effektivliyinin müqayisəli qiymətləndirilməsi üçün müşahidə edilən xəstələr 2 qrupa bölünmüşlər: I qrupa 13 xəstə daxil edilmişdir. Bunların müalicə proqramı klinikada ümüm qəbul edilmiş (küretaj, antiseptiklər, professional gigiyena) proqrama əsaslanmışdır. II qrupa isə 14 xəstə daxil edilmişdir ki, bunların müalicəsində yuxarıda qeyd olunan ənənəvi üsullardan əlavə TEAQRİP (Herba Flora, Azərbaycan) bitki-dərman applikasiyaları mezoterapiya seansları təyin edilmişdir. Qeyd etmək lazımdır ki, «TEAQRİP» bitki tərkibli yığıntı Azərbaycanın flora və faunasına aiddir.

Mezoterapiya isə müasir qeyri-inyeksion təsirə əsaslanmış cihazla aparılmışdır (şək.1). Onun təsir mexanizmi foton və ultrasəs dalğaların müştərək təsirinə əsaslanmışdır. Foton və ultrasəs şualarının parodont toxumalarına birbaşa müalicəvi təsiri məlumdur. Müasir ədəbiyyatda foton və ultrasəs terapiyanın müştərək tətbiqinin zədələnmiş parodont toxumalarına təsirinə rast gəlinməsə də, onların ayrı-ayrılıqda effektləri kifayət qədər göstərilmişdir [5,6,7].

Tətbiq etdiyimiz müasir mezoterapevtik cihazın digər özəlliliyi istifadə edilən applikasiya vasitələrin (medikamentoz və ya fito vasitələr) foton və ultrasəs dalğaların təsiri ilə ionlaşmış formaya keçməsinə və bununla da parodontun daha dərin toxumaların keçməsinə zəmin yaratmasıdır. Mezoterapiya aşağıdakı rejimdə tətbiq edilmişdir: ekspozisiya müddəti- 10 dəqiqə; şüalar aşağı intensivli; tezliyi 10 Hz; foton şüalarının gücünün sıxlığı 125 mVt/sm^2; şüalanma dozası 50 C/sm^2 Müalicə kursu 3 həftə (seansların sayı – həftədə 3 dəfə) davam etmişdir.



Şək. 1 Müasir mezoterapiya cihazı

Müşahidə edilən xəstələr arasında yüngül dərəcəli parodontit 16 (59,3%), orta ağır dərəcəli parodontit isə 11(40,7%) xəstədə aşkar edilmişdir. Qeyd etmək lazımdır ki, xəstələr cinsiyyətinə, yaşına, xəstəliyin ağırlıq dərəcəsinə, eləcə də yanaşı xəstəliklərinə görə tədqiq edilən qruplar arasında statistik olaraq eyni bölünmüşlər.

Mezoterapiyanın parodontitin müalicəsinə effektivliyinin öyrənilməsi üçün biz müşahidə edilən xəstələrin hamısına diş ətində mikrosirkulyasiyanı tədqiq etmişik.

Mikrosirkulyasiyanın ölçülməsi üçün lazer dopler floumetriya üsulundan istifadə edilmişdir. Bunun üçün biz Russiya istehsalı olan "LAKK-01" (Lazma, Russiya) cihazından istifadə olunub (şək.2).


Göstərilən cihazla mikrosirkulyasiyanın ölçülməsi aşağıdakı prinsipə əsaslanır: ilk növbədə tədqiq edilən sahəyə xüsusi ötürücü yerləşdirilir. Həmin ötürücü 3 teldən ibarətdir. Bunların biri cihazdan lazer şüalarının toxumaya ötürülməsi, digər ikisi isə tədqiq edilən toxumanın məcrasında hərəkət edən qan elementlərindən əks olunan şüaların cihaza çatdırılması üçün nəzərdə tutulmuşdur. Həmin siqnallar cihazda, xüsusi proqramın köməyi ilə işlənərək analiz edilmişdir. Lazer doppler floumetriya zamanı tərəfimizdən aşağıdakı göstəricilər təhlil edilmişdir:

M-kapillyarlarda qan axınını xarakterizə edir; Kv- arteriol və venulların vazomotor fəallığını xarakterizə edir; mikrosirkulyasiyanın ümumi intensivliyi (δ) müəyyən vaxt intervalında mikrosirkulyator məcrada qan axınında dəyişiklikləri xarakterizə edir.


Mikrosirkulyator məcrada titrəyiş prosesləri

aşağıda qeyd olunanlardır: LF-ritm (low Freguency) mikrosirkulyator məcranın xüsusi fəallığını göstərir (normada üstünlük təşkil etməli).HF-ritmlər (high Freguency) mikrosirkulyator məcrada venoz durğunluq və toxumaların işemiyanı xarakterizə edir. CF-ritmlərin (Cardiodependent Freguency) dəqiqədə sayı ürəyin döyünmə sayına uyğun gəlir, nəbz dalğasının mikrosirkulyator məcraya təsiri ilə əlaqəlidir. Mikrosirkulyator məcraya qan axını artdıqda göstərilən ritm amplitudaları artır, işemiya zamanı isə azalır.

Müşahidə edilən xəstələrdə mikrosirkulyasiyanı diş ətinin vestibulyar səthində ölçülüb. Müayinələr müalicənin başlanmasından əvvəl və 7-10 gün sonra aparılmışdır. Statisitik işlənmələr MS Excel 2010 proqramının köməyi ilə aparılmışdır.



Şək. 2. Diş ətində mikrosirkulyasiyanın öyrənilməsi üçün lazer doppler floumetr (Lakk-01)



Qeyd: dürüstlük əhəmiyyəti *- p<0,05; **- p<0,01; ***- p<0,001.

Şək. 3 Tədqiq edilən xəstələrdə diş ətinin mikrosirkulyasiyasının müalicə dinamikasında dəyişməsi

Alınmış nəticələr və onların müzakirəsi. LDF köməyi ilə aparılmış müayinələr göstərmişdir ki, müşahidə etdiyimiz parodontitli xəstələrdə klinikaya qəbul olduqda (müalicədən əvvəl) diş ətində mikrosirkulyasiyanın ciddi pozulmaları vardır (şək.3).

I qrupa aid olan parodontitli xəstələrdə müalicədən əvvəl kapilyar qan axını sürətini əks

edən göstərici (M) 8,7±0,5 ş.v. təşkil etmişdir ki, bu göstərici normadan 45,96% aşağı olmuşdur. II qrupa aid olan xəstələrdə də, M göstəricisinin orta qiyməti müalicənin başlanmasından əvvəl 8,8±0,6 ş.v. təşkil edərək, normadan 45,3% aşağı olmuşdur.

Diş ətində LDF köməyi ilə diş ətində qanın mikrosirkulyasiyanın tədqiqi göstərmişdir ki, tədqiq edilən parodontitli xəstələrdə klinikaya müraciəti dövründə kapilyar qan axınının sürətinin azalması mikrosirkulyator məcranı təşkil edən kiçik ölçülü damarların vazomotor fəallığının (Kv), eləcə də mikrosirkulyasiyanın ümumi intensivliyinin (δ) zəifləməsi fonunda inkişaf etmişdir. Belə ki, I və II qrupa aid parodontitli xəstələrdə müalicənin başlanmasından əvvəl arteriol və venulların vazomotor fəallığı 6,9±0,8% və 6,7±0,7% müəyyən edilmişdir. Qeyd edilən vazomotor fəallıq (Kv) dərəcəsi normadan dürüst olaraq 56,3% və 57,6% aşağı olmuşdur ($p<0.05$).

Mikrosirkulyasiyanın ümumu intensivliyinin (δ) tədqiqi də analoji dəyişiklikləri müəyyən etmişdir. Belə ki, I qrupa və II qrupa aid olan xəstələrdə qeyd edilən göstərici normal rəqəmlərdən 51,1% və 53,3% aşağı olmuşdur ($p<0,01$).

Müalicədən əvvəl aşkar edilmiş bu dəyişikliklər parodont toxumalarında, xüsusən də diş ətində mikrosirkulyasiyanın venoz məcrada durğunluğun yaranması hesabına pozulmasını əks edir ki, bu da hipoksiyanın inkişafına zəmin yaradır.

Hər iki qrupa aid olan xəstələrə təyin edilən müalicə proqramı səmərəli olmuşdur. Tədqiq edilən göstəricilərdə müsbət dinamika nəzərə çarpırdı (cədvəl 1). Belə ki, I qrupa aid olan xəstələrdə kapilyar qan axını sürətini xarakterizə edən göstərici (M) müalicədən əvvəlki göstərici ilə müqayisədə 44.8% yüksək olsa da, normadan 21,7% aşağı olmuşdur.

Eyni qrupa aid olan xəstələrdə LDF ilə diş ətində kiçik ölçülü damarların vazomotor fəallığını (Kv), eləcə də mikrosirkulyasiyanın ümumi intensivliyini (δ) xarakterizə edən göstəricilər müalicənin başlanmasından 7-10 gün sonra ilkin göstərici (müalicədən əvvəlki) ilə müqayisədə 63,8% və 27,3% yüksəlmişdir ($p<0,05$). Lakin buna baxmayaraq, qeyd edilən göstəricilər normadan müvafiq olaraq 28.5% və 37,8% aşağı olmuşdur ($p<0,001$).

Əsas qrupa aid olan xəstələrə müalicənin 7-10-cu günündə aparılmış LDF müayinəsi daha səmərəli nəticələri aşkara çıxarmışdır. İlk növbədə müsbət dinamika diş ətində kapilyar qan axını sürətinin artması ilə özünü birüzə vermişdir. Müşahidənin 7-10 günündə M göstəricisi müalicənin aparılmamasından öncəki göstərici ilə müqayisədə 85,2% artmışdır ki, bu da normaya uyğun olmuşdur.

Müşahidə edilən parodontitli xəstələrin müalicəsində "TEAQRİP" bitki dərman dəmləməsi aplikasiyalarının mezoterapiya ilə birgə tətbiqi Kv göstəricisinin də normal rəqəmlərə uyğun olmasına zəmin yaratmışdır.

Əsas qrupa aid olan xəstələrdə müşahidənin 7-10 günündə mikrosirkulyasiyanın ümumu intensivliyini (δ) xarakterizə edən göstərici parodontitli xəstələrin klinikaya ilkin müraciəti dövrü ilə müqayisədə 76,2% artsa da, bu rəqəm normadan bir qədər aşağı olmuşdur ($p<0,01$).

Müqayisəli şəkildə apardığımız müşahidələr göstərmişdir ki, müalicənin başlanmasından 7-10 gün sonra tədqiq edilən M, δ və Kv göstəriciləri hər iki qrupa aid olan xəstələrdə dinamikada dürüst fərqlənir.

Belə ki, müşahidənin 7-10 günündə kapilyar qan axınını xarakterizə edən (M) göstərici I qrupa aid olan xəstələrdə 12,6±1,1ş.v. təşkil edirsə, əsas qrup xəstələrdə analoji göstərici normaya müvafiq 16,3±0,8 ş.v. olmuşdur ($p<0,001$).

Müalicənin başlanmasından 7-10 gün sonra damarların vazomotor fəallığını (Kv), eləcə də mikrosirkulyasiyanın ümumi intensivliyini (δ) xarakterizə edən göstəricilər də əsas qrup xəstələrdə I qrupa aid olan xəstələrin analoji göstəriciləri ilə müqayisədə fərqli olmuşdur.

Belə ki, damarların vazomotor fəallığı (Kv) göstəricisi II qrupa aid olan xsətələrdə normaya uyğun olub I qrupa aid olan xəstələrin analoji göstəricisindən 40,7% yüksək olmuşdur.

Mikrosirkulyasiyanın ümumi intensivliyini (δ) xarakterizə edən göstəricinin təhlili də əsas qrupa aid olan xəstələrdə I qrup xəstələrin analoji göstəricisi ilə müqayisədə daha çevik şəkildə artmışdır (cədv.1). Qeyd edilən göstərici II qrup xəstələrdə normaya uyğun olmasa da, I qrupa aid olan xəstələrin analoji göstəricisi ilə nisbətdə 32,1% yüksək olmuşdur.

Müalicənin 7-10 günlərində ritmik hərəkətlərin dinamikasından ibarət LDF-qammaları analizi parodontitli xəstələrin müalicəsində mezoterapiya seanslarının "TEAQRIP" bitki-dərman dəmləməsi applikasiyalarının effektivliyini göstərmişdir. Belə ki, I qrup xəstələrdən fərqli olaraq, əsas qrup xəstələrdə kapillyar qan axınında amplituda tezlikli ritmlərin kifayət qədər yerdəyişməsi ilə səciyyələnmişdir.

II qrup xəstələrdə I qrupa aid olan xəstələrlə müqayisədə ALF-nin (vazomotor titrəyişlərin amplitudası) artmasını, AHF-nin (qandövranı titrəyişlərinin yüksək tezlikli ritm amplitudası),

ACF-nin (kardioritm amplitudası) azalmasını (aşağı düşməsi) aşkar etdik.

Beləliklə, ənənəvi müalicə almış I qrup xəstələrdə müsbət dinamika qeyd olunsa da, lakin bu kifayət qədər olmamışdır. II qrup xəstələrin müalicəsində ənənəvi üsullarla yanaşı mezoterapiyanın "TEAQRIP" bitki-dərman dəmləməsi applikasiyalarının müştərək tətbiqi damar aktivliyinin kifayət qədər yüksəlməsi, eləcə də mikrosirkulyasiyanın vazomotor fəallığının artması ilə səciyyələnmişdir. Göstərilənlər mezorapiyanın diş ətinin selikli qişasında transkapillyar mübadilənin artmasına və bununla da mikrosirkulyator məcranın bərpasına zəmin yaratmasını sübut edirdi.

Müşahidə etdiyimiz parodontitli xəstələrin kompleks müalicəsində mezoterapiyanın "TEAQRİP" bitki-dərman dəmləməsi applikasiyaları ilə müştərək tətbiqinin effektivliyi kliniki effektlərlə də özünü göstərmişdir.

Müşahidə edilən parodontitli xəstələrdə aparılmış müalicənin effektivliyi fərqli olmuşdur. Əsas qrup xəstələrin müalicəsində ənənəvi üsullarla yanaşı mezoterapiyanın tətbiqi daha səmərəli olması müəyyən edilmişdir. Belə ki, II qrupa aid olan xəstələrdə müalicəsinin 2-ci həftəsində diş əti qanaması və ağrı kimi simptomlar 12 (85,7%) və 13 (92,9%) nəfərdə müşahidə olunmurdu, I qrupa aid olan xəstələrdə isə analoji göstərici müvafiq olaraq 10(76,9%) və 11(84,6%) nəfərdə olmamışdır.

Əsas qrupa aid olan xəstələrin hamısında diş əti açıq-çəhrayı olub, sərt elastik konsistensiyalı olmuş, diş əti kənarı və məməciklər düzgün konfiqurasiyalı olmuşdur. Bu xəstələrdə müalicənin son mərhələsində (3 həftənin sonu) obyektiv müayinə zamanı diş ətində parodontal ciblərdə ifrazatın olmaması və dərinliyin 2 mm-dən çox olmaması müəyyən edilmişdir.

I qrupa aid olan xəstələrdə isə müalicənin son günlərində diş ətində yuxarıda qeyd edilən lokal iltihab əlamətləri (diş ətində ödem, hiperemiya) 2(15,4%) nəfərində müəyyən edilmişdir.

Beləliklə, parodontitli xəstələrin müalicəsində ənənəvi vasitələrlə yanaşı "TEAQRIP" müalicəvi bitki tərkibli applikasiyaların mezoterapiya ilə tətbiqi diş ətinin pozulmuş mikrosirkulyasiyasının bərpası üçün səmərəli olmuşdur. Əsas qrupa aid olan xəstələrdə diş ətində hemoperfuziyanın daha çevik bərpası terapevtik effektin daha erkən dövrdə yaranmasına səbəb olur. Xəstəliyin remissiya dövrünün uzanması isə parodont toxumalarında iltihabın daha sürətlə keçməsi və bu fonda əhəmiyyətli regenerativ və reparativ proseslərin inkişafi ilə izah edilə bilər.

ƏDƏBİYYAT

1. Грудянов А.И., Фоменко Е.В. Этиология и патогенез воспалительных заболеваний пародонта. М.: Медицинское информационное агентство, 2010, 96 с.
2. Данаева М.М. Лечение острых и хронических обострившихся верхушечных периодонтитов с использованием велтосепта и светотерапии: Автореф. дис...канд. мед. наук. Ставрополь,2010,22 с.
3. Фролова Л.Б. Новые технологии в комплексном лечении тяжелых форм пародонтита // Стоматология для всех,2010, № 1, с.38-39.
4. Цепов Л.М. Хронический генерализованный пародонтит: ремарки к современным представлениям // Пародонтология, 2010, № 1, с. 3-7.
5. Sivagnanam G. Mesotherapy- The French connection // J Pharmacol Pharma., 2010, v.1, p.4-8.
6. El-Domyati M., El-Ammawi T., Moawad O. et al. Efficacy of mesotherapy in facial rejuvenation: A histological and immunohistochemical evaluation // Int J Dermatol., 2012, v.51, p.913-9.
7. Matarasso A., Pfeifer T. Mesotherapy and Injection Lipolysis // Clin. Plastic. Surg.,2009, v.36, p.181-192

Резюме

Влияние современной мезотерапии на микроциркуляцию крови в тканях десны при комплексном лечении пародонтита

А.Ч. Пашаев, И.Э.Джафарли

Настоящее исследование основано на изучении результатов использования современной неинъекционной мезотерапии с аппликацией травяного сбора «TEAQRİP» в лечении генерализованного пародонтита. Преимущества использования предложенного комплекса оценивалось изучением микроциркуляции слизистой десны, а также клиническими данными. Полученные сравнительные результаты показали, что сочетанное фотонное и ультразвуковое воздействие (с аппликацией травяным сбором «TEAQRİP») на пораженную десну отличалось наиболее выраженным положительным эффектом. Последнее в первую очередь характеризовались восстановлением нарушенной микроциркуляции, что является основным фактором для ускоренного стихания воспалительных нарушений, а также стимуляции регенерации в поврежденных тканях пародонта.

Summary

Influence of modern mesotherapy on blood microcirculation in tissues of gums in complex treatment of periodontitis

A.C. Pashayev, I.E. Jafarli

Current research is based on the study results of usage of modern injection-free mesotherapy with application of herbal set “TEAGRIP” in the treatment of generalized periodontitis. Privilege of using this proposed complex has been appreciated for studying microcirculation of mucous gum, clinical results as well. Results gained from reseach have shown that evaluated influence of photon and ultrasonic (with application of herbal set “TEAGRIP”) on damaged gum is very positive. The lattest has been characterised by recovery of impaired microcirculation which is main factor helping to diminish inflammatory disorders rapidly and also stimulation of regeneration process in damaged tissues of periodontitis.

Daxil olub:18.02.2016

ÇOXSAYLI MİELOMANIN KLİNİK GEDİŞİ, DİAQNOSTİK, PROQNOSTİK VƏ MÜALİCƏYƏ CAVAB MEYARLARI

V.T. Hüseynov. G.M. Nəsrullayeva

Azərbaycan Tibb Universiteti, onkologiya kafedrası, Bakı

Açar sözlər: M-protein, APKHT, orta yaşama müddəti, mieloma, yeni preparatlar.
Ключтвые слова: М-протеин, средняя время жизни, миелома, новые препараты
Key words: M-protein, APSCT, average life expectancy, MM, new drugs.

Mielomanı mielomönü xəstəliklər kimi bilinən MGUS (mahiyyəti bilinməyən monoklonal qammopatiya) və SMM-dən (simptomsuz mielom) fərqləndirən ən əsas xüsusiyyət orqan zədələnməsinin olmasıdır.

MGUS. Asimptomatik plazma hüceyrə xəstəliyidir.Zərdabda M-protein səviyyəsi <3g/dl, sümük iliyində isə <10% monoklonal plazmatik hüceyrələr müşahidə olunur. Qeyd olunanlarla yanaşı xəstədə orqan və sümük sistemi zədələnməsi müşahidə edilmir [1]. Diaqnoz qoyulduğunda mütləq digər plazmatik hüceyrə xəstəlikləri (MM, SMM, Plazma hüceyrəli leykemiya, plazmasitoma, AL-amiloidoz, ağır zəncir xəstəliyi), monoklonal qammopatiya ilə keçən sindromlar (POEMS, soyuq aqlyutinin xəstəliyi, krioqlobulinemiya, skleromiksedema və.s) və limfoproliferativ xəstəliklər (Valdenstryom makroqlobulinemiyası, xroniki limfoleykoz, qeyri-Hockin limfoması) inkar edilməlidir [2,3]. MGUS üç alt tipdə(qeyri-İgM, İgM, yüngül zəncir) rast gəlinir. 50 yaşdan yuxarı populyasiyada 3-4%, illik miyeloma və ya limfomaya keçmə riski 1%, ortalama yaş 72 təşkil edir[4,5].Mayo Klinik (ABŞ) tərəfindən MGUS-un MM-a keçməsində qeyri-İgG izotip, serum M-protein səviyyəsinin 1,5 g/dl-dən yüksək olması və anormal sərbəst kappa/sərbəst lambda nisbəti

üç böyük risk faktoru olaraq qəbul edilmişdir. Xəstələr risk faktorlarının sayına əsasən aşağı (0), aşağı-orta (1), orta-yüksək (2) və yüksək (3) qruplara bölünmüşdür. 20 illik analiz bu qruplarda müvafiq olaraq MM-ə keçmə faizinin 5, 21, 37, 58 (ortalama 20%) olduğunu müəyyən etmişdir [4,5,6]. 2010-cu ildə İMWG (Beynəlxalq mieloma işçi qrupu) tərəfindən Mayo Klinikin risk faktorlarını əsas götürərək MGUS-lu xəstələrin müayinə və müşahidə olunması üçün rəhbərlik hazırlanmışdır [4].

SMM."Smoldering" (asimptomatik, səssiz) MM (SMM) zamanı monoklonal protein səviyyəsi ≥3 g/dl və/vəya sümük iliyində ≥%10 plazma hüceyrəsi müşahidə olunur, orqan və sümük zədələnməsi olmur [2]. SMM-in simptomatik mieloma illik keçmə riski 10% və bütün mielomlu xəstələrin 15%-ini təşkil edir [4,6].

MGUS və SMM-li xəstələr, MM-in və ya digər limfoproliferativ xəstəliklərin klinik, laborator və instrumental müayinələrlə təsdiq edilmiş əlamətləri ortaya çıxanadək, müalicə olunmamalıdırlar [8,9].

Plazma hüceyrəli leykemiya (PHL). MM-in nadir rastlanan və agressiv variantı olmaqla yanaşı, xəstəliyin terminal mərhələsində inkişaf edə bilər. Periferik qanda >2x10/L və ya 20% plazmatik hüceyrələr təyin edilir, orqanomeqaliya, sümük iliyinin atipik plazmatik hüceyrələrlə infiltrasiyası, yüksək LDH, yüksək yüngül zəncir (Bence Jones) səviyyələri və ekstramedullyar ocaqların olması ilə müşahidə olunur. PHL-li xəstələr standart müalicə protokollarına cavab vermirlər və pis proqnoza sahibdirlər. Xəstələrin çox az bir hissəsi 6 aydan çox yaşayır [7].

Simptomatik miyelom. Miyelom diaqnozu qoyulması üçün serum və ya sidikdə monoklonal protein (xəstələrin 3%-i non-sekretordur), sümük iliyində 10%-dən yüksək klonal plazmatik hüceyrələrin və ya klonal plazmasitom, orqan zədələnməsini göstərən anemiya, sümük zədələnməsi, böyrək çatışmazlığı, hiperkalsemiya kimi əlamətlərinin hər hansının birinin olması vacibdir (CRAB) [9,10]. Xəstələrin böyük əksəriyyəti sümük ağrısı, çəkinin azalması, anemik sindrom, təkrarlayan infeksiyaların olmasından şikayyət edirlər.

Mielom diaqnozunu dəqiqləşdirmək üçün aparılan müayinələrlə yanaşı, xəstəliyin mərhələsini və proqnozunu müəyyən edən müayinələrdə aparılmalıdır. Bu müayinələrə laborator (hemoqramm, EÇS, kreatinin, albumin, sidik cövhəri, sidik turşusu, sidik və serum immunfiksasiyalı elektroforezi, kalsium, b2 mikroqlobulin, LDH, CRP), sümük iliyi biopsiyası, aspirasiyası, axım sitometriyası, sitogenetik,FİSH analizi və instrumental müayinələr (Rg, MRT, CT, PET CT) daxildir [10].

İg-lərə görə MM-in İg G, A, yüngül zəncir, biklonal, non-sekretor, M, D, E izotiplərinə rast gəlinir.ABŞ-ın Mayo Clinic mərkəzində 1027 xəstədə aparılan araşdırmaya əsasən İgG tip 52%, İgA 30%, yüngül zəncir xəstəliyi (Bence Jones mieloma) 16%, qeyri-sekretor, İgD və biklonal MM 2-3%, IgE, IgM çox nadir MM-li xəstələrdə rast gəlmişdir [11].

Mielom xəstəliyinin müalicəsi üçün Beynəlxalq Mielom İşçi Qrupunun (IMWG) "Aktiv mielom diaqnostik kriteriyaları" hazırlamışdır: zərdab və ya sidikdə M protein, sümük iliyində klonal plazmatik hüceyrələr və ya təsdiqlənmiş plazmasitom olması ilə yanaşı aşağıdakılardan birinin olması əsas şərtdir [12].

C-hiperkalsemiya(>11.5mg/dl-> 2.65mmol/l)

R-böyrək çatışmazlığı (kreatinin>2mg/dl, >177mmol/l)

A- anemiya (<Hb 10 g/dl və ya normadan 2g/dl az)

B- sümük xəstəliyi(litik ocaqlar və ya osteopeniya).

İmmunofenotipik xüsusiyyətlər. Miyelom hüceyrələrində CD38+ və CD138+, CD56+, bəzən CD10, CD28, c-kit müsbət olur. Normal plazmatik hüceyrələrdə CD19+ və CD56- olur. CD19+, CD28+, CD81+ və CD117- olan xəstələrin proqnozu daha pisdir [13].

M protein olması (M komponent, miyelom proteini və ya M "spike") xəstəliyin əsas xüsusiyyətidir, 97% hallarda Ig və ya sərbəst yüngül zəncirşəklində zərdab və sidik protein immunfiksasiya elektroforezi analizləri ilə təyin edilir [12]. 3% xəstələrdə (qeyri sekretormiyeloma) monoklonalprotein təyin edilmir, lakin bu xəstələrin əksəriyyətində anormal sərbəst kappa/lambda nisbəti müşahidə olunur. [11,12].

Mielom xəstəliyinin əsas klinik əlamətlərindən olan anemiya sümük iliyi infiltrasiyası və İL-6 tərəfindən edilən təsirlər nəticəsində eritropoezin zəiflədilməsi ilə bağlıdır. Böyrək çatışmazlığı olarsa eritropetin sintezinin azalması da anemiya yaradır. Aparılan kimyəvi və radioterapiyalar, yanaşı xəstəliklərin olması (hipotiroidizm, diabet, autoimmun hemoliz və.s) anemiyanı dərinləşdirə bilər [12].

Mielom sümüklərdə litik, destruktiv ocaqlara, osteopeniya və patoloji sınıqlara səbəb olur. Sümüklərdə mielom ocaqları 75% hallarda rast gəlir, daha çox kəllə, onurğa, qabırğa, döş, qalça və digər sümüklərdə olur [14].

25% xəstələrdə kreatinin yüksəkliyi (>2mg/dl) görülür. Müalicə ilə 50% xəstələrdə böyrək funksiyaları bərpa oluna bilər. Yüngül zəncir xəstəliyi, İgD mielom, hiperkalsemiya, nefrotoksik dərmanlar, bifosfonatlar böyrək çatışmazlığı yaranma riskini artıran amillərdəndir. Böyrək çatışmazlığı olan xəstələrdə ortalama yaşama müddəti və müalicəyə cavab xeyli azdır [15].

Hiperkalsemiya 18-30% xəstələrdə görülür, 11.5mg.dl-dən yüksək olması müalicə başlanması üçün əsas göstərişlərindən biridir [9].

Qan qatılığı sindromu 7% mielom xəstələrində müşahidə olunur, yüksək səviyyədə patoloji immunoqlobulin və paraprotein sintezinə bağlıdır. Dəri və selikli qişa qanamalarına, görmə zəyifləməsi, nəfəs darlığı, ürək çatışmazlığı, tromboz və nevroloji əlamətlərə gətirib çıxarır [11].

Təsnifatı və proqnostik kriteriyaları. Mielom xəstəliyində ən vacib proqnostik kriteriyalarından biri diaqnoz qoyulan zaman xəstəliyin mərhələsidir. 1975-ci ildə Durie və Salmon tərəfindən hazırlanan təsnifat indiyə qədər ən çox istifadə olunan təsnifat sistemlərindən biridir [16]. Bu təsnifatda monoklonal protein, hemoqlobin, kalsium səviyyəsi, sümük ocaqlarının sayı nəzərə alınır. Eyni zamanda serum kreatinin səviyyəsinə görə mərhələlər alt qruplara bölünür (Cədvəl1). PET və MRT müayinələrinin nəticələrinin əlavə edilməsi ilə bu sistem daha da təkminləşdirilərək Durie-Salmon PLUS sistemi kimi istifadə olunur. Sonrakı illərdə β2 mikroqlobulin və albumin səviyyəsinə görə yeni təsnifatlar təklif olunmuşdur (SWOG, İSS, İMWG).

Bu təsnifata görə orta yaşama müddəti hesablanmışdır: IA- 61ay; IIA,B-55ay; IIIA - 30 ay; IIIB - 15 ay təşkil etmişdir [16].

2003-cü ildə Beynəlxalq Mielom İşçi Qrupu (İMWG) β2-mikroqlobulin və albumin səviyyəsinə görə yeni təsnifat təklif etmişdir (Cədvəl2). β2-mikroqlobulin mielomada ən önəmli proqnostik kriteriyalardan biri olaraq şişin kütləsini və böyrək zədələnməsini göstərir. Bu təsnifata əsasən birinci mərhələdə olan xəstələrin orta yaşama müddəti 62 ay, ikinci 44 ay, üçüncü 29 ay təşkil etmişdir [17].

Cədvəl 1

Durie-Salmon mərhələndirmə sistemi [16]

Mərhələ	Kriteriya	Təxmini şiş kütləsi
I	1. Hemoqlobin>10g/dl 2. Kalsium normal vəya<12mg/dl 3. Sümük Rg normal və ya tək solitar plazmasitom 4. Zəyif M-protein sintezi a. İgG<5g/dl b. IgA<3g/dl c. Sidikdə yüngül zəncir<4g/24s	<0.6x10^{12}hüceyrə/m^2
II.	I və III-cü mərhələlərə uyğun olmayan xəstələr.	0.6-1.2x10^{12} hüceyrə/m^2
III.	1. Hb<8.5 g/dl 2. Kalsium>12mg/dl 3. çox sayda sümük ocaqları 4. yüksək M-protein sintezi a. İgG> 7g/dl b. IgA>5g/dl c. sidikdə yüngül zəncir>12g/s	>1.2x10^{12} hüceyrə/m^2

Qeyd: Serum kreatinin səviyyəsinə görə: A< 2mg/dl; B >2mg/dl.

Cədvəl 2

Beynəlxalq mərhələndirmə sistemi (ISS) [17]

Mərhələ I	β2-mikroqlobulin < 3.5 mg/l Albümin ≥ 3.5 g/dl
Mərhələ II	β2-mikroqlobulin < 3.5 mg/l Albümin< 3.5 g/dl və ya β2-mikroqlobulin 3.5-5.5 mg/l
Mərhələ III	β2-mikroqlobulin > 5.5 mg/l

Qeyd edilənlərlə yanaşı xəstənin ümumi vəziyyəti, yaşı, müalicə nəticəsində alınan cavab, CRP, LDH, sümük iliyində plazmatik hüceyrələrinin klonlaşmasını və bölünmə sürətini göstərən PCLİ (plazma hüceyrə işarələnmə indeksi) proqnostik kriteriyalardandır [17]. Son illər mielomun genetik faktorlara görə təsnifatları da istifadə olunmaqdadır (mSMART) [17,18]. Artıq məlumdur ki t(4;14), t(14;16), t(14;20), 17p13 delesiyası və PCLİ>3% olan xəstələr yüksək risk qrupuna aid edilirlər [18]. Bu xəstələr 25% təşkil edir və standart müalicə proto-

kollarına cavab vermirlər. 75% xəstələr əsasən t(6;20), t(11;14)-ə və yaxşı proqnoza sahibdirlər [18-22].

Müalicə. Mielom xəstəliyinin müalicəsi əsasən autoloji hematopoetik kök hüceyrə transplantasiyası ilə yüksək doz kimyəvi terapiya və digər müalicələrdən ibarətdir. Avropa və Amerikada yüksək doz melfalanla kök hüceyrə köçürülməsi 65 yaşdan aşağı mielomlu xəstələrdə ən çox aparılan standart müalicə üsuludur [23]. Transplantasiyadan əvvəl şiş kütləsini azaltmaq məqsədi ilə 4-6 kurs induksiya kimyəvi terapiyası aparılır. Əvvəllər induksiya məqsədi ilə aparılan VAD protokolunu son zamanlar yeni dərmanlarla müalicələr əvəz etmişdir.Bu müalicələr nəticəsində remisiya əldə edilməsi ciddi şəkildə artmışdır [24,25]. İnduksiya müalicəsindən sonra xəstələrdən iki transplantasiyaya yetəcək kök hüceyrələr toplanılır. Xəstələrə yüksək doz melfalan 200mg/m^2 (böyrək funksiyası normal olan xəstələrə) verilərək kök hüceyrələr köçürülür. Qeyd etmək lazımdır ki, transplantasiyadan əvvəl müalicəyə yaxşı cavab verən xəstələrdə orta yaşama müddəti digərlərinə nisbətən xeyli yüksəkdir [26].

Transplantasiyadan sonra konsolidasiyavə ya saxlayıcı müalicə aparılır. Bu məqsədlə müxtəlif dərmanlar istifadə olunur. Bunlardan daha çox proteosom inhibitoru olan bortezomib və imunomodulyatorlardan talidomid və lenalidomid işlənir. Yaxşı nəticə əldə edilməyən xəstələrdə ikinci dəfə autoloji transplantasiya aparılır [26].

Transplantasiya aparılmayan xəstələrdə müxtəlif kimyəvi terapiya protokolları ilə müalicə aparılır.Ən effektiv protokollardan VelDex, VCD, VTD, TalDex, LenDex, PAD, VTD PACE və.s göstərmək olar [27-30].

Altmış beş yaşdan yuxarıxəstələr və ya yanaşı xəstəliklərіolan gəncxəstələr üçün talidomid, lenalidomid, melfalan, prednizolon, dexametazon və bortezomib tərkibli müalicə protokolları ilə yaxşı nəticələr almaq mümkündür [31-33].

